İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün, çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün, həyat səhifələrimizi parlaq imza sahiblərinin qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabín sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# MƏN SƏNİN YUXUNAM

NÜŞABƏ BABAYEVA-VƏKİLOVA

parlaq
İMZALAR

| | |
|---|---|
| Koordinator: | Amin |
| Korrektor: | Flora ƏLİYEVA |
| Tərtibatçı: | İsmayıl SÜLEYMANLI |
| Art direktor: | Ramin HƏSƏNƏLİZADƏ |
| Dizayner: | Bayram QAFAROV |

**Nüşabə Babayeva-Vəkilova**
**MƏN SƏNİN YUXUNAM**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2021, 320 səh.

**© Nüşabə Babayeva-Vəkilova / 2021**
**© Parlaq İmzalar MMC / 2021**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 112

ISBN 9952-54721-4

9789952547214

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "Şərq-Qərb" ASC
Çap tarixi: 15.10.2021
Sifariş: 2133

## Nüşabəyə

*Mən sənin yuxunam,*
*oyansan, ölləm...*

*Mən sənin yolunam,*
*dayansan, ölləm...*

*Özgə yuxusuna*
*boyansan, ölləm...*

*Tale bizi belə*
*dilə gətirdi,*

*Səninki, mənimki*
*belə gətirdi...*

***Vaqif Səmədoğlu***

Yəqin, dünyada ən çətin iş bir insan haqqında kitab yazmaqdır. Sevdiyin, tanıdığın insan haqqında. Şişirtmədən, mübaliğəsiz. Səmimi, doğru kitab. Yadımdadır, hələ 20 il qabaq mən Sənin haqda dialoq formasında bir yazı yazmaq fikrinə düşmüşdüm. Sual-cavab. Həyatımın yeganə müsahibəsi olacaqdı. Sevdiyim insanla. Şair, dramaturq, musiqiçi, ictimai xadim Vaqif Səmədoğluyla, ailə başçısı Vaqiflə xanımının söhbəti...

Bilirdim, ilk baxışdan cəlbedici görünsə də, çox məsuliyyət tələb edən bir söhbət olacaqdı bu. Suallarımı hazırlayıb, tələsmədən hərdənbir onlara cavab alırdım. Bəzən Sənin dəyişən əhvalını, yorğunluğunu görəndə suallarımı sonraya saxlayırdım. Gec bildim bəzi sualların Səninçün necə *"ağır, ağrılı"* olduğunu. İndi verdiyin cavabların özü də sual doğurur. Sənsizlik suallarımı günbəgün, aybaay daha da artırır.

5 iyun 2016-cı ildə Sənin xatirənə həsr olunmuş gecə üçün müsahibələrini, videolarını seçdim, şeirlərini də əlavə edib, "Xanımının Vaqif Səmədoğluna verdiyi suallar" adında bir film hazırladım. Etmək istədiklərimin çox cüzi hissəsi idi bu iş.

İndi biz Səninlə həyatın başqa-başqa qatlarındayıq. Sənin hansı qatda olduğunu bilmirəm. Bəlkə,

həm Oradasan, həm də burada. Kim bilir? Özün demişkən: *"Əslində, Allah bilir, harda, harda, hardayam..."*

Mən isə buradayam. Yoxluğunla Varlığının arasında. Dünənlə Bu gün arasında. Mən həmişə bu günlə yaşamağa çalışmışam. Şirinli-acılı, bəzən Mezozoy dövrünün qoxusu duyulan xatirələrimi yaddaşımın əlçatmaz bir guşəsində gizlədərək. Mən yenə bu günlə yaşayıram. Ancaq bir fərqlə. Sənə boyanan dünəni bu gün yaşayıb-yaşatmaqla. Vaxt da dünənlə bu gün arasında vurnuxa-vurnuxa adınla addımlayır. Sən demə, Məhəbbət keçmişlə indiki zamanın bir-birinə qovuşduğu yerdə yaşayan qüvvə də ola bilirmiş. Bəlkə, elə bu zaman kəsiyində Məhəbbət özünün ən böyük, ən həqiqi ömrünü yaşayır. Bu gün mənə güc verən qüvvə. Yoxluğunun cazibəsi çox güclü imiş. Onun da öz hökmü var imiş. Onun diktəsidir bunları mənə yazdıran...

Bu dünyada hər şeyin öz çəkisi var: həyatın, ömrün, insanın, məhəbbətin, xoşbəxtliyin, sözün. Mən həmişə düşünmüşəm ki, elə hisslər var ki, onları ifadə etməkçün söz tapmaq çətindir, bəzən heç mümkün də olmur. Bunları bilə-bilə altından necə çıxacağımı bilmədiyim işə girişirəm – ağlımda dəfələrlə götür-qoy etdiyim Sənli ömrümün kağız üzərinə köçürülməsinə. Ömrümün ən böyük, ən mühüm, ən dəyərli yazısına başlayıram. Yox, Səni ideallaşdırmaq fikrindən uzağam. Bu Sənin də xoşuna gəlməzdi. Çalışacam yazdıqlarım bəzək-düzəksiz olsun. Ancaq nə etmək, olan nəsnələri də Sən yaddaşımdan silib

apardın. Belə də olmalı idi. Sənin Böyüklüyün qarşısında onlar heçə endi. Yazacaqlarımın hamısı Sənə olan Minnətdarlıq-Etiraf olacaq.

Vaqif, Qaquş, mən çox xoşbəxt qadınam. Xoşbəxtəm ki, Tale dediyimiz Təsadüf Sənin həyatında məni seçdi. Birgə yaşadığımız ilk gündən mən bu seçimə layiq olduğumu sübut etməyə çalışdım. Mən Səninlə sanki yenidən doğuldum. Yaşadığımız o günlər üçün mən Taleyimizə minnətdaram. Tanrıya minnətdaram mənə verilən bu Missiya üçün...

Dünyanın bir məmləkətində, məmləkətin bir şəhərində, şəhərin müxtəlif məhəllələrində gözəl, ağıllı bir qız və yaraşıqlı, igid bir oğlan yaşayırdı. İllərin bir ayında, ayın bir günündə onlar görüşdülər, sevdilər bir-birilərini, evləndilər və uzun illər şad, firavan ömür sürdülər. Bir yerdə qocaldılar və bir gündə, bir saatda da öldülər...

Uşaqlıqdan belə nağıllar eşidib, eşitdiyini öz həyatında yaşamağı arzulayanlardan biri də mən olmuşam. O nağılların içində nağıllaşmışam. Əsas qəhrəmanın öz sevgisinə çatmaq üçün yaşadığı iztirablara, əzab-əziyyətlərə, sevgilisinə qovuşmaq sevincinə mən də qatılmışam. Leyli və Məcnunun, Pedro və İneşin nakam məhəbbətini öz ağrım kimi yaşayıb, göz yaşı tökmüşəm. İçimdə yaratdığım sevgi dünyasını öz həyatımda yaşamaq istəmişəm. İnanmışam ki, bunun üçün mütləq sevib-sevilmək lazımdır. Sevirsənsə, deməli, yaşayırsan, sən varsan. Xoşbəxtlik də məhz bundadır. Sevgi və həyat eyni məna daşıyıb

həmişə mənimçün.

Heç vaxt sevgi axtarışında olmamışam. Ancaq inanmışam ki, əgər insanın içi təmənnasız hisslərlə doludursa, məhəbbət özü onu tapacaq. Və onun varlığı, gerçəkliyi qarşısındakını da silkələyəcək, inandıracaq bu məhəbbətin gücünə, ecazkarlığına. Sevilməyi hər insan arzulayır, sevməyi hər kəs bacarmasa da. Sevirsənsə, başdan-ayağa onun hökmranlığında olmalısan. Sevəndə elə sevməlisən ki, sanki həyatının ilk və son məhəbbətini yaşayırsan…

Hər yaşın öz taleyi var. Mən də ilk gənclik illərimin ömrünü yaşadım arzularımla, romantik xəyallarımla. Uydurduğum nağılda yaşamaq istədim. Ancaq reallıq çox sərt və dumanlı oldu. İnanıb sığınmaq istədiyim nağılım uğursuz sonluqla bitdi. Ümidlər qırıldı, çaşqın qaldım həyat qarşısında…

*...Bu yollara çıxıb indi,*
*Hara dönəsən biryolluq?*
*Döngələri didilibdir,*
*Ayrıcları yoluq-yoluq.*
*Bir bahardır dizi üstə*
*Düşüb göz yaşını tökür,*
*Əlacsız nağılların da*
*Dərdini uşaqlıq çəkir...*

Xoşbəxtlikdən, arxamda valideynlərim, yanımda qızım var idi. Həm şəxsi həyatda, həm də çalışdığın sahədə uğursuzluqlar zəncir kimi bir-birinin ardınca uzananda, hökm sürən usandırıcı həyatın ucu-bucağı görünməyəndə və ömrünün sonuna kimi heç

vaxt heç nəyin dəyişməyəcəyini fikirləşəndə dəhşət bürüyür səni. Hey vurnuxur, baş götürüb qaçmaq, qaçmaq istəyirsən...

*...Burdan da bir çıxış yolu var,*
*dünya burdan böyük,*
*Allah burdakı insanlardan*
*qüvvətlidir axı!*

Məhz belə bir vəziyyətimdə gözlənilmədən xaricdə işləmək imkanı yarandı. Mən ASSR Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsində çalışırdım. Sənin əmin Mehdixan Vəkilovun oğlu Cavanşir Vəkilovla bir şöbədə. Kənardan sakit görünən, inamsız adam təsiri bağışlayan Cavanşir çox diribaş idi. Gözündən heç nə qaçmazdı. İnsanlara düzgün qiymət verməyi bacarır, yeri gələndə sözünü deyir, nifrətini də gizlətmirdi. Özünə aid olan sualları həvəssiz, qısa cavablandırar, ətrafında baş verən hər bir işin içində olmaq üçün çoxlu suallar verərdi. Zarafatından da qalmazdı. Şöbənin qadınları onun xətrini çox istəyər, onunla məsləhətləşərdilər. Mənim Cavanşirlə münasibətim səmimi, etibarlı, həm də ərkyana idi. Tez-tez dərdləşərdik.

1984-cü ilin, dəqiq yadımda deyil, ya yayı idi, ya da sentyabr ayı. Cavanşirin yanına kurs yoldaşı Qabil gəlmişdi. Əfqanıstandan qayıtmışdı. Oradakı vəziyyətdən danışırdı. Mən ora getməyin nə dərəcədə mümkün olub-olmamasıyla maraqlandım. Qabil "Mossovet"ə (özü də bu xətlə Əfqanıstana getmişdi) zəng edib dəqiqləşdirəcəyini söylədi. Mənim vəziyyətimi

bilən Cavanşir də ondan bu işdə imkan dairəsində köməklik göstərməsini xahiş etdi. İki gün sonra Qabil gəldi. Moskvayla danışdığını, gələn ilin yay ayı üçün Kabildə "Ana və uşaq" mərkəzində tərcüməçi yerinin boşalacağını söylədi. "Mossovet"də bu işə Nazimov baxdığına görə onunla əlaqə saxlamaqçün telefonunu verdi. Düzü, bu məsələnin belə tez və asanlıqla düzələcəyini gözləmirdim. Tərəddüd etməyə başladım. Cavanşir bunu hiss edirmiş kimi məni ruhlandırdı: "Fikrə getmək vaxtı deyil, bu fürsəti əldən vermə, getməyin məsləhətdir..."

Götür-qoy etdikcə fikrim qətiləşirdi; bu mənimçün çıxış yolu ola bilərdi. Özümü inandırırdım ki, Kabil səfəri həyatıma yenilik gətirəcək, valideynlərimdən asılı olmamaq, iqtisadi müstəqillik əldə etmək, özümü sınamaq imkanı verəcək mənə.

Sovet dövründə xaricə işləməyə gedənlərin süzgəcdən keçirildiyi heç kəsə sirr deyil. Baxmayaraq ki, müharibə şəraitində olan ölkəyə gedirdim, qarşıda məni müəyyən mərhələləri keçərkən qısqanc baxışlı bəzi komissiya üzvlərinin mane olmaq cəhdləri gözləyirdi. Onlarla yerli-yersiz sual üstümə yağdırılacaq, Türkiyədə yaşayan qohumlar yada salınacaqdı. Belə yoxlamaların birində komissiya üzvlərindən biri soruşdu:

– Bu gənc xanım hara gedir ki?

Kimsə dedi:

– Əfqanıstana.

– Mən elə bildim Fransaya, İngiltərəyə gedir. Müharibənin içinə gedən bu gənc xanıma ürək-dirək

vermək yerinə, niyə onu incidirsiniz?

Bir sözlə, atamın tanışları işə qarışmasaydı, kim bilir, bəlkə də, bu səfər heç baş tutmayacaqdı. Çoxları mənim bu macəra axtarışımı xoş qarşılamadılar. Qohum-qonşu, dost-tanış başa düşə bilmirdi ki, maddi cəhətdən ehtiyacım olmadığı halda, məni müharibə şəraitində olan ölkəyə getməyə nə vadar edir. Hamıya qərarımı başa salmaq iqtidarında deyildim. Mənimçün əsas olan valideynlərimin fikri idi. Getmək niyyətim onların ürəyincə olmasa da, nə "hə" dedilər, nə "yox". Başa düşməyə çalışdılar. Balaca qızımı isə aldatdım, Moskvaya, bir aylıq elmi ezamiyyətə getdiyimi dedim. Ona yalan dediyim üçün özümü böyük qəbahət sahibi sayır, üzünə baxa bilmirdim.

Getmək vaxtı yaxınlaşdıqca mənə edilən gözlənilən-gözlənilməz sevgi etirafları da çoxalırdı. Qohumlar, dost-tanış saydığım adamlar elə bil məni gedər-gəlməzə yola salırmış, daha məni görmək imkanları olmayacaqmış kimi öz sevgilərini izhar etməyə can atırdılar. Bu etiraflar mənə cansıxıcı gəldiyi qədər də məzəli görünürdü. Mənim bircə istəyim tezliklə Bakıdan uzaqlaşmaq, bütün varlığımla can atdığım yeni həyata başlamaq idi. İlk dəfə tək yaşayacağım, tanımadığım yerdə, yad insanlar arasında yaşayacağım həyata. Bu qeyri-müəyyənlik cəlb etdiyi qədər də həyəcanlandırırdı məni. Əlbəttə, hər şey düşündüyüm kimi alınmaya da bilərdi. Kabildə uçduğumuz təyyarə vurula bilərdi, yaşadığım binanın önündən uçan raket qonşu evə yox, bizim binaya düşə bilərdi, Kabilin ucqar, dağlıq rayonun-

da yerləşən uşaq bağçalarına gedərkən maşınımız atəşə tutula bilərdi (sürücümüz deyirdi ki, sizə qədər heç kəs bu yerlərə gəlməmişdi). Yəni belə təhlükə ehtimalları vardı. Ancaq mən yalnız yaşamaq haqda düşünür və inanırdım ki, mütləq sağ-salamat evə dönəcəyəm.

Deyirdin: *"Yaz Əfqanıstan xatirələrini..."*

Tam da olmasa, müəyyən anları yazacam...

30 ildən çox vaxt keçib o illərdən. Həqiqətə bənzəməyən, uzaq keçmişdə qalan mənim Kabil həyatım. Kiminsə mənə özüm haqda danışdığı həyat. Əfqanıstana işləməyə gələnlərin əsas məqsədi iqtisadi maraq idi. Lakin hamı, içi mən qarışıq, "beynəlmiləl borc"dan dəm vururdu. Əfqanlara lazım olmayan "borc"dan, köməkdən. "Yüksək maaşlı həbsxana". Əfqanıstanda çalışan sovet mütəxəssisləri bu ölkəni belə adlandırırdılar. Mənimsə ömrümün ən maraqlı, ən canlı çağlarından biri idi bu "həbsxana" həyatı.

Kabilə Moskvadan uçurdum. Səfər "Mossovet" xəttiylə təşkil edilmişdi. Birgə çalışacağım qrup Moskvada işləyən qadın mütəxəssislərdən ibarət idi. Pediatr, stomatoloq, ginekoloq, musiqi müəllimi, idman təlimatçısı. Təkcə mən Bakıdan idim, dəri (fars) dili tərcüməçisi qismində. Dəri dili puştu diliylə bərabər Əfqanıstanın dövlət dilidir.

Qrup üzvləriylə "Mossovet"də tanış oldum. Bizi orada Beynəlxalq əlaqələr şöbəsinin müdiri qəbul etdi. O, getdiyimiz ölkədəki vəziyyət, oradakı davranış qaydalarıyla bağlı məlumat verdikdən sonra

bizə yaxşı yol arzuladı. O zaman Əfqanıstan torpağında elan olunmamış müharibə gedirdi. 1978-ci ildə SSRİ-nin dəstəyi ilə yaradılan Əfqanıstan Xalq Demokratik Partiyası ölkədə çevriliş etdikdən sonra həmin ilin aprelində Əfqanıstan Demokratik Respublikasının yaradıldığı elan edilmişdi. Ölkədə radikal islahatların aparılması ənənəvi əfqan cəmiyyətində kütləvi etirazlara səbəb olmuşdu. Etirazçılarla mübarizədə kommunist hökumətə kömək etmək məqsədilə 1979-cu ildə Əfqanıstana sovet qoşunları yeridildi. Sovet qoşunlarına qarşı vuruşan əfqan mücahidlərinə ruslar "duşman" (düşmən) deyirdilər. "Heç "duşman" gördünmü orada?" Bakıya qayıdandan sonra mənə ən çox verilən sual bu olacaqdı. "Gündüz işdə üzümə gülənlər, bəlkə də, qaranlıq çökəndən sonra əlinə silah alıb vuruşan həmin "düşmən" dedikləriniz idi", – deyə cavab verirdim.

Qızmar bir yay günü – 29 iyul 1985-ci ildə təyyarə bizi Kabilə çatdırdı. Əfqan torpağına ayaq basan gündən gördüyümüz miskin mənzərədən sonra hamımızın üzündən bir fikir oxumaq olardı: təyyarəyə minib geri qayıtmaq. Sanki burada zaman dayanmışdı. Onda heç birimizin ağlına belə gəlməzdi ki, cansıxıcı təsir bağışlayan, qüssəli əhval oyadan bu tozlu-torpaqlı şəhərə tədricən öyrəşəcək, onun bəzi guşələri ilə doğmalaşacaq, bəzən də dönüş vaxtının uzanmasını arzulayacağıq. Xəyalən adamı "1001 gecə" nağıllarına aparan saysız-hesabsız ulduzların gözqamaşdıran parıltısından titrəyən göy üzünü, ulduzların arasından boylanan təzə ayın yaratdığı şa-

hanə gözəlliyi ilk dəfə burada görəcək və bu gözəllikdən səni nə gecənin sirli sakitliyini pozan atışma səsləri, nə də eyvanımızın qarşısından ətürpərdici səslə şütüyüb keçən raketlər bezdirəcəkdi. Uzun zaman isə qulağına rübabın səsi gələcəkdi.

Bizi Sovet İttifaqının köməyi ilə salınmış yeni mikrorayondakı dördmərtəbəli binada, üçotaqlı, yaxşı şəraitli mənzillərdə yerləşdirdilər. Mən qrupumuzun rəhbəri pediatr Olqa Qoroxova ilə qalırdım. Onunla qura bildiyimiz etibarlı münasibət sonralar da davam etdi. Qızlar bizdən bir mərtəbə aşağıda qalırdılar. Məskunlaşdığımız binada vəzifəli, imkanlı əfqanlar yaşayırdılar. Onların uşaqları bizi görən gündən "salam" əvəzinə rusca əzbərlədikləri "konfetu davay" (konfet ver) sözünü tutuquşu kimi tez-tez təkrarlayır, istədiklərini almayana qədər əl çəkmirdilər.

Gəldiyimiz gün qrupumuza təhkim olunmuş kuratorla görüşdük. Qiyabi də olsa, o hamımızın tərcümeyi-halıyla yaxşı tanış idi. Yenicə söhbətə başlamışdıq ki, qab-qacaq cingiltisiylə müşayiət olunan yer silkələnməsini hiss etdik. Altımızdakı stullar yelləncəyə döndü. Təkan gücləndikcə uğultu səsi də artırdı. Kiminsə başı gicəlləndi, kiminsə ürəyi bulandı. Əfqan qonşuların böyüklü-kiçikli hay-küylə küçəyə axışması bizim həyəcanımızı artırsa da, heç kim yerindən tərpənmədi. Hamımız donub kuratorun üzünə baxır, onun "əmri"ni gözləyirdik. O, soyuqqanlıqla: "Zəlzələ burada tez-tez olur, alışın, amma özünüzü itirməyin", – dedi. Həqiqətən də, zəlzələ bir az keçdikdən sonra yavaşladı və tamam

dayandı. "Əgər elə gələn gün Əfqanıstan bizə öz dişlərini belə qıcıdırsa, Allah bilir, sonra nələr baş verəcək..." – ağlımdan bu fikirlər keçdi.

Kabildə yaşadığımız müddətdə vaxtaşırı həm zəif, həm də güclü yeraltı təkanlar olur, biz də onları soyuqqanlıqla qarşılayıb yola salırdıq, eynən kuratorun dediyi kimi. Zəlzələ dayanandan sonra kurator aramla söhbətinə davam etdi, bizə təhlükəsizlik qaydaları və ona necə riayət etməli olduğumuz haqda məlumat verdi. Ölkədəki vəziyyəti şərh edərkən onun sovet ordusunun Əfqanıstanda törətdiyi soyğunçuluğu, özbaşınalığı, qəddarlığı haqqında dedikləri bizim üçün dağıdıcı, 10 ballıq zəlzələyə bərabər oldu. Sovet orqan işçisinin yeni işləməyə gələnlərlə etdiyi belə açıq söhbətlər heyrət doğurmaya bilməzdi. Kimin nə hal keçirdiyini demək çətindir, lakin hamının öz hisslərini cilovlamağa çalışdığı görünürdü.

Kim onda deyə bilərdi ki, 1979-cu ilin sonunda ordusunu Əfqanıstana yeritməklə orada vətəndaş müharibəsinin əsasını qoyan Sovet İttifaqı 1989-cu ildə onun ərazisindən öz qoşunlarını çıxarmalı olacaq və həmin il SSRİ xalq deputatlarının I qurultayında akademik Andrey Saxarov ona göstərilən təzyiqlərə baxmayaraq, tribunadan Əfqanıstanda sovet ordusu sıralarında baş vermiş əxlaqsızlıq, pozğunluq halları, əsgərlərin dinc əhaliyə qarşı törətdikləri amansızlıqlar haqda faktlar əsasında ictimaiyyətə məlumat verəcək. 1988-ci ildə sovet tankları Bakıya girəcək... 20 il qabaq Sənin sovet ordusunun Çexoslovakiyaya daxil olduğu zaman yazdığın şeir yada düşəcək:

*...Sən, bəlkə də, sevinərdin*
*Baxıb dənizə sarı,*
*Axı yuxuna girməzdi*
*Rus çarının tankları...*

Bakı küçələrində sovet tanklarını görəndə gözümün önünə əfqan həkim Mohtərəmənin hüznlü baxışları gələcək... Sonra SSRİ də süqut edəcək...

Bu hadisələr hələ qabaqda idi. Məni isə Kabildə iki illik maraqlı həyat gözləyirdi.

Qədim tarixi olan Əfqanıstan ərazisində müxtəlif mədəniyyətə, dilə, ənənəyə malik xalqlar yaşayır: puştunlar, həzaralar, taciklər, özbəklər, türkmənlər və başqaları. Ölkənin paytaxtı Kabil qədim şəhərdir. Suyu qurumuş Kabil çayı şəhəri iki yerə bölür. Köhnə və yeni şəhərə. Qala divarlarının qalıqları ilə əhatə olunmuş köhnə şəhər. Əyri-üyrü, dar küçələri olan köhnə şəhər Şərq simasını saxlamışdı. Şəhərin yeni hissəsində keçmiş şah iqamətgahı, səfirliklər, inzibati idarələr, iri yaşayış məhəllələri yerləşir. Köhnə şəhərlə yeni şəhəri çayın üzərindən salınmış körpülər birləşdirir. Şəhərin küçələrində "Toyota" markalı maşınlar, rikşalar, velosipedlər, sirk maşınlarını xatırladan böyük, rəngarəng yük maşınları hərəkət edirdi. Yazda jasmin kollarındakı qızılgülə bənzər çiçəklərin ətri şəhəri bürüyürdü...

Bizim iş yerimiz şəhərin mərkəzində, sovet mütəxəssislərinin tikdiyi "Ana və Uşaq" mərkəzi olan "Şirpur"da idi. Həkimlərimiz Kabil və ətrafdakı körpələr evi və uşaq bağçalarının uşaqlı-böyüklü bütün per-

sonalını müayinə və müalicə edirdilər. "Şirpur" bizi çox mehribanlıqla qarşıladı. Əfqanlara xas olan xüsusiyyətlə. Orada olduğum müddətdə ucadan danışan adam görmədim. Bəzən adama elə gəlirdi ki, onlar sözləri qulağa pıçıldayırlar. Əfqanlar bizə adla deyil, "xanım-sahib" deyə müraciət edirdilər. Adla müraciət orada yaxşı hal sayılmır. Klinikada hamı avropasayağı geyinirdi – xadimələrdən başqa. Ümumiyyətlə, şəhərdə həm ənənəvi geyimli, həm də çadrasız, örpəksiz qadınlara rast gəlmək olurdu. Adətən, təhsil almış qadınlar müasir geyimlərə üstünlük verirdilər. Əfqanlar bayramları, çalıb-oynamağı, deyib-gülməyi sevən xalqdır. İstirahət günləri ailələriylə ya qonaq gedir, ya da azuqələrini götürüb təbiət qoynuna çıxırdılar. İnsan öz təbiəti etibarilə düşdüyü şəraitə uyğunlaşır. Kimi gec, kimi tez. Əfqanlar da öz həyat tərzlərini, adət-ənənələrini müharibə şəraitinə uyğun davam etdirir, bəzən isə müharibə getdiyini belə unudurdular. Bizə deyirdilər ki, müharibə olmasaydı, sizi Cəlilabada aparardıq, oranın gözəl təbiətini öz gözlərinizlə görərdiniz.

O zaman Əfqanıstanın bütün körpələr evi və uşaq bağçaları departamentinin prezidenti ölkənin Nazirlər Şurasının sədrinin xanımı Kərimə Keştmənd idi. 40-45 yaşlarında olan Kərimə əzmli, baxımlı bir xanım idi. Zövqlə, avropasayağı geyinirdi. Boynuna ipək şərflər salardı. Bizim mərkəz bilavasitə onun himayəsində idi. Eyni zamanda Təhsil Nazirliyi də öz köməyini bizdən əsirgəmirdi. Buna görə həm məişət, həm də işlə bağlı bütün məsələlərimiz tez

bir zamanda həllini tapırdı. Bizim qrupun ixtiyarına iki minik avtomobili verilmişdi. Bu da başqa sovet kontraktı ilə işləyən mütəxəssislərin qısqanclığına səbəb olurdu. Çünki onların əksəriyyətini avtobusla aparıb-gətirirdilər. Tünd-göy rəngli, təzə “Volqa” maşını Olqayla mənə xidmət edirdi. Sürücümüz arıq, seyrəksaçlı, Oman adlı əfqan idi. O, gənc olsa da, yaşından böyük görünürdü. Daha yaşlı görünmək gün altında dəriləri kobudlaşmış əksər əfqanlara xas idi. Omanın bu görünüşünün arxasında mehriban, genişqəlbli bir insan dururdu. O bizim qürbətdəki həyatımıza rəng qatmağa çalışırdı. Kabilin mərkəzində ailəsinə məxsus gül dükanından gətirdiyi çiçəklərlə bizə “gül bayramları” yaşadırdı. Ad günlərində, bayramlarda, bəzən adi günlərdə belə otaqlarımız çiçəklərin ətriylə nəfəs alırdı. Omana, deyəsən, Kabilin ən gözəl qızı qismət olmuşdu. Çox qəşəng gənc xanımı ilə qürur duyurdu Oman. Xanımı da onun nəcibqəlbli insan olmasıyla. Onların ikisi də xoşbəxt idi. Bir qızları da oldu sonradan.

“Şorəvi” adlandırdıqları sovet mütəxəssislərini əksər əfqanlar sevmirdilər. Bəziləri açıq-açığına deyirdilər: “Bizi öyrətmək lazım deyil, çıxın gedin buradan”. Bizim qrupun həkimləri yerli həkimlərə nəyisə başa salanda nəzakətli olmağa çalışırdılar. Savadlı mütəxəssislə qarşılaşanda isə münasibətlər qarşılıqlı təcrübə mübadiləsi şəklində qurulurdu. Bizim klinikanın baş həkimi bilikli, təcrübəli pediatr Mohtərəmə xanımın timsalında olduğu kimi. Sərtbaxışlı, qürurlu bir xanım olan baş həkimin üzü, demək olar ki, heç

gülməzdi. Onun içində elə bil illərdən yığılıb qalmış dərd, gözlərində hüzn vardı. Çox astadan danışar, fikirlərini yığcam deməyə çalışardı. Diaqnozun qoyulması ilə bağlı mübahisəli məsələ olduqda masasının üstündə saxladığı ingilis dilində olan qalın tibb ensiklopediyasına müraciət edərdi. Bəzən mənə elə gəlirdi ki, bizim klinikada olmağımız onu əməlli-başlı əsəbiləşdirir – bunu büruzə verməməyə çalışsa da. Bəlkə də, onun dərdi ölkəsində işğalçı sovet ordusunun olması və bu mövcudluğun təzahürü kimi klinikada bizə dözməsi idi. Dəfələrlə söhbət zamanı əfqan xalqının azadlıqsevərliyindən söz açır, fəxrlə xalqının XIX əsrin sonlarında və XX əsrin əvvəllərində ingilislər üzərində çaldığı qələbəni yada salırdı. Ancaq bir dəfə Olqayla mən onun otağında olanda illərlə ürəyinə yığdığı, nəfəsini daraldıb onu boğan nifrətini zəhər kimi üzümüzə vurmaqdan çəkinmədi: “Sizə böyük rəğbətim olsa da, sovet hərbçilərinə nifrət edirəm, nifrət... Onlar bütün xalqla müharibə aparır, uşaq, qadın, qoca bilmirlər. Onlar qalib deyillər, işğalçıdırlar...” O bu sözləri titrək, həyəcanlı səslə desə də, başını dik tutmuşdu. Mohtərəməni dediklərinin kabinetindən çıxıb-çıxmayacağı da narahat etmirdi. Bu fikirləri bildirməyi o özünün vətəndaşlıq borcu sayırdı. İçimizdə onunla razılaşsaq da, dediklərini cavabsız qoya bilməzdik. “İnsan talelərinin xarabalığına, məzarına çevrilən müharibələr heç bir xalqa lazım deyil, o cümlədən də sovet xalqına. Nə oğullarını dəmir tabutlarda qarşılayan analara, atalara, nə onların itkin düşməsi xəbərini alan gəlinlərə,

nə də ki vətənə döndükdən sonra özünə yer tapmayıb məhv olan fiziki, mənəvi əlillərə. Müharibə onu törədən cinayətkarlara, ondan bəhrələnən siyasətçilərə, hərbçilərə, alverçilərə lazımdır...”

Sovet İttifaqının əfqan dövlətinə etdiyi təmənnasız kömək (geyimlər, ərzaq malları) kasıb əhaliyə satılırdı. Biz dəfələrlə sovet zabitlərinin himayəsi altında əsgərlərin neçə-neçə dolu kisəni maşından dükanlara daşımasının şahidi olmuşduq. Sonradan bu dolu kisələrdə qarət olunmuş əfqan pullarının olduğunu bilmişdik. Dükanlarda (satıcılar, əsasən, hindlilər idi) malların qiymətlərinin birdən-birə qalxma səbəbiylə maraqlandıqda “öz hərbçilərinizdən soruşun” cavabını eşidirdik.

Mohtərəmə bizim dediklərimizə diqqətlə yanaşsa da, söylədiklərimiz onun yarasına məlhəm ola bilməzdi. Çünki Mohtərəmə öz torpağında idi. Və bu müharibəni onun xalqına sırımışdılar...

Sovet qoşunları Əfqanıstandan çıxandan sonra hamı düşündü ki, ölkədə əmin-amanlıq bərpa olunacaq. Ancaq belə olmadı. Hakimiyyət uğrunda vətəndaş müharibəsi daha da alovlandı. “Taliban” qüvvələri hakimiyyətə gəldi. Sonra NATO qüvvələri bu ölkənin təhlükəsizliyi, inkişafı adıyla buraya yerləşdirildi. Az qala hər gün insan tələfatıyla nəticələnən partlayışlar, hərc-mərclik, görəsən, Mohtərəmənin, Omanın, Morinin və başqa tanıdığım, ünsiyyətdə olduğum əfqanların taleyini necə etdi? Onlardan sağ qalanlar varmı?

20 ildən sonra ABŞ öz silahlı qüvvələrini ölkədən

çıxartdı. "Taliban" qüvvələri 2021-ci il 15 avqustda Kabili tutmaqla, demək olar ki, bütün ölkə üzərində öz hakimiyyətini bərqərar etmiş oldu...

Mən Əfqanıstanda iki il işlədim. Oradakı həyatın öz qayda-qanunları vardı. Onlara riayət edib, şəraitə uyğun yaşayıb, kənara çıxmamaq lazım idi. Qaydanı pozanlar ya vaxtı başa çatmamış geri göndərilir, ya da müqaviləsi uzadılmırdı. İnsana inam, etibar kimi keyfiyyətlərin sınağı idi orada işləmək. Ən böyük tərif isə "Səninlə kəşfiyyata getmək olar" sözlərini qazanmaq idi. İlk dəfə orada peşəmin lazımlı olduğunu hiss etdim. Mənə müraciət edir, mənimlə məsləhətləşirdilər. Mən yenidən özümə inanmağa başladım...

Kabildə müqavilə müddətimiz sona yaxınlaşdıqca departamentin işçiləri, klinikanın, uşaq bağçasının personalı təəssüfləndiklərini bildirir, üçüncü ilə də qalmağımızı xahiş edirdilər. Əslində, müqaviləmizin vaxtını uzada bilərdik. Lakin bilirdik ki, vətəndə bizi nigarançılıq içində, səbirsizliklə gözləyən valideynlərimiz, övladlarımız var.

Bir göz qırpımında keçən Əfqanıstan həyatımdan mənə saysız-hesabsız xatirələr qalıb. Əfqanlarla vidalaşdığımız günü xatırlayıram. Bağça müdirəsindən tutmuş körpələr evinin sanitarına, klinikanın işçilərinə kimi hamı özündən nəsə nişanə qoymaq üçün hədiyyə bağışlamaqda bir-biriləriylə yarışa girmişdi. İndi də baxanda hər bir hədiyyədə onların sevgi dolu gözlərini görürəm.

Qayıtmağıma bir neçə gün qalmış səhər tezdən eyvana çıxarkən gördüyüm göy qurşağının ecazkar

gözəlliyi mənə sanki ümidli sabahdan xəbər verirdi. Bir-birinə hörülmüş yeddirəngli (qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi) bu heyrətamiz təbiət möcüzəsini ilk dəfə idi belə aydın, yaxından görürdüm. İnanmaq istədim gələcək sabaha...

Bu ərəfədə eşitdik ki, klinikanın əczaçısı əl falına baxır. Ortayaşlı, nurüzlü əfqanın xiromantlıq bacarığından gec xəbər tutmağımıza heyifsilənsək də, onun bu məharətindən bəhrələnməyə macal tapdıq. Onun mənə dediklərindən: "Sən tanınmış, çox nüfuzlu adamla ailə həyatı quracaqsan. Onun 2 uşağı olacaq. Səni çox istəyəcək..." İnanıb-inanmamağımdan asılı olmayaraq, falçının dedikləri yaddaşıma həkk olundu...

*Səninlə görüşümüzə bir il qalırdı...*

Sovet dönəmində "əfqanlar"a hörmətlə yanaşılır, bir çoxlarına yüksək vəzifə etibar edilirdi. "Əfqanıstan veteranı" vəsiqəsinin də öz çəkisi var idi. Əfqanıstanda sovet ordusu sıralarında olan azərbaycanlı əsgərlərin bir çoxu Birinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuş, onlardan on yeddi nəfəri Milli Qəhrəman adına layiq görülmüşdü.

1987-ci il iyulun sonunda bizim qrup Kabildən Moskvaya döndü. Avqustun 2-si qızımın ad günüdür, 10 yaşı tamam olur. Mütləq onun yanında olmalıyam, onu daha intizarda qoya bilmərəm. Düşündüyüm kimi də alındı. Şeremetyevo Beynəlxalq Hava Limanında məni eynən bir il qabaq məzuniyyətə gəldiyim vaxt olduğu kimi atam, anam, qızım qarşı-

ladılar. Qaldığımız "Rossiya" mehmanxanasında (çox sevdiyim bu mehmanxana, təəssüf ki, 2006-cı ildə söküldü) atam anamla özünə, mənimlə qızıma ayrı-ayrı nömrələr götürmüşdü.

Avqustun 1-də atam dedi: "Dostlarından kimləri istəyirsən sabah axşam saat yeddidə "Rossiya" restoranına dəvət et". Yaddaqalan, şən bir ad günü keçirdik avqustun 2-də. Eynən Georgi Daneliyanın "Mimino" filmindəki kimi, musiqiçilər Mirvarini təbrik etdilər: "Pozdravlyaem s dnem rojdeniya naşu qostyu iz solneçneqo Baku". (Günəşli Bakıdan olan qonağımızın ad gününü təbrik edirik). Təbrikin ardınca dünyaca məşhur Azərbaycan mahnısını – Qəmbər Hüseynlinin "Cücələrim"ini çaldılar. Bütün zal oynadı. Mirvari xoşbəxt idi o gün. Mən gedəli atamın, anamın, bacımın hədsiz sevgisi, diqqəti, qayğısı əhatəsində olan qızımın indi hər sözümlə, nəvazişimlə, davranışımla, hədiyyələrlə mənsizləşmiş könlünü almağa çalışırdım...

Moskvadan Bakıya qayıtmaya da bilərdim. Orada qalıb işləmək üçün təklif də vardı, imkan da. Olqa da Moskvada qalmağımı çox istəyirdi. Özümün də qalmaq istəyim olduğu halda, Bakıya qayıtdım. Sanki hansısa gözəgörünməz qüvvə məni Bakıya çəkirdi. Sonra biləcəkdim ki, bu qüvvə Sən imişsən. Səninlə birgə sürəcəyimiz ömür imiş. Səndən eşidəcəyim *"Mən ömrüm boyu səni gözləmişəm"* etirafı imiş. Bizim alın yazımız imiş...

Bakıya qayıtdıqdan sonra mən əvvəlki iş yerimdə – ASSR EA-nın (indiki AMEA) Şərqşünaslıq İnstitutu-

nun Cənubi Azərbaycan şöbəsində çalışmağa başladım. Şöbənin müdiri tarix elmləri doktoru Şövkət xanım Tağıyeva idi. Bu təvazökar xanım bütün ömrünü Cənubi Azərbaycan tarixinin araşdırılmasına həsr etmişdi. Şöbədə həmişə onu üstünə kitablar düzülmüş yazı masasının arxasında, başı aşağı nəsə yazıb-oxuyan görmək olurdu. Bəzən mənə elə gəlirdi ki, onun başı elə evində də oxuyub-yazmaqdan qalxmır. Şövkət xanım institutda heç kəsə qaynayıb-qarışmaz, bütün söz-söhbətlərdən uzaq gəzərdi. Soyuq adam təsiri bağışlayan bu xanımın içində həssas, kövrək ürəkli qadın yatırdı. İçində həbs etdiyi bu keyfiyyətləri sanki üzə çıxarmağa çəkinirdi. Şövkət xanımın elmi işləri və özüylə tanış olan Əbülfəz Elçibəy onu bir gözəl alim, zərif, sədaqətli Azərbaycan xanımı kimi yüksək qiymətləndirirdi.

1988-ci ilin fevral ayı idi. Şöbədə Şövkət xanımın dissertantı Vidadi Mustafayevin namizədlik işinin müzakirəsi keçirilirdi. Fasilədə şöbənin bir neçə işçisinin Cavanşirin başına yığışdığını gördüm. Onlar böyük maraqla bir kitaba baxırdılar. Kitabla maraqlandım. Kimsə dedi ki, Azərbaycanın şair və yazıçıları haqda məlumat kitabçasıdır. Cavanşir Sənin şəklini mənə göstərib qürurla: "Bax bu mənim əmim oğludur, yəqin, tanıyırsan", – dedi. Üstəlik şairliyini, insanlığını da təriflədi. Biləndə ki mən Səni tanımıram, çox təəccübləndi, həm də bir qədər hirsləndi. Sakitləşsin deyə dedim: "Caz həvəskarları klubu"nu aparmağından xoşum gəlir. Qardaşım da onu tanıyır. Deyir: "On qenialnıy poet". (O, dahi şairdir). Ca-

vanşirə o an sanki görücülük qabiliyyəti verildi və o gözlənilmədən dedi: "Bilirsən nədir, gəl sizi tanış edim. Siz bir-birinizə çox oxşayırsınız. Taleyiniz, xasiyyətiniz. Həm də sənin adi adamlar xoşuna gəlmir axı. Vaqif isə əsl sənin adamındır..."

"Dəli olmusan, məni heç kəslə tanış etmək lazım deyil", – deyib bir az hirsləndim. Ancaq Cavanşir düz deyirdi. Məni həmişə heç kəsə bənzəməyən, başqalarından fərqli, maraqlı insanlar cəlb edib. Adətən, belələri hər cəhətdən qabiliyyətli, istedadlı olurlar. Xarizmatik olurlar. Ancaq mürəkkəb olurlar. Təbiətin Səndən əsirgəmədiyi xüsusiyyətlər...

Müzakirə qurtarandan sonra Cavanşir yenidən bu söhbətə qayıtdı. Deyəsən, etdiyi təklif özünə də maraqlı gəlmişdi. Getməyə hazırlaşdığımız vaxt Cavanşir tez-tələsik Sənin ev nömrəni yığıb: "İndi səninlə gözəl bir xanım danışacaq", – deyərək dəstəyi mənə uzatdı. Cavanşirin bu inadkarlığı mənə gülməli gəldi. Gülə-gülə dəstəyi götürüb: "Siz allah, üzrlü sayın, – dedim, – Cavanşirin oyunlarıdır". Dəstəyə çökən sükutdan sonra "Biz sizinlə mütləq sonra danışarıq" cavabını eşitdim. Öz-özlüyümdə fikirləşdim: "Mən niyə onunla danışmalıyam?"

Aranızda həmişə böyük-kiçik söhbəti olduğundan Cavanşirin belə bir təklif etməsi Səni çox təəccübləndirmişdi. Buna görə də axşam ona zəng edərək bu söhbətlə maraqlanmısan. Cavanşir də məni, ailəmi Sənə xeyli tərifləyib, qardaşım bəstəkar Mobil Babayevi tanıdığını deyib. Sənin ona "İndi çox məşğulam, sonra bu haqda danışarıq" deməyin isə mə-

ni özümdən çıxartdı. Odur ki Cavanşirə Səninlə bu haqda danışmağı qadağan etdim. Buna baxmayaraq, Cavanşir vaxtaşırı bu mövzuya qayıtmağı elə bil özünə borc bilirdi. Düzü, Cavanşirin bu canfəşanlığı məndə də Sənə qarşı maraq oyatmağa başlamışdı. Ancaq yaradıcı adamların, adətən, içkiyə meyilli olmaları və aramızda olan yaş fərqini səbəb gətirərək, Cavanşirə bu fikrindən əl çəkməsini təkid edirdim.

Bu arada Sənin AzTV-də qardaşım Mobili görəndə onun üzünə böyük maraqla, diqqətlə baxaraq məni təsəvvür etmək istəyin gülməli bir səhnə yaradıb. Sənin baxışlarından təəccüblənən Mobil: "Vaqif, nəsə olub?" – deyə soruşub.

Qardaşım Mobil Babayevlə Sən Azərbaycan Kinostudiyasında çalışdığınız dövrdən tanış idiniz. Sən o zaman "Azərbaycanfilm" kinostudiyasında ssenari emalatxanasında ssenarist, Mobil musiqi redaksiyasında baş redaktor idi. 1985-ci ildə AzTV-də "Caz həvəskarları klubu" verilişi yenidən sizi bir araya gətirmişdi. Sən o zaman çox populyar olan bu verilişin aparıcısı, Mobil isə redaktoru idi. Bu veriliş Azərbaycanda caz musiqisinin təbliğində əvəzsiz rol oynadı.

Bilirsən, ASAN Radio bu yaxınlarda dinləyicilər arasında sorğu keçirmişdi: "Ötən illərin ən yaddaqalan aparıcısı kim olub?" Xatırlanan adlar içində Sənin adını eşidəndə gözlərim doldu. 30 ildən çox vaxt ötsə də, tamaşaçını məftun edən xarici görünüşün, heç kəsə bənzəməyən sadə, aram, səmimi, sərbəst danışığın unudulmayıb...

Səninlə Mobilin birgə yazdığınız "Sən gələndə"

mahnısını mən ilk dəfə Kabildə eşitmişdim. 1986-cı ildə Moskva kanalı ilə nümayiş olunan “Bircəciyim” filmində Mübariz Tağıyevin bənzərsiz ifasında. Vətəndən uzaqlarda əsl doğmalıq yaşadım – musiqi, söz, ifa doğmalığını. Sonralar mənə dedin ki, sənin gəlişini hiss etdiyimdən o sözləri yazmışdım. Bu sözlər zarafatyana söylənsə də, zaman onların doğru olduğunu sübut etdi…

*... Sən gələndə*
*Çiçəklər açılardı,*
*Sən gələndə*
*Daşlar da gül açardı,*
*Sən gələndə*
*Kədər məndən qaçardı...*

Bu gün “Sən gələndə” mahnısını gənc müğənni Samirə Əfəndiyeva oxuyur. Onun ecazkar ifasında səslənən bu mahnıda indi mən öz səsimi eşidirəm...

Səninlə ilk tanışlığımız mayın 2-si 1988-ci ildə oldu. Sonralar bu günü hər il qeyd etdik. Gündüz inadcıl Cavanşir zəng etdi. Dedi ki, bu gün axşam Vaqif sənə zəng edəcək. Və dönə-dönə tapşırdı: “Televizorda “Bəxt üzüyü” tamaşasını göstərəcəklər, mütləq bax, heç olmasa onun yazdıqlarından az da olsa, xəbərin olsun”. Cavanşirin təkidinə baxmayaraq, mən pyesə baxa bilmədim. Daha doğrusu, baxmaq istəmədim. Çünki diktəylə nəsə etməkdən heç vaxt xoşum gəlməyib...

Axşam Sən zəng etdin. Və hər şey bu telefon zəngindən başladı...

*Bir gün səslənəcək bu telefon*
*və ölüm qədər yaxın,*
*doğma bir səs eşidəcəm...*
*Ömrün səslərində bir boşluq səslənəcək*
*və mənə gərəksiz olacaq*
*Yer üzünün bütün özgə səsləri...*

Söhbətimiz çox təbii alındı. Səhər 6-ya kimi davam etdi. Arada zarafat edir, məni güldürürdün. Yüz ilin tanışları kimi danışırdıq. Çox maraqlı adamla danışdığımı başa düşürdüm. Hansı bürcdən olduğunu soruşdum: "Əkizlər". İlahi, ən çox ehtiyat elədiyim bürc! İlk evlilik təcrübəmdən Əkizlər bürcündə anadan olan kişilərin intellektual, istedadlı, yaradıcı olduqlarını, eyni zamanda qeyri-stabil, dəyişkən, çox sərbəst, ipə-sapa yatmayan xüsusiyyətlərini bildiyimdən onlardan uzaq duracağıma and içmişdim. Necə də doğru sözdür: "Heç vaxt heç vaxt demə". Səsim batdı.

– Nədir, xoşunuza gəlmədim?

"Eyni bürcdən olanların hamısı heç də bir-birinə oxşamır" fikriylə özümə toxtaqlıq verdim və çox zəif, inamsız səslə: "Yox, niyə ki..." – deyə bildim.

Çox illər sonra bir gün Sən: "Nuşa, bu gecə bir yazı oxudum. Sən demə, Əkizlər bürcünə dözən bir bürc varsa, o da Qoç imiş", – dedin. Mənim Qoç bürcündən olduğuma işarə edərək, bığaltı gülə-gülə, özü də xüsusi bir vurğuyla dedin...

Söhbət zamanı etiraf etdim ki, Sənin yaradıcılığınla tanış deyiləm, axşam televizorda "Bəxt üzüyü" tamaşasına da baxa bilməmişəm. "Bu lap yaxşıdır

ki, siz (söhbətimizin sonuna yaxın Sənin təkidinlə bir-birimizə sən deyirdik) mənim yaradıcılığımı bilmirsiz", – dedin. Ya özünü sındırmamaq üçün belə dedin, ya da düşündüyünü dilə gətirdin. Digər tərəfdən, mənim bu səmimi etirafım, deyəsən, Sənin də mənə olan marağını artırmışdı. Bir də o zaman mənə Sənin böyük şair, dramaturq olduğunu bilməyim lazım deyildi. Mən bunu sonra biləcəkdim. Özün kimi, yaradıcılığının da təkrarsız, unikal olduğunu.

Məncə, münasibətlərin davamlı, möhkəm olmasında yaradıcı adamın özünün bir insan kimi tanınıb sevilməsi, sonradan yaradıcılığının qiymətləndirilməsi daha vacibdir, nəinki əksinə, əvvəl onun yaradıcılığına vurulub, yaratdıqlarını onun şəxsiyyətində axtarıb, tapmadıqda boşa çıxmış ümidlərin üzüntüsüylə yaşamaq.

Bizim telefon söhbətlərimiz yavaş-yavaş gündəlik tələbata çevrilir və gecəyarısına kimi davam edirdi. Bir-birimizi hər gün eşitmədən keçinə bilmirdik. Səni bilmirəm, mən vurulmamışdım. Ancaq cazibə böyük idi. Dərin erudisiya, güclü yumor, səsinin ürəyəyatan tembri, kövrəkliyi...

İlk görüşümüz. Heç çəkinmədən gözlərini zilləyib mənə baxırdın. Sıxıldım.

– Nə çox baxdız mənə, vurularsız birdən...

– Ola bilər...

Çox sonralar bir gün Səndən soruşdum:

– İlk görüşümüzü xatırlayırsan?

– Əlbəttə. Ancaq soruşma nə geyinmişdin, yadımda deyil. Gözlərin, təbəssümün yadımdadır. Fi-

kirləşdim sağ olsun əmioğlu Cavanşir, nə qəşəng xanımdır.

– Mənsə bütün xırdalıqlarına qədər hər şeyi xatırlayıram. Sənin geyimini, üzünün ifadəsini, sözlərini. Ciddiliyin, az danışmağın, həlimliyin ürəyimə yatmışdı.

Bizim münasibətlərimiz, demək olar ki, Azərbaycanı qaynatmağa başlayan Qarabağ dərdiylə paralel inkişaf edirdi. Kremlin Azərbaycan xalqının haqqını pozan siyasətinə qarşı Bakıda başlanan mitinqlər, ilk ümumxalq etirazları...

*Yuxuda gördüm səni,*
*dirilmə, ay nənə, dirilmə!*
*Erməni bizi, biz ermənini,*
*rus hər ikimizi qırır, ay nənə...*

Minlərlə adamın toplaşdığı və son ümid yeri saydığı Lenin meydanı (indiki Azadlıq meydanı). Kimlər görünmədi onun tribunasında. Tanıdıqlarımız, tanımadıqlarımız. Boşboğazlıq edənlərin vədləri, cəfəngiyyat ideyalar da səslənirdi, ağıllı, sağlam fikirlər də eşidilirdi. Ancaq, sözün əsl mənasında, Azərbaycan xalqı özünün ruh yüksəkliyi dövrünü yaşayırdı. 1989-cu ildən Sən də, Yusif də qoşuldunuz bu ümumxalq hərəkatına. Sənin çıxışların xalqımızın çətin günlərindəki vəziyyətini, yaşadığı sarsıntılar içərisindəki əhvali-ruhiyyəsini ifadə edirdi. Belə çıxışların birində Sən tənhalıqdan – fərdin tənhalığından deyil, daha böyük faciədən – arxasız xalqımızın tənhalığından danışdın. Yüz minlərlə insanı təsirləndirən, kövrəl-

dən sözlər: “Dünya istəyəndə kar da olur, kor da olur. Belə bir dünyada öz dərdini tək çəkir Azərbaycan, milli tənhalığını yaşaya-yaşaya”. Əbülfəz Elçibəy bu çıxışını tarixi çıxış adlandırdı. İlk dəfə ictimai fikrə “Milli Tənhalıq” anlayışını Sən gətirdin.

*Haraya hay verməyib,*
*Dünya keçir kar kimi.*
*Bir kor dəyir divara*
*Bizim dualar kimi...*

Yadımdadır, mitinqlərin birindən geri dönən atam (o bizim münasibətimizdən xəbərsiz idi) dedi:

– Vaqif Səmədoğlunun çıxışından sonra orada qalmaq maraqsızdır...

Can üstə olan sovet quruluşunun və hakimiyyət hərislərinin süngü, məkr, yalan və təkəbbürünün gücünü xalqın üzərində sınamasıyla nəticələnən 1990-cı il 20 Yanvar faciəsini və onun dərin sarsıntısını, SSRİ-nin dağılmasını, Azərbaycanın müstəqillik qazanmasını və sonrakı dramatik, mürəkkəb prosesləri xalqla birlikdə biz də yaşadıq öz mülahizələrimizdə, düşüncələrimizdə.

*Qan axır, bu dünya qandan da umur,*
*Damcını tez görür, selə göz yumur.*
*Doğru böhtan olur, haqq düşür şərə,*
*Ölüm də bölünür xeyirə, şərə...*

Bilirsən, Vaqif, o ağır illərdən, həyəcan və gərginliklə dolu aylardan, günlərdən Sənsiz baş çıxarmağım çətin olardı mənə. Sən baş verən hadisələrin ge-

dişindəki acı vəziyyətin yumor tərəfini və ya, əksinə, gülməli vəziyyətin kədərli tərəfini görür və bu müdrikliyin mənim də baxışlarıma təsir edirdi.

Vaqif, bu son bir ildə dünyanın yaşadığı karantin şəraitində 2020-ci ilin ən möhtəşəm xəbəri Azərbaycan Ordusunun Qarabağda qəhrəmancasına apardığı 44 günlük müharibədə qazandığı Q ə l ə b ə oldu. Ağdamın, Füzulinin, Cəbrayılın, Şuşanın... qaytarılması oldu...

Yadıma Azərbaycanın Milli Qəhrəmanı Ramiz Qəmbərovla bağlı yazın düşdü.

*“1992-ci ildə Şuşanın işğalından iki həftə qabaq igid şuşalı balası, mərd insan Ramiz Qəmbərovla görüşdüm. Çay içdik. Aramızda belə bir söhbət oldu:*

*– Ramiz bəy, Şuşaya haçan qayıdırsan?*

*– O silah məsələsi düzəlmədi... Bir saata geri qayıdıram.*

*– Ramiz, getdik. Məni də apar Şuşaya.*

*– Vaqif bəy, sən başın, get otur evində. Sənin kəndindən bir Vaqif Şuşa uğrunda canından keçib. İkincisi artıq olar...*

*Ramizin ölüm xəbəri gələndə anam dedi: “Ramizi öldürüblər? Vaqif, Şuşa getdi”. Ramiz 1992-ci il 30 apreldə həlak oldu, mayın 8-də Şuşa süqut etdi. Şuşada Vaqifin son yeri, axır yurdu qaldı. Məqbərəsi qaldımı? Bundan xəbərim yoxdur. Ancaq indiyə kimi o məqbərənin açılış günü yadımdadır. Qar, aman Allah, necə qar yağırdı! Molla Pənahın başına yığılmış minlərlə insan, SSRİ-nin neçə*

*şəhərindən, Bakıdan yol ölçüb Şuşaya toplaşmış qonaqlar, yenicə tikilmiş məqbərə, hamı, hər şey qar altında qalmışdı...*

*...Məqbərəni baharda, yayda görə bilmədim. Eləcə qar içində qaldı mənimçün Molla Pənah Vaqifin məqbərəsi. Bu günə kimi qar altındadır. Günəşin hərarəti, yayın istisi əritmir o qarı. Nə vaxta qədər qar altında qala-qala üşüyəcək Molla Pənah Vaqif? Üstündəki buza dönmüş qarı nə əridəcək? Deyəsən, yalnız və yalnız bizim əsgərlərimizin nəfəsi. O gün onun məqbərəsinə baş çəkəcəm. Deyəcəm:*

*– Salam, adaş. Xoş gördük, nənəm Məhbubun babası...”*

2008-ci ildə yazdığın bu xatirəni indi qürurla oxuyuram. Sənin ümidlə gözlədiyin o gün gəldi. Əridi qarlar, suya döndü buzlar. İgid əsgərlərimizin qəhrəmanlığı sayəsində. Sən bu günü gözləyirdin, ümidlərin söndüyü vaxtlarda şair fəhmiylə inanırdın bu günün gələcəyinə.

*“Qələbə gözlənilməyən yerdən gələcək. Nədənsə yaman gözləyirəm bu möcüzəni. İnanıram buna...”*

Təəssüf ki, arzuladığın möcüzəni görə bilmədin...

Bu gün dünyada karantin rejimi davam edir. Bəşəriyyətin taleyinin həlledici mərhələsində işıqlı qüvvələrlə qaranlığın mübarizəsi davam edir... *Xeyir Şərmiş, Şər Xeyirmiş, hamısı bir ad imiş...*

*Sənə yuxu görünən bu dünyada,*
*gerçəkdən, körpələr ölür.*

*Şeytanlar gülür*
*yerlə sürünən*
*çiçəkli çəmənlərə,*
*deyib-gülənlərə,*
*gedib-gələnlərə.*

İndi təkcə vahid millət deyil, vahid bəşəriyyət olmaq vaxtıdır. İnsanlığa qarşı baş verən ədalətsizliklərdən dəli olmaq olar, əgər Yaradanın varlığına, Onun sözünə inam olmasaydı...

*...İlahi, vaxtdır, tanışlıq ver bizə,*
*Vaxtdır, görün gözə...*
*Sabah daha gec olacaq,*
*Özünə də güc olacaq*
*Bizə çarə qılmağa.*
*Dünya tamam boşalacaq,*
*Burda bir yer qalmayacaq*
*Sənə yuva salmağa.*
*İlahi, vaxtdır, görün,*
*Qalmaq istəyirsənsə,*
*İlahi, vaxtdır, görün,*
*Olmaq istəyirsənsə...*

Yazdıqların mənim təsəllim olacaqmış, Şair...

Münasibətimiz ciddiləşir, amma tərəddüdlərim də artırdı. Haradasa inamsızlıq da vardı. Yadındamı telefonda özünəməxsus etdiyin sevgi etirafı: *"Mənim çoxdankı arzum idi sənin kimi qadına rast gəlmək, bilmək ki, harada olmağımdan asılı olmayaraq, məni gözləyəcək, yükümü daşımaqdan çəkinmə-*

*yəcək".* Yaman qorxdum axı bu sözdən, onun ağırlığından. Öz sərbəstliyimi itirməkdən. Tez-tələsik: "Elə mən də yükümü daşımağa adam axtarırdım", – dedim. Araya düşən dərin sükutdan sonra: *"Mı s toboy dva bereqa u odnoy reki, i im nikoqda ne soytis (biz səninlə heç vaxt birləşə bilməyəcək bir çayın iki sahiliyik )",* – deyib sağollaşdın. Bilirəm, incitdim Səni bu sözlərimlə. Axı Sən bu cavabı gözləmirdin məndən. Dediklərimin Sənin kimi həssas adama necə pis təsir etdiyini təsəvvür etmək çətin deyil. Yuxun da qaçıb, bəlkə, tənhalığın etibarından bir şeir də yazmısan...

*...Bilmirəm,*
*bilmirəm nədən başlamaq lazımdır,*
*həyatdan, ya ölümdən,*
*yoxsa yenə, yenə də oturub,*
*ikisini də gözləmək lazımdır*
*bəxtin qapısı ağzında?*

Aramızda yaranan soyuqluq çox sürmədi. Bir müddət keçəndən sonra yenidən bir yerdə olmaq təklifi və yenə də tərəddüdlər. 1993-cü ilin iyun ayında ayrıldıq – sözsüz-söhbətsiz...

Bilirsən, bu ayrılığın mənimçün belə çətin başa gələcəyini heç ağlıma gətirməzdim. İşlə başımı qatmağa çalışdım, əlavə tərcümələr də götürdüm. Eyni zamanda yenidən xaricə işləməyə getmək fikrinə düşdüm. Oxuduğum bir fikir çox yerinə düşmüşdü: "Əgər kiməsə inamın yox, şübhən var, ondan uzaqlaş, azad burax onu. Əgər o sənindirsə, mütləq qayı-

dacaq və heç vaxt səni tərk etməyəcək, qayıtmayacaqsa, deməli, heç vaxt sənin olmayıb...”

1994-cü il dekabrın 12-də bacım Esmira mənə zəng edib, İstanbulda yaşayan Emin Sabitoğlunun xanımı Xədicə Abbasova ilə danışdığını dedi. Bacımla Xədicə mərhum pianoçu Gülarə Əliyevanın rəhbəri olduğu “Dan ulduzu” instrumental ansamblında çalışdıqları vaxtdan tanış idilər. Xədicə xanım Sənin Anar və bir neçə başqa həmkarınla İstanbulda ezamiyyətdə olarkən (1994-cü il dekabrın əvvəllərində) onlara qonaq getdiyinizi deyib və aranızda olan söhbəti danışıb. Sən Xədicənin “Niyə evlənmirsiz?” sualına sevdiyin qadınla küsülü olduğunu, onun daha heç vaxt Səni qəbul etməyəcəyini söyləmisən. O qadının kimliyi ilə maraqlanan Xədicə “Nüşabə” adını eşitdikdə məhz məni təsəvvür edib, Esmiranın bacısı olduğumu bildikdə isə yanılmadığına əmin olub. Bu xəbər gözlənilməz olsa da, məni təəccübləndirmədi. Beş illik münasibətlər heç cür izsiz keçə bilməzdi. Mən də Səni unuda bilmirdim. Tez-tez yuxularıma girirdin. Çox kədərli, məyus, tənha... 1995-ci ilə qədəm qoyduğumuz gecə Sən zəng vurub, məni təbrik etdin. Bir müddət keçdikdən sonra görüşdük, arada il yarımlıq ayrılıq yoxmuş kimi... Yenə həmin doğmalıq... Sən demə, biz ikimiz də bu gün haqda düşünür, bu günü arzulayırmışıq. Əlbəttə, hər şey başqa cür də ola bilərdi. Ayrılıq öz sözünü deyərdi, bu zaman kəsiyində boşluqlar nələrləsə, kimlərləsə dolardı. O zaman Sən də, mən də ömrümüzün daha bir səhifəsinin oxunduğunu qəbul edər-

dik. Lakin... Bəlkə də, bu ayrılıq sevgimizin zamanın ayrılıq sınağından keçməsi üçün bizə verilən möhlət imiş. Görüşümüzdə sözarası Sənə xaricə getmək üçün sənədlərimi göndərib, cavab gözlədiyimi söylədim. Özlüyümdə isə qərar verdim ki, bu bizim son görüşümüzdür. Çünki əmin idim ki, qarşıda məni başqa ölkə, yeni həyat, yeni iş yeri gözləyir. Yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır...

Fevralın 23-ü, axşamüstü. Evdə anam, mən və qızım idik. Mən yatırdım. Anam məni oyadaraq: "Vaqif gəlib, səni çağırır", – dedi. Yerimdən dik atıldım. Yuxulu-yuxulu, tələsik saçımı düzəldib, otaqdan çıxdım. Sən dəhlizdə dayanmışdın paltoda, yaxan açıq. Bütün görkəmindən həyəcan yağırdı. Məni görən kimi qucaqladın, burnuma içki qoxusu dəydi. Anama: "Qızınız mənim taleyimdir, biz bir yerdə olmalıyıq, mən buradan heç yana getməyəcəm", – dedin. Sonradan həmin axşam bir kişi məclisində olduğunu, anidən gözünə göründüyümü, "ay axmaq, nə edirsən, qız əldən gedir, sənin də qalan ömrün beləcə tək-tənha kişi məclislərində keçəcək" düşünərək, tez oradan çıxıb birbaş bizə gəldiyini dedin.

Sənin bu inadkarlığın anama atamı xatırlatdı. Mən də atamı tez-tez yad edəcəyəm Səninlə birgə yaşadıqda. Atamın dəqiqliyini, əliaçıqlığını görəcəyəm Səndə. Ancaq o gün mən çaşqınlıq içində idim. Dilim tutulmuşdu, ağzımı aça bilmirdim. Sən zəng edib qardaşımı çağırdın. Bizim münasibətimizdən xəbərsiz olan Mobilçün bu elçilik gözlənilməz idi. O, çaşbaş halda gah Sənə, gah mənə baxırdı. Mən isə

lal-dinməz oturub bu elçiliyin nəylə qurtaracağını gözləyirdim. Səni tanımaq olmurdu o gün. Hey danışırdın mənim də yerimə, öz yerinə də. Sənin gözlərində gördüklərim birdən ayıltdı məni... *“Məhəbbətə yubanmaq olmaz bu yaşda...”*

*...Ölülərim, dirilərim*
*dolanır içimdə.*
*Xatirələr səyriyir gecəmdə,*
*təkliyimi minib attək.*
*Yanır, sönür, ötür ömrüm*
*ekspreslər dayanmayan*
*kiçik stansiyalartək...*

Deyirlər, kişi qadının yanına ondan yaxşısını tapmadıqda qayıdır. Qadın kişinin yanına gecəli-gündüzlü onun haqda düşünəndə, unuda bilməyəndə qayıdır. Mənə gəldikdə isə, sevdiyim insanın mənim varlığıma böyük ehtiyac duymasını bilməyim vacibdir. Sənin gəlişin həm də bunu deyirdi...

1995-ci il fevral ayının 23-də il yarım ayrılıqdan sonra biz bir yerdə olmaq qərarına gəldik. Martın 8-də nişanımız oldu. Xavər xanım, Aybəniz xanım, qızı Aygün xanım və onun həyat yoldaşı Mehman və Sən bizə gəldiniz. Xonçalarla, şirniyyatlarla, gül-çiçəklə. Anamın hazırladığı ətli pirojkilər, piroqlar, tortlar, xüsusilə də “Napoleon” qonaqlarımızın çox xoşuna gəlmişdi. Sən mənim barmağıma, mən də Sənin barmağına nişan üzüyü taxdıq. Olduq nişanlı. O gün məni hədsiz sevən nənəmin, atamın yanımda olmadıqlarına çox heyifsiləndim. Sən də atanı xatırladın:

"Atam səni görsəydi, çox istəyəcəkdi, səndən farsca bir şeir eşitməyincə də əl çəkməyəcəkdi..."

Martın 16-da heç kəsə demədən ikimiz Molokan bağının (indiki Xaqani bağı) yaxınlığında yerləşən ZAQS-a getdik. İçəridə adam yox idi. Sən birbaş ZAQS müdirinin yanına keçdin. Sonra məni çağırdın. ZAQS müdiri orta yaşlarında, dolubədənli bir xanım idi. Səni tanımışdı. Diqqətlə məni nəzərdən keçirdi. Bir-iki sual verdikdən sonra bizi ər-arvad elan etdi. Mendelsonun "Toy marşı" çalınmasa da, özümüz bu marşı zümzümə edə-edə ZAQS-dan çıxdıqda: "Sənə gəlinlik paltarı, fata çox yaraşardı", – dedin və qolumdan bərk-bərk yapışdın.

Aprel ayının 8-də Aybənizgildə xudmani toy məclisi quruldu bizimçün.

Gündəliyindən: *"Şükür, atdım yalqızlığın daşını..."*

Yeddiillik tanışlığımızdan sonra mart ayında münasibətimiz rəsmiləşdi, möhrümüz vuruldu. Sonralar itirilən illərçün məni qınayacaqdın. Sən mart ayını həyatının ən uğurlu ayı hesab edirsən. 13 mart Ananın, 21 mart Atanın, 14 mart Anarın, 24 mart Mənim – həyatında mühüm rol oynamış insanların və 16 mart dostun Vaqif Mustafazadənin doğulduğu aydır. Buna görə mart çıxdı, dərd çıxdı atalar sözüylə heç cür razılaşmırdın...

Sənin ailə qurmaq qərarına ürəkdən sevinənlərdən biri də anan Xavər xanım idi. O, Sənin yeni qurduğun ailəyə şərait yaratmaqçün birgə yaşadığınız Xaqani, 26 ünvanındakı ikiotaqlı mənzilindən qonşu binada yaşayan qızı Aybənizin evinə köçdü. Bir müd-

dət sonra oradan onunçün doğma olan muzeyə, muzeydən də son mənzilə... Xavər xanım haqda danışmaq istəyirəm...

Xavər xanımla tanış olmaq üçün Sən məni evinizə dəvət etdin. Məni gülər üzlə qarşılayan Xavər xanımın eynəyinin arxasından zillənən baxışları məni xeyli "tədqiq" etdikdən sonra (İlahi, bu zaman Sən necə də anana oxşayırdın!), tilsimlənmiş nəzərlərini məndən çəkər-çəkməz təzəgəlini bəyəndiyini söylədi. İlk baxışdan Xavər xanımın səliqəli görünüşü, saç düzümü, zərif manikürü məndə xoş təəssürat yaratmaqla bərabər, yaşı 80-ə yaxın olan bu qadının özünə bu cür baxması ona qarşı məndə böyük rəğbət oyatdı. Gənclik yaşlarından zövqlə geyinməyi xoşlayan Xavər xanım qarşı tərəfin də bu xüsusiyyətinə fikir verirdi. Bu yerdə Sənin danışdığın əhvalat yadıma düşdü: *"1986-cı ildə Moskvada Səməd Vurğunun 80 illiyi İttifaqlar Evinin "Sütunlu zal"ında keçirilirdi. Həmin gecədə Heydər Əliyev (o zaman o, SSRİ Nazirlər Sovetinin sədr müavini idi) və Yeqor Liqaçov (Sovet İttifaqı Kommunist Partiyasının katibi) da iştirak edirdilər. Rəsmi və bədii hissədən sonra Səməd Vurğunun ailəsini səhnə arxasına çağırdılar. Orada Heydər Əliyev və Liqaçovla görüşdük. Ayaqüstü söhbət etdik. Liqaçov Səməd Vurğun haqda, onun şeirləri haqda çox danışdı. Heydər Əliyev də söhbətə qoşulurdu. Sonra Siyasi Büronun gecə iclasının olması səbəbindən banketdə iştirak edə bilməyəcəklərini bildirib bizimlə sağollaşdılar. Biz "Sütunlu zal"dan çıxanda birdən*

*Xavər dedi: "Balam, mən bu yaşa çatmışam, hələ belə sırtıq adam görməmişəm". Biz çaşıb qaldıq. "Mama, kimi deyirsən?" Xavər təəccüblə: "Necə kimi, Heydər Əliyevin şoferini deyirəm də. Görmədiz necə çox danışdı Səməddən. Sən kimsən ki, o boyda kişinin (Heydər Əliyevi nəzərdə tuturdu) yanında bu qədər danışırsan?"*

*Yusiflə mənim yorğunluğum keçib-getdi. Görünür, Liqaçovun görünüşü Xavərə çox adi görünmüşdü..."*

İmkanlı ailədə dünyaya gələn Xavər xanımın əsli Dərbənddəndir. Atası Əhməd bəy Mirzəbəyov Dərbənddə bank xəzinədarı olub. Ailə Bakıya köçəndən sonra Əhməd bəy dünyasını dəyişib. Bikə xanım kiçik qızı Xavərin qardaşı Yunus bəyin ailəsində böyüməsinə etiraz etməyib. Rusiyada mükəmməl təhsil alan Yunus bəy maliyyəçi idi. Gözəl, nəcib əmisi qızı Tutu xanımla ailə qurmuşdu. Onların öz övladları olmamış və bütün sevgilərini balaca Xavərə vermişdilər. Uşaqlıqdan sevgi, qayğı, diqqət içində böyüyən Xavər ömrünün sonuna kimi Yunus bəyi "papa", Tutu xanımı "mama" deyə çağırmışdı. Valideynləri qızcığazın istəyi ilə onu musiqi məktəbində fortepiano sinfinə qoymuş, burada Xavər gələcəyin böyük musiqiçiləri olan Qara Qarayev, Cövdət Hacıyev və Tofiq Quliyevlə birgə təhsil almışdı. Sənə pianoda ilk notları Xavər xanım göstərmişdi. Tutu xanımın vaxtsız ölümü yeniyetməlik dövrünü yaşayan Xavər üçün çox sarsıdıcı olub. Baxmayaraq ki, o vaxtdan xeyli müddət keçmişdi, Xavər xanım Tutu xanımı, Yunus

bəyi xatırlayanda dodaqlarına təbəssüm qonur, gözləri dolurdu.

Bizim ilk tanışlıqdan Xavər xanımla söhbətimiz tutdu. Xavər xanım gah Sənin qayğıkeşliyindən, əliaçıqlığından həvəslə söz açır, gah da özünün Sənə göstərdiyi qayğısından, bağlılığından danışırdı. Sənin vərdişlərini sadalamağı da unutmurdu. Xavər xanım arabir kövrəlsə də, bu söhbətləri özünəməxsus yumorla etməsi mənim də həyəcanımı yavaş-yavaş azaldırdı. "Qızım, yemək sarıdan Vaqif heç adamı incitmir. Daşdan yumşaq qabağına nə qoysan, yeyəcək" deməsi Səni nədənsə hirsləndirdi. "Mama, əhsən sənə, adam da oğlunu gəlinə belə tanıdar?" Xavər xanımın bir az pərt olduğunu görüb, vəziyyəti yumşaltmağa çalışdım: "Vaqif, niyə hirslənirsən, əksinə, maman Səni təriflədi, demək istədi ki, yemək sarıdan vasvasılığın yoxdur". Sən mənə baxıb gülümsündün. Xavər xanımın narahatlığını başa düşmək olardı. Uğursuz nikahdan sonra 16 il ona sığınmış, həyatının ziddiyyətli, keşməkeşli çağını onunla yaşamış oğlunun nazını çəkən ana indi onu "yad" əllərə verməyin həyəcanını yaşayırdı. "Vaqif ağzımda dilimdir, qızım, ondan muğayat ol, sənə tapşırıram onu. Göydə Allahdırsa, yerdə sənsən indi onun pənahı". Qulağımda ana yalvarışı kimi səsləndi. Evliliyimizdən xeyli vaxt keçdikdən sonra Xavər xanımın "İndi mən rahat ölə bilərəm, Vaqif sarıdan arxayınam" deməsi isə qayınananın gəlininə verdiyi ən yüksək qiymət sayıla bilər.

Bu sözlər mənə necə də tanış idi. Nənəm də qo-

hum-qonşuyla söhbətdə anama olan razılığını belə bildirirdi. Nənəmlə Xavər xanımın oxşar xüsusiyyətləri çox idi. O cəhətlər də nənəmdən atama, Xavər xanımdan Vaqifə keçmişdi. Bədxərcliyə qədər yüksələn əliaçıqlıqları, çox narahat adam olduqlarından bütün işlərini axırıncı dəqiqəyə saxlamamaları... Bir sözlə, əsl nizam-intizam əhli idilər. Vaxtlarına hörmət qoyurdular. Hər yerə – istər toy-qonaqlıq olsun, istər yas, dəqiqliyi sevirdilər – vağzala, ya hava limanına 2-3 saat qabaq getməli idilər. “Dəqiqlik şahlara xas nəzakətdir” deyimini sübut edə-edə...

Biz evləndikdən sonra Xavər xanım bizə tez-tez gələrdi. O zaman Sənin müntəzəm gəlirin yox idi. Xavər xanım “oğlum gəlinin yanında başıaşağı olmasın” düşüncəsi ilə heç vaxt bizə əliboş gəlməzdi. Sənin sevdiyin kolbasadan, pendirdən və sairə ərzaqlardan alar, cibinə pul da qoyardı. Gündəlikdən: *“Anam gəlmişdi bu gün. Yumurta, yağ, toyuq gətirib. 57 yaşlı oğula...”* Mən də öz tərəfimdən onu razı salmağa çalışar, ürəyindən keçən yeməkləri bişirərdim. “Ay gəlin, sənin bişirdiklərindən anam Bikəxanımın yeməklərinin dadı gəlir”, – deyə məni tərifləyər, onun yaşlı vaxtına düşdüyümdən mənə istədiyi diqqəti yetirə bilmədiyi üçün heyifsilənərdi. Ancaq bir dəfə öz yüksək xanımlıq bacarığını göstərməyə macal tapdı. Səni, Mirvarini və məni muzeyə şam yeməyinə dəvət etdi, unudulmaz bir gecə yaşatdı bizə. Masa onun zövqü ilə bəzədilmişdi. Gümüşü qablara qoyulmuş müxtəlif içli piroqlar, şirniyyatlarla, çərəzlərlə dolu süfrə göz doydururdu. İçməyə

kakao, kofe, çay təklifi... Sən royal arxasına keçəndə bayaqdan sevincinin hədd-hüdudu olmayan Xavər xanım kövrəldi. “Qızım, heyif ki, ailəmizin bir yerdə olduğu xoşbəxt günləri görmək sənə nəsib olmadı”, – deyərək o, göz yaşlarını sildi.

Həmin gün qarşımda vaxtilə dövrünün tanınmış adamlarını düzəltdiyi təmtəraqlı ziyafətlərlə məftun edən mötəbər bir xanım dururdu: hökmlü Xavər xanım (yaşlandıqca yumşalsa da). Xavər xanımın söhbətinin əvvəli də, sonu da mütləq Səmədin adıyla bağlı olurdu. “Qonaqlı-qaralı olub, qızım, Səmədin evi həmişə. Biz onda Fioletov küçəsində (indiki akademik Əlizadə küçəsi) yaşayırdıq. Kimlər olmayıb bizim o evdə. Təkcə tanınmış yazıçı, şair, bəstəkarlar yox, başqa peşə sahiblərindən tutmuş sadə adamlara kimi. Vaqifin onda 4-5 yaşı olardı, müharibə vaxtı idi, Sovet İttifaqı Qəhrəmanları, Şimal qütbünü fəth edən İvan Papanin, Otto Şmit bizə gəlmişdilər. İran şahı Məhəmməd Rza Pəhləvinin bacısı Əşrəf xanım, daha kimlər olmayıb bizdə... Qazax, Ağstafa, Borçalı, Sadıxlının çobanları evimizin qapısını döyürdülər tez-tez. Səmədin evinin gediş-gəlişli olduğunu görən zarafatcıl Süleyman Rüstəm evə “kolxoz kostinsası” adı qoymuşdu. Çox səxavətli, xeyirxah, rəhmdil idi Səməd, qızım. Quba, Qusar rayonlarından SSRİ Ali Sovetinə deputat seçilmişdi. O zaman müharibədən yenicə çıxmış camaatın əsas neftə, çaya, şəkərə, qaloşa çox böyük ehtiyacı vardı. Hər iki aydan bir Səməd “Sudabekir” maşını öz hesabına mallarla doldurub o rayonların əhalisinə göndərirdi. Neçə-neçə

adamın elmə gəlməsi onun adıyla bağlıdır. Başqa şəhərlərə oxumağa göndərilənlərə, imkansız ailələrə kömək edirdi. Yoxdur indi elə kişilər, qızım, yoxdur", – deyib Xavər xanım sükuta qərq oldu.

Sən də söhbətə qoşuldun: *"Atam Azərbaycan SSRİ Kommunist Partiyasının birinci katibi İmam Mustafayevə (1954-1956) məktub yazıb qoymuşdu. Məktubda hansı məsələlərə xüsusi diqqətin ayrılmalı olduğunu yazırdı: "Yollara, Azərbaycanın kənd rayonlarına, kiçik vətənim Qazaxı unutmamaq, Cənubi Azərbaycan məsələsinə... Taxıl, taxıl, yenə də taxıl... taxıl məhsulunu artırmaq... "Çörək bol olarsa, basılmaz vətən", – deyərək əminliklə vurğulayırdı: "Pambıqsız dolanmaq olar, çörəksiz yox..."*

Səməd ailəsinə, uşaqlarına bağlı idi. Qayğıkeş ər, ata idi. Əgər Xavər xanım uşaqlarına qarşı tələbkar idisə, Səmədin övladlarına verdiyi tərbiyə yalnız öz nümunəsi idi. O, uşaqlarıyla təkcə valideyn kimi yox, həm də yaxın bir dost kimi davranırdı. Öz övladlarına zorla nələri isə diktə eləməyə cəhd göstərməzdi. Hər hansı bir problem olanda onu yalnız əmin-amanlıqla yoluna qoyardı. Onunla məsləhətləşmək işin xeyrinə olurdu. Sənin xatirələrindən: *"Ömrüm boyu çox yazıçılar, şairlər, alimlər, siyasi xadimlərlə durub-oturmuşam, ancaq daxilən Səməd Vurğun qədər demokratik adam görməmişəm. Musiqini sevirdi. Mənə Baxın "Fuqo"sunu, "Xoral"ını... çaldırırdı. Qazax Seminariyasında skripka, saz, tütək çalmağı öyrənmişdi. Muğamatlarımızı, aşıq havalarını çox yaxşı bilirdi. Caz musiqisinin həvəskarı olmasa da,*

*mənim caz çalmağıma mane olmurdu. Vaqif Mustafazadə və başqa məktəb yoldaşlarım yığışardılar bizə, bəzən səhərə kimi caz çalardıq. Atam bir dəfə demirdi ki, bəsdirin, başım partlayır. Anam etiraz edəndə onu sakitləşdirərdi: "Xavər, təki çalsınlar, evdə, yanımızda olsunlar, qoymasaq, başqa yerə gedərlər..."*

Sən uşaqlıqda atanın nüfuzlu insan olduğunu hiss edirmişsən, həm də görürmüşsən ki, Stalin ondan böyükdür. Ona görə də Stalinin ölümünü arzulayırmışsan...

– Nuşa, uşaq idim, düşünürdüm nə qədər Stalin sağdır, atam birinci şəxs ola bilməz...

– Elədir, Stalinin nüfuzuyla müqayisə olunmasa da, Səməd Vurğun 40-50-ci illərdə SSRİ məkanında ən çox tanınan, sevilən azərbaycanlı idi. Onu Moskva küçələrində tanıyır, salamlaşırdılar.

– Ətrafdakıların ona olan münasibətini, hörmətini, müəyyən mənada mifə çevrilməsini gözlərimlə görmüşəm. Moskvada, sovet respublikalarında Səməd Vurğunu respublikanın nümayəndəsi kimi yox, özlərinə bərabər bir insan, böyük sənətkar, yaxın dost kimi qəbul edirdilər. Səməd Vurğun dostluq etməyi bacarırdı. Fadeyev, Şoloxov, Simonovla isti münasibətlər qurmuşdu. Sovet respublikalarında, Şərqi Avropa ölkələrində əziz qonaq idi. Onun əlaqələri Azərbaycan ədəbiyyatına, bütövlükdə mədəniyyəti və elminə çox şey verdi... Fadeyevin həyat yoldaşı Angelina Stepanova deyirdi ki, insanın xarici görünüşünə görə onun hansı peşənin sahibi olduğu-

nu demək çətindir. Yalnız iki nəfər: Boris Pasternak və Səməd Vurğun haqqında onların şair olduğunu səhvsiz demək mümkündür.

– Səməd Vurğunun yaddaqalan siması, xarizması ilə bağlı Sənin Londonda yaşadığın təsirli hadisəni xatırladım.

*"2002-ci ildə Milli Məclisin nümayəndə heyəti: deputatlar Səməd Seyidov, Asim Mollazadə, Azər Qasımov və mən Londonda olarkən İngiltərə parlamentinin deputatları bizi şam yeməyinə dəvət etdilər. Bizi ingilis deputatlarına təqdim etdilər. İlk olaraq məni təqdim edəndə "Səməd" adını eşidən 90 yaşlı lord mənə diqqətlə baxıb dedi: "Siz ikinci Səmədsiz ki, Tauerin qapısından keçirsiz. SSRİ-dən Suslovun rəhbərliyi ilə parlament üzvləri gələndə (1947-ci ildəki səfər nəzərdə tutulur) mən onda Lordlar Palatasında idim, nümayəndə heyətinin içində Bakıdan Səməd də vardı. Bizim qrupdan kimsə dedi: "Bu həmin Səmədin, Səməd Vurğunun oğludur". "Mən elə də təxmin etdim. Siz atanıza oxşayırsız" deyən lord onun yanında oturmağı təklif etdi".*

Bu hadisəni eşidən Xavər xanım çox pərişan halda: "Səməd, Allah sənə rəhmət eləsin, uzaq İngiltərədə də yaddaşlardasan... yarım əsrdən çox vaxt keçib..." – dedi.

Səməd adı Xavər xanımı nə qədər qürurlandırsa da, onun qəmə bürünmüş təəssüfünü də görməmək mümkün deyildi. Onun təəssüf hissinin dərinliyində gənc ikən itirdiyi ərinin, şair ömrüylə insan

ömrünü qat-qat üstələyən Səmədinin yoxluğuyla heç cürə barışmaq istəməməsi gizlənirdi...

Səməd Vurğun ilk dəfə Xavəri sevimli şair, pedaqoq Abdulla Şaiq Talıbzadənin evində görüb vurulub. Abdulla Şaiq Xavərin böyük bacısı Şahzadə xanımla evli idi. O zaman Xavər 14 yaşında olub. Səmədin evlənmək istəyində inad etdiyini görəndən sonra böyüklər onların görüşməyinə icazə veriblər. Bu razılığın alınmasında "Səməd istedadlı şairdir, böyük gələcəyi var" deyən Hüseyn Cavidin də böyük rolu olub. Şaiq əfəndinin evində təşkil olunan görüşdə Xavərə keçdiyi çətin və əzablı həyat yolundan danışan, qarşısına çıxan qızların kasıb olduğu üçün onunla ailə qurmaqdan imtina etdiklərini söyləyən Səməd gənc qızı çox kövrəldib, eşitdiklərindən ürəyi yumşalan Xavər tərəddüd etsə də, şairlə ailə qurmağa razılıq verib. Həmin axşam Səməd gənc sevgilisinə məktub göndərib:

*...Üzümə ilk dəfə gülən sən oldun,*
*Şairin qədrini bilən sən oldun.*
*...O gün qapınıza gəldi çoxları,*
*Fəqət sən dedin ki, ölməz sənətkar,*
*Mənim ölməzlərə məhəbbətim var.*

İki il nişanlı qalandan sonra 1934-cü ildə Səmədlə Xavərə toy məclisi qurulub. O unudulmaz günü Xavər xanım tez-tez xatırlayırdı. Kimlər olmayıb o toyda. Anası Bikə xanımın açdığı təmtəraqlı toy süfrəsinin ətrafına Abdulla Şaiq, Mikayıl Müşfiq, Hüseyn Cavid, Mirzə İbrahimov, Sabit Rəhman, Mehdi Hü-

seyn, Yusif Vəzir Çəmənzəminli və o dövrün digər tanınmış şəxsləri yığışıblar. Məclisin tamadası Əhməd Cavad olub. Xanəndə Hüseynağa Hacıbəyovun tarzən Qurban Pirimovun müşayiəti ilə oxuduğu təranələr toya xüsusi rəng qatıb.

Toy məclisinə bir dəstə qızın əhatəsində daxil olan ağ paltarlı, saçları ağ çiçəklərlə bəzədilmiş gənc gəlini görən Müşfiq ayağa qalxaraq, onun şərəfinə şeir deyir:

*Gecəyə aydımı, bəy gəlib çıxdı,*
*Günəşmi, yanında gəlinə bir bax!*
*Taledəndimi bu, qənirsizdilər,*
*Çəmənmi, əlində gülünə bir bax!*

*Bu el, bu obanın əziz Xavəri,*
*Olmaz mələklərdə tay-bərabəri,*
*Çağırın, kimlərin yoxdu xəbəri,*
*Səmədə saldığı meylinə bir bax!*

*Şairlər yığnağı qan qardaşıdı,*
*Səməd bəy bu gülün sarmaşığıdı.*
*Xavər məclislərin yaraşığıdı,*
*Sünbülmü, süsənmi, telinə bir bax!*

Bu yerdə alqış sədaları altında süfrəyə gətirilən plov dolu buludlara baxan Müşfiq gülə-gülə şeirini tamamlayıb:

*Plov gəldi, Müşfiq, təbin dayandı,*
*Boşqablar səsləndi, məclis oyandı.*
*Alın çəngəlləri, o yan-bu yandı,*
*Boşqabın içinə, çölünə bir bax!*

O gündən Səmədlə Xavərin birgə enişli-yoxuşlu ailə həyatı başlayıb. Xavər Səmədin ömrünə gözəllik gətirdi. Öz ailəsindən ilham alan şair daha məhsuldar işləyir, kitabları çıxdıqca ailənin ruzi-bərəkəti də artırdı. Səməd ömrünün sonuna kimi onun sevgisini rədd etmədiyinə, həyatda, sənətdə əldə etdiyi uğurlara görə Xavərə minnətdar oldu, qiymətli hədiyyələri ondan əsirgəmədi.

Onların həyatı çox ağır, çətin, sıxıntılarla, əsəb sarsıntılarıyla, haqsızlıqlarla dolu bir dövrə təsadüf etdi. O illərin ağrı-acısını Xavər də Səmədlə birgə yaşadı. Xalqın tarixi, keçmişi ilə bağlı yazdığı əsərlər ona baha otururdu. Millətçilikdə ittiham edilən Səməd Vurğun keçən əsrin 30-40-cı illərində təqib olunurdu.

– Nuşa, o kritik illərdən atamı onun səcdə qıldığım iradəsi çıxara bildi, bir də az da olsa, ov...

Ovçuluq Vəkilovlarda nəsildən-nəslə keçib. Səməd Vurğunun ulu babası, atası Yusif ağa mahir ovçu olublar. Yusif ağa ova tüfənglə yox, qızılquşla çıxırmış. Ata-babalarının ovçuluq ənənəsi Səməd Vurğuna, ondan da Sənə keçib.

– Atam peşəkar ovçu, çox sərrast atıcı olub. Ov ona təkcə həvəsinə, marağına görə yox, həm də səhhətinə, əhvali-ruhiyyəsinə görə lazım idi. O heç olmasa həftədə bir dəfə gərgin mühitdən aralanmalı, şəhərdən çıxmalı, təbiət qoynuna üz tutmalı idi. Ov ona hava-su kimi vacib idi. Ovla məşğul olmasaydı, Səməd Vurğun 50 yox, bəlkə də, 40 il yaşayardı...

Xavərlə Səmədin üç uşağı dünyaya gəldi: Yusif, Aybəniz və Sən. 1935-ci il dekabrın 25-də doğulan

ilk övladına Səməd atasının adını qoydu – Yusif. Onu "dədə" deyə çağırırdı. Yusifdən iki il sonra, 1937-ci il sentyabrın 9-da dünyaya göz açan Aybəniz Səmədin ən çox sevdiyi övladı idi. Lap uşaqkən anasını itirmiş Səməd Vurğun bu həsrətinə Aybənizlə son qoymuşdu. İki il sonra, 1939-cu il iyunun 5-də Sən dünyaya gəldin. Mikayıl Müşfiq və Frederik Qarsia Lorka ilə bir gündə.

Sizin hər üçünüzü Poeziyaya, Musiqiyə olan sevgi birləşdirir. Gitara səsini ispan poeziyasına hopduran Lorka, tar nəfəsini, "tar" sözünü şeirimizə qaytaran Müşfiq, klassik və caz musiqisini poeziyamıza gətirən Sən – Vaqif Səmədoğlu...

Lorka Franko diktaturasının, Müşfiq isə Stalin diktaturasının qurbanı oldu. Sən özünə qeyri-adi tərcümeyi-hal yazaraq, mənən onların aqibətini yaşadın: *"Doğuldum 1939-da, tutuldum 1937-də..."*

Bir dəfə Səndən Müşfiq poeziyası haqqında fikrini soruşdum. Üzündəki ifadəni unuda bilmirəm. Təəssüflə, ürək yanğısıyla dedin: "Təpədən-dırnağa şairdir. Hər nəfəsi, hər sözü yüksək poeziyadır. Heyif ondan..."

Sən doğulandan cəmi bir neçə saat sonra Səməd doğum evinə, Xavərə bir şeir çatdırdı. İlk misraları belə idi:

*Demək, oğlumuzun Vaqifdir adı!*
*O da olacaqdır şeirin ustadı!*

– Atanın şair fəhmiylə dediyi bu sözlər o zaman bir ata arzusu kimi səslənsə də, Sənin gələcək taleyini müəyyən etdi.

– Məni ilk dəfə bu dünyada şair kimi elan edib, adımı qoyan və tanıyan adam məhz Səməd Vurğun olub. Halbuki mənim də həyatım təsadüflərdən yoğurulmuş bir insan taleyidir, ancaq genetik amilləri də kənara qoymaq olmaz...

Lakin Sən dünyaya gəlməyə də bilərdin (bunu heç təsəvvür etmək belə istəmirəm!). Burada bizim talelərimiz çox oxşardır. Axı mənim də ailənin üçüncü övladı kimi doğulmağım planlaşdırılmayıb. Üçüncü uşaq valideyndən, xüsusən də anadan artıq zəhmət, qüvvə, vaxt tələb etdiyindən bəzən arzuolunmaz olur. Xavər xanım danışırdı ki, üçüncü uşağa hamilə qalanda Səmədin etirazına baxmayaraq, necə olursa olsun, ondan azad olmaq qərarına gəlib. Məlumdur ki, 1936-cı ildə SSRİ-də yaranmış mürəkkəb demoqrafik vəziyyət hakimiyyəti abortlara qadağa qoymağa məcbur etmişdi. Buna riayət etməyənləri – istər həkim olsun, istərsə də hamilə qadın – həbs cəzası gözləyirdi. Bu qadağalar çoxlu qadın ölümünə səbəb olan qeyri-leqal abortların sayını artırmışdı. Ancaq heç bir qadağa Xavəri qərarından döndərə bilmədi. Soraqlaşıb təcrübəli bir həkim taparaq Səmədlə onun qəbuluna getdi. Xavər prosedurun başlamasını gözlədiyi vaxt əllərini yuyub, ona yaxınlaşan həkim bərkdən asqırır. Tək səbir gətirir. Əlamətlərə inanan Xavər yerindən sıçrayaraq: "Yox, doktor, fikrimi dəyişdim, tək səbrin düşər-düşməzi olur", – deyib otaqdan çıxır. Qapının ağzında onu gözləyən Səməd işin nə yerdə olduğunu biləndə sevincək içəri keçib, həkimi bərk-bərk qucaqlayır. "Çox

sağ olun, doktor, nə yaxşı oldu, siz asqırdız, tək səbir gətirdiz", – deyərək çaşbaş qalmış həkimin böyük burnundan öpür. Xavərə də həmin gün bir üzük alır.

Anamın məni "məhv etmək" planını isə əmim arvadı alt-üst edib. Gəncədən gələn əmim arvadı anama səhər Qoriyə, atamın yanına gedəcəklərini bildirdikdə anam məsələni ona danışır, səhər həkimə gedəcəyini söyləyir. Əmim arvadı Qoridə də həkimlərin olduğunu deyir. Anam tanımadığı yerdə, tanımadığı həkimlərə abort etdirməyə qorxur, sonradan məsələdən agah olan atam da anamı fikrindən daşındıra bilir. Hə, Vaqif, Sən bu dünyaya gəlməyinə görə tək səbrə minnətdar olmalısan, mənsə əmim arvadının gözlənilməz gəlişinə. Deyirlər, təsadüf olmur, qanunauyğunluq olur. O qanunauyğunluq ki, bizə – iki ailənin sonbeşiyinə, çox illər sonra onların görüşməsi üçün hər birinə ömür payı bağışlayıb...

Üç övlad anası olmasına baxmayaraq, Xavər iradəsi hesabına yığcam, baxımlı görkəmini saxlaya bilmişdi. Səmədin təkidiylə ali təhsil də almağa imkan tapmışdı. Yüksək dairələrdə geyimi, davranışıyla seçilən, diqqətlə əhatə olunan təkəbbürlü Xavər başa düşürdü ki, onun, ailəsinin adı Səmədinin uğurları, şan-şöhrətiylə ölçülür. Bunu övladları da hiss edirdilər.

Səmədin gözlənilməz xəstəliyi ilə illərlə qazanılan mövqe bir göz qırpımında itirilə bilərdi. Tale Xavəri həyatının ən böyük sınağına çəkdi. Səməd Moskvada Kreml xəstəxanasına yerləşdirildi. Onu əməliyyat edən xəstəxananın baş cərrahı Boris Petrovski yaranı

açdıqda gördüyündən məyus halda deyib:

– Starik projil svoyo. (Qoca öz həyatını yaşayıb artıq).

Əməliyyatda iştirak edən (Səməd Vurğunun qohumu, Səhiyyə Nazirliyinin məsul işçisi) Fəxri Vəkilov kədərlə dillənib:

– Kakoy starik? Emu net i pyatidesyati. (Nə qoca, onun heç əlli yaşı yoxdur).

Əməliyyata başlamadan yaranı tikən cərrah:

– Eqo orqanizm kak u çeloveka, projivşeqo vosemdesyat let (onun orqanizmi 80 yaşlı adamınkı kimidir), – deyərək dərindən ah çəkib.

37, 48 və 52-ci illərin faciəsini, iztirablarını, çarpışmalarını yaşayasan, təhdidlərə dözəsən, Stalinin ölümündən sonra bütün haqsızlıqlar üzə çıxıb aşkarlansın... Bütün bunlara tab gətirə bilərdimi həssasqəlbli Səməd Vurğun? Vaqif, Sən necə də haqlısan, Səməd Vurğun da repressiya qurbanıdır. Bəzən valideynin faciəsini övladlar daha ağır yaşayırlar. Faciənin mənəvi yükünü ömürlərinin sonuna kimi ürəklərində daşıyırlar. Mən düşünürəm ki, atanın yaşadığı faciə həm də Sənin daxili faciən oldu. Mən heç vaxt Səninlə bu haqda danışmadım. Çünki elə həssas, incə məqamlar var ki, onlara toxunmamaq daha yaxşıdır...

Uşaq kimi təmiz, məsum, iri gözlərinin qəmi, kədəri ancaq onlar yumulanda çəkilib getdi...

Tanrı Sənə çox böyük vergi vermişdi. İstər musiqidə, istərsə də hər hansı başqa sahədə bu vergi özünü mütləq göstərəcəkdi. Ancaq Sən şeir dün-

yasını seçdin. Sənin şair olmaq istəyin, bəlkə də, Səməd Vurğun ağrılarından doğuldu. Sən "şeirimizə Səməd Vurğunun içində boğduğu, güclə cilovladığı Azadlığı kimi gəldin". (Tənqidçi İradə Musayeva)

Səməd son günlərini yaşayırdı. O, axıra kimi gücünü toplayaraq xəstəliyə sinə gərməyə çalışırdı. İncə, zərif hisslər bəslədiyi Xavərinə bu halında belə mehriban baxışlarla ürək-dirək vermək istəyirdi. Xavər hər dəfə Səmədin yaşından qabaq ağarmış yumşaq saçlarını oxşadıqda, onları öpdükdə göz yaşlarını gizlədərək özünü olduğundan güclü göstərmək istəyir, bəzən də iztirablarını büruzə verməmək üçün soyuqqanlılıq nümayiş etdirirdi. Bu gənc qadının nələr çəkdiyini yalnız onun etdiyi duaları eşidən kəslər duya bilərdi. Ancaq ölüm artıq öz seçimini etmişdi...

1956-cı il mayın 12-də Opera və Balet Teatrında Səməd Vurğunun 50 illik yubileyi böyük təntənəylə keçirildi. Bu yubiley mərasiminə dünyanın müxtəlif ölkələrindən qonaqlar qatılmışdılar. Səhnəyə çıxanlar gecəyə gələ bilməyən Səməd Vurğuna müraciət edirdilər. Tədbir radioyla yayımlanırdı. Yubiley gecəsindən sonra yüzlərlə insan şairin yaşadığı evə doğru hərəkət etdi və sükut içində xeyli vaxt eyvanının qarşısında durdu.

Səməd Vurğun onun yubileyi münasibətilə təsis edilən "Xalq şairi" fəxri adına layiq görüldü. Lakin ölüm yatağında olan şair bu adın sevincini yaşaya bilmədi. 42 il sonra Yusif də atasının taleyi ilə qarşılaşdı. 1998-ci ildə ona "Xalq yazıçısı" adı veriləndə o,

yataqda ölümlə çarpışırdı. 2014-cü ildə Sən sağalmaz xəstəliyin girdabında olanda "İstiqlal" ordeninə layiq görüldün...

1956-cı ildə Sənin buraxılış imtahanın. Həyəcan, nigaranlıq içində mayın 13-dəki konsertə hazırlaşırsan. Musiqi məktəbinin (indiki Bülbül adına Orta İxtisas Musiqi Məktəbi) əlaçı məzunu kimi filarmoniyada maestro Niyazinin dirijorluğu altında orkestrlə Raxmaninovun birinci konsertini pianoda ifa etdin. Uğurlu ifa, alqışlar, güllər... O gecənin təsiri altında Yusif "Güllər" hekayəsini yazır, Sənə həsr edir. *"... Konsert bitir. Onu alqışlayır, gül-çiçək dəstələri bağışlayırlar. Ancaq oğlanın gözlərində sevinc yerinə qüssə görünür. Çünki həmin anlarda evdə xəstə yatağında olan atasını düşünür. O, aldığı gül dəstələrini sinəsinə sıxıb konsert salonundan çıxır. Evə tələsir. Atasını görmək, gül dəstəsini ona vermək ən böyük arzusudur bu anlarda..."*

Bu hekayənin qəhrəmanı Sənsən. Yataqda həyatının son günlərini yaşayan xəstə atan Səməd Vurğundur. Bu çıxışından düz on dörd gün sonra, 1956-cı il may ayının 27-də atan dünyasını dəyişdi. Konsertdə Sənə verilən gül dəstələrindən hələ də güldanda qalanları vardı, sevinc rəmzi olan o güllər atanın tabutu önünə qoyuldu, *"...Bəzən göz yaşı gətirir bir çiçək yağışı..."* Sənin xatirələrindən: *"Həmin günlərdə çəkdiyim mənəvi ağrıları, sən demə, mənim qədər anlayan bir insan var imiş. Bunu qardaşımın "Güllər" hekayəsini oxuyanda başa düşdüm..."*

Atanın ölümü Xavərin, gənclik dövrünüzü yaşa-

yan sizin şüurunuzda alışdığınız aləmin dağılması idi. Sən bu itkinin acısıyla yaşadın illər uzunu...

*Həmişə bir yana, bir yerə gedəndə*
*məktub göndərərdin*
*Londondan, Berlindən,*
*Vroslavdan, Pekindən.*
*Nə bilim,*
*dünyanın min yerindən*
*məktubların gələrdi qapımıza.*
*Zərflərə yapışdırdığın neçə ölkənin*
*neçə rəsmli markalarından*
*duyardıq əlinin istisini,*
*toxunardı üzümüzə*
*cavan ölmüş Məhbub nənəmin*
*Salahlıdan dünyaya getmiş*
*qarayanız oğlunun nəfəsi...*

Sənin həyatda qarşılaşacağın bütün çətinliklərin arxasında gözəgörünməz ata boşluğu duracaq...

*...Atamı səslədim*
*köməyə gəlsin,*
*gördüm yox,*
*arada qəbir dayanıb...*

Bir dəfə Səndən soruşdum:

– Vaqif, keçmişindən kiminlə görüşmək istərdin?

– İlk növbədə atamla.

– Nə soruşardın ondan?

– Qucaqlayıb öpərdim və soruşardım: “Nə vaxt ova gedirik?” Nə ədəbiyyat, nə siyasət yadıma dü-

şərdi. Yalnız ov, çöl, qamışlıq, tüfəng... Ata istisi, ata nəfəsi, onun papiros çəkməyi, ağ bığlarının nikotindən saralması, yəni ata... ancaq bağrıma basardım...

Bilirsən, Vaqif, mən əminəm, əgər siz atanızı 50 yaşında itirməsəydiniz, üçünüzün də: Yusifin də, Aybənizin də, Sənin də taleyiniz tamam başqa cür olardı...

Səmədin yoxluğuyla Xavərin gözündə dünya da kiçildi. O, otaqları bir-bir gəzib-dolaşır, Səmədin kabinetinə girərək saatlarla oradan çıxmır, Səmədin əli dəyən əşyalarla təkbətək qalır, onlarla danışırdı sanki. Bu kədərli məqamlar Xavərin rahatlıq tapmayan ruhuna bir qədər sakitlik gətirirdi. (Ömrünün sonuna kimi bu varlıq rahatlıq tapmadı). Ürəyi Səmədin soyuq torpaqda yatmasıyla barışmasa da, ağlı deyirdi: "İndi ailənin kişisi də, arvadı da sənsən. Sən güclü olmalısan". Səmədin ölümündən sonra ailənin dağılacağını deyən, uşaqların qeyri-müəyyən gələcəyi haqda düşünən bədxahlara layiqli cavab ailənin möhkəmliyi ola bilərdi.

Yusif Qorki adına Moskva Ədəbiyyat İnstitutunun 5-ci kursundan Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə keçdi. Evin böyük oğlunun Bakıda olması məsləhət görüldü. Vaqif Azərbaycan Dövlət Konservatoriyasının Fortepiano şöbəsinin I kurs tələbəsi oldu, Aybəniz ADUnun Filologiya fakültəsində təhsil alırdı. Hər kəs öz işiylə məşğul idi. Ailə ətrafında səngimək bilməyən dedi-qodular onların tutduqları yolun düzgünlüyünə inamlarını artırırdı.

Övladları analarının çəkdiyi ağrının ağırlığını duya

bilməsələr də, ona qarşı diqqətli olmağa çalışırdılar. Çətinliklə də olsa, Xavər həyata qayıdırdı. Xavərin buz bağlamış ürəyini, evini ilk isidən Aybənizin qızının – ilk nəvəsi Aygünün dünyaya gəlməsi oldu. 40 yaşında hələ qadın xoşbəxtliyindən doymayan Xavər nicatını içində baş qaldıran ana, nənə hisslərinə bürünmüş sevgisində tapdı. Bir qədər sonra böyük oğlu Yusifin “evlənirəm” deməsi Səmədin ocağına gəlin gələcək fikrinin sevincini yaşatdı Xavərə. Bütün bunlar üçün o, üstündən əskik olmayan Səmədin kölgəsinə, bir də Tanrıya minnətdar idi. Xavərin bütün həyatını uşaqlarının, nəvələrinin, xüsusilə yanında böyüyən Aygünün qayğısı, məhəbbəti tutmuşdu. Çətin günlərdə övladları korluq çəkməsinlər deyə Səmədin ona aldığı zinət əşyalarını satıb, onlara xərcləyirdi. Övlad nə qədər balacadır, valideyndən asılı olur. Valideyn yaşlananda doğmalarının diqqətinə ehtiyac duyur. Çünki insanı həyata bağlayan ən ümdə səbəb onun lazımlılığı, istənilməsidir, xüsusən də yaşlananda. Xavər də müstəqil həyata qədəm qoymuş, ailə sahibi olan uşaqlarından etdiklərinin müqabilində az da olsa, cavab görmədikdə qəlbində baş qaldıran gərəksizlik hissi onu sovurub xatirələr məskəninə, Səmədli günlərinə aparırdı. İnciyirdi, küsürdü özündən, taleyindən, uşaqlarından. Ancaq ana ürəyidi, uzun sürmürdü narazılığı.

Tale 80 yaşlı Xavər xanıma daha bir ağır zərbə vurdu. Oğul itkisini, Yusifin yoxluğunu yaşatdı ona. Sən dedin: “*Anama baxıram, qucağı boşalıb, üç qarın doğsa da, sonsuz qadına bənzəməyə başla-*

*yıb..."* 2006-cı il yanvarın 6-da, Xavər xanım, çox sakit, rahat bu dünyadan köçdü. "Mən Səmədi özütək sevməyi ölümündən sonra öyrəndim" deyən Xavər xanım şairin vəfatından sonra onun soyadını götürdü, bir nişan üzüyü alıb, içinə özünün və Səmədin adını yazdırdı. Vəsiyyət etdi ki, öləndə Səmədin şəklini, həmin nişan üzüyünü sinəsinin üstünə qoyub dəfn etsinlər. Lakin molla məsləhət görmədi. İndi həmin üzük Səməd Vurğunun ev muzeyində, Xavər xanımın guşəsində saxlanılır.

Xavər xanım muzeydən götürüldü. Onu yola salmağa xeyli adam gəlmişdi, elə bil bütün Bakı Səməd Vurğunun Xavəri ilə vidalaşırdı. Ananın itkisini Sən özünəməxsus tərzdə ifadə etdin:

*Səksən səkkiz yaşında*
*dəyişdin dünyanı.*
*Altmış altı yaşımda*
*basdırdım səni.*
*Səksən səkkiz – sən,*
*altmış altı – mən,*
*Ana,*
*tez kəsdin məni süddən...*

Xavər xanım mənim anamdan sonra köçdü dünyadan. Onunla birgə həyatımızdan sonuncu ana qayğısı da getdi, baxmayaraq ki, Sən baba idin, mən nənə.

Bizim Səninlə birgə həyatımız bir dam altında yaşamağa öyrəşməklə başladı. Yeddi ildir tanış olsaq da, elə bil bir-birimizi yenidən kəşf edirdik. Birdən-birə səbəbini anlamadığım tutulmağın olurdu,

qısqanclıq da baş verirdi. İnciyirdik, barışırdıq. Bu, asan başa gəlmirdi Sənin həssas, kövrək şair təbiətini nəzərə alsam belə. Kəskinliyini, qəfildən üzünün döndüyünü, sərtləşdiyini görür, küsülülük dərinləşməsin deyə ilk addımı mən atırdım. Sənin əhvalını duymaq, ona uyğun davranmağı öyrənirdim. Dözümüm özümü də təəccübləndirirdi bəzən.

İnsanın sevgi həddi onun yaşadığı ömrə bərabərdir. Bu yaşda gələn sevgi (bəzən uğursuz nikahdan sonra da gələ bilir) əksər hallarda gənclikdə oyanan hisslərdən daha möhkəm olur. Əlbəttə, məhəbbətə hədd qoymaq olmaz, o da bizimlə birgə öz taleyini yaşayır, ancaq heç vaxt qocalmır. Yalnız gəncliyə məxsus ehtiras, şövq yaş ötdükcə yerini bağlılıq, qayğı kimi nəcib, həssas hisslərə verir. Sənə verilən hər günün, hər saatın qədrini bilirsən, sevdiyin insanı itirməkdən qorxursan. Qadının xəstə ərə sevgiylə qulluq edib, ürək yanğısıyla ona yanaşması da məhəbbətin göstəricisidir. Yaş ötdükcə qadın məhəbbəti daha mehriban, daha müdrik olur. Sevgi varsa, bu duyğular sona kimi onu tərk etmir.

Sənin həyatında əvvəllər də başqa qızlar, qadınlar olub. Kimsə xoşuna gəlib, kiməsə vurulmusan. Səni də sevən, arzulayan qızlar, qadınlar az olmayıb. Görüşmüsən, ayrılmısan. İki dəfə evli olmusan. Lakin bu münasibətlər çox sürməyib...

*Mənə sevib ayrılmağa bir qadın verin,*
*Ürəyimdə bir ayrılıq qəribsəyib*
*Və bu ayrılıqdan bir şeir...*

Mənimlə hər şey başqa cür oldu...

Yadımdadır Nizami Muzeyində Sənin 60 illiyinə həsr edilmiş tədbirdəki çıxışında qeyd edəndə ki "sovet dövründə iki dəfə, müstəqilliyimizdən sonra bir dəfə evlənmişəm", Ramiz Rövşənin ucadan "Müstəqilliyimiz əbədidir!" deməsi...

İlk gündən Sən mənim anama böyük hörmətlə yanaşdın. Anamın baxımlı olması, nəzakətli davranışı, xanımlığı Sənin ailənə də sevdirmişdi onu. Deyirdin: *"Qadına xas bütün gözəl keyfiyyətləri Şəfiqə xanımda görürəm. Ömür-gün yoldaşı, ana, nənə..."* Ailəmizdə atamın sevgiylə, hörmətlə yad edilməsini anamın müdrikliyində görür, yorulmadan təkrarlayırdın: *"Kişinin möhkəm arxası olanda ailəsi də möhkəm olur, işləri də uğurlu..."*

Bizim ailə altı nəfərdən ibarət idi: nənəm Püstəbəyim, atam Rəşid Qaraoğlu, anam Şəfiqə Nurəddinqızı, qardaşım Mobil, bacım Esmira və mən. Uşaqlıq xəyallarımda mənim quracağım ailə də altı nəfərdən ibarət olacaqdı. Otağımıza qoyulmuş palıd ağacından olan qədim, böyük, dəyirmi masa mənimçün hamımızı bir yerə yığan ailə rəmzi idi. Hərənin öz yeri vardı masa arxasında. Və buna ciddi riayət olunurdu. Əlamətdar günlərdə masa iki dəfə böyüyür, səxavətlə qoynundakı yeməkləri hamıyla bölüşürdü. Uşaq ikən düşünürdüm ki, anamın mənə verəcəyi ən qiymətli, xüsusi yeri, çəkisi olacaq cehiz ata evindən gətirəcəyim bu masa olacaq, ayaqlarındakı nəfis işləmələrə, naxışlara baxmaqdan doymadığım masa.

Bu arzularla masaya özüm qulluq edirdim. Əsl sənət əsəri olan bu bəzəklərin tozunu alır, parıldasın deyə xüsusi məhlulla silirdim. Anamın masanın üstünə örtdüyü, üzərində ipək saplardan salınmış zərif tikişləri olan süfrə masaya bir şahanəlik verirdi. Masa da bu qayğını, əzizləməni görüb, ikinci ömrünü yaşayırdı sanki. Sonradan bilmədim evimizmi bu masaya, ya masamı evimizə dar gəldi. Bildiyim o oldu ki, masanı yeni, müasir, görkəmsiz bir masayla əvəzlədilər. Nə məni eşitdilər, nə də göz yaşlarıma məhəl qoydular. Bunu bir uşaq şıltaqlığı sandılar. Elə həmin gün mənim uşaqlıq arzuma xitam verildi...

Atam anamla Bakıda tanış olub. Atamın 19, anamın 17 yaşı olanda. Ağbəniz, nərmənazik, açıq-şabalıdı saçlı, incə çöhrəli gənc qızı görən kimi atam ona vurulub. Anam o zaman tibb texnikumunda əczaçılıq üzrə təhsil alırdı. Əlaçı olan anamın arzusu təhsilini Tibb İnstitutunda davam etdirmək, həkim olmaq idi. Öz istəyində qətiyyətli olan atam anamın razılığını alsa da, Bahar nənəm qızının "gənc gəncəli balasıynan" evliliyinə razı olmur (atam bunu hərdən yada salırdı). Gəncədən Bakıya elçiliyə gələn kişiləri qəbul edən anamın əmisi Sədi söhbət zamanı atamın mərhum atasını – Qara bəyi tanıyır, "O kişinin oğluna etibar etmək olar", – deyərək içilən çayları şirin edir. Zaman ötdükcə atam qayınanasının bütün şəkk-şübhələrini alt-üst etmiş, ona və yaxınlarına arxa-dayaq olmuşdu.

Bir il sonra atam anamı Gəncəyə gəlin aparır, mayın 14-də onlara toy məclisi qurulur. O günü atam

həyatının ən xoşbəxt günü sayırdı və ömrünün sonuna kimi həyatında bir qadının olduğunu və yalnız onu sevdiyini deyirdi. Öz hisslərinə ağalıq etməyi bacaran anamdan “Atam səni özünə nəylə cəlb etdi?” soruşduqda: “İri ala gözləri və inadkarlığıyla...” – deyirdi.

Anamı həkim olmaq istəyindən atamla evliliyi, uşaqların doğulması uzaqlaşdırdı. Lakin ali təhsil almaq həvəsində israrlı olan anam mən doğulandan sonra Pedaqoji İnstitutun (indiki Pedaqoji Universitet) qiyabi şöbəsinə daxil olmuş və oranı müvəffəqiyyətlə bitirmişdi. Anamı dəfələrlə instituta dərs deməyə dəvət etsələr də, atam qətiyyətlə etiraz edib, “mən öləndən sonra işləyərsən” hökmünü verib. Atam anama qarşı qısqanclıqla yanaşsa da, bizə – övladlarına qarşı daha demokratik idi. Anam atamın adını həmişə uca tuturdu. Biz də onu o ucalıqda görürdük. Yadıma gəlmir ki, anam nə vaxtsa atamla mübahisə etsin, ucadan nəsə desin. Əgər aralarında, adətən, anamdan gələn hər hansı bir inciklik, küskünlük baş verirdisə, bu biz uşaqların yanında müzakirəyə çevrilmirdi. Hər sözünü ölçüb-biçirdi anam. Bizə deyərdi ki, heç vaxt axır sözünüzü əvvəl deməyin. Atamı dedi-qodulardan, xırda-xuruş söz-söhbətlərdən uzaq saxlayır, özü də bu cür çəkişmələrə baş qoşmurdu. Atamızın yanında bizi heç vaxt danlamazdı. Qohum-qonşu onun evdarlıq qabiliyyətindən, zövqlə qurub-yaratdığı rahatlıqdan danışır, ondan görüb-götürməyə çalışırdı. Öz görünüşünə həmişə fikir verərdi mənim gözəl anam.

Atamın işdən gəlməsi üçün mütləq əynini dəyişər, ətirlənərdi. Anamda olan dözüm, təmkin, müdriklik, bəlkə də, qəriblikdə ölmüş atasına olan nisgildən qaynaqlanırdı.

Anamın əsli-kökü Şamaxıdandır. Şamaxıda ermənilərin yerli əhaliyə qarşı törətdiyi qırğın anamın anası Bahar nənəmin də ailəsindən yan keçməyib. Bahar nənəmin yadında qalanlardan: "Ailəmiz süfrə başına yenicə oturmuşdu, kimsə küçədə qışqırdı: "Ermənilər!" Atam anama dedi: "Uşaqları götür, tez qaçın". Özü və əmim qılınc, balta götürüb eşiyə qaçdılar. Anam yerə kimi uzun, qalın saçlarında qızılları gizlədib, hörük hörərək yığdı. Bacım, anamın qucağında kiçik qardaşım və mən dal qapıdan dağlara tərəf qaçdıq. Arxaya baxanda yanan evimizi gördük. Evdə atamın mənə Rusiyadan gətirdiyi sevimli gəlinciyim qalmışdı. Soyuq idi. Susuz-çörəksiz, sonu görünməyən daşlı-kəsəkli yollarda qardaş-bacımı itirdim. Anam xəstələndi. Görünməz əzab-əziyyətlə Ağdaşa çatdıq. Dayımgildə qaldıq. Anam yollarda keçirdiyi iztirablardan özünə gəlmədi, bir müddət sonra dünyasını dəyişdi. Ardınca atamın və əmimin savaşda həlak olması xəbərini aldıq. Bir müddət sonra bizə elçi gəldi. Gələcək qayınanam məni hamamda görüb bəyənmişdi. Dayımgil məni bir tacirə ərə verdi. Xoşbəxtlikdən, bəxtimə alicənab adam çıxdı. Sonra Bakıya köçdük..."

Anamın atası iki qardaş olublar: Nurəddin və Sədi. Onlar zəhmətləri hesabına var-dövlət toplaya bilmiş, Azərbaycanın bir neçə rayonunda çoxlu

mal-qara saxlayıb, qatıq, xama, yağ, pendir hazırlayan fabriklər açmış, dükan sahibi olmuşlar. Tacir kimi Şərq ölkələrində çox gəzib-dolanıblar. Təkcə Bakıda bir neçə mülkün sahibi idilər. Sovet hökumətinin kəsən qılıncı anamgilin də ailəsini yaralamışdı. Anamın atası Nurəddin 1930-cu illərin əvvəllərində "qolçomaq" damğasıyla tutulmuş, evi müsadirə edilmiş, özü yayda qızmar, qışda sazaq Qazaxıstan çöllərinə sürgün edilmiş, orada da faciəli ömrü sona yetmişdi – dörd uşağını, gənc arvadını başsız qoyaraq. Anamın uşaqlıq yaddaşında atası yuxu kimi qalmışdı. Anamın əmisi Sədi qardaşının ölümündən sonra onun ailəsini öz himayəsinə götürmüş, sonradan anasının tövsiyəsiylə Bahar nənəmlə ər-arvad olmuşlar. Onlar çox mehriban dolanırdılar. Anam, atam ona "əmi" deyirdilər, bizimçünsə o ən mehriban baba idi.

Bahar nənəm fəxrlə deyərdi ki, Səməd Vurğunla bir ildə, bir gündə doğulub. Oxumağa böyük həvəsi olan Bahar 2-3 il gecə məktəbində savad alıb, sonra təhsilini davam etdirmək istəsə də, qayınanası imkan verməyib. Bahar nənəmin gözəl hafizəsi vardı. Xaqanini, Sabiri əzbərdən söyləyir, çoxlu tapmacalar, nağıllar bilir, yerli-yerində zərbi-məsəllərdən istifadə etməyi xoşlayırdı. Yurd-yuvasını uşaq ikən tərk etsə də, içində bir Şamaxı həsrəti yaşayırdı. Hər hansı bir tanınmış adamın şamaxılı olmasını eşitdikdə ürəyi fərəhdən çırpınar, gözlərinin içi gülərdi. Onun biş-düşünə isə söz ola bilməzdi. Örtdüyü ipək örpəklər, vurduğu ətirlər Bahar nənəmin görkəmli

görünüşünə xüsusi təravət verirdi.

Sən ilk tanışlığımızda soruşdun:

– *Haralısan?*

– Atam Gəncədəndir.

– *Bizim adamdır, Gəncəbasar zonasındandır,* – dedin.

Müsbət fikirlər eşitmişdin onu tanıyanlardan, özüylə şəxsən tanış ola bilmədiyin üçün heyifsilənirdin. Atam gəncəli olmasıyla fəxr edirdi. Bizim Gəncədəki baba evimiz Ozan məhəlləsində idi. Sərdar bağının (indiki Xan bağı) yanında. Atamın atası Qara bəy tacir olub. Atam on beş yaşında olarkən o, dünyasını dəyişib. Nənəm Püstəbəyim həyatında xeyli itki yaşamışdı. Ər, oğul, qız... Keçən əsrin 20-ci illərinin sonlarında nənəmin çox bağlı olduğu bacı-qardaşları Azərbaycanı tərk etmək məcburiyyətində qalıblar. Nənəm 35 il onların həsrətiylə yaşadı. Yalnız 1966-cı ildə Türkiyədə onlara qovuşa bildi.

Nənəmin valideynləri Gəncənin adlı-sanlı nəslindən olub. Gəncədə vəqflər müdiri olmuş atası Hacı Seyid Əhməd ağa Talışxanlı nəslindən olmaqla kökü Ərdəbildən idi. Anası Minabəyim xanım Xanbudaqova çox zəngin ailənin qızı olub. Nənəm Püstəbəyim danışırdı ki, anası Minabəyimə Seyid Əhməd ağanın ailəsi elçi düşəndə onun zəhmli atası Böyükağa bəy Xanbudaqov onlara rədd cavabı verib. Ancaq səhəri gün yuxudan durar-durmaz Böyükağa bəyin nökərləri tez-tələsik bazara göndərməsi, evdəkilərə “Hazırlıq görün, dünənki elçiləri də geri çağırın, qızı verirəm” deməsi hamıda çaşqınlıq yaradıb. Sonra o,

gecə gördüyü dəhşətli yuxunu danışıb. Yuxuda ona: "Sən o cür mömin, nəcib ailənin qəlbini sındırdığın üçün bütün nəslin qırılacaq", – deyiblər. Beləcə, Xanbudaqov və Talışxanlı nəsillərini bir-birinə qatıb yoğuran bir yuxu yüzlərlə bir-birindən fərqli, bir-birinə oxşar, müxtəlif taleli insanların dünyaya gəlməsinə səbəb olub.

Minabəyim xanımla Mir Hacı Seyid Əhməd ağanın ailəsində beş uşaq dünyaya gəlib: nənəm Püstəbəyim, Mir İsmayıl, Ülkərbəyim, Mir Davud və Balacabəyim. Əhməd ağa bütün uşaqlarının doğum tarixini Quran kitabının cildindəki boş səhifədə qeyd edirmiş. Bunun da əsasında doğum şəhadətnaməsi alınırmış. Hacı Seyid Əhməd ağa böyük maraq dairəsinə malik geniş dünyagörüşlü, yaradıcı bir insan olub. Rəssamlığı, xəttatlığı olub. Foto həvəskarı imiş. Mütaliə etməyi çox sevirmiş. Yağlı boya ilə çəkilmiş əsərləri, çox təəssüf ki, Gəncədə it-bata düşüb. Yalnız karandaşla çəkdiyi, 1911-ci ilə aid Gəncə tarixində önəmli rol oynamış özəl insanların portretlərindən ibarət rəsm dəftəri qorunub saxlanılıb. Oğlu Mir İsmayıl Azərbaycanı tərk edəndə bu rəsm dəftərini özüylə götürüb.

O, üç dəfə həcc ziyarətində olub. Bu ziyarətlərin birindən geri dönəndə İstanbulda fotoaparat (çox güman ki, bu, 1900-cü ildə dünyada çox məşhur olan "Brownie" fotoaparatı olub) və teleskop alıb. Evinin damında quraşdırdığı teleskopla ulduzları, göy cisimlərini izləyirmiş. Cəmi 47 il ömür sürmüş Hacı Seyid Əhməd ağa 1917-ci ildə vəfat edib və İmamzadədə

ata-babasının yanında dəfn olunub. Hacı Seyid Əhməd ağa özünün elmə, texnikaya olan böyük marağını oğul övladlarına aşılaya bilib. Onlar ali təhsilli mühəndis səviyyəsinə yüksəliblər. Mir İsmayıl Seyidzadə Berlində Şarlottenburq Texniki Universitetini bitirərək yüksək elektrik mühəndisi diplomunu (1924), Mir Davud Seyidzadə Karlsruhe Texniki Universitetini bitirərək maşın mühəndisliyi diplomunu (1936) alıb. Mir İsmayıl Seyidzadə 1918-ci ildə Azərbaycan hökumətinin Avropaya təhsil almağa göndərdiyi yüz gəncdən biri idi. Yeri gəlmişkən, Azərbaycan Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəyli nənəmin xalası oğludur.

Mir İsmayıl Berlində sevib evləndiyi Helena adlı alman qızı (gəldiyi ilk gündən qohumlar tərəfindən sevilən Helenanı nənəmgil azərbaycansayağı Leyla deyə çağırmış və ömrünün sonuna kimi o bu adı daşımışdı) və yenicə doğulmuş Nuri adında oğlu ilə 1920-ci illərin sonlarında sovet rejimindən qaçaraq Türkiyəyə sığınıb. Sonradan qardaşı Mir Davud və bacısı Ülkərbəyim də ailəsiylə Azərbaycanı tərk edərək, Türkiyədə məskunlaşıblar. Türkiyə vətəndaşlığı aldıqdan sonra hər iki qardaş Saryal soyadını qəbul edib. (Saryal – Gəncə yaxınlığındakı Sarı yal dağının adından götürülüb).

Mir İsmayıl Ankarada Elektrik və Havaqazı Fabrikində baş mühəndis vəzifəsində çalışıb. Mir Davud İzmirdə Cer Atolyesində müdir, Ülkərbəyimin böyük oğlu Nurəddin Xəzər Ziraat Bankında baş direktorun müavini vəzifəsinə kimi yüksəliblər. Nurəddin bəy

Ziraat Bankının tarixinə dair böyükhəcmli, sanballı bir kitab yazıb.

Mir İsmayılın yeganə oğlu, maşın mühəndisliyi diplomu alan Nuri Saryal bu sahədə böyük nailiyyətlər əldə edib, Türkiyənin, Almaniyanın tanınmış alimlərindən biri olub. Nuri bəy Türkiyədə ilk hərbi raket ixtira edənlərdəndir. Böyük zəka və bilik sahibi olan Nuri bəy Ankarada Orta Doğu Texniki Universitetini yaradanlardan olub, bir müddət bu universitetin rektoru vəzifəsində çalışıb. Nuri bəy Türkiyədə böyüsə də, onun Azərbaycana, ata yurduna olan məhəbbəti sonsuz idi. İki dəfə rəsmi dəvətlə Azərbaycanda olub. İlk gəlişində Bakıda anadan olduğu evi tapdı, Gəncəyə – ata yurduna getdi. Gəncəni çox bəyəndi Nuri bəy, Bakıdan çox. "Gəncənin öz siması var", – dedi.

1991-ci ildə mən Türkiyədə Nuri bəylə Nəriman xanımın qonağı oldum. İlk növbədə Ankarada Mir İsmayıl bəylə Leyla xanımın, Mir Davud bəyin, Ülkərbəyimin qəbirlərini ziyarət etdim. Barələrində çox eşitdiyim, görmək istədiyim, ancaq görə bilmədiyim insanların. Düzdür, Ülkərbəyim xanımı görmüşdüm, kiçik oğlu Altay Xəzərlə Bakıda, bizdə qonaq olanda.

Nuri bəy ailəsiylə atası Mir İsmayıl Saryalın Ankaranın mərkəzində öz layihəsi əsasında tikdirdiyi dördmərtəbəli evdə yaşayırdı. O, binanın bir divarını Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağına olan sadiqliyinin rəmzi kimi üçrəngli (göy, qırmızı, yaşıl) enli zolaq şəklində hördürüb. Qonşuluqda yaşayanlar bu üçrəngli zolağı binanın bəzəyi sanıb, öz

evlərinin divarını da bu cür hördürmüşlər. Və Ankaranın o məhəlləsində üçrəngli zolaqları olan binaların sayı artıb. O qonşular haradan bilərdilər ki, bu evin yiyəsinin – sovet rejiminin caynağından qurtulmaq üçün məmləkətini tərk etməyə məcbur olmuş Mir İsmayılın içində bir vətən həsrəti yaşayır və evinin divarına hördürdüyü Azərbaycan bayrağı onun üçün bir təsəllidir. Vətən həsrəti Mir İsmayılı və onun kimi bir neçə dostunu Azərbaycan Kültür Dərnəyini yaratmağa həvəsləndirib (1948). *Ayrılıq da, qürbət də xəstəlikdir, yoluxucu azardır ikisi də...*

Otağında yaratdığı Azərbaycan guşəsi Mir İsmayılın rahatlıq tapdığı yer idi. Guşədə şüşə qabda bir ovuc vətən torpağı saxlayırdı. Bu torpaq onun vəsiyyətinə görə dünyasını dəyişəndə məzarına tökülmüşdü. Orada saatlarla oturar, divara vurulmuş Bakının Dağüstü parkdan çəkilmiş mənzərəsinə baxar, xəyallara dalardı. Azərbaycan bəstəkarlarının vallarına qulaq asmaq, radioda Azərbaycanla bağlı xəbərləri dinləmək gündəlik ehtiyaca çevrilmişdi onun üçün. Dodaqaltı Azərbaycan mahnısını (son illər "...hər bir dərddən olar yaman ayrılıq" mahnısını) zümzümə edər, bu zaman gözlərindən axıtdığı göz yaşlarını bir kəs görməsin deyə tez silərdi. Bəzən sevgi yoluxucu olur. Onun da Azərbaycan sevgisinə ailə üzvləri, dost-tanışlar yoluxmuşdular. Evinin divarları bu sevgiylə nəfəs alırdı. Ayda bir dəfə Saryalgilin evində məclis qurular, Ankarada yaşayan azərbaycanlılar bu məclisə yığışar, yad edərdilər vətəndə qalan ailələrini, sevdiklərini, yaxınlarını...

Saryal ailəsi Türkiyədə tanınan-seçilən ailədir. Azərbaycandan gələn musiqiçi, alim, ədəbiyyat adamları Saryal ailəsinin mütləq qonağı olurdu. Niyazi, Lütfiyar İmanov, İbrahim Topçubaşov, Ziya Bünyadov, Emin Sabitoğlu və başqa bu kimi tanınmışlar. Niyaziylə Nuri Saryalın çox sıx, davamlı münasibətləri yaranmışdı. Babasının yaratdığı bu ənənəni bu gün istiqanlı, Azərbaycana hədsiz bağlı olan Nilgün xanım davam etdirir.

Ankarada mən başqa qohumlarla, maraqlı şəxslərlə tanış oldum. Azərbaycanın İstiqlal mücadiləsinin öndərlərindən olan, Azərbaycan Kültür Dərnəyinin başkanı Mehmet Kəngərli ilə görüşümüz oldu. Bakıya dönmək ərəfəsində o mənə Türkiyədə çıxan bir qəzet verdi (əfsus, qəzetin adı yadımda deyil). Qəzetin qatlanmış hissəsində Heydər Əliyevin şəkli, altında məqalə vardı. Mehmet bəy xahiş etdi ki, bu qəzeti və Türkiyədə yaşayan azərbaycanlıların salamını, ürək sözlərini Heydər Əliyevin özünə çatdırım. Bakıda qəzeti və soydaşlarımızın ürək sözlərini şəxsən Heydər Əliyevə çatdırmağı çalışdığım Şərqşünaslıq İnstitutunun direktoru, eyni zamanda Heydər Əliyevin qudası, mərhum professor Aida xanım İmanquliyevadan (Aida xanımın kiçik qızı Mehriban xanım İlham Əliyevin həyat yoldaşıdır) xahiş etdim. Qəzeti özümün verməyim üçün Aida xanımdan Heydər Əliyevin yerini soruşmağa çəkindim.

İstanbulda Nuri bəy və Nəriman xanımla başqa bir qohumun – Şəfiqə Qasprinskaya və Nəsib bəy Yusifbəylinin qızı Zöhrə xanımın görüşünə getdim.

Yataq xəstəsi olmasına baxmayaraq, görüşməyə razılıq vermişdi Zöhrə xanım. O, anası Şəfiqə xanımın nənəmlə, atamla 1960-cı illərin ortalarında olan görüşlərindən həyəcansız danışa bilmirdi.

Xatırlayıram, 1965-ci ildə Gəncəyə, Ozan məhəlləsinə nənəmin adına Türkiyədən məktub gəlmişdi. Bu ünvanda nənəmin böyük oğlu – əmim yaşayırdı. Əmim təcili atamı Gəncəyə çağırtdırdı. Atam Gəncədən yaxşı əhvali-ruhiyyədə döndü. Bağlı qapı arxasında atam, anam, nənəm söhbət etdilər. Otaqdan çıxanda anamla nənəmin ağlamsınmış gözləri gülürdü. Nənəmin sönmüş gözlərində həyat qığılcımının görünməsi bizim ailəyə gözlənilməz, hansısa xoş xəbərin gəlməsindən xəbər verirdi. Nənəm namaz qılanda həmişəkindən daha çox dualar edir, Allaha nəyə görəsə minnətdarlığını bildirirdi. Nəhayət, biz uşaqların intizarına son qoyuldu. Gizli saxlamaq şərtilə bizə deyildi ki, 35 ildən sonra nənəmin bacı və qardaşlarından məktub gəlib (evin ən kiçiyi də olsam, mən xəbərdən agah idim, nənəm xəlvətcə demişdi). Məktubu nənəmin qardaşı Mir İsmayıl yazıb. Görünür, Türkiyədəki qohumlar bu illər ərzində nənəmi, onun ailəsini sovet rejiminin zərbəsi altında qoymamaqçün susurmuşlar. Stalinin ölümündən sonra SSRİ siyasətində baş verən dəyişikliklər: repressiya qurbanlarına verilən bəraət, elm və texnika sahəsindəki nailiyyətlər, mədəni həyatda baş verən canlanma ölkə daxilində, həm də xaricdə sakit və sabit inkişafa ümid yaratmışdı bizim həyatımızda baş verənləri diqqətlə izləyib bizdən daha məlumat-

lı olanlarda, nailiyyətlərimizə bizim özümüzdən çox sevinənlərdə. Eyni zamanda 60-cı illərin əvvəllərində Türkiyənin siyasi, ictimai və mədəni həyatında da yeni səhifə açmış hadisələr baş verir. 50-ci illərin sonlarında Bayar-Menderes rejiminin doğurduğu daxili siyasi böhrandan narahat olan hərbçilər 1960-cı il mayın 27-də dövlət çevrilişi edib, on illik Bayar-Menderes rejiminə son qoyurlar. 1961-ci ildə yeni konstitusiya qəbul edilir. Yeni konstitusiya bəzi siyasi azadlıqlar, o cümlədən mətbuat azadlığı elan edir ki, bu da ölkənin siyasi vəziyyətinə, sosial və mədəni həyatına öz müsbət təsirini göstərir. 40-50-ci illərdə sərt təqiblərə məruz qalmış realist şairlərin əsərləri yenidən nəşr olunmağa başlayır. 60-cı illərin ortalarında təxminən 30 illik qadağadan sonra "yeni poeziya"nın banisi Nazim Hikmətin vətənə "ikinci dönüşü" baş verir...

Məhz hər iki ölkənin ictimai-siyasi, mədəni həyatındakı dəyişikliklər xaricdə yaşayan mühacirlərin çoxunda vətənə dönmək, qohum-qardaşla görüşmək arzularının çin olmasına inam yaratmışdı. Və məhz bu inam nənəmin qardaşına məktub yazdırmışdı. Ancaq ümidverici mülayimləşmədən sonra SSRİ siyasətinin sərtləşməsi, içlərində kök salan "Çeka" xofu mühacirətdə olanların əksəriyyətini nəinki vətənə qayıtmaq, hətta qonaq kimi gəlmək fikrindən də uzaqlaşdırdı, eləcə də nənəmin qardaşlarını.

Əmimin etirazına baxmayaraq, atam onlara cavab məktubu yazmaq qərarına gəldi. Dedi ki, anamı gözüyaşlı qoya bilmərəm. Bir müddətdən sonra

nənəmlə atamın adına Türkiyədən dəvətnamə gəldi. Mir İsmayıl dayısının atamdan istəyi – xalq mahnılarından, Azərbaycan bəstəkarlarının operalarından ibarət vallar, Bakının, Gəncənin şəkilləri, bir də bir ovuc vətən torpağı idi. Nənəmlə atamın Türkiyəyə səfəri 1966-cı il aprel ayının sonlarında baş tutdu. İlk dəfə şəxsi dəvətlə Azərbaycandan Türkiyəyə gedən nənəmlə atam oldu. Atamla nənəmin bu səfəri, sözün əsl mənasında, bayrama çevrildi. Uzun illər məmləkət həsrətiylə mühacir həyatı yaşayanlara vətən ab-havası gətirənlərin səfəri. Nənəmin paltarının ətəyini vətən torpağına dəyib deyə öpüb, gözlərindən axan damcıları vətənin tozuna qarışdırıb bayram edənlərə ümid gətirənlərin səfəri. Üç ay Türkiyədə qonaq qaldıqdan sonra geriyə dönən atamla nənəm vətəndə yola salındıqları təmtəraqla da qarşılandılar. O gündən evimiz ziyarətgaha çevrildi. Kimi atasından, ərindən, kimi qardaşından, əmisindən, dayısından, ya da hansısa dostundan, tanışından xəbər bilmək üçün bizə gəlirdi. Atamgilin gətirdikləri məktublar, hədiyyələr, söz ismarışları neçə-neçə ailəni sevindirmiş, onlara ümid vermişdi. Bu sevinc payı üçün hətta Azərbaycanın müxtəlif rayonlarından da gəlirdilər.

O illərdən uzun zaman ötüb. Milyonlarla insanın taleyini məhv etmiş sovet imperiyası dağılıb, Azərbaycan öz istiqlalına qovuşub. Dəyişən siyasət nəticəsində ildırım sürətiylə dəyişən həyatda münasibətlər də dəyişib, gediş-gəliş sadələşib, çoxalıb, münasibətlər də adiləşib. Adilikdə isə cazibə itir. Hə-

min o cazibə ki, çox illər öncə istər Azərbaycanda, istərsə də Türkiyədə hadisəyə səbəb olan nənəmin qardaşları, bacısıyla olan o görüşündə var idi.

Mir İsmayıl Saryal uşaqlığından gənclik dövrünə kimi keçdiyi yolu – həyatının bir parçasını (1910-1930) "Bakı rüzgarı" kitabında qələmə alıb. Ustalıqla yazılmış bu kitabda o dövrün qaynar, dramatik tarixi hadisələrinə bürünən xatirələr göz önündə canlanır və sən özünü o olayların içində görürsən. Babasının bu kitabını mənə Nilgün Saryal verdi, 2014-cü ildə. Öncə "Bakı rüzgarı"nı Sənə göstərdim. Kitab türkcə idi. Tanışlıqçün vərəqlədin. Kitabın adı, dilinin sadəliyi tutdu Səni. Tez bir zamanda oxuyub, kitabın maraqlı, "Əli və Nino" qədər dəyərli, lazımlı olduğunu söylədin. Kitabı türkcədən dilimizə uyğunlaşdırmaq üçün yazıçı Nəriman Əbdülrəhmanlıya verdim, 2017-ci ildə "Bakı rüzgarı" mənim yazdığım ön sözlə "Xatirə ədəbiyyatı" silsiləsindən "Xan" nəşriyyatında çapdan çıxdı. Ön sözə epiqraf kimi Sənin şeirindən olan bu misraları seçdim:

*Mənə yaşamağa bir qürbət verin,*
Ürəyimdə bir vətən qəribsəyib...

Vətəndən uzaqlarda yaşamağa məhkum olunmuş, vətən həsrətiylə üzülən insanların duyğularıyla həmahəng səslənən sözlər...

Mir İsmayıl Saryal 1982-ci ildə dünyasını dəyişdi, xəyallarında yaşatdığı vətəninin istiqlalını görmək ona nəsib olmadı. Lakin az da olsa, təsəlli verən odur ki, "Bakı rüzgarı"nın Azərbaycanda çap edilməsi Mir İs-

mayıl Saryalın xəyalən də olsa, müstəqil ana yurduna qayıdışı oldu. Nuri bəyi mən sonuncu dəfə 2020-ci il fevralın 5-də Ankarada TÜRKSOY-un xətti ilə Sənə həsr edilmiş tədbirdə gördüm. Bu tədbirə qoşulan başqa qohumlar, dostlar da öz gəlişləriylə məni sevindirdilər, lakin 91 yaşlı, xəstəhal Nuri bəyin gözlənilməz gəlişinin sevinci heç nə ilə ölçülə bilməz. 2020-ci il dekabrın 22-də Nuri bəyin qızı Nilgün telefonda ağlaya-ağlaya: "Nuşacan, atam rəhmətə getdi indicə", – dedi. Ailəmizin çox sevdiyi, qürur duyduğu Nuri bəy... Qulağımda nənəmin dediyi oxşama səsləndi...

Atam evlənəndən sonra nənəm öz sevgisini onun ailəsinə verdi. Gəncədəki ev-eşiyini, həyət-bacasını qoyub (orada böyük oğlu ailəsiylə yaşayırdı), ömrünün sonuna kimi bizimlə Bakıda yaşadı. İlk gündən ev işlərində anama yardımçı oldu zəhmətsevər, təmizkar, əldən iti nənəm. Uşaqlıqdan nənəmdən eşitdiyim "Evini təmiz saxla, qəfil qonaq gələr, özünü təmiz saxla, qəfil ölüm gələr" sözləri sırğa kimi qulağımda qalıb.

Nənəmin bir sandıqçası vardı. Paltarlarını, əşyalarını səliqə-sahmanla yığardı ora. Sandıqçasını açanda paltarlarının arasına qoyduğu ətirlərin iyi vurardı adamı. Atamın ona verdiyi pulları yığar, ürəyi istədiyi şeyləri aldırardı. O puldan bizə – nəvələrinə də atamdan xəbərsiz verərdi. Televizora baxmağı yaman xoşlayırdı nənəm. Xüsusən də, özünün dediyi kimi, "külfət filmləri"nə. Rus dilini bilməsə də, filmi yaxşı başa düşür, aktyorları tanıyır, hətta onların oynadıq-

ları rolları belə sadalayırdı. Hansısa filmdə II Nikolayı görəndə əzizini görürmüş kimi əlini sinəsinə vurub, sevinc dolu bir səslə: “Çar Nikolay”, – deyirdi. Lenindən zəndeyi-zəhləsi gedir, onu Gəncədə yaşayan hansısa Kor Musaya oxşadır, balalarının sevdiyi “Evimizi yıxan Lenin baba, a laylay...” havasını yadına salır, uşaqların bu laylasız yatmadığını deyirdi.

Nənəm ildə bir-iki aylıq Gəncəyə gedər, orada yaşayan nəvə-nəticələri, qohum-əqrəbasıyla görüşərdi. Uşaq vaxtı mən də nənəmlə yayda Gəncəyə gedər, buradan vurub oradan çıxardım. Nənəm hökmlü qadın olsa da, bizə – kiçik oğlunun balalarına qarşı çox mehriban, qayğıkeş idi, bir sözlə, əsl Nənə! Nənəmin zəhləsi getdiyi bir şey vardısa, o da yaş söhbətiydi. Yaşı çoxaldıqca bu cür söhbətlər onu daha da qıcıqlandırırdı. Yaşını soruşana: “Qadan alım, sizin mənim yaşımda-başımda nə işiniz var? Allah verən ömürdür, nə vaxt lazım bilsə, onda da alacaq”, – deyə söylənərdi. Bəlkə də, vaxtsız ölmüş oğul, qız dərdi nənəmi öz yaşından utandırır, yaş söhbətinin ona qınaq olduğunu düşündüyündən ölüm-həyat məsələlərinin insandan asılı olmamasını vurğulamaqla öz yaşına haqq qazandırırdı. Nənəm 92 yaşında dünyasını dəyişdi. Zehni, hafizəsi yerində. Son gününə kimi özünü yük etmək istəmədi ailəsinə. Qulluq göstərənə yüz dəfə “sağ ol” dedi, dualar etdi. Məni atama tapşırmağa macal da tapdı nənəm: “Nüşabə amanatı”. Atamı kövrəltmişdi nənəmin bu vəsiyyəti. “Anam mənə öz övladımı tapşırdı...” Çoxlu adam yığıldı Gəncədən, Bakıdan. Onlar

böyük nəslin ağbirçəyini yola salmağa gəlmişdilər. Türkiyədən teleqramlar, zənglər oldu. Atam dedi: "Evimin bərəkəti getdi..." Nənəm qardaşları Mir İsmayıl və Mir Davudla bir ildə dünyasını dəyişdi. Onların ölümünü nənəm yuxusunda görmüşdü. Bu xəbəri atam ondan gizlətsə də, nənəm öz yuxusuna inanmışdı...

Nənəm qara kəlağayıda yadıma düşür. Ağ birçəkli, üzü nurlu Nənəm, müdrik baxışlı, qürurlu Nənəm. Namazlı, ağzı dualı Nənəm. Gəncə, Hacıkənd, Xoşbulaq günlərimli Nənəm. Vulkanlı, çiskinli Nənəm. Göz qırpımında dumanlarda itən Nənəm düşür yadıma.

Öz atasını erkən yaşlarında itirən atam bacarıqlı, qətiyyətli, məsuliyyətli bir şəxsiyyət kimi yetişmişdi. Ailə onunçün birinci yerdə idi. Onunla dərdsiz-sərsiz yaşayırdıq. Atam qohumların da işinə yarayır, onlara əl tuturdu. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universitetini) tamamlayıb, ixtisasca iqtisadçı olsa da, məsul vəzifələrdə çalışsa da, bütün ruhuyla incəsənət adamıydı atam. Yaraşıqlı barmaqları vardı. Uzun, nazik. Atamın xəttinə söz ola bilməzdi. Hərfləri ağ kağızın üzərinə nəqqaş kimi düzürdü. Bu da ona babası Hacı Seyid Əhməd ağadan keçmişdi, yəqin. Atamın musiqi duyumu da çox yüksək idi, gözəl nitq qabiliyyəti vardı. O, Gəncə Musiqi Məktəbində Fikrət Əmirovla bir yerdə oxumuş, violonçel sinfində təhsil almışdı. Böyük Vətən müharibəsi başlamasaydı, bəlkə də, atam rejissor olardı (ancaq o zaman o mə-

nim atam olmazdı). O, Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutuna qəbul edilmişdi. İmtahan götürənlər arasında böyük rejissor Eyzenşteyn də varmış. İmtahanda atam Cəlil Məmmədquluzadənin “Ölülər” əsərindən Kefli İskəndərin monoloqunu söyləyib. Onun ifasını maqnitofonda dinləmişdim. O maqnitofon yazısına qulaq asanda nədənsə anam əsəbiləşərdi. Böyük Vətən müharibəsinin başlanması çoxları kimi, atamın da taleyini dəyişdi. Atam çox igid adam idi. Müharibə zamanı yaralanmış, kontuziya olmuşdu. Çoxlu medalları, ordeni vardı. Ancaq müharibədən danışmağı xoşlamırdı. 9 May onun sevdiyi gün idi. Atamın, bəlkə də, ürəyində qalan incəsənət adamı olmaq arzusundan irəli gəlirdi ki, üç övladını: qardaşımı, bacımı və məni musiqiçi görmək istəyirdi. Qardaşım Mobil və bacım Esmira konservatoriyanın nəzdindəki musiqi məktəbində (indiki Bülbül adına Musiqi Məktəbində), sonra konservatoriyada – qardaşım bəstəkarlıq üzrə Cövdət Hacıyevin sinfində, bacım viola (alt) bölməsində Rəşid Seyidzadənin sinfində təhsil alıblar. Konservatoriyanı bitirib professional musiqiçi oldular. Onların hər ikisi Azərbaycanın fəxri adlarını daşıyır. Məni konservatoriyanın nəzdindəki musiqi məktəbinə violonçel sinfinə götürmək istədikdə atam razılaşmadı, 2 nömrəli yeddiillik musiqi məktəbinin fortepiano sinfinə yazdırdı. Orta təhsil aldığım 190 nömrəli məktəbdə (o dövrdə tanınan ilk ordenli məktəb idi) 2-ci sinifdən fars dili keçməyim mənim gələcək ixtisas seçimimi təyin etdi, musiqi müəllimim və atam mənim

musiqi təhsilimi davam etdirməyimi istəsələr də. Anamın arzusu məni həkim görmək idi. Nənəm də onun istəyinə qoşulub: "Hə, sənin boy-buxununa ağ xalat çox yaraşar", – deyirdi. Mən isə öz seçimimdə israrlı idim. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars bölməsinə daxil oldum, universiteti uğurla bitirdim. Diplom rəhbərim mərhum professor Mübariz Əlizadə mənə Fars ədəbiyyatı kafedrasında qalıb, diplom işimi genişləndirərək namizədlik dissertasiyası kimi müdafiə etməyi təklif etdi. Mövzum da müasir İran şairi Karonun yaradıcılığı haqqında idi. O zaman daha böyük arzular içində çabaladığımdan razı olmadım...

Ürəyimcə olmasa da, mənim ilk iş yerim Az.SSR EA-nın (indiki AMEA) Fəlsəfə və Hüquq İnstitutunda Estetika və Etika şöbəsi oldu. Bu işə məni o illər qohumluq münasibətində olduğum safqəlbli, saf əqidəli, əslən polyak olan istedadlı sənətşünas Natalya Mixaylovna Miklaşevskaya gətirdi. Elmlər Akademiyasının Arxitektura və İncəsənət İnstitutunda çalışan incəsənət elmləri doktoru Natalya Mixaylovna bütün yaradıcılığını Azərbaycanın təsviri incəsənətinin tədqiqi və təbliğinə həsr etmişdi. Onun XIX əsrin ikinci yarısının məşhur sənətkarları Mirzə Kazım İrəvani və Mir Mövsüm Nəvvabın yaradıcılığına dair əsərləri bu tədqiqat işlərinin gözəl bəhrəsi idi. Natalya Mixaylovnanın özünün akvarellə çəkdiyi maraqlı rəsmlərindən biri – "Güllər" əsəri illərdir evimizin divarını bəzəyir.

O zaman Estetika və Etika şöbəsinə Şükufə Mir-

zəyeva rəhbərlik edirdi. Kürənsaçlı, mavigözlü, itisözlü Şükufə xanım əslən Qarabağdan, Şuşadan idi. O, Şərqdə fəlsəfə elmləri doktoru adını qazanan ilk alim qadındır. Geniş və zəngin dünyagörüşlü bu iddialı xanım hekayələr, pyeslər də yazırdı. Qötenin "Faust"unu yazıldığı dildə, almanca oxumasından qürur duyurdu. Şükufə xanım böyük alim, filosof mərhum Heydər Camalın bibisi idi. Bakıda ucalan "Azad qadın" heykəlini həyat yoldaşı, görkəmli heykəltəraş Fuad Əbdürrəhmanovun onun canlı obrazından yaratdığını fəxrlə söyləyirdi. Fuad Əbdürrəhmanov sovet monumental heykəltəraşlığının əsasını qoyanlardan idi. Onun özünü görməsəm də, yaratdığı dərin məzmunlu əsərlərinə baxmaq kifayətdir ki, bu böyük sənətkara ehtiram duyasan. Əbdürrəhmanovun ucaltdığı abidələr dünyanın müxtəlif şəhərlərində özünə yer tapıb. Yadımdadır, tələbə vaxtı Düşənbədə praktikada olarkən taciklər bizəIX-X əsr Şərq ədəbiyyatının görkəmli nümayəndəsi Rudəkinin əzəmətli heykəlinin müəllifinin həmyerlimiz Fuad Əbdürrəhmanov olduğunu deyəndə çox qürurlanmışdıq. Sükufə xanım da Fuad Əbdürrəhmanov kimi dünyasını vaxtsız dəyişdi. Mən hər dəfə Fəxri Xiyabanda Fuad Əbdürrəhmanovun qəbri önündən keçəndə qəribə bir sıxıntı keçirirəm. Möhtəşəm heykəllər simfoniyası yaradan bu böyük heykəltəraşın özünün niyə qəbirüstü heykəli olmasın, muzeyi olmasın?

Estetika və Etika şöbəsində Babək Qurbanov (şair Osman Sarıvəllinin oğlu), Rəhman Bədəlov da çalı-

şırdılar. Sən demə, Rəhman Bədəlov Sənin gənclik dostlarından olub. Babəklə Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki onillik musiqi məktəbində bir sinifdə təhsil almısan. Dostluğunuz olub, sonra yollarınız ayrılıb. Bunları mən çox sonralar bildim. Nədən ayrıldığınızı bilmədim. Məktəb illərindən Babəklə birgə şəkliniz qalıb. Bir də Səninlə bağlı Babəkin kövrək duyğuları hopmuş o illərin işıqlı xatirələri...

Babək Qurbanovla 2016-cı ildə Səməd Vurğunun ev-muzeyində görüşdük. Bu görüşdə Sənin yaradıcılığın haqda ilk namizədlik dissertasiyası yazan, şeirlərini əzbər bilən, ədəbi tənqidçi, ədalətsevər İradə xanım Musayeva da iştirak edirdi. “60-cılar” mövzusun- da maraqlı söhbət alındı. Söhbət qısadılmış şəkildə “Kaspi” qəzetində çap edildi (3 sentyabr, 2016).

Babək atası Osman Sarıvəllinin portretini muzeyə bağışladı. Portret Qazaxda Poeziya Evinin divarından asılıb. Babək Bakıya məzuniyyətə gəlmişdi. Son illər Türkiyədə Qaziəntəp Türk Musiqisi Konservatoriyasının professoru idi. Tanınmış alim, fəlsəfə elmləri doktoru Babək Qurbanov Azərbaycan musiqi mədəniyyətinin fəlsəfi tədqiqinə aid fundamental əsərlər müəllifidir. 2019-cu ildə Babəkin ölüm xəbərini eşitdim. Gözümün önünə onun təvazökar, mədəni, alicənab siması gəldi...

Mən iki il Şükufə xanımın şöbəsində işlədikdən sonra Şərqşünaslıq İnstitutunun əyani şöbəsinin aspirantı oldum. Sonra uğursuzluqlar dalğası üstümü örtdü, həm şəxsi həyatımda, həm də işlədiyim sa-

hədə. Boğulmadım, üzüb sahilsiz Əfqanıstana gedib

çıxdım. Sonra qayıtdım. Və həyatımda yeni fəsil başladı...

Qayıdaq mənim ailəmlə xatirələrimə. Bizim evdə bütün ad günləri, bayramlar qeyd olunurdu. Atam bayramları sevir və bayram düzəltməyi bacarırdı. Böyüklü-kiçikli hamımıza hədiyyələr edir, bizə yaşatdığı sevincdən zövq alırdı. 14 may – atamla anamın toy günü ailəmiz üçün xüsusi gün idi. O günlər evimiz atamın aldığı güllərin, xüsusən də anamın sevdiyi yasəmən güllərinin ətriylə nəfəs alırdı. Qonaqlarımız da olurdu o gün. Yumoristik deyimlərlə müşayiət olunan fotokollaj da düzəldirdik. Anam dadlı, iştahaaçan qoxusuyla adamı doyduran yeməklər bişirər, atamın xoşladığı, qat-qat xəmirdən "Napoleon" tortu və pirojkilər hazırlayardı (qat-qat xəmirin reseptini anamdan götürənlərdə ondakı kimi alınmırdı). Həmin gün əsl bayram əhvalı yaşayırdıq. Musiqi, şeir, rəqs... Toylarının 45-ci ildönümündə Bakıda ezamiyyətdə olan atamın moskvalı tanışı öz xanımıyla bizim qonağımız oldu. Gedərkən məclisdən aldığı təəssüratın təsiri altında: "Kakoy je tı sçastlivıy, Raşid Karayeviç" (Rəşid Qarayeviç, sən necə də xoşbəxt adamsan), – dedi.

Düz bir il sonra, 1990-cı ildə sevdiyi, gözlədiyi gün – mayın 14-də atam dünyasını dəyişdi. Çox gözlənilməz oldu bu itki bizimçün, qohumlarçün. (Sən həmin gün Daşkəndə getmişdin. Gecə yuxuda görmüsən ki, mən çoxlu adamların içində Səni axtarıram...) Xeyli adam yığıldı evimizə o gün. Gəncədən gələn qohum-əqrəba, dost-tanış, çoxlu güllər.

Yəqin, atam razı qalardı onun əziz günündə "çağırılan-çağırılmayan qonaqlar"ın gəlişindən. Gələn "qonaqlar"ın üzündəki çaşqınlıq, üzüntü, göz yaşları, güllərin ətrini üstələyən mistik bir əhvali-ruhiyyə gətirən halvanın sehrli iyi, mollanın bütün küçəyə yayılan təsirli avazı bu evə gələn dərddən xəbər verirdi. Anam yeddi il atamdan çox yaşadı. Daha doğrusu, onsuz ömrünü başa vurdu. Hərçənd yanımızda xiffət çəkdiyini büruzə verməməyə çalışırdı, amma bu onun gözlərindən oxunur, davranışından hiss olunur, sözlərindən sezilirdi. Biz anamızı içini qurd kimi yeyən yalqızlığından qurtara bilmədik. Bir yandan da gözlənilməz xəstəlik. Bizim əlacsızlığımız. O ağır günlərdə Səni yenidən tanıdım mən. Özümü arxalı gördüm. Anamın yanında bacım qaldı. Mən də qalmaq istəyəndə anam qoymadı: "Qızım, sən evinə get. Vaqif də atan kimidir, arvadı yanında olmalıdır..." Bu gümansız xəstəliklə biz nə qədər çarpışsaq da, onun qarşısında aciz idik. Sənin gözlərin önündə əzizinin can üstə olarkən ona heç nəylə kömək edə bilməməyin, ancaq dişlərini var gücünlə bir-birinə sıxıb, içində qopan fəryad çölə çıxmasın deyə içindəcə boğub, çarəsizlikdən axıtdığın göz yaşlarıyla sonu gözləmək... Bax əsl dəhşət budur... Bu hissləri Səninlə yenidən, daha ağrılı yaşadım... Çünki arxam yoxluğuna söykənirdi...

Anamın son günlərində dodaqaltı "Rəşid sağ olsaydı, mən çoxdan ayağa qalxardım" deməsi onun qüdrətli saydığı ömür-gün yoldaşına etdiyi, bəlkə də, ən böyük məhəbbət, inam etirafı idi. Anamın xəstə-

liyi az sürdü. Üç həftə. 1997-ci il avqustun 16-da anam gözlərini yumdu...

Ömür boyu qohum-əqrəbanın hər dərdinə-səri-nə şərik çıxanlar özləri heç kəsə əziyyət vermədən dünyadan köçdülər. Elə insanlar var ki, öz böyük in-sani qüvvələriylə ailələri üçün gördükləri gündəlik işlərlə, çəkdikləri zəhmətləriylə ailə qəhrəmanı adı-na layiqdirlər. Belə qəhrəmanlara onları sevənlərin qəlbində heykəllər ucalır. Heç bir siyasi ab-hava bu heykəlləri uçura bilmir. Mənim valideynlərim də belə ailə fədaisi idilər. Mən uşaqlıqdan, özümü dərk etdi-yim gündən qorxduğum hissi – valideyn itkisini ya-şadım. Bəlkə də, valideyn övlad üçün həyatla ölüm arasında sədd rolunu oynayır. Valideynlərimizin ölü-müylə biz artıq özümüz övladlarımızla ölüm arasında səddə çevrilirik.

Atamın ölümündən doqquz il sonra, mayın 14-də anamla atamın yanında böyüyən bacım Esmiranın böyük qızı İlahənin oğlu dünyaya gəldi. Əslində, uşa-ğın aprelin sonlarında doğulması gözlənilsə də, o, vaxtından gec və çətinliklə doğuldu. Həmin günə keçən gecə atam İlahənin yuxusuna gəlib. İlahəni dar tuneldən keçirən atam oradakı ağxalatlı adamlara: "Bu mənim nəvəmdir, bu gün onun oğlu olacaq, adı-nı Rəşid qoyacaq", – deyib. Onlar tuneldən anamın, xalamın olduğu çiçəkli-çəmənli, şəlaləli bağa çıxıb-lar, İlahə o bağda qalmaq istəsə də, atam ona icazə verməyib...

Rəşid indi magistrdir. Aykido üzrə qara kəmər us-tasıdır. Zahirən atama bənzəməsə də, alicənablığı

atamı xatırladır. Anamın ilini verdiyimiz gün – 1998-ci il avqustun 16-da Yusif Səmədoğlu vəfat etdi. Yaraşıqlı, dodağı təbəssümlü, xoşsözlü, ailənizin ən mehriban üzvü Yusif...

*"Səməd Vurğunun ailəsi ikinci dəfə çat verdi – ikinci çat... Yusif sevincə, gözəlliyə yaraşan adam idi. Mən bu saat zərrə qədər də tərəddüd eləmədən Yusiflə yerimi dəyişərdim..."*

Bu sözləri Sən Yusifin matəm günündə dedin. Bu, qardaş ağısı, qardaş yanğısı idi. Böyük qardaşıyla qürur duyan, uşaqlıqdan ona oxşamağa çalışan kiçik qardaşın adamı lərzəyə salan ağrılı etirafı idi. Mən Yusiflə biz evlənəndən sonra tanış oldum. O, xeyir işimizdə iştirak edə bilmədi. Bizi bağ evinə qonaq çağırdı. Onun mehmanpərvərliyi, mehribanlığı mənimçün gözlənilməz oldu. Yusif maraqlı söhbətlər edir, yumorundan da qalmırdı. Sintezatorda yeni bəstələdiyi melodiyanı çalıb bizə həsr etdi. Bağı gəzdirdi. Sevincli görünürdü o gün Yusif. Xavər xanım deyirdi ki, Yusif Vaqifin ailə qurmağına çox sevinir. Bir gün də bizə gələndə Xavər xanım dedi: "Yusifi gördüm, mənə dedi ki, mama, evi Vaqifin adına niyə keçirmirsən? Vaqif, oğul, yubatma, JEK-dən öyrən, nə lazımdırsa, edək, bu evi adına keçir..." Söhbət Xaqani, 26 ünvanında yaşadığımız evdən gedirdi. Bu ev Xavər xanımın adına idi.

Siz iki qardaşın oxşar cəhətləriniz kimi, fərqli cəhətləriniz də olub. Yusifin atan kimi misilsiz ünsiyyətcilliyini, insanlara qarşı Səndən qat-qat dözümlü olduğunu deyirdin. Xavər xanım üç uşağının içində

bircə Yusifdən onun xətrinə dəyəcək acı söz eşitmədiyini, hətta “yox” sözünü belə adamın ruhunu incitmədən dediyini söyləyirdi. Yusif öz ailəsinə: xanımı Nəmidəyə, qızları Mehriban və Humaya, nəvələrinə çox bağlı idi. Ömrünün ən böyük əsərini – “Qətl günü”nü qızlarına həsr etmişdi.

Son zamanlar insanlar bəzən səbəbli-səbəbsiz özlərini yorğun hiss edirlər. Yusif də, Sən də yorğunluqdan şikayət edirdiniz. Sən deyirdin bu yorğunluq ata-babadan qalıb bizə. Yusif Səndən yorğunluq haqda bir şeir yazmağını istəmişdi. Şeiri yazıb Yusifə həsr etdin.

*Yorğunluq axşamıdır,*
*Böyüyüb saat səsi,*
*Evdə təkcə özüməm,*
*Gözləmirəm heç kəsi.*

*İçimdə baş qaldırıb*
*Yenə də ölüm eşqi,*
*Ümid dərsləri bitib,*
*Qurtarıb arzu məşqi.*

*Qızardılmış mal əti,*
*Bir az gürcü çaxırı,*
*Ya günün əvvəlidir,*
*Ya da ömrün axırı.*

*Bərq vuran tülkü gözü*
*Sönməz həyat şamıdır,*
*Böyüyüb saat səsi,*
*Yorğunluq axşamıdır...*

Yusif Səndən dörd yaş böyükdür idi. Yusiflə Sənin münasibətin böyük qardaşa ehtiram əsasında idi. Uzun zaman onun yanında siqaret çəkməməyin də ona olan sayğından gəlirdi. Deyirdin bu, atamın tərbiyəsidir. Bəzən böyük qardaş özündən kiçiklərə qarşı təkəbbürlü olur. Onun hər şeyə hüququ var, kiçiyin isə böyük qardaşın bu hüququ ona icazə vermə həddinə kimidir. Bu, müəyyən dövrə kimi davam edir, ta kiçiyin özünü təsdiq etməsinə qədər. Yavaş-yavaş böyükdə təəccüb dolu fəxr hissi yaradır kiçik qardaşın hər müvəffəqiyyəti. Sizdə olduğu kimi. Tələbələrlə görüşdə Yusifin onların "Vaqif Səmədoğlu sizinçün kimdir?" sualına "Azərbaycanın ən böyük şairi" cavabını verməsi böyük qardaşın kiçik qardaşıyla qürrələnməsinin göstəricisi idi...

Gündəlikdən: *"Yusif şeirlərimi redaksiyaya (Yusif 1985-ci ildə "Ulduz" jurnalında baş redaktor idi) aparıb, uşaqlara verib ki, oxusunlar. Deyirdi guya furor eləyib yazılarım. Qəribədi, adam tərif, xoş söz eşitmək arzusuyla yaşasa da, tərif qarşısında nədənsə utanır. İnsan xoş söz, məhəbbət qarşısında da, deyəsən, başıaşağı imiş".* (İlahi, bu boyda təvazökarlıqmı olar, Vaqif?!)

Yusif də, Sən də uşaqlıqdan öz xasiyyətinizə, istəklərinizə uyğun hərəkət etmisiz. Sən velosiped sürmüsən, həyət uşaqlarıyla, yaşıdlarınla futbol oynamısan, o isə heç vaxt nə topa, nə velosipedə, nə də sonralar sürdüyün motosikletə həvəs göstərib. Yusif uşaqlıqda dəcəl olmasa da, ərköyün olub. Özündən yaşca böyüklərlə durub-oturub. Davranışı, ədalarıyla

çoxlarından fərqlənib.

*“Yusifi uşaqlığından qızlar ayırdılar. Elə özü də qızların xatirinə uşaqlığından böyük məmnuniyyətlə ayrılmışdı”.*

Sizin taleyinizin əsas göstəricisi ədəbiyyat oldu. Ədəbiyyatın nəsr sahəsini Yusif, poeziya sahəsini Sən seçdin. Kino ona, teatr Sənə. Bu, razılaşdırılmamış bölgü idi.

*“Yusifin azərbaycançılıq, vətənpərvərlik hissləri olduqca güclü idi. Elə bu hisslər idi onu 1980-ci illərin sonları, 1990-cı illərin əvvəllərində meydana aparan. Yusif də, mən də Azərbaycan Xalq Cəbhəsinin təsisçilərindən olduq. Yusif İdarə Heyətinin üzvü seçildi, mən isə Ağsaqqallar Şurasının”.*

Yusif Səmədoğlu deputat kimi səkkiz il (1990-1998) fəaliyyət göstərib. 1991-ci ildə Ali Sovetdə SSRİ-nin saxlanılması ilə bağlı referendum keçirilərkən buna qarşı çıxan 43 nəfər “istiqlalçı deputat”dan biri olmuşdu.

Sizin bir çox maraqlarınız üst-üstə düşüb. Foto sənətinə məhəbbət, heyvanlara bağlılıq. İt, balıq, quş saxlamısız. Hər heyvanda bir gözəllik tapmısız. Ancaq Səndən fərqli olaraq, Yusif ovu sevməyib. Yasa, dəfnə getməklə arası olmayıb. Deyərdi ki, kişi qəbiristanlığa bir dəfə gedər, o da başqasının çiynində...

Yusif Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki musiqi məktəbində skripka sinfində səkkiz il oxuduqdan sonra başqa məktəbə keçdi, oranı qızıl medalla bitirdi. Təhsilini Moskvadakı Qorki adına

Ədəbiyyat İnstitutunda görkəmli rus nasiri K. Paustovskinin sinfində davam etdirdi. Yevgeni Yevtuşenko, Bela Axmadulina, Robert Rojdestvenski, Vasili Aksyonov, Nikolay Kuznetsov kimi Rusiyanın bu gün məşhur şair və yazıçılarıyla bir qrupda.

*"Mən atamın ağlamasını görmüşəm, bir Stalin öləndə, bir də Yusif Moskvada Ədəbiyyat İnstitutuna qəbul olunanda. O vaxtın qaydalarına görə, məktəbi qızıl medalla bitirənlər ali məktəblərə qəbul zamanı imtahanlardan azad olunur, yalnız söhbətdən keçirdilər. Yusif institutun rektoru D. S. Polikarpovla yanaşı, bir neçə müəllimin sorğusunda da iştirak edir. Həmin müddətdə atam institutun dəhlizində dayanıb gözləyir. Sorğu başa çatdıqda içəridəkilər çıxırlar. Təbii ki, rektor da, institutun digər müəllimləri də Səməd Vurğunu yaxşı tanıyırdılar. Atam rektordan soruşub:*

*– Nu kak moy sın? (Hə, mənim oğlum necədir?)*

*– Bud moya volya, ne prinyal bı eqo syuda. Pryamo seyças vruçil bı emu diplom. Potomu çto vse poluçivşiye diplom v sovokupnosti ne znayut i odnoy desyatoy iz toqo, çto znaet vaş sın, Samed Yusifoviç. Ne çitayut... (İxtiyar məndə olsaydı, onu buraya qəbul eləməzdim. Oğlunuza elə indi diplom verərdim. Çünki bizim diplom alanların hamısı birlikdə bu saat sizin oğlunuzun ondabiri qədər bilmir, Səməd Yusifoviç. Oxumurlar...)*

*Övladı haqda Qorki adına Ədəbiyyat İnstitutunun rektorundan bu cür sözlər eşitmək ata üçün qürurverici idi. Elə onda ağlamışdı atam. Bu uğur*

*öz-özünə gəlməmişdi. Yusifin geniş mütaliə mədəniyyətinin nəticəsiydi".*

Səni Yusifin mütaliəsi heyrətləndirirdi. Sənin oxuduğun ilk kitablar: Süleyman Rəhimovun "Ata və oğul", "Serjant İvanov adına körpələr evi", atanın Yesentukidə aldığı "Puteşestviye Xristofora Kolumba v Ameriku". Və uşaq təxəyyülündə dərin iz buraxan Daniel Defonun "Robinzon Kruzo" romanı olub. Macəralar aləminə maraq, onun ecazkar tilsimindən uzun zaman çıxa bilməmək, dəfələrlə kitabın hər sətrini həzm edə-edə ləzzətlə oxumaq. Xatirələrindən: *"11 yaşımda biroturuma yüz səhifə oxudum. Uda-uda, içə-içə. Görəndə ki kitab sona çatır, başladım on səhifə, sonra beş səhifə, bir səhifə, sonra gördüm ki, kitab əlimdən gedir, başladım ağlamağa..."*

Yusif uşaqlıqdan pərakəndə, əlinə hansı kitab keçdisə, oxumayıb, sistemli şəkildə oxuyub. Deyirdin: *"İstedadlı, istedadsız yazıçı olduğu kimi, istedadlı, istedadsız oxucu da olur. Bu mənada Yusif istedadlı oxucu olub".* Yadıma Yusifin mütaliəsi ilə bağlı danışdığın əhvalat düşdü: "1958-ci ildə anam, Yusif, Aybəniz və mən Kiyevdən Bakıya qatarla qayıdırdıq. Bizimlə bir vaqonda, qonşu kupedə bəstəkar Qara Qarayev də ailəsiylə Bakıya gəlirdi. Yusiflə mən vaqonun dəhlizinə çıxanda Qara Qarayev bizə yaxınlaşdı. Yusiflə Qara Qarayev pəncərənin qabağında dayanıb, ədəbiyyatdan danışmağa başladılar. Hərdən mən də onlara qoşulurdum. Bizimçün Qara Qarayev kimi böyük sənətkarla söhbət etmək, fikir mübadiləsi aparmaq, əlbəttə, çox maraqlıydı. Söh-

bət bir neçə saat davam etdi. Məni, yazıçı ailəsində böyüyən, neçə-neçə yazıçı, şair görən bir gənci Qara Qarayevin yüksək səviyyəli mütaliəsi, heç bir yazıçıda görmədiyim ədəbiyyat yaddaşı, fəlsəfə yaddaşı heyrətləndirdi. Əgər qabaqlar mən onu böyük musiqiçi kimi qiymətləndirirdimsə, bu söhbətlərdən sonra onun ədəbiyyat sahəsindəki bilikləri məni məftun etdi. Qara Qarayevi isə onunla eyni səviyyədə söhbət aparan 23 yaşlı Yusif təəccübləndirdi. Söhbət XIX əsr Amerika şairi Edqar Po yaradıcılığından düşəndə Yusif Qara Qarayevin fikriylə razılaşmadı. Mübahisələrdə güzəştə getməyi sevməyən, öz nöqteyi-nəzərini inadla müdafiə etməsi ilə tanınan bəstəkar Yusifin fikriylə razılaşmalı oldu. Qəflətən üzündə heyrətamiz ifadəylə dedi: “Allah Səmədə rəhmət eləsin, sizin kimi uşaqlar yetişdirib. Mən bunları bu yaşda bilirəm. Yusif, sən gənc yaşda mənim qarşımda dayandın. Mən yaşda olanda sənin qarşında kim dayana biləcək?”

1960-cı illərdə Qara Qarayev Sənin şeirlərinlə tanış olduqda onların dərin mənasını və müasirliyini çox yüksək qiymətləndirmişdi. Yaş fərqinə baxmayaraq, o zamanlar siz möhkəm dost olmusuz. Lakin qohumluq münasibətləriniz çox az sürdü. Qara Qarayev sənətinə, şəxsiyyətinə hörmətini, sevgini isə Sən həmişə uca tutdun.

O illər Sənin Qara Qarayevlə isti münasibətlərin Rüstəm İbrahimbəyovun taleyinə müsbət təsir göstərib. Bu haqda mən Rüstəm İbrahimbəyovun Sənin qırxında yazdığı “Başsağlığı əvəzi...” yazısından bil-

dim: “1967-ci ildə mənim ilk ssenarimi Bakıda qəbul etmək istəmirdilər. Vaqif olmasaydı, mənim ssenarimin taleyi çox acınacaqlı olacaqdı. Tanıdığım və tanımadığım adamlar “Bir cənub şəhərində” filminin çəkilməsi üçün əllərindən gələni etdilər. Ancaq bu işdə Vaqifin rolu həlledici oldu. O, ssenarini oxumaq üçün Qara Qarayevə verir. Ssenari Qarayevin o qədər xoşuna gəlir ki, o da öz növbəsində onu oxumaq üçün teatrşünas, MK-nın ideologiya üzrə katibi Cəfər Cəfərova təqdim edir. Və beləliklə, mənim gələcək həyatımda mühüm rol oynayan işimin taleyi həll olundu. Biz Vaqiflə bu haqda heç vaxt danışmadıq, çox güman ki, o da bu hərəkətinə heç bir əhəmiyyət verməyərək o dəqiqə unudub...”

İbrahimbəyovun ssenarisi əsasında “Bir cənub şəhərində” filmi 1969-cu ildə (rejissor Eldar Quliyev) çəkildi və Azərbaycan kinosunun ən parlaq nümunələrindən oldu.

Çox illər sonra, 2012-ci ildə Rüstəm İbrahimbəyovun sədr olduğu Azərbaycan Kinematoqrafçılar İttifaqı Hökumət Evindəki ofisindən çıxarıldı. Şəfiqə Məmmədovanın sədri olduğu yeni ittifaq yaradıldı. Həmin il iyun ayının 21-də Rüstəm İbrahimbəyov yenidən ittifaqın təsis edildiyini bildirdi. Kinematoqrafçılar İttifaqı iki hissəyə bölündü. Sən Rüstəmi dəstəkləmək üçün onun yeni təsis etdiyi ittifaqa üzv oldun. Halbuki heç vaxt Kinematoqrafiya İttifaqının üzvü olmamışdın. Mövcud vəziyyətdə Sən başqa cür də hərəkət edə bilməzdin, bu addımınla Rüstəm İbrahimbəyovu müdafiə etdin.

– Vaqif, qayıdaq bir az əvvələ, Sənin məktəb illərinə. 1946-1956-cı illər...

*– 10 illik musiqi məktəbində təhsil aldığım illəri ömrümün ən şirin çağları hesab edirəm. Konservatoriyanın nəzdindəki bu məktəb mənə çox şey verdi. Məktəbdə gözəl kosmopolit mühit vardı. Yəni dar, milli çərçivəyə qapanmırdıq. Bütün bunlar illər sonra mənim yaradıcılığımda özünü göstərdi.*

Burada Babək Qurbanovun xatirələri yerinə düşər: "...Oxuduğumuz musiqi məktəbi olduqca istedadlı şagirdlərdən ibarət idi. Ümumi dərslərlə yanaşı, bir çox musiqi və ixtisas fənləri tədris edilirdi. Çoxları belə bir yükü daşıya bilmədiklərindən yavaş-yavaş bu məktəbi tərk edir, digər şəhər məktəblərinə keçirdilər. Bu səbəbdən də hər il sinfimizdəki şagirdlərin sayı azalmaqda idi. Nəticədə dərslərin öhdəsindən gələ bilən istedadlı şagirdlər qalırdı. Bu şagirdlər arasında bəstəkar Sevda İbrahimovanı (yazıçı Mirzə İbrahimovun qızı), şair Rəfiq Zəka Xəndanı (o zamanlar atası Cəfər Xəndan Azərbaycan Dövlət Universitetinin rektoru idi), Gültəkin Mahmudovanı (komedioqraf Sabit Rəhmanın qızı), Fikrət Mirzəbəyovu, Ziya Bağırovu, o zamanlar, sadəcə, Vaqif Vəkilov kimi tanınan Vaqif Səmədoğlunu və isimlərini unutduğum başqalarını qeyd edə bilərəm. Uşaqlar çox səmimi və mehriban idilər. İmtahan vaxtı birlikdə çalışmağımız da olurdu. Ancaq məktəb illərində ən çox dostluq etdiyim, saatlarla bir yerdə olduğum, sənət və musiqi mədəniyyəti ilə ilgili söhbətlərimizdən doymadığım Vaqif idi. O artıq 8-ci sinifdən baş-

layaraq yavaş-yavaş yaşıdlarından fərqlənirdi. O, dövrün stereotiplərindən uzaqlaşırdı. Bizim hamımızdan daha azad və müstəqil idi. Dərslərinə də bizim kimi o qədər də səy göstərmirdi. Bununla belə, bilirdim ki, o, dünya klassiklərinin əsərlərini böyük həvəslə oxuyur. Bu əsərləri həmişə mənimlə paylaşardı. Vaqif hər cür yeknəsəqliyə, stereotiplərə, gərəksiz təkrarlara və təqlidçiliyə yad idi. Məktəbdəki dərslərin tədrisindəki yanlışlıqları bir çox pedaqoqlarımızdan, bəlkə də, daha yaxşı görürdü. Bəzi dərslərə olan laqeyd münasibəti də elə buradan meydana çıxırdı. Onun böyük musiqi istedadı vardı. İlk fortepiano müəlliməsi Vaqifin bir musiqiçi kimi gələcəkdə böyük uğurlar qazanacağına çox inanırdı. Sözün düzü, mən də böyük ümidlər bəsləyirdim. Onun 10-cu sinfi bitirdiyimiz zaman filarmoniyanın yay salonunda geniş tamaşaçı auditoriyası qarşısında F. Şopenin "Mi major etüdü"nü böyük məharətlə ifa etdiyinin şahidi olmuş və bu ümidimin gerçəkləşəcəyinə tam inanmışdım..."

*Şopen...*
*Bu səslər, bu akkordlar*
*həmişə mənimlədir*
*etibarlı qadın kimi...*

Sənin ilk musiqi müəllimən sevimli Anna Yakovlevna Kopeleviç...

*"Məktəb illəri deyəndə yadıma ilk növbədə dünya gözəli fortepiano müəlliməm Anna Yakovlevna Kopeleviç düşür, indiki konservatoriyanın birinci*

*mərtəbəsində yerləşən məktəbdəki sinif otağımız, "Bexşteyn" royalı. Bəzən 2-3 saat davam edən musiqi dərsləri. Vurulmuşdum müəlliməmə. Onun ətrinə, səsindəki məlahətə... Böyüdükcə bu hisslər daha da güclənirdi. Onun xoşuna gəlmək üçün saatlarla məşğul olur, pianoçu kimi böyük ümidlər doğururdum... Bədii ədəbiyyat oxumağı, başa düşməyi o mənə öyrədib..."*

Çox illər ötsə də, Anna Yakovlevanı xüsusi sevgiylə, nastolji hisslərlə yada salırsan. Gündəliyindən: *"İndi bilmirəm Anna Yakovlevna haradadır. İsraildə? Deyirdilər İtaliyadadır. Kim bilir..."* Bir yerdə onu xatırlayandan sonra yazırsan: *"Gözəl qadını bir ağaca bənzətmək olmaz, gözəl qadın meşədir..."*

1956-61-ci illərin maraqlı, canlı tələbəlik dövrü. Konservatoriyanın mədəni həyatında fəal iştirak edirsən, həm tələbəlik illərində, həm də səkkiz il orada müəllimlik etdiyin dövrdə. Şənliklərə, Yeni il gecələrinə ssenarilər yazırsan. Divar qəzeti çıxarırsan, rəssamlıq bacarığından məharətlə istifadə edirsən. Konservatoriyanın tarixində ilk dəfə Sən ana dilində divar qəzeti çıxarmısan.

1962-ci ilin iyul ayında Bakıda "Çiçəklən, Azərbaycan!" adı altında keçirilən gənclərin III festivalının laureatı adını qazanaraq birinci dərəcəli diploma layiq görüldün. Ancaq bilmirəm bu qələbə Səni nə dərəcədə sevindirdi, çünki artıq əlinə qələm almışdın, şair olmaq fikrində israrlı idin...

*"Qardaşım Yusifin, dostum Anarın başlarına gələn ilahi bəlaya mən də düçar olmuş, ədəbiyya-*

*tın, poeziyanın tilsiminə düşmüşdüm... Bir dəfə biz Anarla bizim mətbəxdə ikimiz olanda mən ona öz şeirlərimi oxudum. Anar şeirlərimi elə tərifədi ki, geri çəkilə bilməzdim. O, atasına göstərmək üçün şeirləri özüylə apardı".*

Anarın xatirələrindən: "Vaqif gözəl musiqiçi, pianoçu idi. Söhbət əsnasında gördüm ki, geniş ədəbi erudisiyası var, ədəbi savadı, ədəbi zövqü var. Amma ədəbi istedadının olub-olmadığını bilə bilməzdim. Ona görə dedim ki, ədəbiyyat haqqında fikirlər söyləyirsən, yaxşı olar tənqidi məqalələr yazasan. Bir müddətdən sonra Səməd Vurğunun indiki muzeyində, mətbəxdə mənə dedi ki, sən mənə dedin tənqidi məqalə yaz, ancaq mən bir neçə şeir yazmışam. Oxudu. Başa düşdüm ki, bizim ədəbiyyatımızda tamamilə yeni nəfəsi, tamamilə yeni sözü olan, tamamilə yeni bucaqdan həyata baxa bilən şair meydana gəlib..."

*"Belə gətirib ki, mənim taleyim Anarla bağlıdır. Məktəbdən tanıyırdıq bir-birimizi. Dostluğumuz məktəbi bitirdikdən sonra başladı. Anarın təmkini, davranış tərzi cəlb edirdi. Bizim komandamız yarandı: Anar, Emin Sabitoğlu, Araz Dadaşzadə, Rəhman Bədəlov və mən. Lider Anar idi. Tez-tez yığışardıq bizdə, ya Anargildə, ya da Arazgildə. Dövrün aktual siyasi məsələlərini, sənət hadisələrini müzakirə edirdik, mübahisələrimiz bitib-tükənmirdi. Söhbətlərimiz səhərə kimi davam edirdi bəzən".*

Sizi, 60-cılar dövrünün gənclərini bir araya gətirən həm də amal birliyi idi. Mən gəncliyimdə Anarı

şəhərdə, tez-tez də Hüsü Hacıyev küçəsində (indiki Azərbaycan ) görürdüm. İllər sonra Moskvada, Qorki küçəsində (indiki Tverskoy) yerləşən Mərkəzi Teleqrafın önündə gördüm. Anar bacımla salamlaşıb, hal-əhval tutdu. Bacım məni Moskvaya Kabilə yola salmağa gəldiyini dedi. Anar mənə yaxşı yol, uğurlu səfər arzuladı. İllər ötəcək və mən biləcəyəm ki, Moskvada ötəri tanış olduğum görkəmli yazıçı Anar Sənin həyatında müsbət rol oynamış önəmli insandır. Sənin həyatında çoxlu dost-tanışın olub, ancaq Anara münasibətin fərqli idi.

Yadımdadır, 1995-ci ildə *"Mən burdayam, İlahi..."* kitabını çapa hazırlayırdım. Sən evə gələndə əlindəki qovluqdan bir neçə vərəq çıxartdın: *"Ön sözdür, Anar yazıb, dedi ki, nəyi bəyənməsən, içindən çıxart".* Tez oxudum. Böyük, dəyərli yazıydı. Anar Sənin poetik dünyan haqda bir ədəbiyyatçı, yazıçı kimi fikirlərini, düşüncələrini dilə gətirərək şeirimizdə bənzərsiz, təkrarsız, unikal hadisə hesab edirdi. Esseni oxuduqca qürur duyurdum (axı mən Sənin poeziyanla təzə tanış olurdum). Ancaq dostluğunuza ərk edərək Anarın orada səsləndirdiyi "hərdəmxəyallığın" kimi fikirlər məni təəccübləndirdi: mən bilmirdim heç... (Anar "nəyi bəyənməsən, çıxart" dedikdə bu yerini nəzərdə tuturmuş, yəqin). Sən tez Anara zəng edib, gülə-gülə dedin: *"Anar, Nüşabə deyir ki, Sənin bu xüsusiyyətlərini bilsəydim, heç Sənə ərə gəlməzdim..."* Mən ucadan dedim: "Yox, elə deməmişəm..."

Heç nə çıxardılmadı, Anar necə yazmışdı, elə də

çapa getdi. Anar 1968-ci ildə Sənin ilk "*Yoldan teleqram*" kitabına "Gələcəyə teleqram" adlı məqalə yazmışdı. Anarın yazdıqları istedadına inandığı şairə həm də dost dəstəyi idi. Anarın nəcibliyindən gələn bir xüsusiyyəti var – özü bəyəndiyini başqalarına da tanıtmaq, sevdirmək istəyi. Onun Yusif Səmədoğlunun "Qətl günü" romanı haqda mülahizələrində həmin istək sezilir: "..."Qətl günü" bir oxucu kimi məndə ən işıqlı, ən xoş duyğular oyatdı, fikrimə yeni təkan verdi, düşüncələrimi arıtladı, durultdu. Hisslərimi, mülahizələrimi yalnız əsər müəllifiylə deyil, başqalarıyla da bölüşmək istədim".

*"Anar etibarlı dostdur. İllər keçdikcə bu münasibətlər başqa keyfiyyətə keçdi – Anarın mənə münasibəti də böyük qardaş, mənəvi ata münasibətinə oxşayır, aramızda bir yaş üç ay fərq olsa da. Bəlkə, ruhlarımızın yaxınlığıdır? Bir zamanlar o mənə görə bəzən yuxusuz, nigaran qalıb, gecələr şeirlərimi makinada yazıb, qovluqda saxlayıb. Mən şeir yazanda, hansısa misranı işlədəndə Anarın üzü gəlir durur gözümün önündə..."*

"... Vaqif Səmədoğlu şairlər içində mənə ən yaxın olanı, ruhumun inikasıdır, ikinci "mən"imdir. Mən özümü onun kimi şeirlə ifadə edə bilmərəm, onun kimi yazmaq isə mümkün deyil. Onunla danışdıqda heç kəs onun necə şair olduğunu başa düşə bilməz, əgər onun şeirlərini oxumayıbsa. O, bütünlüklə özündədir..."

Vaqif, məncə, Anar Səninlə dostluğunda daha möhkəm olub, nəinki Sən. Ancaq 2014-cü ildə xəs-

təliyinlə apardığın qeyri-bərabər mübarizə vaxtı: *"Nuşa, Azdramada Yazıçılar İttifaqının XII qurultayı gedir, mən getməliyəm, Anarı müdafiə etmək lazımdır",* – deyərək çətinliklə də olsa, özündə güc tapıb ora getməyin (zala girərkən gurultulu alqışlarla qarşılandın), çıxış etməyin Sənin Anara qarşı göstərdiyin son vəfanın, yüksək sədaqətin nümayişi idi... Sən Yazıcılar İttifaqının binasının itirilməsi təhlükəsindən danışdın. Əslində isə Sən Anarı müdafiə edirdin, Sənə doğma olan insanı... Mənim çoxbilmiş Vaqifim...

Biz Mirzə Fətəli küçəsindəki evə köçəndə otaqlardan birini özünə kabinet ayırdın. Yazı masasının yanındakı divara Sənə əziz olan insanların şəklini asdın. Yusifi sol tərəfdən, Anarı sağ tərəfdən. Lap başda atanın böyük portretini. Heç nəyi dəyişmədim, hamısı yerindədir, Vaqif. Muzeyə apardığım yazı masasından savayı... (Ayrıca kabinetin olandan sonra elə bil yazmaq həvəsin də azaldı...)

Gənclik illərində Anara həsr etdiyin şeir həm də Sənin vəsiyyətin oldu ona:

*...Sevdiklərim də,*
*sevmədiklərim də*
*yazılır içimə,*
*qalır içimin*
*qalın səbr dəftərində...*
*Dostum,*
*mən öləndən sonra*
*basarsan bu maqnitofonun*
*səs qaytaran düyməsini,*

*bir dəfə də eşidərsən*
*artıq döyünməyən*
*qəlbimin səsini...*

Anarın da Sənə ithaf etdiyi şeirdən bir parça:

*Ömrün o uzaq vaxtı,*
*İlk gənclik çağımızda*
*"Son yelkəni dolduran*
*Son küləkdir", – demişdin.*
*Nə biləydik küləklər*
*Hələ çox əsəcəkmiş...*
*...Keçir qatar ömürtək,*
*Gəncliktək uzaqlaşır*
*Qatarın son fit səsi.*
*Bu, son ümiddir, bəlkə,*
*Payızın qürubunda*
*Çıxdı bir gün qarşıma*
*Son eşqin möcüzəsi...*

Sizin ruh yaxınlığınız birgə yaradıcılığınızda da bəhrəsini verdi. "Gün keçdi" filmində ("Bir axşam taksidən düşdük payıza" mahnısı), "Evləri köndələn yar" teletamaşasında mahnı mətnləri, "Keçən ilin son gecəsi" tamaşasında "Bəlkə" mahnısı... Bu mahnıların bəstəkarı Emin Sabitoğludur. Anar yazır: "Bu nəğmələr Vaqifçün də, mənimçün də yalnız, sadəcə, mahnı, həm də çox məlahətli, incə, təsirli mahnılar deyil, daha böyük anlamda ömrümüzün bir parçasıdır, birgə yaradıcılıq işlərimizin işıqlı günlərini, gecələrini oyadan uzaq gəncliyimizin munis xatirələrini canlandırır. Eminsiz qalıb, Eminsizliyin acısını duyduğumuz anlarda..."

Bu sözləri Anar Emin Sabitoğlunun ölümündən sonra "Düşürsən yadıma..." xatirəsində yazıb...

*– Emin öləndən sonra mən, demək olar ki, mahnı mətni yazmıram... Emin musiqisi ilə bərabər, həm də son dərəcə böyük yumora malik insan idi...*

– Vaqif, Sənin Eminlə yazdığın mahnıların xüsusi çəkisi, təravəti var...

*– Bizim Eminlə birgə işlədiyimiz yüzdən artıq mahnı var. Burada, əlbəttə, filmləri, teatr tamaşalarını da nəzərdə tuturam. Rəhmətlik Sabit Rəhmanın "Hicran" librettosu əsasında yaranmış tamaşadakı bütün mahnılar və sözlər birgə işimizin məhsuludur. Musiqisinin fonunda görürəm mən Emini. Bəstəkarlar var ki, yaratdığı mahnılarla ölkəsinin hansısa mərhələsini, dövrünü ifadə edirlər. Məsələn, XX əsrdə Amerikada mərhələ musiqisini Corc Qerşvin yaradıb. SSRİ-də İsak Dunayevski. Onların mahnılarına qulaq asarkən ölkənin müəyyən dövrünün tarixini öyrənmək olar. Azərbaycanda mərhələ musiqisi Tofiq Quliyevdə var idi. Tofiq Quliyevdən sonra Emin Sabitoğludur. Baxmayaraq ki, T. Quliyev dövründə Səid Rüstəmov, Cahangir Cahangirov və digər bəstəkarlar dahiyanə mahnılar yaratmışdılar, amma bunlar mərhələ deyildi. Eminin dövründə isə Emin mərhələsi idi.*

Emin deyirdi ki, sazın, tarın, gitaranın, arfanın simlərinə, pianonun dillərinə toxunanda olduğu kimi, Vaqif Səmədoğlunun misraları da gözümə dəyəndə, qulağımda səslənəndə ürəyimdəmi, beynimdəmi həzin, kədərli, bəlkə də, sözlə deyə bilmədiyim səslər eşidirəm...

Bacım qızı İlahənin ad günü idi avqustun 13-də. Esmiragildə qohumlar, dostlar yığışdılar. O gün təkrarolunmaz bir gecə yaşadıq. Ssenari yazılsaydı, o cür canlı alınmazdı. Ekspromt idi hər şey. Emin çalır, hamımız xor oxuyur, deyib-gülmək zilə qalxırdı. Günəşın doğulmasını Eminin özünün bəstələdiyi "Bakı, sabahın xeyir" mahnısını çalıb-oxuması ilə qarşıladıq... Sən demə, o günü qonşular da yatmayıb, bizim nəğmələrdən, gülüşlərdən onlara da pay düşüb...

Emin dünyasını dəyişəndən sonra mən bunu yazdım:

*"Bir gün taksidən payıza düşdük",*
*Bildik daha yağmayacaq "Çiçək yağışı"...*
*"Bəlkə", nə vaxtsa görüşdük,*
*"Uzaq yaşıl ada"da olmasa da...*
*Sözlərim düzülmür*
*Sənsizləşmiş not vərəqinə...*
*"Bağışla", musiqi,*
*"Bağışla", şeir...*

Sən uzun müddət Eminlə son görüşün təsirindən özünə gələ bilmədin.

– *Nuşa, axşam onunla ayrılanda mənə baxıb əl eləməyi gözümün qabağından getmir. Elə bil vidalaşırdı Emin mənimlə...*

*"Rahat ölməkçün o dünya ümidi olmalıdır bu dünyada..." Bəlkə də, təskinlik üçündür bu sözlərin. Ancaq o dünyanın olması ümidiylə sizin görüşünüzə inanmaq istəyirəm...*

Qayıdaq 60-cı illərə. Keçən əsrin 60-cı illəri Sənin

həyatının mühüm məqamları ilə yadda qaldı. O illər Xruşşovun "mülayimləşmə" dövrünə təsadüf edir.

– Səninçün 60-cı illər nə idi?

*– Mənimçün 60-cı illərin əsas qiyməti kimlərinsə o dövrdə yaratdığı romanlar, povestlər, şeirlər, simfoniyalar, rəsm əsərləri deyil, bunlar öz yerində, mənimçün o dövr əsas mahiyyətlə Yeni Zövq yaranan bir zəmin kimi dəyərlidir. Və bu fenomen təkcə Azərbaycanda və ozamankı SSRİ-də yox, bütün dünyada baş verirdi... Azərbaycan 60-cı illər intibah dövründə dünyada baş verən bədii hadisələrin əksəriyyətindən gen düşmədi, bir çox sahələrdə öz sözünü dedi...*

"Mülayimləşmə"nin təsiri altında sovet cəmiyyətinin dəyişməsi özünü söz azadlığında, siyasi və ictimai həyatın liberallaşmasında müəyyən qədər büruzə verir, Qərb dünyasına qapıların açılması, yaradıcı fəaliyyətə daha çox azadlığın verilməsiylə xarakterizə olunurdu. Azadlığın az da olsa, dadını duyan cəmiyyətdə "samizdat", dissidentlik yaranırdı. Azaddüşüncəli, müstəqil, sərbəst insanlar: şairlər, yazıçılar, rəssamlar, bəstəkarlar və başqa peşə sahibləri yetişirdi. Onlar insanın mənəvi dünyasına daha çox baş vurmağa çalışırdılar. Sən azaddüşüncəli adamların önündə gedənlərdən oldun. Müstəqil düşüncəni, qaynayan azad ruhunu qoruyub saxlaya bildin.

Anar evdə şeirləri atasına oxudu. Şeirlərinlə elə ilk tanışlıqdan Rəsul Rza Səni şair kimi qəbul etdi. "Mümkündürmü, ilk dəfə əlinə qələm alan bir gənc

belə bitkin, müasir təfəkkür və geniş müşahidələrlə zəngin şeirlər yazsın...” Bu fikirləri Rəsul Rza Sənin haqda “Geniş yollara çıx” adlı məqaləsində yazdı və yeddi şeirinlə birlikdə 1963-cü ildə “Azərbaycan” jurnalında nəşr etdirdi. Bu il Sənin yaradıcılıq yolunun başlanğıcı oldu. Enişli-yoxuşlu bir yol...

*“Əgər Rəsul Rza şeirlərimi bəyənməsəydi, mən musiqini atmayacaqdım... Atamın müdrik, yolgöstərən məsləhətlərindən tale məni məhrum etdi. Ancaq xoşbəxt adamam ki, Rəsul Rza mənim əlimdən tutdu... Məsuliyyət hissi ilə şeir yazmağı mənə Rəsul Rza öz şeirləri, söhbətləri ilə öyrətdi...”*

...Azərbaycanda yeni şeirə ədalətsiz münasibət vardı və çəpərləri sındıran Rəsul Rza idi. Rəsul Rza keçən əsrin 60-cı illərində Azərbaycanın gənc şair, yazıçılarına həm arxa oldu, həm də arxasınca apardı. Musiqidə isə bu missiyanı Qara Qarayev yerinə yetirdi. Hər ikisi yeniliyə, modernizmə meyilli adamlar idi. Onların adlarıyla bağlı mənəvi məktəblər yarandı.

İlk dəfə Rəsul Rzanı görməyim yadıma düşdü. Bacım Esmira onun kiçik qızı Təranəylə onillik musiqi məktəbində bir sinifdə oxuyurdu. Sinfin qızları ad günlərində bir-birilərini təbrik edirdilər. Təranənin bir ad günündə – onda üçüncü sinifdə oxuyurdum – bacımla mən də onlara getdim. Kitab pasajının üstündə yerləşən evlərinə. Bacım mənimlə getmək istəməsə də, valideynlərimin təkidiylə onun sinif yoldaşlarıyla yığıncaqlarında mütləq mən də iştirak etməli idim. Rəsul Rza biz olan otağa gəldi, hamıyla

salamlaşıb çıxdı. Həmin gündən yadımda aydın qalan bir Rəsul Rzanın təbəssümüdür, bir də özümün geyindiyim paltar. Qalan hər şey duman içində...

Jurnal çıxanda Sən Bakıda deyildin. Moskva Konservatoriyasına ikiillik təcrübəyə getmişdin. Təcrübə bəhanə idi. Sənə o dövrdə Moskvada olmaq su kimi, hava kimi lazım idi. Moskva mühitiylə nəfəs almaq, maraqlı, azaddüşüncəli yaradıcı insanlarla tanışlıqlar, görüşlər, ünsiyyətlər təsirsiz ötmədi ömründən... 1960-cı illərin əvvəllərində Moskvada gənclər kafeləri yaranırdı. Orada gənclər musiqiyə qulaq asır, rəqs edir, gənc rəssamlar əsərlərini nümayiş etdirir, fikir mübadiləsi aparırdılar. Şeir gecələri keçirilirdi. O illər həm də sevgiylə, böyük ümidlərlə, niyyətlərlə dolu həyat idi...

*Moskva küçələrində*
*on beş, bəlkə, iyirmi il*
*bundan əvvəl elə bil*
*ölüm kimi uzun bir yuxudan*
*oyandım.*
*Və diksindim oyanan kimi.*
*Və diksinən kimi*
*əlimdən düşüb sındı,*
*çilik-çilik oldu Vətən sözü*
*Moskvanın küçələrində...*

– Sənin Moskva həyatın konservatoriyadan başladı...

*– Atamın dostlarından şair Konstantin Simonov tanınmış musiqiçi, müəllim Yakov Vladimiroviç*

*Fliyerə zəng vurub, məni ona tapşırdı. Mən onun yanına gedib, Bethovenin sonatasını və Şopenin etüdünü çaldım. İfama diqqətlə qulaq asan Fliyer mənimlə məşğul olacağını dedi. Məlum idi ki, Fliyer yalnız yüksəksəviyyəli musiqiçilərlə məşğul olur və gələcək laureatlar yetişdirirdi.*

– Sən öz seçimin haqda professor Fliyerə necə dedin?

*– Açıq-aşkar dedim ki, mən şairəm, artıq pianoçu deyiləm və mənə bir müddət Moskvada yaşamaq, oranın ədəbi mühitində olmaq, görüb-götürməkdən ötrü bu təcrübə bir bəhanədir. Şükür, Fliyer məni başa düşdü. Ancaq öz sözünü də dedi: "U vas na Vostoke etoqo dobra – poetov xvataet! A xoroşix pionistov s takimi rukami – malo..." (Sizin Şərqdə şair çoxdur, amma belə əlləri olan pianoçular azdır...)*

Səni başa düşdüyünə görə Fliyeri minnətdarlıq hissiylə yad edirsən.

– Vaqif, bəs Sən heç bir dərsdə iştirak etmədin?

*– Moskva Konservatoriyasındakı fortepiano dərslərinə icazə alıb girmək, sakit, kirimiş oturub, kənardan qulaq asmaq, seyr etmək səadətdir! Qoca Henrix Neyqauzun gözəl, məharətli rejissor, parlaq aktyor kimi iştirak etdiyi tamaşalar idi bu dərslər. Yakov Fliyerin dərsin ilk dəqiqəsindən tələbəni tam səhnə, müsabiqə səfərbərliyinə hazırlaması, maddi cəhətdən ən imkansız şagirdini belə əynindəki nimdaş pencəyi əla biçilib tikilmiş frak kimi duymağa alışdırması...*

Qoca Henrix Neyqauza şeir də həsr etmisən.

*Otağımda Şopen...*
*İndi gedin,*
*indi uzaqdan güdün*
*son günümün*
*son nəfəsini.*
*Bir də yaşamaq istəyən*
*insan həvəsini.*
*Bu kiçik noktürn*
*səslənənədək*
*mən də, ömrüm də*
*ikimiz də tək,*
*verib baş-başa,*
*yavaş-yavaş*
*yaşayacağıq Yer üzündə.*
*Yer üzünün*
*titrəyən dizində...*

– Yəqin, adi dinləyiciyə də Moskva Konservatoriyası çox şey verir?

*– Əlbəttə. Təəssüf ki, mən bu xoşbəxt anların yalnız müşahidəçisi olurdum. Ancaq, sadəcə, oranın dəhlizlərində addımlayanda adama bəzən qəribə bir hiss, qeyri-adi duyğu hakim olur: bu parketə axı Çaykovski, Raxmaninov, Skryabin, Rixter, Gilels ayaq basıb! Hər dəfə o konservatoriyadan çıxıb, qaldığım yerə, əsasən, Ədəbiyyat İnstitutunun yataqxanasına gələndə açıq-aşkar bir planetdən o birinə keçdiyimi görürdüm. Raketlə kosmik gəmidə yox, 13 nömrəli trolleybusda...*

– Ədəbiyyat İnstitutunun yataqxanasına Moskva ədəbi mühitinə yaxın olmaqçün düzəlmişdin?

*– Əlbəttə. Mən orada Fikrət Qocayla, Maqsud İbrahimbəyovla, Azər Mustafazadəylə, rus ədəbiyyatının sonradan parlayan istedadlı yazıçıları Vasili Belovla, Valentin Rasputinlə, Viktor Astafyev və başqalarıyla tanış olub ünsiyyət qurdum. Orada müxtəlif yığıncaqlar olurdu, müxtəlif mövzularda diskussiyalar keçirilirdi. Belə məclislər daha çox o illər Moskvada təhsil alan Maqsud İbrahimbəyov və Anarın evində olardı. Maqsud yataqxanada qalırdı, Anar isə yoldaşı Zemfira xanımla birotaqlı kirayə evdə yaşayırdı. Anargil ayda bir dəfə mənzillərində dost məclisləri qurur, bu məclislərdə İvan Draç, Amiran Çiçinadze, İlya Averbax, Yuri Klepikov, Alla Axundova, Manana Andronnikova, Yunna Moris kimi azadlıqsevər şəxsiyyətlərlə saatlarla müxtəlif mövzularda ciddi, mənalı söhbətlər gedirdi. Həmişə qonaqpərvər Zemfira xanım bizə ana qayğısı göstərirdi. Mən özüm tez-tez işlərimi bitirən kimi özümü verirdim Anargilə. Onların yeməklərinə şərik çıxırdım. Ona görə mən Zemfira xanıma "mamaşa" deyirdim..."*

Zemfira xanım "Ardı yaşanılır" xatirələr kitabında yazır: "Bizim ailə üçün son illərin ağır itkilərindən gənclik dostumuz, yoldaşımız Vaqif Səmədoğlunun dünyasını dəyişməsi oldu. Biz ona "Vaqulya" deyirdik. O isə mənə "Mamaşa"... Vaqulya Moskvada bizim tutduğumuz evin sahibi ilə razılığa gəlmişdi ki, onların royalında gəlib məşq etsin. O, Bethovenin "Apposionata"sını çalarkən ev yiyəsi yaşlı qadın Larisa divanda oturub ona qulaq asmağı çox sevərdi,

fikrə dalardı, deyərdi ki, gəncliyi yadına düşür. Demə, cavanlığında Vadim adlı gənci sevirmiş, o da, deyəsən, pianoçu imiş... Vaqulya cazı da çox sevərdi. Onun özünün caz nümunələrini ifa etməyi yadıma düşür, fortepianoda çaldığı "Reqtaym"ı və "Bassanova"sı indi də qulağımdadır... Heyif Vaqulyadan. Onun yeri həm bu gün görünür, həm də sabah görünəcək... Ondan sonra mənə "mamaşa" deyən olmayıb, yəqin, olmayacaq da..."

Bu ailənin Günelinin – uşaqlıqdan gözünün önündə böyüyən, ciddiliyinə, məsuliyyətliliyinə qiymət verdiyin, ilk yaradıcılıq addımlarına dəstək olduğun, uğurlarına ürəkdən sevindiyin Günel Anarqızının Vaqif əmisinə – Vaqif Səmədoğluna olan sevgisi, ehtiramı Sənə həsr etdiyi təsirli ithafda da özünü göstərir: "...Uşaqlıqdan bəri tanıdığım, şeirləri və pyesləri ilə böyüdüyüm, evimizin hər zaman ən əziz qonağı olan, sevdiyim və mənəvi ata kimi qəbul etdiyim nəhəng bir adam üç gün öncə dünyasını dəyişdi... Bütün bu günlər özümə yer tapa bilmədiyimdən hisslərimi nə burada, nə də başqa haradasa ifadə edə bildim... Bu miqyasda adamlar həyatdan köçəndə, demə, belə olurmuş..."

*Ömür yolu açıq yoldur,*
*nə getdi, getdi...*
*Əlində bir gün də qalmır,*
*nə itdi, itdi...*
*Bu dünya dəmyə dünyadır,*
*nə bitdi, bitdi...*

1964-cü ildə Sən Moskvadan Bakıya qayıdırsan...

– Moskvadan sonra Bakı Konservatoriyasında səkkiz il (1964-1972) dərs dedin. Məgər iki sənətdə paralel şəkildə vahid ömür sürə bilməzdin?

*– Bəlkə də, olardı. Mən bunu bacarmadım...*

Gündəliyindən peşmanlıq hissi keçirdiyini oxuyuram: *"Son dərəcə sevdiyim musiqini, fərdi ifaçılığımı poeziyaya qurban verdim..."*

– Gözəllik qanununa tabe olan musiqinin cazibəsindən qurtulmaq mümkün deyil. Sən də qurtula bilmədin...

*– Musiqiyə "əlvida" dedim. Ancaq bu, xülya idi... Musiqidən nə ayrılmaq mümkündür, nə də ondan azad olmaq. Və bu, insandan asılı deyil, burada öz sözünü musiqi deyir, sonsuz, yenilməz iradəsini ortaya qoyur. Musiqi Azadlıq Məhbəsidir. Ona məhkum olan insanların cəzası isə ömürlükdür...*

Şopenhauer deyirdi ki, musiqiyə qulaq asdıqdan sonra yenə deyilməmiş, yarımçıq, kifayətlənmədiyin nəsə qalır. Bəlkə, belə fikirlər Sənin də içində dolaşıb, musiqiylə tam deyə bilmədiyini sözlə, şeirlə ifadə etmək istəmisən...

*Deyəsən, bu musiqi*
*Bramsdan qalıb,*
*bəlkə, Malerdən...*
*Bir vaxt itib yox ola bilirdim*
*bu səslərin, akkordların içində,*
*görünməzə dönürdüm*
*sonuncu tonikaya qədər...*

*İndi*
*ya son tonikadan başlanır*
*günlərin musiqisi,*
*ya da son akkord*
*heç bir vaxt səslənməyəcək*
*bir musiqiyə dönür ömür...*

– Vaqif, Sən öz yaradıcılığını hansı bəstəkarın musiqisinə bənzədərdin?

*– Bir bəstəkarla məhdudlaşmamışam. Həm klassik, həm caz, həm xalq musiqisi var. Klassiklərdən daha çox rus bəstəkarları Skryabin, Raxmaninov və polyak Şopeni eşitmək olar.*

Bilirəm, Sən belə ritorik sualları sevmirsən. Ancaq, nə yaxşı ki, soruşdum. Və nə gözəl ki, deyinsən də, cavab verdin sualıma.

Moskvada dolğun bir həyat yaşamısan. Parlaq, son dərəcə maraqlı insanlarla görüşlərin unudulmaz aylar, günlər, anlar bəxş edib Sənə.

– Nazim Hikmətlə Moskvadakı unudulmaz görüşün yadıma düşdü...

*– 1963-cü ilin fevral ayında Moskva Konservatoriyasında Niyazinin dirijorluğu ilə türk bəstəkarları Adnan Sayqunun III simfoniyası və fortepiano konserti, Camal Erkinin II simfoniyası və skripka ilə orkestr üçün konserti səslənəcəkdi. Mən də o konsertə qulaq asmağa getdim. Foyedə Nazim Hikməti və köməkçisi Əkbər Ağayevi gördüm. Söhbətə yeni başlamışdıq ki, bir qrup rus ziyalısı Nazim Hikmətə yaxınlaşdı. Bu arada Əkbər mənə yavaşca dedi ki,*

*Adnan Sayqun və Nazim Hikmət Türkiyədə dənizçilik məktəbində oxuyublar, uşaqlıq dostu olublar. Konsert başladı. Sayqunun bir əsəri çalındı. Sonra Erkinin fortepiano və orkestr üçün əsərini pianoçu İsaak Juk çaldı. Juk bu əsəri üç günə öyrənmişdi. Konsert yüksək səviyyədə keçdi. Konsertdən sonra mən səhnə arxasına getdim – Niyazini təbrik etməyə. "Ürəyim dağa döndü, maestro", – dedim.*

Niyazi özünəməxsus əzmlə cavab verdi: "Bəs sən Niyazini nə bilmişdin!"

Niyazi məni Türkiyənin SSRİ-dəki səfirinə, oradakı türk diplomatlarına və əlbəttə, Sayquna və Erkinə təqdim etdi. Bu zaman heç vaxt unuda bilməyəcəyim bir hadisə baş verdi. Otağa Nazim Hikmət daxil oldu. Heç kimə baxmadan Niyaziyə yaxınlaşdı, onu qucaqlayıb təbrik etdi. Mənə: "Gəl gedəlim", – dedi. Mən onunla çıxmaq istəyəndə Türkiyənin səfiri əsl kişi hərəkəti edərək dedi: "Sayqun, neçin okul arkadaşınla selamlaşmıyorsun?"

Sayqunla Nazim bunu gözləyirmişlər kimi bir-birinə sarıldılar və mən türk diplomat xanımlarının xısın-xısın ağladıqlarının şahidi oldum. Sonra Nazim Hikmət Əkbər Ağayevi və məni axşam yeməyinə dəvət etdi. Biz konservatoriyadan çıxaraq, Qersen küçəsi ilə üzüaşağı düşərək Karl Marks prospektinə dönüb "Nasional" restoranına getdik. Bütün yol boyu yanımızdan ötən qadınların gözləriylə Nazim Hikməti necə yola saldıqlarını görürdüm. 60 yaşında olsa da, o, diqqət mərkəzində idi. Keçdiyi ömür yolunun əzab-əziyyəti, kədərli yaşantıları onu daha da

işıqlı etmişdi sanki... Bu mənim Nazim Hikmətlə son görüşüm idi...

– İlk görüşün Bakıda olub, deyəsən?

*– İlk dəfə Nazim Hikməti 1957-ci ildə atamın ölümündən sonra bizə gələndə gördüm (indiki Səməd Vurğunun ev-muzeyində). İlk növbədə məni və Yusifi – Bakının iki stilyaqasını məftun etmişdi Nazim Hikmətin şıq geyimi. Velvet kepka, yumşaq makasin, boz rəngli palto, boğazında sərbəst düyünlənmiş ipək şərf onun məğrur görkəminə çox yaraşırdı. Mən o zaman konservatoriyanın 2-ci kursunda oxuyurdum. Əziz qonaq üçün Şopenin "3* №-li *mi major etüdü"nü çaldım. O məni qucaqladı və soruşdu:*

*– Üzeyir Hacıbeyliyi mi, yoksa Kara Karayevi mi çok seviyorsun?*

*– İkisini də, – deyə cavab verdim.*

*– Kendini və toprağını sev, – dedi.*

*Heç gözləmədiyim cavab... Bizdə olduğu zaman dönə-dönə: "Kendi dilinizde konuşun. Dilinizi koruyun. Azerbaycan türkçesi temizdir, saftır, şirindir..." – deyirdi.*

– Yusifin toyunda da iştirak etmişdi?

*– 1960-cı ildə Nazim Hikməti ikinci dəfə gördüm. O, Yusifin toyunda iştirak etməkçün gəlmişdi. Yusif Moskvada Ədəbiyyat İnstitutunda oxuyanda atam onu Nazim Hikmətlə tanış etmişdi. Söhbət əsnasında Nazim Hikmət ondan hansı adla yazacağını soruşub. Yusif də: "Yusif Vəkilov", – deyib. "O zaman her kes zannedecek ki, russun. Öyleyse babanın adını kendine lakap olaraq al. Yusif Sa-*

*medoğlu ol", – Nazim deyib. Sonralar mən də oldum Vaqif Səmədoğlu, Emin də Sabitoğlu...*

– 1963-cü il iyun ayının 3-də Nazim Hikmətin qəfil ölüm xəbəri...

– *Onunla az görüşdüyüm üçün üzülürəm. Həm də peşmanam, niyə ona şeir yazdığımı demədim. O məni Səməd Vurğunun oğlu və musiqiçi kimi tanıdı.*

– Sənin Nazim Hikmətə ithaf etdiyin şeirlər var...

– *Elədi. Uzun zaman onun parlaq, nurlu siması xəyalımdan çıxmadı. Bu duyğularla həmin il ona bu şeiri həsr etdim:*

*Öləndə neçə yaşın var idi sənin?*
*Neçə qış, neçə bahar görmüşdün?*
*Öləndə kimin saman sarısı saçlarının*
*Qoxusunu eşitdin?*
*Torpağını gördünmü gözlərini yumanda?*
*Mavi gözlərinin səması indi yox.*
*Gecə çökdü gözlərinin səmasına.*
*Neçə ulduz söndü*
*mavi gözlərinin*
*qapanmış gecəsində?*
*İşığı bizə heç vaxt*
*çatmayacaq ulduzlar.*
*Öləndə neçə yaşın var idi sənin?*
*Yoxsa hələ doğulmamışdın?*

60-cı illərin ikinci yarısında Azərbaycanda da ədəbiyyat, incəsənət sahəsində çalışan gəncləri bir yerə toplayıb seminarlar təşkil edirdilər. Yaradıcı gənclər ayda 1-2 dəfə Bakının klub və kafelərində yığışır, şe-

irlər oxuyur, rəssamlar öz əsərlərini göstərir, musiqiçilər çalırdılar. Əsasən də caz. Çox maraqlı disputlar keçirilir, söhbətlər olurdu.

Bu işlər o zaman Azərbaycan Komsomol Komitəsinin rəhbəri Maqsud Əlizadənin (sonradan o, Tibb İnstitutunun rektoru olarkən qətlə yetirildi) xeyir-duasıyla, Azərbaycan Komsomol Komitəsində çalışan mərhum Zaur Rüstəmzadənin, İqor Plavskinin (1991-ci ildə ermənilər tərəfindən vurulan vertolyotda həlak olmuşdu) rəhbərliyi ilə keçirilirdi.

Sənin xatirələrindən: *"İki dəfə Zuğulbada "Gənclik" pansionatında Gənclərin Ümumrespublika Seminarı keçirildi. Bu seminara yaşlı nəsildən olan yazıçılar, alimlər də dəvət olunmuşdu. Komsomol Komitəsi bizə – gənc bəstəkarların, rəssamların, şair və yazıçıların daxil olduğu qrupa avtobus da ayırmışdı ki, Azərbaycanın rayonlarına gedib, orada çıxışlar edək, yerli ağsaqqallarla görüşək. Hətta bir dəfə bu avtobusla Tiflisə də getdik. Məni və Anarı Gürcüstan TV-yə dəvət etdilər. Məlumdur ki, sovet dövründə senzurasız heç bir çıxış mümkün deyildi. Ancaq biz Tiflisdə yoxlamasız TV-də canlı çıxış etdik. O illərdə Gürcüstan liberal fikirli yaradıcı gənclərin toplaşdığı məkana çevrilirdi. Bizim seminarlardan sonra Gürcüstanda ilk seminar Bakurianidə keçirildi. Bakurianiyə Tiflisdən gedəndə gənclər darıxmasın deyə hər avtobusa gürcü qadınları bir neçə şüşə çaxır, konyak, yemək qoyurdular. Bakurianidə mehmanxanada öz nömrəmizə gedəndə mənim qabağımda gürcü yazıçısı Çabua*

*Amirecibi pilləkənlə qalxırdı. Əlində hörülmüş qamış içində 60-70 litr çaxır şüşəsi. Güclə aparırdı. Birdən çaxır şüşəsinin qırağı pilləkənin böyrünə dəydi və qıpqırmızı çaxır axmağa başladı. Çabua axan çaxıra baxa-baxa əlacsız halda əllərini yana açıb, rusca ürəyəyatan gürcü ləhcəsində dedi: "Vaqif, doroqoy, lestnisı i stupenki pyut za tvoyo i moyo zdorovye". (Vaqif, əzizim, pilləkənlər sənin və mənim sağlığıma içirlər).*

Gənclik illərində Sən həm bığsız olmusan, həm də eynəksiz. Bu görünüşlə Səni xarici aktyorlara bənzədirmişlər. Hətta bir dəfə bununla bağlı maraqlı hadisə də yaşanıb. Sənin xatirələrindən: *"Moskvada Macarıstan səfirliyində qəbul var idi. Yaşılgözlü, qarasaçlı, şıltaq, gözəl macar aktrisası İlona Bereş məni bu qəbula dəvət etmişdi. Rüstəm İbrahimbəyov xanımı Şöhrətlə həmin qəbulda idi. Protokola görə, səfir və onun xanımıyla görüşmək üçün öz növbəmizi gözləyirdik. Bizdən qabaqda məşhur rus rejissoru Sergey Gerasimov xanımı aktrisa Tamara Makarova ilə dayanmışdı. Gerasimov arxaya döndükdə məni görcək qollarını açıb: "Oy Tamara, smotri kto u nas v qostyax" (Tamara, bax gör bizə kim qonaq gəlib), – dedi. Tamara məni görməyinə ürəkdən sevinib qucaqladı, öpmək üçün üzünü yaxınlaşdırdı. Gerasimov da eyni hərəkəti etdi. Mən isə keyləşmiş halda gülümsəyirdim. Rüstəm İbrahimbəyovun təəccübünün hüdudu yox idi: "Vaqulya, belə adamlarla oturub-durursan, bizim xəbərimiz yoxdur". "Mən onu ilk dəfədir canlı gö-*

*rürəm", – desəm də, deyəsən, Rüstəm mənə inanmadı. Sergey Gerasimov, çox güman ki, məni hansısa ərəb, ya hind aktyoruna oxşatmışdı".*

Deyirdin məni ən çox ərəb aktyoru Ömər Şərifə və İtaliyanın məşhur teatr və kino aktyoru Vittorio Hassmana bənzədirdilər. Hassmanın teatr aktyoru kimi oyununu Moskvada Kino Evinin səhnəsində görmüşdün. Monopyesdə yaratdığı müxtəlif obrazlar, o cümlədən Hamlet obrazı Səndə çox dərin təsir buraxmışdı. Sən Hassmanın aktyorluq istedadını yüksək qiymətləndirirdin.

...*Vittorio Hassman*
*olmuşdu Hamlet*
*təkbaşına.*

Vittorio Hassman 2000-ci ildə 78 yaşında dünyasını dəyişdi. Onun ölüm xəbərini mənə deyəndə səsindəki kədər indi də qulağımdadır...

Vittorio Hassman mənim də xoşuma gəlirdi. Onu Amerika istehsalı olan "Hərb və sülh" (A. Kuraqin), "Rapsodiya" (skripkaçı P. Bronte) filmlərindəki rollarından tanıyırdım. Bu yaxınlarda Vittorio Hassmanın iştirakıyla "Ötmə" (Bruno) filminə baxdım. Sənin gənclik illərini görməsəm də, fotolarından deyə bilərəm ki, oxşarlıq var imiş...

Ötən illər xarici görünüşünə toxunmuş, bığ, eynək, gümüşü rəngə boyanmış saçlar, dolğunluq əlavə olunmuşdu görkəminə. Bu görünüşdə Sən Strasburqda maraqlı bənzətməylə qarşılaşmısan. Rusiyalı jurnalist Səni Fələstin lideri Mahmud Abbas zənn

edərək müsahibə götürmək üçün qabağına qaçıb, mikrofonu Sənə tərəf tutaraq "Mahmud Abbas..." dedikdə Sən ona: *"Sovsem naoborot (tam əksinə)",* – deyərək israilli deputatların yaxana taxdıqları Knessetin nişanını göstərmisən...

Sən öz gəncliyindən maraqla, xiffətlə danışanda mən o illərdə Sənin yanında olmadığım üçün heyifsilənmişəm, həm də qısqanmışam. Sən motosikletdə Bakını, Abşeronu ələk-vələk edəndə arxadan Səni bərk-bərk qucaqlayıb oturan, "daha sürətlə sür" deyən niyə mən olmamışam? O illərlə bağlı nəsə demək istədikdə: *"Sən o vaxtlar uşaq idin",* – deyirdin. Amma təəssüf hissini də gizlətmirdin: *"Niyə axı gənc yaşlarında qarşıma çıxmadın?"*

Bilirsən, mən də bu haqda düşünmüşəm. Vaxtındamı gəldim mən Sənin həyatına, yoxsa gec? Bilmirəm. Gəncliyimdə mən ərköyün, tərs olmuşam. Öz bildiyimi heç kəsə güzəştə getməyi sevməmişəm, ancaq həm də (öz aləmimdə) ədalətli olmağa çalışmışam. Yaşlılara, bəxti gətirməyən "yazıqlar"a, zəiflərə qarşı rəhmdil olmuşam həmişə. Məktəbdə də sinif uşaqları kimisə saymadıqda onun başını tumarlamağa, xoş danışmağa çalışmışam. Kiminsə haqqında xoşagəlməz sözlər eşidəndə o adamda müsbət nəsə bir şey tapmağa çalışmışam. Yerli-yersiz kimlərisə müdafiə etməyim evdəkiləri hirsləndirərdi çox vaxt. Anam deyərdi: "Sən gərək vəkil olasan..." 5 yaşım olanda Molokan bağı ilə üzbəüz yerləşən uşaq bağçasına getmişəm (çox az getdim). Bağçadan məni ya anam, ya da bacım gətirərdi. Mən də,

adətən, onların əlindən qaçır, yolüstü erməni kilsəsinə baş çəkir, məni məftun edən gözqamaşdırıcı şamların işığına baxmaqdan doymurdum...

*Yer üzünün məscidlərində,*
*kilsələrində*
*neçə milyard şam yanır hər gün?*
*Amma yenə hər yan qaranlıq...*

O zaman Parapet bağı (indiki Fəvvarələr meydanı) tərəfdə əyni-başı çirkli, əlil, balaca bir kişi yerdə oturub dilənərdi. Bağçadan anamla qayıdanda adamı həmin yerdə görən kimi anamdan pul götürüb ona verir, həm də yalvarırdım ki, onu evimizə aparıb, çimizdirib, yedizdirib, yanımızda saxlayaq. Bir dəfə istəyim o dərəcəyə çatdı ki, atam məni sakitləşdirmək üçün bu məsələni yoluna qoyacağına söz verdi. Sonralar o adamı daha orada görmədim. Atam ürəyiyumşaq adam idi. Yəqin, doğrudan da, bu məsələni yoluna qoymuşdu...

Xavər xanım bir dəfə məndən soruşdu:

– Qızım, yaşlıların hörmətini saxlamaq haradandır səndə?

Düzü, onun bu sualı məni təəccübləndirdi.

– Xavər xanım, gözümü açandan yanımda nənəmi görmüşəm...

Bu gün dünəndən başlayır. Sənin bugünkü həyatında sürətlə nələrsə dəyişir, dünən yaşadıqların da özünü vaxtaşırı yada salır və sən anlayırsan ki, indiyə kimi baş verənlər bu gün əldə etdiklərinin müqəddiməsi imiş... Vaqif, bilmirəm görüşümüz gecikmiş

olub, ya zamanında, ancaq Sənin sayəndə həm də "eqom"la sağollaşdım...

Təsəvvür edirəm əgər hər bir insan, bütün bəşəriyyət öz "eqosu"ndan əl çəksəydi, bütün aləm, Yer üzü necə gözəlləşərdi...

*Biz yox,*
*Allah inanmır bizə*
*əlimiz qana batanda,*
*insan insana daş atanda.*
*Ancaq göy üzü*
*uşaq təbəssümü kimi görünəndə gözə,*
*insan "Dünya gözəldir" deyəndə*
*üzünü tutub dənizə,*
*biz yox,*
*Allah inanır bizə...*

– Sənin nə həyat tərzin, nə yaradıcılığın sovet standartlarına uyğun gəlirdi. Belə xüsusiyyətlərlə heç kəsi xaricə yollamırdılar. Bəs onda nə əcəb Sənə icazə verdilər?

*– Elədi. Bohem həyatı yaşayırdım. Siyasi rəhbərlərdən lətifələr danışır, mövcud sistem haqqında tənqidi fikirlər söyləyirdim. Məmurlar yaradıcılığımı "antisovet" kimi tənqid edirdilər. Belə xarakteristikası olanları xaricə buraxmırdılar. Yalnız İqor Plavskinin dəstəyi və Zaur Rüstəmzadənin səyləri nəticəsində mən ilk dəfə 1971-ci ildə SSRİ-dən çıxa bildim. "Tatariya" teploxodunda Skandinaviya ölkələri üzrə kruizə çıxdım. İlk dəfə başqa dünya gördüm. Ağ-qara dünyadan rəngli dünyaya düş-*

*düm... Norveç, İsveç, Danimarka, Finlandiya...*

Hər ölkə öz tarixi, mədəniyyəti, memarlıq gözəllikləri, insanlarının nəzakətli davranışı ilə diqqətini cəlb edir. *"Yaddaşıma qonaq gələcək Norveçdəki bağ", "Solveyqin nəğməsi"* kimi şeirlərin o səyahətdən yadigardır...

*Baxtıma ağalıq edir*
*Bu ölmüş qadının səsi.*
*Məni tutub, yaman tutub*
*Bu gün Solveyqin nəğməsi...*

XIX əsr böyük Norveç bəstəkarı Edvard Qriqin bu həmişəyaşar, gözəl musiqisini və mahnısını dinləyəcək, gözünün önündə Norveçin ecazkar təbiəti canlanacaq. Çox illər sonra Bakıda Norveç səfirliyindəki görüşdə xatırlayacaqsan bu ölkəylə bağlı təəssüratlarını...

Stokholmda gördüyün nizam-intizam, təmizlik, mağazalardakı bolluq yada salacaq Nazim Hikmətin dediklərini: "Əsl sosializmi İsveçdə gördüm..."

Stokholmda gördüklərinin təsiri altda yazacaqsan:

*Elə aydın gecə*
*görməmişdim həyatımda,*
*bir gün Stokholmda*
*seyr etdiyim gecə kimi...*
*Axı doğulduğum gündən bəri*
*ayın üzü ləkəli açılmışdı gözlərimə.*
*Ulduzların çoxu gizlənmişdi*
*buludlar arxasında...*

*Və mən ömrümdə ilk dəfə açıq göy üzü gördüm,*
*bildim ki, xəbərsiz olmuşam*
*gecələrdən...*

Danimarka deyəndə ilk növbədə Hans Andersen, onun sehrli nağıl dünyası göz önünə gəlir...

*Eşitmişəm bu yay bağda,*
*bir danimarkalının*
*nağılını oxuduğun yerdə*
*pəncərənə sərçə qonub...*
*...Gözlərin dolub birdən-birə,*
*ağlamısan*
*o danimarkalının nağılını*
*üzünə sıxıb.*
*Ağlamısan*
*yayın o istisində...*

Bu şeiri 1966-cı ildə yazmısan. Danimarka səfərindən beş il qabaq. Kimdi o nağılı oxuyub ağlayan, bilmirəm. Doğrusu, onun kimliyi maraqlı da deyil. Çünki o dahinin ecazkar nağıllarının sehrinə həssas olan böyük də, kiçik də düşə bilər. Bu şeirdə mən doqquzyaşlı özümü gördüm. Yay tətilində Gəncədə Rəfiqə xalamın bağışladığı "Andersenin nağılları" kitabını böyük sevgiylə, həyəcanla oxuyub ağlamağımı, nənəmin: "Qadasın alaram balamın, bu istidə ağlama", – deyib məni sakitləşdirməyini...

*– Nuşa, bilirsən, Kopenhagenin küçələrinin birində Andersenin nağılçı olmasına təkan verən bir hadisə baş verib. Pəncərənin qabağında balaca oğlan oyuncaqlarıyla: quyruqsuz at, bir neçə kubik və qırıq*

*qalay əsgərciklə oynayırmış. Bu zaman anası ona deyir: "Bax bizim şair, cənab Andersen gedir. Sən onun laylaları altında çox rahat yuxuya gedirsən". Oğlan yeganə qırıq qalay əsgərciyini götürüb, küçəyə qaçaraq onu Andersenin ovcuna basır və dərhal geri qaçır. Bu çox qiymətli hədiyyə idi. Andersen bu yüksək mükafatı qürurla boynunda gəzdirib. Mən bunu yazıçının mərd hərəkəti kimi qiymətləndirirəm.*

1913-cü ildə Kopenhagendə heykəltəraş Edvard Erikson tərəfindən Hans Andersenin nağıl qəhrəmanına bürüncdən qoyulmuş "Su pərisi" heykəli ölkənin rəmzi sayılır.

*"Yazıçının xatirəsinə ən böyük hörmət onun əsərinin qəhrəmanına heykəl qoyulmasıdır..."*

Vaqif, yadımdadır dediklərin. İndi muzeyin otaqlarını Səməd Vurğunun "Vaqif" pyesinin qəhrəmanları: Molla Pənah Vaqifin və Məhəmməd Şah Qacarın, Yusifin "Qətl günü" əsərində sevdiyi qəhrəmanının – Kirlikirin, Sənin "Bəxt üzüyü" pyesinin qəhrəmanları: Moşu və Söylünün birmetrlik heykəlləri bəzəyir. Heykəlləri gənc heykəltəraş Kamran Əsədov hazırlayıb.

Səyahətinin sonuncu ölkəsi – Finlandiya. Helsinki şəhəri...

Parkda görkəmli, məşhur fin bəstəkarı Yan Sibeliusun "Qəmli vals"ı səslənir... Nağıllar aləminə səyahətin sona yetir...

– *Yeni təəssüratlarla dolu bu səyahət mənim həyatımda xoş hadisəyə çevrildi... Üzümə azadlığın küləyi dəydi... Uzun müddət gördüklərimin təsirindən çıxa bilmədim...*

*Hardayam?*
*Hara gəlib düşmüşəm?*
*Niyə neçə zaman xəbərsizdim*
*təmiz havayla yoğrulmuş*
*bu yamyaşıl, gözoxşayan məsafədən?*
*Allahmı əlimdən tutub,*
*gətirdi məni bura?*
*Bu gördüyüm dünya*
*bu dünyadadırmı?*
*Burdadırsa, şükür,*
*Yer üzündə hələ neçə oxunmamış nəğmə,*
*Yer üzündə neçə yazılmamış şeir,*
*Yer üzündə neçə dəfə*
*deyiləcək "sevirəm" sözü varmış,*
*qalıbmış, Allah!..*

Yaradıcılığında olduğu kimi, davranışında da tam sərbəst idin, müstəqil idin, təəssübkeşlikdən, həmrəylikdən doğan mərdlik nümayiş etdirirdin. Həyat yolunda belə misallar az deyil. Dissidentlik müxalifətçilik deyil, müstəqilliyin göstərilməsidir deyirlər.

1966-cı ildə Leninqradda (indiki Sankt-Peterburqda) Səməd Vurğunun 60 illik yubileyi keçirilirdi. Yubiley komitəsinin sədri Rəsul Rza idi. Tədbirdən sonra təşkil olunan banketdə Sən o zaman Leninqraddan sürgün edilən İosif Brodskinin sağlığına tost demisən...

*"Mən bu qədəhi üç şəhər poeziyasının: Aleksandr Puşkinin Peterburqunun, Aleksandr Blokun Petroqradının və İosif Brodskinin Leninqradının şərəfinə qaldırıram. Leninqrad Yazıçılar Təşkilatının*

*katibi, şair, müharibə veteranı, tankçı Sergey Orlov mənim tostumdan sonra: "Seyças vernus, ob etom pozje poqovorim" (İndi qayıdıram, bu haqda sonra danışarıq), – deyib məclisi tərk etdi. Danışmağımız alınmadı. Restorandan çıxanda mən Rəsul Rzaya dedim: "Nahaq dedim bu sağlığı?" O, çox ucadan: "Nahaq dedin, amma əcəb elədin", – dedi".*

Cavanşir Səni tanıtdıranda xeyirxahlığından, hələ sovet vaxtında kimlərinsə işinə yaramağından ağızdolusu danışırdı. Mən də Səni tanıyandan dəfələrlə bunun şahidi olmuşam. Tanıdığın-tanımadığın adamlara dəstək olmaq üçün kimlərəsə ağız açır, onların işini təmənnasız düzəltməyə çalışırdın. Bu iş baş tutanda özündən razı qalırdın. Kimlərəsə maddi yardım edəndə deyərdin: *"Çoxdan etmək asandır, əsas azdan etməkdir..."* Sənin sevimli yazıçın Çexovun "yazıçının işi kimisə ittiham etmək, günahlandırmaq, təqib etmək deyil, ittiham olunmuşları, cəza çəkən günahlıları belə müdafiə etməkdir, onsuz da ittihamçılar, prokuror, jandarmlar yetərincədir" fikrini elə bil özünə yol yoldaşı etmişdin.

Həbs olunmuş siyasət adamlarının taleyinə biganə qalmayıb, onların azad olunması üçün siyasi-mənəviköməklik göstərmisən. Fizik alim, keçmiş xarici işlər naziri Tofiq Qasımovun, Vaqif Hacıbəylinin, bir neçə başqa həbsdə olanların müdafiə komitəsinin sədri kimi ölkə Prezidenti Heydər Əliyevə etdiyin müraciətlər müsbət həllini tapmışdı. Həmrəylik nümayiş etdirərək dəfələrlə kimlərinsə zaminə götürülməsiylə bağlı müraciətlərə qoşulmusan.

1996-cı ildə OMON-çuların müdafiəsinə qalxan ilk adam oldun: *"...Alman faşizmi üzərində Nürnberq məhkəməsi quruldu. Orada müttəhimlər kürsüsündə bir nəfər də olsun sıravi əsgər, yefreytor, serjant oturdulmadı. Çünki onlar əmrə tabe adamlardır. Ancaq onların rəhbərləri cavabdehlik daşıyırdılar. Və OMON-un hərəkətində qeyri-qanuni bir şey olubsa (bunu tarix göstərəcək: olub, ya yox), onun rəhbərləri ittiham olunmalıdır, sıravilər, yüzlərlə uşaq yox..."*

Onların əfv olunması üçün dövlət başçısına müraciət etdin.

Millət vəkili olduğun zaman Azərbaycan Pespublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü oldun. İlk vaxtlar iclaslara kimlərəsə kömək edə bilmək niyyətiylə gedirdin. Çoxlu xahiş məktubları gəlirdi. Mən də oxuyurdum onları. Ana-ata, arvad-uşaq naləsi. Hamı imdad istəyir. Hamıya kömək etmək mümkün deyil, başa düşürəm. İmkan dairəsində çalışsan da, hər şey Səndən asılı olmur... Mülki cinayətlərlə hərbi cinayətlərin (fərarilik) eyniləşdirilməsi, ayrı-ayrı şəxslərin subyektiv və şəxsi maraqlarını önə çəkməsi Sənə çox pis təsir edir. Sənin hansı duyğular keçirdiyini anlamaq çətin deyildi. Susur, siqaretə ara vermirdin. Ara-sıra cürbəcür bəhanələrlə iclaslara getmirdin, sonradan isə heç getmədin...

Reallığı ayıq, soyuq başla təhlil etməyin, perspektivi görmək bacarığın məni həmişə heyrətləndirirdi. Milli Məclisdə maraqlı, uzaqgörən təkliflər irəli sürürdün.

*“Xanlar rayonunun adı dəyişdirilib “Göygöl” adlandırılanda təklif etdim ki, Xanların qədim adı Yelenendorf özünə qaytarılsın. Çünki bu şəhəri vaxtilə buraya köçürülən almanlar salıb. Xanların öz keçmiş adını özünə qaytarmaqla Almaniya dövlətinə müraciət etmək olardı ki, burada çoxlu sayda alman yaşayıb və indi buranı inkişaf etdirmək lazımdır. Buraya xeyli sayda alman köçərdi və Ermənistanla sərhəddə bir alman anklavı yaranardı. Əgər gələcəkdə buraya bir erməni mərmisi düşsəydi, Almaniya dövləti də o zaman öz ikili vətəndaşlıq hüququna malik olan vətəndaşlarını qorumağa məcbur olardı. Ancaq başa düşdüm ki, mənim bu təklifim keçməyəcək, necə ki keçmədi”.*

2001-ci il fevralın 23-də Prezident Heydər Əliyevin iştirakıyla Milli Məclisin iclasında Qarabağla əlaqədar millət vəkilləri öz təklifləri ilə çıxış etməli idilər. Sənin yazılı və şifahi müraciətinə baxmayaraq, Milli Məclisin spikeri Murtuz Ələsgərov Sənə söz vermədi. Heydər Əliyevin məlumatı olmamışdı. Evə pərt gəldin. İclasda üç təklif olub, heç biri qəbul edilməmişdi.

– Vaqif, heç olmasa müsahibə ver, təkliflərin orada səslənsin.

İstəmədin...

Artıq bu təkliflərə ehtiyac olmasa da, oxucunu onunla tanış etməyi lazım bilirəm: *“Ermənistanla hər hansı bir sülh müqaviləsi Azərbaycan Prezidentinə qarşı xalqda narazılıq doğuracaq. Ermənistandan da hər hansı bir sülh müqaviləsi Ermənistanın Prezi-*

*dentini ölümə məhkum edəcək. Odur ki Azərbaycan Prezidenti Qarabağla bağlı sülh müqaviləsini bağlamaqla başqa bir müqavilə də bağlamalıdır: bütün region dövlətlərin iştirakıyla – Türkiyə, Gürcüstan, İran və hətta Rusiya olmaqla Ermənistan dövləti bu dövlətlərə qarşı ərazi iddialarından əl çəkir".*

– Qarabağ problemi başlayanda AXC-nin hakimiyyəti dövründə Sən bir təklif irəli sürmüşdün...

*– Hə, təklif etmişdim ki, Azərbaycan dövləti Şimali Azərbaycan adlandırılsın. Ermənilər və azərbaycanlılardan ibarət mühacirətdə fəaliyyət göstərən Dağlıq Qarabağ hökuməti yaradılsın. Buna razılıq verən kifayət qədər Krasnodar vilayəti, Şimal bölgəsi və Moskvada yaşayan ermənilər var idi.*

– O zaman da təklifin eşidilmədi.

*– Təəssüf ki, Xalq Cəbhəsi hakimiyyəti dövründə əsas diqqət bir-biriylə çəkişmələrə yönəlmişdi, əsas iş vaxtının cəmi 10%-ə yaxını Qarabağa həsr olunurdu...*

– AXC-dən getdin...

*– Elədi, 1993-cü ilin yanvarında mətbuatda bəyanatla çıxış edərək, AXC sıralarını tərk etdim. Baxmayaraq ki, Əbülfəz Elçibəy haqda çox yüksək fikirdəyəm. Yalnız vətənpərvərliklə və son dərəcə təmiz insan olmaqla dövləti idarə etmək mümkün deyil.*

Əbülfəz Elçibəy Azərbaycanın müstəqilliyi yolunda misilsiz xidmətlər göstərmiş ziyalıları ayrı-ayrılıqda qeyd edərək dəyərləndirmişdi. Bir sənətkar, bir insan kimi Səni yüksək qiymətləndirən Elçibəy 1999-cu ildə 60 illiyinlə əlaqədar təbrik məktu-

bunda yazırdı: "...Sizin poeziyanız bizim mürəkkəb dövrümüzün tərcümeyi-halıdır. Bizim çağdaş poeziyamızın ilk müxalifətçilərindən – yenilikçilərindən biri Siz olmusunuz. Yalnız ədəbiyyatda deyil, fikirdə, düşüncədə, məfkurədə yenini, millini, dünyəvini təsdiq etmək əsl inqilabdır. Təsadüfi deyil ki, Sizin ədəbiyyatdan başlanan mübarizə yolunuz milli azadlıq hərəkatına qovuşdu. Azərbaycan milli azadlıq hərəkatı tarixində böyük Səməd Vurğunun iki sənətkar övladının: Sizin və mərhum Yusif Səmədoğlunun adının olması bizim hamımız üçün şərəfdir..."

– Yadıma milli himnimizlə bağlı mübahisələr düşdü. 1989-cu ildə Xalq Cəbhəsinin iclasında dövlət himni ilə bağlı məsələni Sən qaldırmışdın?

*– Rəsmi olmasa da, Xalq Cəbhəsinin İdarə Heyəti tövsiyə etdi ki, bu işlə məşğul olum. Söhbət Azərbaycan Cümhuriyyətinin atributlarının bərpasından gedirdi. Artıq üçrəngli bayraq meydanlarda ucalmışdı. Gerb ortaya çıxmışdı, bircə himn qalmışdı. Bəstəkar Aydın Əzimov himni orkestrləşdirdi, bəstəkar Ramiz Mustafayev xorla birlikdə məşq elədi. Əsər ictimaiyyətə təqdim ediləndən sonra müzakirələr başladı. Musiqisi Üzeyir Hacıbəyliyə aid olan Azərbaycan SSRİ-nin Dövlət Himninin musiqisinə mətn kimi Səməd Vurğunun "Azərbaycan" şeirinin qəbul olunması variantını təklif edənlər var idi.*

– Səməd Vurğunun sözləri xalqın qavraması baxımından Əhməd Cavadın sözlərindən daha yaxşıdır. Niyə bu təklif keçmədi?

*– Biz Azərbaycan Cümhuriyyətinin varisi olduğu-*

*muzu bəyan etmişiksə, onun atributlarını da qəbul etməliyik. Mən Əhməd Cavadın sözlərində xeyli dəyişikliklər elədim...*

– Himn təsdiq olunandan sonra hətta Sənə, Səməd Vurğunun oğlu kimi onun şeirinin dövlət himninin mətni kimi qəbul olunmasını istəməməyini atana qarşı getmək kimi qiymətləndirənlər də oldu.

*– Mən Səməd Vurğuna qarşı getməmişəm. Çalışdım ki, tarixə qarşı getməyim. Tarixən himn budur. Səməd Vurğun mənim atamdır, onunla həm övlad, həm şair, həm də azərbaycanlı kimi fəxr edirəm. Ancaq Azərbaycanın himni səslənəndə hamının ayağa qalxmasına övlad kimi sevinib, qürur hissi keçirməyə Əhməd Cavadın oğlu Yılmazın məndən qat-qat çox tarixi və mənəvi haqqı var.*

– Himn ilk dəfə harada çalındı?

*– Himn ilk dəfə Naxçıvanda, Şərur rayonundakı mitinqdə səsləndi. Orada qəribə əhvalat oldu. O vaxtlar Xalq Cəbhəsinin keçirdiyi mitinqlərin əvvəlində və sonunda həmişə Üzeyir Hacıbəylinin "Koroğlu" uvertürası səsləndirilirdi. Mitinqin aparıcısına dedim ki, mitinqin sonunda "Koroğlu" uvertürasını qoyma. Azərbaycan Cümhuriyyətinin himnini yazdırmışam, onu qoyarsan. Onun təəccübdən gözləri böyüdü: "Bəy, cazdı?" Dedim caz nədi, Üzeyir Hacıbəylinin musiqisidi, 1918-ci ildə yazıb.*

Gündəlikdən: *"Şair, dramaturq kimi mən siyasətçi Vaqif Səmədoğludan qat-qat güclüyəm. Mən siyasətdə səhv buraxa bilərəm, poeziyada isə heç vaxt..."*

– Qarabağ məsələsi ortaya çıxandan Sən siyasətə qoşuldun.

*– Ancaq mən heç vaxt siyasətlə məşğul olmağa can atmamışam. Sadəcə, siyasət özü gəlib məni tapdı. Özümü siyasətçi saymıram. Ancaq digər tərəfdən, illərlə çap olunmamışam. Bu özü də bir siyasət idi. Mən siyasətdə də şairəm... Millət vəkili kimi də şairəm...*

Sən 1989-cu ildə xalq hərəkatına qoşulanda bu, təbii alındı. Çünki Sən dissident ruhlu şair kimi tanınırdın. Əsl şair olduğun üçün üsyanı da ədəbiyyatda etdin. Sənin poetik "mən"in üsyan edirdi... Yaratdığın yeni poeziyanla istiqlalını, müstəqilliyini qazanan birincilərdən oldun.

Sən dövlətçiliyin tərəfdarısan. *"Qul quldar olacaqsa, azadlıq yalandır",* – deyərək inqilablara qarşı çıxırsan. Bəşər tarixinin təsdiqlədiyi bu həqiqəti bir başqa fikrində də təkrarlayırsan: *"Ən xoş niyyət də pisliyə dönür əvvəl-axır, qalib gəlib hakimiyyət olmuş inqilab kimi..."*

2000-ci ildə Sənin deputat olmaq məsələn qalxanda mən öz etirazımı bildirdim. Dedin: *"Nuşa, yəqin, sən Yer üzündə yeganə qadınsan ki, ərinin deputat olmasını istəmirsən".*

Niyə istəmirdim? Çünki əmin idim ki, deputatlıq Sənin yaradıcılığına mane olacaq. Ancaq o biri tərəfdən də başa düşürdüm ki, Sənin kimi genişmiqyaslı bir şəxsiyyət, dərin zəkalı bir insan parlamentdə olmalıdır. Müsavat Partiyasının siyahısı üzrə (Sən Müsavat Partiyasının sıravi üzvü idin) Qazax dairəsindən

deputatlığa namizədliyin irəli sürüldü. Seçicilərlə görüşlərdə mən də iştirak edirdim. İki həftədən çox Qazaxda qaldıq. Qazax camaatının Səməd Vurğuna sözlə ifadə edə bilmədiyim sonsuz məhəbbətinin bir daha şahidi oldum. Olduğumuz müddətdə mehriban üzlər, xoş sözlər əhatəsində sevgidən, ehtiramdan doğan Qazax qonaqpərvərliyini gördüm. Həyatımda ilk dəfə səhər-səhər xəngəl yedim, qurutlu Qazax xəngəli. Buludlarda gələn xəngəlin biradamlıq olduğu deyiləndə heyrətimi gizlədə bilmədim...

Heç kimdə Qazax mahalının Səni – Səməd Vurğunun oğlunu deputat seçəcəyi şübhə doğurmurdu. (Baxmayaraq ki, müəyyən maneələr oldu). 2000-ci il noyabrın 5-də Sən deputat seçildin. Səni ilk təbrik edənlərdən biri Müsavat Partiyasının sədri İsa Qəmbər oldu. O, Aktyor Evində *"Mamoy kişinin yuxuları"* pyesinin premyerasında səhnəyə çıxıb, Səni oradan təbrik etdi.

Sonradan Müsavat Partiyası iclas keçirdi və orada qərara alındı ki, Müsavat Partiyası parlamentdə iştirak etməsin. Bu qərar gözlənilməz olduğu qədər də təəccüb doğurdu. Səninlə məsləhətləşmədən, Sənin iştirakın olmadan qərar qəbul olunmuşdu. Bu Sənin üçün qəbuledilməz idi. Səninlə əmr dilində danışmaq olmaz...

Sən parlamentin ilk iclasında iştirak etdin. Və həmin gün jurnalistin "Vaqif bəy, niyə Milli Məclisin iclasında iştirak etdiniz? Axı Müsavat Partiyası imtina edib" sualını özünəməxsus ötkəmliklə cavablandırdın: *"Mən Müsavat Partiyasının üzvü olaraq, həm*

*də Azərbaycanın Xalq şairi Vaqif Səmədoğluyam. Altmış bir yaşım var. Heç kim, heç bir siyasi quruluş, heç bir iqtidar məni dəyişə bilmədiyi kimi, indi də heç kəs dəyişə bilməz. İş ki qaldı təzyiqlərə – yuxarıdan və aşağıdan, iqtidar və müxalifətdən edilən təzyiqlərə – heç biri mənə təsir etmir. Mən nə iqtidar, nə də müxalifət despotizmini qəbul edirəm. Mən mənəm. Öz sözümü hər yerdə demişəm".*

Həmin gün Müsavat Partiyası divanının növbədənkənar iclasının qərarı ilə Sən Müsavat Partiyasının sıralarından uzaqlaşdırıldın. Bu artıq formal xarakter daşıyan qərar idi.

Özünün dediyin kimi: *"Məni heç kim Müsavatdan çıxara bilməz, çünki Müsavat mənim üçün ilk növbədə Məhəmməd Əmin Rəsulzadədir, Fətəli xan Xoyskidir, Topçubaşovdur. Nəhayət, unutmayaq ki, M. Ə. Rəsulzadənin yaratdığı Müsavat Partiyasının 21 Mərkəzi Komitə üzvündən üçü: Mustafa ağa Vəkilov, Məmmədrza ağa Vəkilov, Rəhim ağa Vəkilov mənim babalarımdı..."*

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinə üzv seçildin. Öz cazibənlə Azərbaycanı dünyaya açdın. Beş il Avropa Şurasında Milli Məclisin daimi nümayəndə heyətinin üzvü olduğun müddətdə Səni beynəlxalq aləmdə tanıdılar, sevdilər. AŞPA-nın iclaslarında, komitə və komissiyalarında etdiyin çıxışlar, xüsusən Avropa deputatlarıyla yaranmış şəxsi münasibətlərin, qeyri-rəsmi görüşlərin o mərhələdə ölkənin xeyrinə kifayət qədər müsbət təsir göstərdi. Publisist, millət vəkili

Elmira Axundovanın müsahibəsindən: “İki il Avropa Şurasında çalışdığım müddətdə Strasburqa gələndə Avropa parlamentariləri – onların arasında lordlar, markizlər və başqaları vardı – bizə yaxınlaşıb Vaqif müəllimi soruşur, ona salamlarımızı çatdırmağı xahiş edirdilər. Mən Vaqif müəllimdən bu sirrin səbəbini soruşduqda dedi: *“Mən onlarla görüşəndə cürbəcür söhbətlər edirdim, istər siyasətdən, tarixdən olsun, istərsə həyatdan. Burada müəyyən qədər ciddilik, müəyyən qədər də zarafat, yumor olurdu. Onlarla restorana da gedirdim. Yeri gələndə pianoda klassik və caz musiqisi də çalırdım. Bu da avropalı deputatlarda təəccüb, heyrət və maraq doğururdu”.*

Avropalı deputatların etiraf etdikləri kimi, Sənin kimi müstəqil düşünən, dünya siyasətini yaxşı başa düşən, fərqli azərbaycanlı deputatı tanıdılar. Və eyni zamanda onları təəccübləndirən o idi ki, niyə Vaqif Vəkilov kimi şəxslər Avropa Parlamentində, dövlət təşkilatlarında keçirilən görüşlərə, simpoziumlara göndərilmir, əvəzində dünya siyasətində baş verən proseslərdən kifayət qədər xəbərləri olmayan adamlar gəlir?

Yadındadır, mərhum fransalı siyasətçi, senator Daniel Qule Bakıya gələndə Sənə üzərində adın yazılmış konyak bağışlamışdı. Durur o konyak. Bilirsən, Vaqif, nə yaxşı ki, mən də daxil olmaqla Sən heç kəsi eşitmədin, deputat oldun. Dünyaya açıldın. Bunu Sənin 80-ci illər gündəliklərini – içinə çəkilib, yaşadığın günləri, ayları, illəri oxuyandan sonra lap yaxşı anladım.

– Strasburqda Avropa Şurasının Parlament Assambleyasında Gürcüstanın maraqlarını qorumağın Gürcüstanda böyük rezonans doğurmuşdu.

*– 2001-ci ilin sentyabrında AŞPA-nın iclasında Pankisi dərəsində yaranmış böhranlı vəziyyət, Rusiya rəsmilərinin Gürcüstana, Pankisi dərəsinə səpələnmiş terrorçulara qarşı hərbi qüvvədən istifadə etdiklərinin bəyan edilməsi müzakirə olunurdu. Əslində isə Pankisi dərəsində rusların artilleriya atəşindən qaçan çeçen qaçqınları yerləşdirilmişdi. Çeçen xalqının məhvi gedirdi. İlham Əliyev (o zaman qrupun rəhbəri idi) dedi ki, heç kəs çıxışa yazılmasın, bu haqda ancaq Vaqif müəllim danışacaq. Mən çıxış etdim. Mənim çıxışım siyasətçi sözündən daha çox haqsızlığa qarşı şair sözüydü... Gürcüstanı müdafiə etdim... Raqozinə dedim ki, Pankisidə vəziyyəti Gürcüstan özü yoluna qoya bilər. Yaxşı olar ki, başqa suveren dövlətin daxili işlərinə qarışmaqdansa, Rusiyanın öz daxili işlərinə fikir verin. Ermənistanın nümayəndəsi Rostomyana isə bildirdim ki, keçmişə sonsuz qapılmaqdansa, günün gerçəklərinə fikir versələr, daha yaxşı olar... Fasilədə bütün gürcü nümayəndələri mənə minnətdarlıqlarını bildirdilər.*

– Və Sən Gürcüstanda, sözün əsl mənasında, qəhrəmana çevrildin, oldun "etot usatıy azerbaydjanes" (bu bığlı azərbaycanlı). Gürcüstan televiziyasında bir neçə dəfə Sənin çıxışın təkrar olundu. Haqqında gürcü, rus, azərbaycandilli mətbuatda məqalələr, ədəbi portretlər dərc olunmağa başladı. Gürcü dilinin gözəl bilicisi, şair-tərcüməçi İmir Məmmədlinin

tərcüməsində *“Azadlıq, Azadlıq, övladınam mən”* şeirlər kitabın “İntellekt” nəşriyyatının direktoru Kaxmeq Kudava tərəfindən çap olundu. Tiflisdə Kitab bayramı günündə kitabın təqdimat mərasimi keçirildi. Bizi Tiflisə dəvət etdilər. Bahalı, zərif gürcü çaxırı kimi sevgi dolu, dadlı görüşlər yaşatdılar bizə... Böyük, şirin təəssüratlarla 3 gündən sonra geri döndük.

*Baxıram çiynimdə getdiyin yola,*
*Ömür dediyimiz daşa söykənib,*
*Ağlaya bilmirəm, nə olub mənə,*
*Sinəm kasadlaşıb, ahım tükənib?*
*Fikirlər təntiyib, sustalır bir-bir,*
*Kaş ki ömrü boyu uşaq qalaydım,*
*Ay ata, deyirəm sənsiz dünyada*
*Kaş ki övladın yox, şeirin olaydım...*

Həyatda özünü təsdiq etmək çətindir. Ələlxüsus əgər Sənin üstündə adı miflərə çevrilmiş atanın nüfuzlu adı varsa. Şair atanın şair oğlu olmaq olar. Ancaq bir məktəb yaratmış atanın şeirlərinə oxşamayan, onu təkrarlamayan, tamam fərqli üslubda yazan oğula xəyanətkar kimi baxılır, bunu ona bağışlaya bilmirdilər. Sənin ünvanına yağdırılan böhtanların, yazılı, şifahi ittihamların sayı-hesabı yox idi. Hətta həyasızcasına hökm də çıxarırdılar: “İstedadlı pianoçudur, getsin pianosunu çalsın, şeir yazmasa da olar”. Belə təzyiqlərə tab gətirmək, dözmək...

– Vaqif, nə əcəb atanın şair, yazıçı dostları buna imkan verirdilər?

*– Atamın adlarını çəkmək istəmədiyim dostları üç il məni Yazıçılar Birliyinə qəbul etmədilər ki, Səməd Vurğunun oğluyam. Aralarında bir yazıçı var idi, hər dəfə Vəkilov Vaqif Səməd oğlu sənədlərinə baxanda deyirdi ki, mən belə şair tanımıram.*

Əgər təqvimdə 60-cı illər yox, 37-ci il və ya 40-cı illər olsaydı, Sən o illərdən sağ çıxmayacaqdın.

Sən yaradıcılığa düz yolla deyil, öz yolunu axtara-axtara gəldin. Ənənəvi yazmamaq, yeni söz demək, heç kəsə bənzəməyən, özünəməxsus ifadə tərzi ilə seçilmək öz üzərində çaldığın qələbə idi. Saldığın yeni yol idi, orijinal yol idi. Orijinallıq isə ağılın fərdiliyidir. Yeni Azərbaycan şeirinin novatoru oldun.

*"Yollarla müqayisə etsəm, məsələn, poeziya var ki, xiyabandı, prospektdi. Poeziya var, tutaq ki, çox döngələri olan bir küçədir. Mən poeziyamı meşədə cığıra bənzədərdim. Özüm saldığım cığıra".*

1968-ci ildə əl boyda – 1,5 çap vərəqli "Yoldan teleqram" adlı ilk kitabın çap edildi. Böyük çətinliklə, məhdud tirajla. Gənclik dostlarından olan ədəbiyyatşünas İntiqam Qasımzadənin xatirələrindən: "... Kitab çap olunmuşdu. Amma elə bu zaman xəbər gəldi ki, kitabı "həbs ediblər", tiraj ləğv ediləcək, satışa buraxılmayacaq. Vaqif də, onun dostları da – hamımız qəm dəryasına qərq olmuşduq, ölüsü düşmüş adamlar kimi... Evə qayıdırdım. Hüsü Hacıyev küçəsində (indiki Azərbaycan) kitab köşkünün yanından keçəndə birdən kitabların arasında tanış bir ad gözümə sataşdı: Vaqif Vəkilov, *"Yoldan teleqram".* 3-ü satılmış, 27-si qalmışdı. Kitabların hamısını aldım.

Oradan da düz Vaqifgilə... Sən demə, kitabın dükanlara verilməsinə o zamanlar çox yayılmış "levıy tovar" buraxmaq hərisliyi səbəb olub. Yəni tirajdan artıq çap etdikləri kitabları rəsmi icazə gözləmədən veriblər satışa. Bədxahların cidd-cəhdlərinə baxmayaraq, kitab artıq işıq üzü görmüşdü. "Yuxarıdakı" yoldaşlar da, görünür, fikirləşiblər ki, məsələni qəlizləşdirmək xeyir gətirməz onlara, kitabı "həbsdən azad ediblər".

Kitab ədəbi tənqidin kəskin iradlarına, rəsmi tənqidin şeirlərin formasına, obrazlarına, mövzusuna görə mühafizəkar hücumlarına məruz qaldı.

1972-ci ildə *"Günün baxtı"* adlı kiçik kitab Sən Bakıda olmayanda çapdan çıxdı. Əslində, kitab böyük olmalı idi, ancaq kəsilib doğranmışdı hansısa redaktor tərəfindən. Üçüncü – *"Mən burdayam, İlahi..."* kitabının nəşrinə hələ 24 il vardı!

Yaşadığın zamanla poeziyan arasında uçurum var idi. Şeirlərinin həddindən artıq fərdiyyətçiliyi qəbul edilmirdi. Eyni zamanda Allah, Ölüm, Azadlıq, Ayrılıq mövzulu şeirlərin mövcud rejim şəraitində çapı nəinki mümkünsüz idi, onların oxunması belə riskli, yazılması isə daha təhlükəli idi...

*Vicdan kirəsitək gəlir evimə*
*Qəbzə bənzər, iki dildə qəzetlər.*
*Xəbərlər haqq-hesab istəyir məndən*
*Hər səhər, hər səhər, hər gün, hər səhər...*

*İllərlə üst-üstə yığılır borcum,*
*Bilmirəm neyləyim, çaşıb qalmışam.*
*Sönür bu borcların buz nəfəsindən*
*Göy üzündə Günəş, otağımda şam...*

*Zülmət möhürlənmiş bu qəbzlərdən,*
*Haqqımı nə ilə ödəyim indi?*
*Deyirlər özün seç, "tebe na vıbor" –*
*İntihar, qazamat, vətən həsrəti...*

Şeirlərini senzuradan qorumaq üçün Sən çap olunmamaq qərarına gəldin. Bu həm də Sənin protestin idi. Sən nə mübahisə edib kiməsə nəyisə sübut etməyi xoşlayırdın, nə də söz güləşdirməyi. Sənin hansısa redaktorla çənə-boğaza çıxmağa, hansısa senzora başa salmağa, hansısa tənqidçiylə söz güləşdirməyə, hansısa naşı oxucuya şeirin ecazını və sehrini izah etməyə hövsələn çatmırdı. "İnsana verilən enerji potensialı tükənməz deyil. Bu enerjini ya yaradıcılığına sərf etməlisən, ya da yazdıqlarının üzə çıxarılmasına. Bəzən bu iki fəaliyyət sahəsini vəhdət şəklində uyğunlaşdırmaq olur... Vaqif yaradıcılığının bircə səhifəsini də yaradıcılığı nümayiş etdirmək həvəsinə qurban vermədi. Təsəllisini *"Şair sözündən qorxan ya cəllad, ya dəlidir"* aforizmində tapdı. Öz poetik "mən"ini ana balasını qoruyan kimi qorudu". (Anar)

Bütün enerjini ancaq yazmağa sərf etdin, nə sözünü, nə düşüncəni mövcud ideologiyaya uyğunlaşdırdın. Tabulardan hər istedad da azad ola bilmir. Sən bacardın. Tərəzinin bir gözünə uğuru, o biri gözünə öz istedadına güvəni, qüruru qoyub, ani şan-şöhrətə, mükafatlara baş əymədin, mərdliklə öz poetik dünyanı qorudun, ona sadiq qaldın. Və susmağı seçdin. Yaza-yaza susdun. Məhrumiyyətlər bahasına başa gəldi bu fədakarlıq.

*Susmaq, həmişə susmaq,*
*ananla söhbət edəndə də,*
*sevdiyinlə görüşən anda da,*
*hər an, hər yanda*
*susmaq, eləcə susmaq...*

*"Susan şair"* ifadəsi Sənin ədəbi taleyinin rəmzinə çevrildi. Bu məşəqqətli yolun tənhalığını yaşaya-yaşaya yazdın.

*Ağlama, qələm, ağlama...*
*Söz yolunun min daşından*
*Neçə qələm beli sınıb,*
*Neçə qələm izi yanıb...*

*"Mən çap olunmamaqla özümü ideologiyanın dişindən, caynağından qoruya bilmişəm. Bir də ideologiyanın pəncəsində qanı tökülə-tökülə yazılan şeirlərdən..."*

Çap olunmamaq Sənə müəyyən sərbəstlik verdi, ideya sərbəstliyi, fikir sərbəstliyi. İstədiyini yazdın. Şair kimi öz azadlığını qoruyub saxlaya bildin, dövrünün ən azad, sərbəst şairlərindən oldun. Gündəlikdən: *"Şair yalnız öz taleyini yazmalıdır, öz iç aləmini ortaya qoymalıdır. Şair kiminsə ideyasını müdafiə edən, kimlərisə ifadə edən adam olmamalıdır... Nəyi bilirsənsə, ondan, necə bacarırsansa, elə yazmalısan. Ancaq öz ağlına, öz dəliliyinə, öz həqiqətinə və yalanına bel bağlamalısan. Nə Tolstoya, nə Füzuliyə, nə Folknerə... Özündən yaxşı heç kəsi tanımırsan bu dünyada. Səndən yaxın adam yoxdu özünə yer üzündə".*

Qöte deyirdi ki, ağıllı insan çox bilən deyil, özünü tanıyandır. Sənin bütün Poeziyan özünü tanımaq, öz daxilini anlamaq, onun dərinliklərinə vaqif olmaqdır. Bu Sənin öz həyat yolunda əldə etdiyin təcrübədir, keçdiyin öz yolundur. Çətin yoldur bu... Müdriklərin yoludur bu...

*Mən bu insan deyiləm,*
*Şeirlərdə sözüməm,*
*Anam olsa da mənim,*
*Məni doğan özüməm...*

Həyat yolunla yaradıcılıq yolunun bir-birinə calanıb hörülmüş olduğu bir ömür sürdün. Keşməkeşli bir yol. Anar necə də (min dəfə) haqlıdır: "Vaqif dövrün ən ağır dərdlərini, məlalını, qəm-qüssəsini içində yaşadan və içində ağlayan şairdir. Vaqif zamanın yaraladığı şairdir".

Sənin kimi dərdini içində çəkən sakittəbiətli insanın ağrısı özündən qat-qat ağır olur.

*...Göy üzü lap quramadır,*
*Buludları yamaq-yamaq*
*Bu daş hasara söykənib,*
*Çətindir, vallah, yaşamaq!*

Gündəliyində oxuyuram: *"Vitrinə qoyulmuş və dükanın içində saxlanan şairlər var. Mən hələ anbardayam..."*

Diksindirdi bu sözlər məni. İllərlə çap olunmamaq, gündəmdə olmamaq... İçində qalan incikliyin, küskünlüyün sədasıdır bu. Kompüterdə nəsə yazır-

dım. Gözlənilmədən dedin: *“Nuşa, mən yazıb nə oldum ki, sən yazıb nə olacaqsan”.* Çaşdım. Hələ də göynəyirdi o illərin sağalmayan yaraları...

Şeirlərin gənclər arasında əl-əl gəzir, əzbərlənir, başqa dillərə tərcümə edilirdi.

Estoniyada, Latviyada jurnallarda haqqında yazılar, şeirlərin çıxırdı. Latış türkşünasları, şairləri, tərcüməçiləri Uldis Berzinş, Peters Bruveris şeirlərini latış dilinə tərcümə edirdilər. 1981-ci ildə iki şeirin məktəb dərsliklərinə daxil edilmişdi. Bu haqda Uldis məktubunda xəbər verir:

“V Latvii dva tvoix stixotvoreniya stali obyazatelnoy literaturoy dlya şkolnikov... S udovolstviyem budu perevodit tvoi novıye stixi...” (Latviyada sənin iki şeirin məktəb proqramına daxil edildi... Məmnuniyyətlə sənin yeni şeirlərini tərcümə edəcəm...)

Səni Azərbaycanda şair kimi çox məhdud dairələrdə tanıyırdılar, o ki qala məktəblərdə...

Peters Bruversin məktubundan bəlli olur ki, 1988-ci ildə latış dilində kitabın çapa hazırlanırmış: “...Doroqoy Vaqif! Mı Tebya vspominaem i lyubim. Nakones, xotelos bı izdat Tvoyu kniqu na latışskom. Ya bıl v naşem izdatelstve – nikokix problem, soqlasnı. Tı ne protiv? Mojet v kniqu mojno vklyuçit i Tvoi pritçi? ...U nas vsyo vremya mitinqi i piketı...” (Əziz Vaqif! Biz Səni xatırlayır və sevirik. Nəhayət, Sənin latış dilində kitabını çap etdirmək istəyirik. Bizim nəşriyyatda oldum, onlar da razıdırlar. Sən etiraz etmirsən? ...Bəlkə, kitaba Sənin pritçalarını da salaq? ...Bizdə mitinqlər və piketlər ara vermir...) (Məktubda

Peters "Sən"i böyük hərflə yazıb).

Həmin il əksər sovet ölkələrində olduğu kimi, Latviyada da siyasi-sosial vəziyyətin gərginləşdiyi bir vaxta təsadüf etdiyindən kitabın nəşri baş tutmadı.

80-ci illərin əvvəllərində Polşada şeirlərin yayılırdı. "Solidarnost" ("Həmrəylik") müstəqil həmkarlar ittifaqının qeyri-leqal fəaliyyəti dövründə (1981-1986) polyak intellektualları yığışıb, Sənin şeirlərini oxuyurdular. Onlar Səni "elitar poeziyanın sonuncu mogikanı" adlandırırdılar. Sənin bu azad ruhlu ölkəyə, onun mədəniyyətinə böyük məhəbbətin var.

Gündəlikdən: *"Yadıma Dubultıda Varşava radiosuna qulaq asmağım düşdü. Həyatımda elə istedadlı, zövqlə, tapıntıyla, orijinal və məntiqli tərtib edilmiş radio verilişləri eşitməmişdim. Dili bilməyə-bilməyə, slavyan sözlərindən az-maz mətləbi duya-duya elə zənn eləyirdim ki, diktorlar efirə yox, sözləri birbaşa mənə deyirlər, əvvəlcədən Latviyada olduğumu öyrənib. Mən, bəlkə də, o gündən sonra Şopenin, doğrudan da, polyak olduğuna inandım. Və indi onun musiqisinə tamam başqa cür qulaq asıram. İndi gör o xalq tamam müstəqil, azad olsaydı, bu dünyada nə işlər görər, ədəbiyyatda, incəsənətdə, musiqidə nələr yarадardı"* (1985).

Şeirlərində də oxunur bu duyğular.

*Buzovna qayalarını*
*sevdiyim qədər*
*sevirəm səni, Yana!*

*Yana,*
*Yanacığaz,*
*polyak qızı!*
*Ağlım olsaydı onda,*
*Allah olsaydı onda,*
*bir dəfə də öpərdim*
*sol əlinin ovcundan.*
*Polşada gözəl plakatlar çəkirlər,*
*Yana.*
*Nə?*
*Nədən danışım*
*İndi səninlə?..*

Bu sətirlər Sənin *"Royal"* poemandandır. 1964-cü ildə yazmısan. Qadın marağı ilə Səndən polyak qızının real olub-olmadığını soruşdum. *"Yox, real deyil",* – dedin. Mən də inandım. Ancaq polyak qızına həsr elədiyin başqa şeirin də var...

2018-ci ildə Polşada polyak dilində *"Şair kimi yox, şeir kimi ölmək istəyirəm"* adında kitabın işıq üzü gördü. Kitabı polyak dilinə Polşada yaşayıb çalışan İlahə Kərimova tərcümə edib.

"Yol" qəzetinin 4-cü sayında (1996-cı il, aprel ayı) belə bir məlumat çap edildi: "İsveçdən aldığımız xəbərə görə, bir neçə təşkilat görkəmli Azərbaycan şairi Vaqif Səmədoğlunu şeirlərinə, milli azadlıq hərəkatındakı roluna görə Nobel mükafatına təqdim etmişdir. O, Azərbaycan tarixində Nobel mükafatına təqdim olunmuş ilk şairdir".

O ilin yayında (hansı ay olduğu yadımda deyil) Bakıya Finlandiyada yaşayan musiqiçi, AzTV-də çalış-

mış bəstəkar Rauf Hacıyevin kürəkəni Cahangir Əkbərov gəlmişdi. Bizdə də oldu. O danışırdı ki, mən İsveç dilini bilməsəm də, radiodan Nobel mükafatına iddiaçılar arasında hər dəfə Vaqif Vəkilov (Səmədoğlu) adını eşidəndə bədənimdən elektrik keçirdi...

O il ədəbiyyat üzrə Nobel mükafatı Polşa şairəsi Vislava Şimborskayaya təqdim edildi. Sən hesab edirdin ki, əsas mükafatı almaqdır, namizəd olmaq deyil. Bəlkə də, istəməzdin bu faktı yazım, ancaq yazdım. Məlumdur ki, Nobel mükafatının siyasi tərəfləri də var. Deyirdin: *"Nazim Hikmət kommunist və türk olmasaydı, bu mükafata layiq görülərdi".*

Tolstoy, Çexov kimi yazıçılar da bu mükafatı almayıblar. Sənin özün azərbaycanlı olmasaydın, bu mükafata layiq görülərdin. Hər halda, Nobel mükafatı meyar deyil.

– Sənin şeirlərin uzun deyil. Bu, Amerika şairi Edqar Ponun "uzun şeir olmur" fikriylə üst-üstə düşür.

*– Çexovun da oxşar sözləri var: "Yığcamlıq istedad göstəricisidir".*

Sən də gənclərə uzun şeirlər yazmamağı məsləhət görürdün. Şeirlərinin yığcam olmasıyla bağlı gözəl alim, mərhum Tofiq Hacıyev "Yeni ədəbiyyat yaranır..." məqaləsində yazırdı: "Vaqif şeirinin öz dövrünün yetirdiyi sərvət olmasının, əsrimizin narahat, səbirsiz əhvalına uyğunluğunun bir əlaməti də şeirlərinin fövqəladə yığcamlığıdır. Bu şeirlər həyat həqiqətləridir – həyat həqiqətləri qəlpə-qəlpə olur... Həqiqət cild-cild, səhifə-səhifə olmaz, misra-misra, kəlmə-kəlmə olar... Vaqifin şeirində həqiqət kəlmə-

kəlmə, misra-misradır, ancaq fasiləsizdir – onun sözündən nəticədə bir kitab həqiqət bağlanıb...”

“Vaqif Səmədoğlu şeirləri həyatın, cəmiyyətin, insan psixologiyasının fəlsəfi təhlilidir... XX əsrin fəlsəfəsidir” deyən alim şairin fəlsəfəsinin məhdud dairədə mütaliə edilməsinə görə təəssüfünü bildirərək yazır: “Heyif, Vaqifi hamı oxumur... Çoxları onu Moşu Göyəzənliyə görə tanıyır, heyif... Vaqifin şeirini hamı oxusaydı, vətənin nə dərdi vardı – yoxsa vətən tutuquşular yox, müdriklər yurdu olardı”.

*Qulağımda küləyin uğultusu,*
*gözlərimdə torpağın tozu.*
*Sağımda kor quyu,*
*solumda paslı darvazanın səsi.*
*Arxamda bağ evi,*
*qarşımda hasar.*
*Sağ əlim cibimdə,*
*sol əlim divarda.*
*Burdayam, ay Allah, burda!*

Hər bir insanın həyatında büdrəmələr, uğursuzluqlar, bədbəxtliklər ola bilir, sonra da onların üzüntüsünü yaşayır. Kişilər həyatlarının ən dözülməz vaxtlarında içkiyə əl atır, dərdlərini onunla bölüşürlər. Hər insanın içmək üçün şəxsi, müxtəlif səbəbləri olur. Sevincdən, bolluqdan da içirlər. Yaşanan stres, reallıqdan qaçmaq, unutmaq istəyi. İçki müvəqqəti təskinlik gətirsə də, heç kəsin dərdinə əlac olmayıb. O, taleləri sındırır, münasibətləri pozur, ailələr dağıdır. Faciə onda başlayır ki, içki gündəlik tələbata,

zərurətə çevrilir. İçkili vəziyyətdə yaşadığı hala vurulub, etdiyindən, dediyindən həzz alanlar da olur. Bu asılılıqdan çıxmağa isə hər adam özündə güc tapa bilmir. Onun içində çox istedadlar batıb...

Amerika dramaturqu Vilyams Tennessi özünün içkiyə münasibətini belə xarakterizə edirdi: "Bir çox yazıçılarda belə problem var. Demək olar ki, bütün Amerika yazıçıları içki problemi ilə qarşılaşıblar. Yazıçılıq işində böyük gərginlik keçirirsən. Əgər müəyyən yaşa kimi bununla bağlı heç bir çətinliklər olmursa da, sonradan daim içkinin köməyinə ehtiyac duyursan". İçkiyə, narkotikə aludəliyin yaradıcılıqda oynadığı rola haqq qazandırmağa çalışan Tennessi ömrünün son 20 ilində ciddi əsər yazmamış və sevdiyi insanlardan təcrid olunmuşdu.

Bir dəfə işdə ortayaşlı xanım həmkarımın söhbət zamanı əminliklə "yaradıcı adamlar ancaq stimulyatorların təsiri altında yarada bilirlər" deməsi məni əməlli-başlı hirsləndirdi: "Əlbəttə, dünya mədəniyyətində içkinin və ya narkotikin təsiri altında əsər yaradanlar olub, yəqin ki, olacaq da. Məsələn, Amerika yazıçısı, şairi Çarlz Bukovski ilk böyük əsərini – "Poçtamt" romanını 20 şüşə viskiylə 20 günə yazıb. Ancaq bu o demək deyil ki, hamını bir sıraya düzməliyik... Nə şair ərimin, nə bəstəkar qardaşımın nəyinsə təsiri altında yazdıqlarını heç vaxt görməmişəm..."

Sən də inanırsan ki, dünya mədəniyyətində stimulyatorların təsiri altında yaradılanlar çox azdır, 5 faiz.

*Hələ içkidə batmayıb*
*İnsan kədəri, dərdi,*
*Batsaydı, insan dərdindən*
*Allah özü içərdi...*

Böyük istedadına görə başqalarından fərqlənənlər gündəlik həyatda da elə başqaları kimidirlər. Sən də dost məclislərində yeyib-içmisən kimdənsə çox, kimdənsə az. Davakarlığın da olub. Özün də etiraf edirsən: *"Mən həmişə bic tərpənmişəm. Bir gün məclisə gedəndə bir ay evdən çıxmamışam, özümə cəza vermişəm. Həmin günlərlə bağlı utandığım, utanmadığım anlar da olub... Gördüm ki, məclislər, qonaqlıqlar mənə yazmağa mane olur... Bir də mənim içki içməyim həddən artıq şişirdilib..."*

Bu yerdə böyük rus yazıçısı Vladimir Nabokovun bu fikri yadıma düşdü: "Kütlə öz günahlarını ona tay olmayanların həyatında görməkdən həzz alır..."

İçkiylə bağlı çoxlu məzəli, gülməli əhvalatlar danışırdın. Onlardan birini, yadımda qalanı yazmaq istəyirəm: "Özbəkistanda olanda gözəl özbək şairləri Rauf Parfi və Məmmədsaleh məni Daşkənd yaxınlığındakı "Dürmən" adlı yerə apardılar. Gələn gün onlar arxın üstündə salınmış körpüdə mənə bayram süfrəsi açdılar. Suyun səsindən bir-birimizi eşitmək çətin olduğundan qışqıra-qışqıra danışırdıq. Oradaca süfrəyə plov və piyalələrdə araq verdilər. Yeyib-içir, gülüb-danışırdıq. Səkkiz adam olardıq. Hamı xorla danışırdı. Gecədən xeyli keçmiş özümüzü yatağa çatdırdıq. Səhər saat 8-də məni səhər yeməyinə qaldırdılar. Yeməkxanaya girəndə Parfini gördüm.

Ona: "Dobroe utro", – dedim. O, çox təəccüblə üzümə baxdı. Tahircanla salamlaşdım. O da təəccüblə: "Dobroe utro", – dedi. Məmmədsalehə yaxınlaşıb "Dobroe utro" deyəndə soruşdu: "Vaqif əkə, niyə rusca danışırsız?" "Necə bəyəm?" – soruşdum. "Gecə çox gözəl özbəkcə danışırdız..." – dedi.

Sən demə, bütün gecəni onlarla özbək dilində danışmışam. Sonra da deyirlər araq zərərlidir..."

Həyatının müəyyən mərhələlərində – şəxsi həyatında, yaradıcılığında naümidlikdən yaranan inciklik, küskünlük... Yaşadığın mürəkkəb, çətin günlər, çarəsizlik, özünəqapanma...

*Ana yurdum,*
*torpağında bir ləpir də izim qalmadı.*
*Doğuldu, öldü şairin,*
*sənin xəbərin olmadı...*

Bu şeiri ağrısız oxumaq olmur. Keçmişin ağırlığını çəkmək dözülməz olur bəzən. Yazdıqca Səninlə yaşayıram o saatların, dəqiqələrin üzüntülərini. Öz həyatından bezə bilir insan, ancaq o kritik anda möhkəm iradə köməyinə gəlir. Sənin köməyinə gəldiyi kimi...

*Özümü öldürmək istəmişəm iki dəfə,*
*Amma öldürməmişəm min dəfə...*

*– Bu misralar yaradıcı insanlar, şairlər üçün peşmanlığın, bədbinliyin zirvəsidir. Ancaq elə olur ki, insan o kritik anı aşa bilmir. Böyük şair Mayakovskinin timsalında olduğu kimi...*

– Məhz o kritik anlarında Sən Bulqakovun “gözəl yalan” adlandırdığın “Əlyazmalar yanmır” fikrini alt-üst edərək, 70-ci illər yaradıcılığını məhv etdin...

– *Nuşa, şair vicdanı açıq yaradı. Adicə bir meh də ağrı verir, o ki qaldı səmum külələri...*

Səninçün ağrılı söhbətlər etməkdən həmişə qaçmışam. Çalışmışam Səni o küləklərdən qoruyum. Ancaq xəstəlikdən qoruya bilmədim...

*Poeziya məğlubiyyətdən yaranır...*

Yaradıcı insanın bir insan kimi (yaradıcılıq və şəxsi müstəvidə) məğlubiyyəti onu yaradıcılığa çox bağlayır, o özünün mənəvi əzablarını yaradıcılığına gətirir.

*Barmaq göz olub, kağıza baxır,*
*Şeirlə şairin göz yaşı axır...*

Gündəlikdən: *“Məğlubiyyətini yazıçı istedadla yazsa, bu onun qələbəsinə keçir...”*

Daxilən kövrək, həssas olmağına baxmayaraq, Sən iradəlisən. Möhkəm iradə sahibisən. Məhz buna görə də sınmadın, qələbə çaldın, yazdın...

*Şeir yazmaq tutub məni,*
*ağlımı itirmişəm şeir yazmaq arzusundan.*
*Dilimə gələn sözlərin quluyam,*
*ürəyimdə qalanların dəlisi.*
*Şeirə söykənib baxmaq istəyirəm*
*dünya dediyimiz şeyə,*
*dünyadan şeir arxasında gizləndiyim kimi...*
*Hər itkim bir şeirə dönüb,*
*hər sözümlə ömrümdə nəsə sönüb.*

*Nə irəli getmək istəyirəm, nə geri.*
*Nə sola, nə sağa.*
*Dünya bəhanəymiş şeir yazmağa...*

80-ci illər Sənin yaradıcılığının Renessans dövrüdür. Sənə güc verən, qüvvət verən böyük istedadının yeni yüksəliş dövrü. Fəlsəfi əqidə (dünyagörüşü), zəngin bədii təxəyyül yaradıcılığında özünü yeni miqyasda göstərir. Pyeslər yazırsan. Səhnəyə qoyulur.

– Dramaturgiyaya necə gəldin?

*– Məni dramaturgiyaya öz dəst-xəti olan rejissor Hüseynağa Atakişiyev gətirib. Bizi Emin Sabitoğlu tanış etmişdi. Sabit Rəhmanın "Nişanlı qız" pyesinin Şəki Dram Teatrında tamaşası hazırlanırdı. Biz bu tamaşanı müzikl kimi hazırlamaq istəyirdik. Mən bu pyes üçün on dörd, on beş şeir yazmışdım. Mahnılar, duetlər, reçitativlər yazıb Şəkiyə göndərdik. Sonra da Eminlə Şəkiyə həmin tamaşanın premyerasına getdik. Orada da teatrın yaradıcısı, baş rejissoru Vaqif Abbasovla, teatrın rejissoru və aktyoru Hüseynağa Atakişiyevlə tanış oldum. Tamaşadan sonra Hüseynağa mənə dedi: "Siz özünüz niyə pyes yazmırsınız? Görürəm ki, teatra həvəsiniz var. Səməd Vurğunun oğlusunuz. Sabit Rəhmanla oturub-durmusunuz". Düzü, elə özümün də pyes yazmağa həvəsim vardı. İlk pyesimi – "Uca dağ başında"nı yazmışdım. Amma Hüseynağanın sözləri mənə təkan oldu. Sonra "Bəxt üzüyü"nü yazdım. Hüseynağa bu pyesi sırf komediya kimi qoymamışdı. Mən necə faciəvi komediya kimi yazmışdım, elə də qoymuşdu. Şəki kimi balaca bir yerdə bu tama-*

*şa iki il anşlaqla getdi. 1986-cı ildə Sumqayıt Dövlət Dram Teatrında tamaşaya qoyuldu.*

– Sumqayıt teatrında komediya kimi qoyulan "Bəxt üzüyü" pyesi də böyük populyarlıq qazandı. Uzun müddət anşlaqla getdi. Gözəl aktyorlar Afaq Bəşirqızının, Valeh Kərimovun əvəzsiz ifalarında bu rollar həm də onların vizit kartına çevrildi.

Gündəlikdən: *"Əgər mən fransız dramaturqu olsaydım və belə populyar bir pyesin müəllifi olsaydım, müəllif qonorarına Aralıq dənizində ada ala bilərdim".*

Alman şairi və dramaturqu Bertold Brextin "Arturo Uinin karyerası" və "Üç quruşluq opera" pyeslərini Azərbaycan dilinə tərcümə etmisən. "Arturo Uinin karyerası"nın tərcüməsinə görə SSRİ Mədəniyyət Nazirliyinin və Ümumittifaq Teatrlar Cəmiyyətinin diplomuna layiq görülmüsən. "Üç quruşluq opera" tamaşasına quruluş vermək üçün Almaniyadan rejissor Karl Qeorq Kayzer və rəssam Aksel Pfefferkorn gəldilər.

*– Premyeradan sonra mənə yaxınlaşıb, minnətdarlığını bildirən rejissor Kayzer dedi: "İlk dəfədir görürəm ki, xarici dilə tərcümə edilmiş Brextə tamaşaçının reaksiyası alman tamaşaçısınınkı ilə üst-üstə düşür. Buradan da o nəticəyə gəlirəm ki, Brextin tərcüməsi dəqiq və əla olunub".*

1988-ci ildə *"Yayda qartopu oyunu"* tragikomediyan Hüseynağa Atakişiyev tərəfindən səhnəyə qoyuldu. Böyük uğur qazandı.

Ümumilikdə Sənin ona yaxın pyesin var. 2000-ci ildə yazdığın *"Mamoy kişinin yuxuları"* əsəri bütün-

lüklə Qazax dialektindədir. Bu, yazdığın son pyes oldu. Hüseynağa Atakişiyev dünyasını dəyişəndən sonra Sənin də pyes yazmaq həvəsin getdi...

80-ci illərin sonlarında AzTV-də Ramiz Həsənoğlunun rejissorluğuyla böyük maraqla, gülüşlərlə, xoş əhvali-ruhiyyə ilə izlənilən üçhissəli *"Yaşıl eynəkli adam"* tamaşasının birinci hissəsi hazırlandı.

Gündəliyində *"Gürzəçöl yazıları"*n haqda nigaran yazını oxuyuram: *"Gürzəçöl yazıları"nın uğultusu, ətri beynimdə hazırdır. Konspektlərini 80-ci ilin əvvəllərində yazmışam. Hər yazı iki səhifədən uzun olmamalıdır. Maksimum yığcam yazılmalı və ən sadə danışıq dilində olmalıdır bu yazılar. 120-200 əhvalatı pritçasayağı qələmə ala bilərəm".*

Təəssüf, o pritçalar üzərində işləmədin (ya işləmək imkanı olmadı). Xəyalında tutduqlarını bu mətnə əlavə etsəydin, necə bütöv, bitkin, qeyri-adi bir əsər alınacağına şübhə etmirəm. "Sinəm bu yazının uğultusu, bu uğultunun sözlərə dönəcək yetim həsrətiylə, intizarıyla dolub" desən də, "bu uğultu"nu, "onun ətri"ni sözə çevirmədin, bütün düşündüklərini özünlə apardın... "Gürzəçöl..." Sənin içində qalan yaralı, bəzən də göynədən yerin oldu.

Yaradıcılığının yeni səhifəsi olan bu yazıları konspektdə olduğu kimi çap etdirdim. Sən gedəndən sonra çap etdirdiyim ilk kitab oldu "Gürzəçöl yazıları". Ön söz də yazdım. Sənin xeyir-duanı almadan etdim bunu. Düşündüm ki, son dərəcə dərin məzmunlu, canlı, düşündürücü olan bu pritçalar kağız üzərində qalmamalıdır.

Sən dramaturgiyamızda yeni, unikal, milli obrazlar yaratdın. Ləhcələrdən, şivədən böyük məharətlə istifadə etməyin əsərə xüsusi şirinlik gətirərək, qısa müddətdə onu dillər əzbərinə çevirirdi. Ramiz Rövşən deyirdi ki, Vaqifin böyük dramaturq olduğunu zaman sübut edəcək. Onun yazdıqları artıq məişətimizə keçib.

Bütün pyeslərində gülüşlərin arxasında insanı düşündürən, silkələyib ayıldan bir kədər dayanır. Şair Vaqiflə dramaturq Vaqifi müqayisə edib şeirlərindəki kədərlə pyeslərindəki gülüşü üz-üzə qoymaq istəyənlərə deyirdin: *"Mənim bütün əsərlərim: dramaturgiyam da, poeziyam da bir Şeirdir... Özüm haqda deyə bilərəm ki, mən həyata vurğun pessimistəm..."*

Səni dünyanın daha yüksək, daha dərin sirləri düşündürürdü...

*Dünyanın hansı sirrini aça*
*bilərsən mənə,*
*hamısı dünyanın özündən əvvəl*
*açıldığı halda?*
*Özü də ömrün hər anı sirlə gəlib,*
*sirlə gedən bir dünyada...*

Gündəlikdən: *"Bizi yaradan qüvvə hər şey eləyib ki, biz kim, nə olduğumuzu bilməyək. Kilsələr, məscidlər, dillər, xülasə, bu dünyada nə varsa, bizi özümüzdən xəbərsiz etmək üçündür...", "Biz bu planetə sürgün olunmuşuq..."*

*Nə uydururuqsa, hamısı olub dünyada.*
*Nə saatın, nə zamanın rəqəmlərinə uyma,*
*Aldanma qardaşım,*
*Yeni eradan əvvəl yaşayırıq hamımız...*

– Həyat nədir? Niyə yaşayırıq? Hər birimizin özünə verdiyi suallar.

– *Həyat sualdır və onun ən dəqiq cavabı da sualdır... İnsan həyat dediyimiz bu meydanda öz rolunu oynamalıdır. Çalışmalıdır ki, öz taleyinə nələrisə əlavə etməyi bacarsın. Təkcə taleyə bel bağlamaq olmaz... Yaşla dünyagörüşünün artması, sualların artması, çoxalmasıdır. Mən bunu zəlzələyə bənzədərdim. Həyatda tapılan cavablar özü də zəlzələ doğurur. Və bu zəlzələnin yaratdığı yeni sualların sunamisi dərhal üstümə gəlir. Bu, insan təfəkkürünün, elmin sonsuzluğudur...*

– Vaqif, dünyanın sirləri yavaş-yavaş açılmaq istəyir... əsrlərlə qadağalar qoyulmuş mətləblər üzə çıxmağa başlayır deyəsən...

Ömrün boyu hər şeyi: özünü, insanları, onların əməllərini, ətrafda baş verənləri təhlil edir, nəticədə yazırdın: *"Yer üzündə elə bir Allah balası yoxdur ki, ona birmənalı qiymət vermək mümkün olsun. Bu mənimçün çoxdan bəri müzakirəyə qoyulmayacaq bir aksiomdur..."*

Özündənrazı, nəyisə yüz faiz əminliklə deyən adamlar üçün "xoşbəxt adamdır..." deyirdin. Gündəlikdən: *"Şair heç vaxt özündən razı olmayacaq, çünki poeziya şəxsiyyətlə, insanla, dünya ilə nara-*

*zılıqdan qidalanır. Yağışlı gündə, gecə kimsəsiz tindəki bir aptekin işığı, vitrini məni bəzən Qız qalasından çox heyrətə gətirir. Və yaxud yol qırağında illərdən bəri qalıb pas atan bir avtomobilin sürsümüyü..."*

Özünə qarşı tələbkar idin, ancaq dəyərini bilirdin... Bu qəddar reallıqla yaşaya bilmək üçün: *"Həmişə dözümlü, təmkinli, sakit olmaq yeganə əlacdır".*

Dünyanın dəyişəcəyinə inanmırdın. *"Nə qədər bəşəriyyət var, Yer üzündə ideal, xoşbəxt cəmiyyət olmayacaq. Bu, bəşəriyyətin sonu demək olardı. Yəni Yaradanı yalnız xeyir kimi qəbul eləmək, yalnız xeyirlə, yaxud, əksinə, yalnız şərlə yaşamaq həyatın sonudur. Xeyirlə şər həmişə bərabər gedir. Ancaq indi dünyada şər üstələyib..."* Taleyinlə barışan insansan. *"Yalnız işıqda yox, zülmətdə də cazibə"* görmüsən. Bunu *"Allahın iradəsi"* kimi qəbul etmisən.

*– Mənim bir xoşbəxtliyim var, Allah verən taleylə lap gənc yaşlarımdan barışmışam. Və bilirəm ki, mən mən kimi mən deyiləm, Allahın bir hissəsidi, Allahın bir hökmüdü. Nə qədər istəsəm, dəyişə bilməyəcəm".*

*"Ömür tənhalıq verdi mənə..."* – deyərək nə yalqızlıqdan, nə tənhalıqdan qaçmadın. Tənhalıqda özünü, səsini daha yaxşı eşitdin. Tənhalığından enerji, güc aldın. Yaradıcılıq enerjisi. Kağız-qələmlə təkbətək qalanda səmimisən, olduğun kimisən. Yaradıcılığında insanın əbədi kədərini, tənhalığını, insanın ekzistensial mahiyyətini ifadə etdin.

Gündəlikdən: *"Var ümid yeri bu dünyada, olmasaydı, heç yaşamağa dəyməzdi. Yazıçı üçün isə ən böyük ümidgah ağ kağız və qara qələmdir..." (1986)*

Tənhalıq (təklik yox) yaradıcı adam üçün vacibdir. *"Tənhalıq yazıçının iş yeridir",* – deyirsən.

*– Şeir yazan vaxt məni təkliyimdən, tənhalığımdan ayırsalar, aləm dəyər bir-birinə... Şeirləri necə yazıram? Əvvəlcə nəsə bir uğultu eşidirəm. Hansısa bir şeirin musiqisi səslənir. Elə bil kimsə züy tutur. Bax bu səs üstündə köklənirəm, yavaş-yavaş sözlər gəlir. Şeir yazanda heç vaxt əziyyət çəkmirəm. Əziyyət şeirin təbi gələn zaman olur. Yazı masasından, demək olar ki, istifadə eləmirəm. Kresloda oturuRam. Bloknot da dizimin üstündə. Əlimdə pozan, bir də karandaş.*

Ancaq *"Tənhalıq poeziyası"* yaradan şair təkliyi sevmirdi...

Gündəliyindən: *"Özbaşına, tək yaşaya bilmirəm. Bacarmıram. İstəmirəm də... İnsan ömrü uzaq, tənha ada imiş. Əllini haqlayanda bildim bunu. Hayıf, hayıf..." (1987)*

*"Tənhalıqda Günəş də qara paltarda ağ yamaq kimi görünür..."*

*"Özümə yer tapa bilmirəm yenə də. Bir şey yazdırmır da tərs kimi bu can sıxıntısı. Heç nədən mamanın üstünə qışqırdım bayaq. Acıq, hirs, küsü, pərtlik – hərəsi bir şilləyə, bir qapaza dönüb, elə hey yağır başıma, üzümə. Yarım saat bundan əvvəl aşağıda bir trolleybus siqnal verdi. Əcaib bir səs. Elə bil naməlum nəhəng bir heyvan bağırdı. Ağladım..." (1987)*

Gündəliyində uşaqlıq çağlarının həsrətiylə nəfəs alan sətirlər də az deyil, bu da tənhalığın xiffətidi Səni uşaqlıq çağlarına aparan...

*Elə bil dünən uşaq idik,*
*bağda gün batanda "hop" deyib,*
*ağzımıza bir ovuc ağ tut doldurduq*
*üzümüzü günbatana tutub...*

*"Tənhalıqdan qurtulmaq üçün sevmək lazımdır..."* Bu fikrini gündəliyində oxuyuram. Biz evlənəndən sonra yazmısan. Bir gün dedin: *"Nuşa, səninlə evlənməyim şeirlərimdə də özünü göstərir. Əvvəlki ahu-zar yoxdur. Daha çox təbiətdən, quşlardan yazmaq istəyirəm. Ahu-zar daha təmkinli, sakitdir".*

Həyatındakı ayrılıqlar, vəfaya inamın qırılması, yaranmış ümidsizlik, inamsızlıq uzun müddət Sənin qadınlarla ciddi münasibətlər qurmağına imkan verməyib. Ancaq ürəyinin bir küncündə sığınacaq tapmış sevib-sevilmək, sevinmək arzusu ilə yaşamısan. Gündəliyindən: *"Hər gün, hər gün sevinmək istəyirəm. Həyatda ən böyük və ən gizli arzum sevincdir. Ancaq buna şair ömründə yer tapılmır. Hayıf. Min hayıf. Kaş şair olmayaydım..."*

Gündəliyinin başqa səhifəsində kövrək bir istək: *"35-40 yaşında halal süd əmmiş bir qadın olaydı. Qohumsuz, atasız-anasız. Azdanışan. Elə bir qadın ki, söz deyəndə qulaq asa. Xudmani ailə qurub, yavaş-yavaş ömür sürmək olardı. Baş-başa verib. Soyuqda, sazaqda qoyunlar kimi. İstidə də. (1985)*

Ayrılıqların ağrısını, yalqızlığın dözülməzliyini gör-

düyün üçün mənimlə yaşadığın günlərin dəyərini qiymətləndirə bildin həm də...

*– Nuşa, mən düşünürdüm, qalan həyatım elə belə, tək-tənha, kişi məclislərində keçəcək... Şükür bu günümə...*

Bir də görürdüm yığışıb bağa getməyə hazırlaşırsan. *“Nuşa, gedim iki-üç gün bağda dincəlim”.* Bağa çatan kimi zəng edir, gümrah səslə: *“Nuşa, buralar elə yaxşıdır ki... Dincəlirəm”,* – deyirdin. Gecə zəng edəndə bir qədər qəribsəmiş səslə: “*Darıxıram, amma dözərəm”,* – deyirdin. Səhəri gün deyirdin: *“Deyəsən, axşam qayıdacam”.* Mənsə gülürdüm...

Münasibətlərdə vəfa, sədaqət, arxa – hər birimizin ehtiyac duyduğu hisslər. Sevginin ən əsas göstəricisi. İki insanın bir yerdə yaşaması, dil tapması mürəkkəb bir işdir. Yaradıcı insanla münasibət qurmaq, yaşamaq isə daha çətindir. Çünki onlar üçün həyatda ən əsas öz sənətləridir və ən gözəl hisslərini də onlar yaradıcılıqları vasitəsilə ifadə edirlər. Təbii, belə insanlardan özünü bütünlüklə ailəyə həsr etməsini tələb etmək düzgün olmazdı. Bir də böyük sənətkarlarda eqoizm və fərdçilik xüsusiyyətləri daha qabarıq olur. Bu haqqı onlara istedadları verir. Xoşbəxt o adamdır ki, ilk evliliyindən qarşısına ruhən ona doğma, onu duyan, başa düşən insan çıxsın. Yaradıcı insan üçün bu daha vacibdir. Sənin yaradıcılığınla mən biz evlənəndən sonra tanış oldum. Sən ilk böyük kitabını – *“Mən burdayam, İlahi...”*ni nəşrə hazırlayırdın. Bloknotlarından müxtəlif illərdə yazdığın şeirləri yazı makinasına köçürürdün. İş çox ləng

gedirdi. Sənə kömək etmək qərarına gəldim. Düzü, bunu necə qarşılayacağını bilməsəm də, Sən otaqda olmayanda yazı makinasının arxasına keçib, şeirlərini çap etməyə başladım. Arxaya baxanda gördüm ki, dirsəyini qapıya söykəyib gülümsəyirsən. İnamsız-inamsız soruşdum: “Mən şeirlərini çap eləyirəm, olar?” Kövrək səsinlə: *“Əlbəttə, olar. Mən ömrüm boyu rus yazıçılarına, xanımlarının onlara kömək etmələrinə həsəd aparmışam. Bu mənim çoxdankı arzum idi...”* O an gülən gözlərin deyirdi: *“Şükür, İlahi, bu günü də gördüm...”* Çox sonralar gündəliyində oxudum: *“Jena – pomoşnik, jena pravaya ruka. Kakoe eto v suşnosti sçastye, ay Allah...”* (1985) (Həyat yoldaşı köməkçidir, həyat yoldaşı sağ əlindir. Ay Allah, əslində, bu nə böyük xoşbəxtlikdir...)

İlk dəfə mən onda Sənin yaradıcılığına toxundum, Sənin dünyanla üz-üzə qaldım. Sənin dünyanı qəbul etdim, sevdim və bu aləmdə özümü tapdım. Böyük həvəslə şeirlərini yazı makinasına köçürür, kitablarını çapa hazırlayırdım. Baxmayaraq ki, fəlsəfə elmləri namizədi idim, işlədiyim elmi institutda plan işlərim də var idi, ancaq Sənin əsərlərini makinada yığmaq, tərtib etmək, nəşrə hazırlamaq mənə daha böyük zövq verirdi. Yadıma bilirsən nə düşdü? 2014-cü ildə Nizami adına Ədəbiyyat Muzeyində Sənin Amerikada çıxan kitabının təqdimatında muzeyin direktoru, hələ tələbəlik illərindən tanıdığım Rafael Hüseynov Sənin yazdıqlarının işıq üzü görməsində mənim rolumu qeyd edib, bu fəaliyyətimə qısa və çox dəqiq ad verdi: “Nüşabə xa-

nım şərqşünasdan çevrilib oldu vaqifşünas”. Ədalət naminə onu da deyim ki, Sən mənim “Cənubi Azərbaycanın ictimai-siyasi fikir tarixindən” monoqrafiyamı oxuduqdan sonra mənə: *“Bəlkə, doktorluq işi götürəsən?”* – dedin.

– Əlbəttə, doktorluq işi götürüb yazmaq olar. İntəhası, istədiyin vaxt məni evdə görə bilməyəcəksən. İşdə, kitabxanada olacağam çox vaxt.

*– Yox, onda istəmirəm...*

Sonradan iş yerimi dəyişdim. Şərqşünaslıq İnstitutundan İqtisad Universitetinə, Beynəlxalq münasibətlər kafedrasına keçdim. Yayda Zuğulbada pansionatda idik. Gələn dərs ili üçün “Qədim dünya tarixi” ilə bağlı proqram hazırlayırdım. Sən hərdən yazdıqlarıma baxır, işi nə vaxt tamamlayacağımla maraqlanırdın. Mən də Sənə o dövrlə bağlı maraqlı faktlar danışırdım. Proqramı yazıb qurtaran kimi bu şad xəbəri Sənə dedim. Səhəri içində proqram olan qovluğun üstünə qoyulmuş bu şeiri oxudum:

*Ey Qədim Romadan yazan gözəlim,*
*Qədim yunanları süzən gözəlim,*
*Şərqin tarixində gəzən gözəlim,*
*Vaqifin qısqanır səni bu elmə,*
*Bilmə, ey gözəlim, tarixi bilmə...*

*Mən sənin tarixin olmaq istərəm,*
*Yeganə elmintək qalmaq istərəm,*
*Beynində mən lövbər salmaq istərəm,*
*Sənin keçmişinəm, gələcəyinəm,*
*Sənin ən mötəbər biləcəyinəm...*

*Az çalış, Nüşabə, yordun sən məni,*
*Bu yayı təpəmdən vurdun sən məni,*
*Qədim tarixlərə yazdın sən məni,*
*Gələn yay götürmə belə öhdəlik,*
*Salamat qal, yarım, sağ ol, hələlik...*

Çox xoş əhvali-ruhiyyə bağışlayan bu şeirdə demək istədiklərini özünəməxsus yumorla yazmışdın. Ancaq düz də demişdin: "Sən mənim həm keçmişim oldun, həm bu günüm..." "Vaqifşünas" adı isə mənimçün bütün elmi dərəcələrdən, elmi adlardan yüksək fəxri addır. O biri adları almaq, qazanmaq olar, ancaq belə ada yiyələnmək hər yaradıcı adamın həyat yoldaşına qismət olmur...

Yaradıcı adamla həyat qurmaq yalnız adının filankəsin həyat yoldaşı kimi çəkilməsi deyil, həm də onun fəaliyyətinə qısqanclıqla yanaşmamaq, mane olmamaqdır, yaratdıqlarına biganə qalmamaqdır, lazım gələrsə, ona kömək etməkdir. Ernest Heminqueyin "Həmişə səninlə olan bayram" kitabında Skott Fitsceraldın xanımı Zelda haqqında yazdıqları yadıma düşdü: "Zelda Skottu onun yazıçılığına qısqanırdı..." Heminquey içkini və Zeldanı bu istedadlı yazıçının həyatında ən böyük bəla adlandırırdı. Həm şəxsi həyatında, həm də yaradıcılığında məğlubiyyətə uğradığını görüb, özünü parçalanmış boşqabla müqayisə edən Skott Fitscerald qızına ünvanladığı məktubunda yazırdı: "...Mənim arzum o gün puç oldu ki, sənin ananla evlənmək qərarını verdim..."

Vaqif, yəqin, həm Sənin, həm də mənim xoşbəxt-

liyimdir ki, *"ağ kağız üzərində Yer üzünün bütün məntiqlərinə meydan oxuyan qələminin təkliyi"*ni *"nə bir dövlət bayrağının kölgəsinə, nə də bir qadın səsinə, nə övlad nəfəsinə..."* dəyişmək istəmədiyini anladım, qəbul etdim. Dərk etdim ki, Poeziya, Yaradıcılıq Sənin qibləgahındır, ən böyük həqiqətindir. Bunu Sən də görür və mənə olan inamın daha da artırdı. Yaradıcılığının üzə çıxmasında Sənə yardımçı olmağım: yazdıqlarını sahmana salıb makinada yığmağım, redaktə edib çapa hazırlamağım nəticəsində bizim birgə, ümumi işimiz yaranırdı. Əsərlərinin nəşri ilə bağlı Sənə verilən suallara can rahatlığı ilə: *"Nüşabə xanıma müraciət edin, bu işlərlə o məşğuldur",* – deyirdin. Mən isə bu sözlərdən qürur duyurdum. Əminliklə deyə bilərəm ki, həyat yoldaşının yaradıcı insanın təkcə həyatında deyil, həm də fəaliyyətində yaxından iştirak etməsi onların münasibətlərinin möhkəm olması üçün çox vacib şərtdir. Sən minnətdarlıq hissiylə işıq üzü görən kitablarının ilk nüsxəsini imzalayaraq mənə bağışlayırdın: *"Məni zülmətdən işığa çıxaran, taleyimin bəxt üzüyünə dönən, ömrümün mənası və yaraşığı olan Sevgilim, Dostum Nüşabə xanıma – diz üstə əllərini öpərək. Vaqif Səmədoğlu. 16.XII.1999. Bakı".*

Sən öz yazdıqlarından arxayın idin. Sən tərəddüd etmədən öz yaradıcılığını mənə etibar etmişdin. Bu etibarı mən günbəgün, aybaay, ilbəil qazanmışdım. Yəqin, yaradıcı adam üçün yaratdıqlarının etibarlı əllərdə olduğunu bilməsi bir səadətdir. Bu etibarı qazanmağın özü isə ikiqat səadətdir.

Sən düşünən insansan. Düşüncələrinin, xəyallarının haradasa lap uzaqlarda gəzdiyini görürdüm çox vaxt. Özünlə təklikdə qalmağı sevirdin. Uzun müddət hərəkətsiz oturur, baxışlarını bir nöqtəyə zilləyirdin. Çəkdiyin qəlyanın tüstüsü duman kimi otağa dolur, ev "Amfora" tütününün gözəl qoxusuna bürünürdü. Bu sakitlikdə və təklikdə Sən ruhən əlçatmaz yüksəkliklərə ucalırdın. Mən dəfələrlə sakitcə kənardan Sənə, Sənin sükutuna baxır, bu səssizliyi dinləyir, bu sükutda itirdim. Bu sükuta üçüncü kəsin girməsi ən böyük günah olardı...

Gündəlikdən: *"...Arzularımdan, xəyallarımdan ötrü burnumun ucu başlayır göynəməyə. Yəqin, başqalarının yanında zəif görünüb, tezliklə xəyalımdakı böyüklüyümə qaçıb, ona sığınmaq istəyirəm. Yəqin, tənhalıq ictimai baxımdan zəiflik, şəxsi baxımdan isə çox böyük qüvvədir. Bəlkə də, yanılıram. Ancaq özümçün gerçəkdən darıxıram hərdən..."*

*...Beynimdə sərin yer tapa bilmirəm,*
*Bir fikir dincələ bilmir beynimdə,*
*Dolanış bir yana, dövran bir yana,*
*Şairlə insan düz gəlmir beynimdə...*

Çərçivələrə sığmamaq uşaqlıqdan gəlirdi. Bəzən özünə də sığmırdın...

*"Anadan olduğum gündən darıxıram... Azadlıqdan ötrü darıxıram. Həqiqətdən ötrü darıxıram. Hərdən gözəl yalandan ötrü darıxıram. Özümdən bezib darıxmışam. Şairin sənəti odu. İş yeri darıxmaqdı.."*

Bəlkə, elə bu səbəbdən uzun müddət bir yerdə işləyə bilməmisən. Əvvəl böyük həvəslə başladığın işə tədricən həvəsin sönüb, *"bu işin mənasızlığı, lazımsızlığı"* hissi Səni bürüyüb və oradakı mühit Səni darıxdırmağa başlayıb...

*Darıxanda pis darıxıram.*
*İnsan darıxmağı deyil bu,*
*insan ömrü deyilən şeyə*
*heç bir dəxli yoxdur bu darıxmağın...*
*Bir vəhşi heyvanın*
*qəfəsdə ağaran dişləri*
*çıxır qəlbimdən,*
*gəmirir, gəmirir varlığımı.*
*Belə günlərdə bel bağlaya bilmirəm özümə,*
*özümə etibar eləmirəm.*
*Çünki özümə yox,*
*şeirlərimə bənzəyirəm darıxanda.*
*Bu da ölümdür.*
*Quduz olub öldürülmüş*
*canavarın, itin ölümü.*
*Qızmar gün altında ölüm...*

Təzə evlənən vaxtlar tez-tez deyirdin: *"Axı sən niyə mənə gəldin, mən şair adamam..."* Şeir də yazdın bu haqda...

*Yarım, dizlərinə döy,*
*Mən çıxdım qabağına,*
*Lənət şair cinsinin*
*Qarasına, ağına.*

*Bu gün səni əzizlər,*
*Tutub basar bağrına,*
*Sabah özünə ağlar,*
*Yanmaz sənin ağrına...*
*Üç fəsil evdən çıxmaz,*
*Qışı qatar bahara,*
*Birdən göylərə qalxıb,*
*Qoşular durnalara...*

Mən “İndi də gec deyil, səhvimi düzəldə bilərəm” deyəndə Səndən istədiyim, gözlədiyim cavabı eşidirdim: *“Kimdir səni buraxan, bir güllə sənə, bir güllə də özümə”.* Təbii, bu bir şıltaq söz oyunu idi. Ancaq bu sözlərdən bir-birini itirmək istəməyən iki insanın sevgi etirafının əks-sədası eşidilirdi.

Əlbəttə, Sən mürəkkəbsən, ziddiyyətlisən yaşadığımız dünya kimi. Belə insanla yaşamaq çətin olduğu qədər də maraqlıdır. Çünki onu tanımağa, dərk etməyə çalışırsan. Tanıdığın qədər də sevirsən. O mürəkkəbliyin içindən yüksələn açıq, sadə (adi yox), səmimi, azad ruhlu, həssas, kövrəkqəlbli, zahirən sakit görünsə də, ani coşqunluğa qadir, hiddətlənəndə okeanda baş verən zəlzələyə bənzəyən, bəzən özünə qapanıb əlçatmaz olan, hər zaman qayğıya, nəvazişə ehtiyac duyan, təvazökar, təmtəraqdan, pafosdan uzaq, əzmli Vaqifi – Səni görürəm.

Öyüd-nəsihət vermək, onun-bunun başına ağıl qoymaq Sənə yad olub həmişə. Həyatda didaktik olmadığın kimi, şeirlərində də didaktik deyilsən. Hətta bir dəfə Səndən soruşanda ki kiminlə görüş-

mək istərdin: Nizami Gəncəvi, yoxsa Füzuli ilə, vaqifanə cavab verdin:

*– Nizami Gəncəvi ilə görüşmək istəməzdim. Məni görən kimi öyüd-nəsihət verməyə başlayacaq o saat, amma Füzuliylə görüşərdim, o, ruh şairidir.*

Səmimiliyin, didaktik olmamağın, sadəliyin gəncləri Səninlə ünsiyyətə sövq edirdi. Gənclərlə onların dilində danışırdın. 60-cı illərin sonlarında yazırdın: *"Vaxt gələcək, mən şairlərə, xüsusilə gənc şairlərə gərək olacam. Buna əminəm..."*

Dediklərin zaman-zaman yerini tutur. 70-80-ci illər bir neçə gənc nəsil Azərbaycan modernist şairləri üçün Sən ədəbi Quruya çevrildin.

*"Şair yaşa dolsa da, qocalmamalıdır..."* Yox, nə şeirlərində qocaldın, nə də ruhən...

"Bugünkü ədəbi mühitin cavanları Vaqif Səmədoğlunun səmimi ünsiyyətindən, sözün yaxşı mənasında, yararlana bildi. Vaqif müəllim poeziyamıza yeni keyfiyyətlər qazandırdı: böyük fikirləri az sözlə ifadə etməyin ustası idi, ənənə ilə müasirlik onun şeirlərində bir-birinə yad görünmürdü, özünəqədərki sərbəst şeirin səslənişini, qafiyə lüğətini dəyişdi, özünəqədərki poeziyada şeirə "yad mövzular"ı şeirləşdirdi, poeziyamızın səmimiyyət arealını genişləndirdi..." (Şair Fərid Hüseyn)

"Öz səmimi davranışıyla Vaqif Səmədoğlu yaşlı nəsillə gənc nəsil arasındakı buzları əritdi". (Şair Cəlil Cavanşir)

"...Vaqif Səmədoğlu özü də bilmədən mənim şair haqqında təsəvvürümün canlı parçasına çevrildi.

Əslində, o bu təsəvvürü təkcə məndə deyil, bir çoxlarında dağıtmışdı... O, varlığı ilə bir çox zehinlərdə olan şair obrazını rekonstruksiya etmişdi. Yaxasındakı aparatla, qəlyanla, sərbəstliklə, sadəliklə, centlmenliklə... Bir addım da insana – oxucuya yaxın gəlmişdi”. (Jurnalist Nərgiz Cabbarlı)

“Vaqif Səmədoğlu aktiv sosial şəbəkə istifadəçisi idi. Virtual forumlarda “Lirik” adı altında zəkası, yumoru ilə hamını heyran edirdi. Mən də həmin forumda bəzən ona yazırdım. Bir gün kitabını istədim. Arzularımdan biri idi kitabını oxumaq. Axı onun kitabları hər zaman defisit olub. Günlərin bir günü kitabını vermək üçün mənə zəng elədi. Nə o zəngi unudaram, nə də o görüşü. Böyük şair olduğunu bilirdim, böyük insan olduğunu həmin görüşdə gördüm”. (Yazıçı Ülviyyə Heydərova)

İnternetdə, əsasən, gənclərlə yazışırdın. Day.az. forumunda bir qrup qəlyan çəkən gənclə tanış olmuşdun. Eyni maraq dairələri olan gənclər ünsiyyət üçün çay süfrəsi ətrafında bir yerə yığışır, müxtəlif məsələlər haqda söhbətlər aparır, tütünlə dəyiş-düyüş edir, qəlyanı necə çəkməli, necə doldurmalı, təmizləmə qaydaları haqda danışır, fikir mübadiləsi edirdilər. Ancaq Sən öz alışdığın qaydalarla, nəzəriyyəsiz-filansız qulluq göstərirdin qəlyanlarına. “Çubuq-klub”dakı görüşlərdə Sən də bir neçə dəfə iştirak etmisən.

Klubun üzvü olmuş Elmar Kərimov deyir ki, “dyadya” Vaqif (onlar Sənə belə müraciət edirdilər) haqda sonsuz danışmaq olar... Çox nadir hallarda bir insanda

bu qədər müsbət keyfiyyət bir yerdə olur. Onlarla ilk görüşdən qayıtdıqda dedin: *“Nuşa, çoxdandır mən belə şənlənməmişdim. Son dərəcə maraqlı, ağıllı gənclərdi. İlya Bəkirzadə, Elmar Kərimov, Leonid Xodcayev... Çoxlu lətifələr, məzəli əhvalatlar danışırlar. Mənim dediklərim, danışdıqlarım onlar üçün çox maraqlıdır...”*

Klub xeyli müddətdir dağılıb, üzvlərinin də hərəsi bir ölkədə...

Sənin çox qiymətli bir xüsusiyyətin də var: insanlarla münasibətdə istədiyin qədər dərinliyə gedir, açılır, eyni zamanda da *“ürəyinin qapısını ancaq yalqızlığa aç”* deməklə o qapını istədiyin vaxt hamının üzünə bağlaya bilirdin. Hələ gənclik illərindən Sənin hər təbəqədən dost-tanışların olub. Vaxtaşırı onlarla ayaqüstü də olsa, görüşür, hal-əhval tuturdun. Vernisajda fotoaparat satan Yaşar vardı, papaqçı Qrişa, İsmayıl vardı... Deyirdin: *“Gedim Yaşarla gap edim bir az...”* Vernisajda rus nənələrindən köhnə fotoaparatlar almışdın: *“Yazıqlar saatlarla dururlar orada. Xeyir verdim onlara...”*

Papaqçı İsmayıla qara, boz, qəhvəyi rəngdə buxara papaqlar sifariş vermişdin. O papaqları başına qoyanda mənim xoşuma gəlmirdi. “Sənin görünüşünə panama, kepka daha çox yaraşır”, – deyirdim. Nə qədər məni inandırmaq istəsən də ki, buxara papaq Sənə yaraşır, razılaşmırdım.

Yadımdadır, mənim bir ad günümdə gözlənilmədən əlində üç buxara papaq otağa girib, birini qardaşım Mobilə, birini bacımın kürəkəni Mətinə verib

dedin: *“Qoyun başınıza, arvad yanında başıpapaqlı olmaq lazımdır...”*

Buxara papaqla bağlı Sənin danışdığın bir əhvalat yadıma düşdü. 2001-ci il. Strasburqa AŞPA-nın ilk iclasına getməmişdən qabaq Prezident Heydər Əliyev bizim nümayəndə heyətini qəbul edir. Görüşün sonunda Heydər Əliyev Sənə yaxınlaşaraq deyir: “Vaqif, sən qrupun bir ağsaqqalı kimi fikir ver, kimsə orada başına buxara papaq qoymasın, əlinə təsbeh almasın. Biabır olarıq...”

Evə gələn kimi bu söhbəti mənə danışdın.

– Vaqif, Heydər Əliyev bu sözləri Sənə eşitdirirmiş. Qızım, sənə deyirəm, gəlinim, sən eşit. Yəqin, ona çatdırılıb Sənin buxara papaq, təsbeh həvəskarı olduğun...

Xeyli güldük.

Yeni ailə qurduqda əvvəlki nikahdan olan uşaqlarla münasibətləri qura bilmək, onların etibarını qazanmaq çox vacib və incə məqamdır. Biz evlənəndə qızım Mirvarinin 18 yaşı var idi. Ancaq qiyabi də olsa, o, Səni biz tanış olan zamandan tanıyırdı. Mənim həyatımda Sənin olduğunu bilirdi. Dəfələrlə Sənin telefon zənglərinə cavab verib, səsindən xoşu gəldiyini deyirdi. Mənə sataşmaq üçün bəzən danışıq tərzini yamsılamağa çalışır, ya da Səməd Vurğunun şeirini ucadan yanımda oxuyub qaçırdı. Onun bu uşaq şıltaqlığına heç cürə hirslənə bilmirdim, ancaq zarafata salırdım.

Sənin ikinci nikahdan iki qızın var – 21 yaşlı Nigar və 17 yaşlı Məhbub. İlk dəfə onları Aybənizin evində qurulan toy məclisimizdə gördüm. Qızlar gülümsəsə də, üzlərindəki çaşqınlıq keçirdikləri narahatlıqdan xəbər verirdi. Onları başa düşmək olardı... Tez bir zamanda qızlar məclisə qaynayıb-qarışdılar. Hətta məni bəyəndiklərini də Sənə dedilər. Toy məclisində kimsə dedi: "Qızlar, bu günü yadınızdan çıxarmayın, hər övlada valideyn toyu görmək nəsib olmur". Hamı gülüşdü. Ancaq bu sözlərdən bir kədər də boylanırdı.

Sənin Mirvariylə, mənim Nigar və Məhbubla münasibət qura bilməyimizçün ilk növbədə təmkin tələb olunacaqdı. Mənimçün bunun daha çətin olacağını bilirdim. Çünki hər şey ancaq mənim istəyimdən asılı olmayacaqdı. Qızlar üzbəüz binada, eyni həyətdə, Sənin əvvəllər olduğun evdə yaşayırdılar. Sən ayrılanda Nigar altı, Məhbub iki yaşında olub. Bacın Aybənizin o zaman göstərdiyi müdriklik Səninlə qızların arasında bağların qırılmasına yol verməyib. Nigar evdə sözə baxmayanda, ona qadağalar qoyulanda, Sənə zəng edib "Məni buradan apar" deyəndə Sənin xahişinlə Aybəniz onu öz evinə aparır, sakitləşdirirdi. Elə o illərdən Nigarla bibisi arasında etibarlı münasibətlər yaranmışdı. Səninlə də çox vaxt Nigar Aybənizgildə görüşürdü. Bibisi Nigara xüsusi həssaslıqla yanaşırdı. Özüylə Şüvəlandakı bağa aparır, Nigarın bütün uşaq şıltaqlıqlarına təmkinlə, sevgi dolu dözümlə yanaşırdı. Nigar deyir ki, Aybəniz məni təkcə bibi kimi yox, ana kimi, ata qədər, hətta

onların cəmi boyda sevirdi. Bu münasibətdən doğan ərkyana, sevgi dolu hisslərə görə Nigar öz bibisini minnətdarlıqla yada salır. Aybənizlə bağlı şirin, kövrək xatirələr onunçün çox əzizdir: “Məni fərəhləndirən, qəlbimə dəyməyən, sevən, sevməyi öyrədən, mənə – azyaşlıya hörmət etdiyinə görə, saf, səmimi, sərhədsiz duyğularla yanaşdığına görə, onunla bağlı bütün xatirələrə görə Aybənizə öz təşəkkürümü bildirirəm...” Nigar Sənə də bağlıdır. Ədəbiyyata, poeziyaya meyillidir. Özünəməxsus qələmi var. Maraqlı həmsöhbətdir. Güclü yumoru var.

Biz qızlarla təkcə bayramlarda, ad günlərində görüşmürdük. Onlar istədikləri vaxt bizə gələ bilirdilər. Düzdür, Məhbub ailə qurandan sonra başqa ölkəyə köçdü.

Nigar doğulanda Səni ilk təbrik edən qapı qonşunuz yazıçı Mirzə İbrahimovun kiçik qızı Solmaz İbrahimovayla onun həyat yoldaşı olub. Onların “bizim bir oğlumuz vardı, bir qızımız da oldu, böyüyəndə evləndirərik” zarafatyana sözləri illər sonra həqiqət oldu...

Nigar artıq özü anadır. Onun qızı dünyaya gələndə Səninlə Bakıxanov qəsəbəsindəki doğum evinə getdik. Bir dəstə güllə. Nigarla pəncərədən danışdıq. O, gülləri həkimə verəcəyini dedi. Qızının adını Nigar özü qoydu: Məryəm. Məryəm böyüyüb, ağıllı, gözəl bir qıza çevrildi. UNEC-in tələbəsidir. İqtisadçı olacaq. Ayladan (Mirvarinin qızı) iki yaş böyükdü. Onlar uşaqlıqdan birgə oynayır, tətil günlərində də Nigar və Mirvariylə birgə istirahətə gedirdilər. Nigar

filoloq, Mirvari ekoloq olsa da, təsadüf elə gətirib ki, qızlar bir təşkilatda çalışırlar.

Bir dəfə Nigar və Mirvari qızlarıyla bizdə olanda Sən dedin:

– *Nuşa, rahatam, qızlar bir-biriləriylə dil tapıb, münasibət qura biliblər.*

– Vaqif, bu münasibət Sənə olan sevgidən doğub...

Birgə yaşadığımız həyatın bir-birimizə olan təsiri altında ikimiz də dəyişirdik. Çünki ikimiz də başa düşürdük ki, biz bir yerdə olmalıyıq. Bununçün isə qarşılıqlı məhəbbət, hörmətlə yanaşı, bir-birimizi başa düşüb, olduğumuz kimi qəbul etməyimiz vacib idi. Təzə evlənmişdik. Evdən çıxanda məndən soruşdun:

– *Gələndə sənə nə alım?*

– Gül və acı şokolad.

– *Adamların içində əlimdə gül necə gəlim?* (Onda maşınımız yox idi).

– Sənə adamların fikri vacibdir, ya məni sevindirməyin?

Üzümə baxdın, bir söz deməyib getdin. Evə dönəndə əlində bir dəstə gül və şokolad var idi... Bundan sonra daha heç bir vaxt Sənə demədim ki, gül al. Bayramlarda, ad günlərimdə, adi günlərdə belə Sən evə əlində gül gəlirdin. Adətən, sevdiyim qızılgüllərlə. Bağımız olanda qızılgüllər, yasəmən ağacları əkdin. Güllər açanda Sənin də ürəyin açılırdı mənə yaşatdığın sevinc üçün...

Son aylar yeriməyin çətinləşmişdi. Sürücümüz Fərmanı çağırdın. O gəldi. Üzündə təbəssüm mənə de-

din: *“Nuşa, sən get, mənim Fərmanla işim var”.* Çox keçmədən Fərman əlində bir dəstə ağ qızılgül gəldi, otağa, Sənin yanına keçdi. Məni otağa çağırdın, kədərlə gülümsəyərək gülləri mənə uzatdın: *“Nuşa, yəqin, bu mənim sənə aldığım son güllərdir...”*

Səni öpüb, güllərlə tez otaqdan çıxdım. İçimdən qopan hönkürtünü eşitməyəsən deyə...

İlk gündən elə alındı ki, Sən evdən çıxanda mən də pəncərəyə yaxınlaşıb arxanca baxdım. Sən bunu hiss etmiş kimi dönüb pəncərəyə baxdın, mən əl etdim, Sən də cavab olaraq əlini yellədin. Az qala ailəmizin yolasalma ənənəsinə çevrildi bu adət. Məncə, yaxşı adətdir. Sən evdən gedəndə bilirsən ki, bu evdə yolunu gözləyən var. Bizim yaşadığımız ünvanlar dəyişsə də, “əl etmək” adətimiz dəyişmədi. Bir də qapının kandarında evdən çıxanda və evə qayıdanda bir-birini öpmək. Bir-birimizin məişət vərdişlərinə alışırdıq.

Səfər üçün paltarlarını çamadana yığanda paltarlarının arasına kiçik kağız parçalarında yazılar qoyurdum: “Darıxıram...”, “Ev sənsiz boşdur” və bu kimi qısa, xoş cümlələr. Çamadanı boşaldanda Səninçün çox darıxdığımı duyasan bu yazılardan. Biləsən ki, az müddətə getmiş olsan da, evdə Səni gözləyən var. Sən də mənə cavab yazır, qayıdanda oxuyurdun: *“Nuşa, sevgilim! Qaqu səni sevir, səninçin yaşayır...”*

*“Nuşa! Çox hörmətli və ən əziz! Erməniləri birtəhər etdik... Mişka (Mirvari) boyda iki dənə buterbrod aldım, axşam yedim. İnciməyin, hamıdan çox*

*Ayladan ötrü darıxıram... Sənsiz nəinki Strasburq, bütün dünya bomboşdur. Bu fikir dopdolu vannanın içində gəldi ağlıma. Qanda şəkərim, deyəsən, çox deyil. Öpürəm... (26.04.2004)*

*"Nuşa, məhəbbətim! Şəkərim yaman düşüb. Bakıda satılan diabet dərmanları fuflo imiş! Bura vaxtı ilə 22.30. Şeyləri yığdım. Səhər 5.15-də buradan çıxırıq. Vətənə və sənə dönürəm. Yaman darıxıram... Ayla məni tanımasa, pərt olacağam... (Ayla beş aylıq idi). Xavərə ayaqqabı aldım bu gün. Şirniyyat, çay, qəhvəni Paris aeroportunda alacağam. Pul qalıb. Öpürəm səni..." (30.04.2004)*

Xavər xanım məni xəbərdar etmişdi ki, Sən nəsə aldıqda bir dənəylə kifayətlənmir, yavaş-yavaş onun sayını artırırsan. Səninlə birgə yaşayanda vasvası Xavər xanımın qorxusu o olub ki, nə vaxtsa Sənə protez dişlər qoyulsa, evin hər küncündən onun üzünə Sənin protezlərin ağaracaq...

Mən də alışırdım Sənin bu xüsusiyyətinə. İstər fotoaparat olsun, istərsə qəlyan, alışqan, təsbeh və ürəyin istəyən digər əşyaların sayını artırdıqca onlar yığılır, kolleksiya yaranırdı. Hətta bir dəfə Sənə dedim: "Ay Vaqif, nə yaxşı, arvadlardan kolleksiya yığmırsan..." İkimiz də gülüşdük.

Həqiqətən, insan istedadlıdırsa, bu, həmişə özünü müxtəlif sahələrdə, müxtəlif istiqamətlərdə göstərir. Gördüyü hər bir işdə özünü büruzə verir. Bu mənada Sənin istedadın genişmiqyaslıdır. Şair, dramaturq, musiqişünas, filosof, ictimai-siyasi xadim. Bu xüsusiyyətlərlə yanaşı, geniş maraq dairəsi olan

olduqca unikal şəxsiyyət...

Gördüyün işi həvəslə edirdin. Otağının tozunu alırdın. Oradakı fiqurları, qəlyanları, divardan asdığın xəncərləri, şəkilləri bir-bir silirdin. Tüfənglərini açıb, içini təmizləyir, yenidən yığır, qundağını xüsusi məhlulla silirdin. Aldığın müxtəlif daşlardan olan təsbehləri, iri muncuqları açır, özün istədiyin kimi başqa sapa yenidən yığırdın. Bu işləri çox sakit, dinməz- söyləməz edirdin. Zövq ala-ala. Eyni zamanda həm də dincəlirdin. Təsərrüfat mağazasına getməyi xoşlayardın. Oradan əliboş çıxmazdın. Mütləq evə aid lazım bildiyin, xoşuna gələn nəsə almalı idin, fərq etməzdi qazan, tava, bıçaq, şam olsun...

Rəssamlığın da var idi. Rənglər, rəsm dəftərləri almışdın... hamısı durur...

Az qala unutmuşdum. Sənin aşpazlığın da vardı axı. Dadlı, müxtəlif şorbalar bişirmək bacarığın. Hərdən gileylənirdin: *“Nuşa məni mətbəxdən uzaqlaşdırdı...”* Qabaqlar səhər yeməyi yemirdin. Gözünü açan kimi siqaret və kofe mütləq idi. Yaxşı da kofe dəmləyirdin. Sonradan mən alışdırdım Səni səhər yeməyinə. Bəzən özün hazırlamaq istəyirdin. Hazırladığın pomidorlu yumurtanın ləzzətindən doymaq olmurdu.

*Səni kolleksioner adlandıranlara deyirdin: “Kolleksioner Tretyakov olub. O, 40 il qabaqcıl rus rəssamlarının əsərlərini yığmaqla məşğul olub və sonra da bu kolleksiyanı şəhərə hədiyyə edib. Kolleksionerlər olmasaydı, dünyada nə bir muzey, nə bir kitabxana olardı. Mən isə özümçün yığıram. Mən yığıcıyam”.*

Sənin əşyalar dünyandan ayrıca bir əsər yazmaq olar. Zəngin, rəngarəng dünyandan. Sən istədiklərini (əlbəttə, imkan daxilində) almaqda, əldə etməkdə azad idin. Bilirəm, bəzən elə bir şey əldə etmək istəyirdin ki, onun alınmasına ehtiyac belə olmurdu. Bədxərclik də edirdin çox vaxt. Yadımdadır, Parisdə bir fotomağazaya getdik. Bizimlə o ölkədə çalışan jurnalist Əsgər Əsgərov da var idi. Sənin diqqətini bir fotoobyektiv çəkdi. Gözaltı mənə baxa-baxa onun qiymətini soruşdun. Hiss etdim ki, Sən mağazada tək qalmaq istəyirsən. Eşiyə çıxdım. Əsgər də arxamca. Mənə dedi: "Sağ olmuş niyə belə şeylərə pul xərcləyir?" Mən də cavab verdim: "Foto sənəti onun hobbisidir. Lazım olmasa, almaz..." Ürəyimdə isə dedim: "Sənin onun yaşadığı sıxıntılı, içinə qapandığı günlərindən xəbərin olsaydı, bu gün nə edirsə, nə alırsa, hər şeyi ona halal edərdin..."

– Sənin foto sənətinə marağın çox erkən yaşlardan başlayıb.

*– 1949-cu ilin yayında ailəlikcə Kislovodskdə istirahət edirdik. Gəzinti zamanı atam Yusiflə məni fotoaparat satılan dükana apardı. Yusif üçün "Moskva-5", mənim üçünsə "Komsomolets" adlı fotoaparat aldı. O vaxtdan bizdə foto sənətinə həvəs yaranmağa başladı. Yusif ömrünün sonuna kimi evdən fotokamerasız çıxmazdı. Mən də onun kimi. Əlbəttə, mən fotoqraf kimi deyil, həvəskar kimi yüksəksəviyyəli fotohəvəskaram. Fotoqraf sənəti ağır sənətdir. Foto sənətinin imkanları hüdudsuzdur. Bir vaxtlar gözəl məkanlarda çəkdiyim fotolar, təəssüf ki, qal-*

*mayıb, Nuşa. Kimlər, nələr yox idi orada... Üç mindən artıq neqativim itib-batdı evdən evə köçəndə. Onlarla da birgə fotolarımdan ibarət sərgi düzəltmək arzum. Yaxşı ki, "Komsomolets"i qoruya bildim. Yığdığım fotoaparatlar içində mənə ən aziz olanı..."*

– Arxayın ol, əzizim, indi "Komsomolets" fotoaparatın muzeydə qorunur.

Səs-küylü şəhərdə çiynində çanta, fotoaparat, aramla yeriyən bir adam. Bu, Sənsən. Yaddaqalan obrazınla Sən böyüdün, yaşa doldun. Tanımayanlar bu obrazda Səni əsl fotoreportyor kimi qəbul edə bilərdilər, bu da Sənin ürəyincə olardı. Ürəyincə olan işə münasibətin də ciddi idi. Foto sənəti Səninçün hobbidən də artıq gündəlik zərurətə çevrilmişdi. Hərbçinin silahı yanında olduğu kimi, Sən də fotoaparatdan ayrı gəzmirdin. Yadıma gəlmir nə vaxtsa Sən evdən fotoaparatsız çıxasan. İstər iş olsun, istər qonaqlıq, istərsə də səfər. Sən siqaret hərisi idin. Evdən çıxmamış qapının ağzında mütləq ciblərini yoxlayırdın, siqaret qutusunu unutmamısan ki. Ancaq fotoaparatı heç vaxt unutmurdun. Sənin fotoqəhrəmanların ailə üzvləri, dost-tanışlar, tanımadığın təsadüfi adamlar, heyvanlar, təbiət olurdu. Zarafatyana çəkdiyin şəkillər də az deyil. Ətrafı seyr etmək, başqalarının görmədiklərini görə bilmək və öz təəssüratını çəkdiyin fotolarda çatdırmaq qabiliyyəti bu sənətdə olan istedadından gəlirdi. *"Elə fotolarım var ki, onlar, əslində, yazmaq istədiklərimdir..."*

"Foto çəkmək bir saniyədə rəsm əsəri çəkməyə bənzəməlidir". Bu fikir XX əsrin nəhəng fotoqrafla-

rından biri, Sənin də sənətinə yüksək qiymət verdiyin fransız Anri Kartye-Bressona məxsusdur. Fotojurnalistikanın atası sayılan Anri Kartyenin iş metodu Sənə yaxşı tanış idi. Adamların fotosunu çəkdiyi zaman onlara "görünməz" qalmaq bacarığı fransız fotoqrafına məşhurluq gətirmişdi. Sən də bu üsuldan məharətlə istifadə edə bilirdin. Evdə, səfərdə. Yadındadır, çıxartdığın fotolarda özümü bəzən gözlənilməz, xoşagəlməz vəziyyətlərdə görəndə hirslənib, onları cırırdım. Ancaq elə bil Sən məni eşitmir və hər şey yenidən təkrarlanırdı.

– *Bilirsən, Nuşa, fotonun əsas üstünlüyü ünsiyyət qurmaq imkanının olmasıdır, çünki foto ilə söhbət etmək, xatirələrə dalmaq mümkündür. Mənimçün əziz olan belə fotolardan biri Qobustan qaya rəsmləri önündə atamla olan şəklimdir. Nuşa, sən bilirdin ki, Qobustanda qaya rəsmlərini Azərbaycan üçün qoruyub saxlayan şəxslərdən biri də sənin qayınatan Səməd Vurğun olub?*

– Yox, bilmirdim.

– *1954-cü il idi. Qobustanı daş karxanası edib, üzərində çoxlu rəsmlər olan qayaları doğrayırdılar. Bundan xəbər tutan atam (onda o, Elmlər Akademiyasının vitse-prezidenti idi), tarixçi alimlər İsaq Cəfərzadə və Zinoviy Yampolski Qobustana getdilər. Mən də onlarla idim. 15 yaşım olardı. Ora çatanda gördük ki, traktorlar, buldozerlər qayaları parçalayırlar. Atam onlara qışqırdı. İş dayandırıldı. İsaq Cəfərzadə qayaları yoxladı. Məlum oldu ki, bir neçə qayaüstü rəsm yox edilib. Zinoviy Yampolski məhv edilmiş qayaüs-*

*tü rəsmləri görəndə ağladı. Onların nailiyyəti o oldu ki, bütün qaya rəsmləri yoxlanıldı, siyahıya alındı, sənədləşdirildi və Qobustan qoruq elan olundu.*

– Allah onların hamısına rəhmət eləsin... Biganəlik, laqeydlik yad olub bu insanlara. Yoxsa bu gün Qobustan qoruğu olmazdı...

*– Neçə il sonra, 1967-ci ildə yenidən Yampolskiylə görüşdüm. Anarın ssenarisi əsasında "Torpaq. Dəniz. Od. Səma" filmi çəkilirdi (rejissor Şamil Mahmudbəyov). Anar, Emin, mən və Yampolski getdik Qobustana. Yampolski oraya Səməd Vurğunun gəlməsini və harayını danışdı. "Mən də gəlmişdim", – dedim.*

– *Ya pomnyu, bıl malenkiy.* (Yadımdadır, onda balaca idin).

Yazıçılar İttifaqında portretlərini çəkdiyin həmkarların yeni çıxan kitablarına bu fotoları yerləşdirəndə özünü əsl fotoqraf kimi hiss edirdin. Bir gün yazıçı Hüseyn Abbaszadə zəng edib, Səndən xahiş etdi ki, təzə kitabı üçün onun portretini çəkəsən. Telefon dəstəyini yerə qoyan kimi *"Ura!"* qışqırdın. Sevincinin hədd-hüdudu yox idi. Uşaq kimi sevinirdin. Vallah, kitabın çıxanda heç belə sevinməmişdin...

*– Nuşa, foto işində ən maraqlı məqamlardan biri çəkdiklərinin aşkarlanmasıdır – qaranlıqdan nə çıxacağını gözləmək, heç nədən bir obrazın yaranması.*

– Yadındadır o zaman yaşadığımız Qorki küçəsində (indiki Mirzə İbrahimov küçəsi), pilləkənlərin altında özünə fotolaboratoriya düzəltməyin? Nə qədər fotokağızlar, kimyəvi preparatlar almışdın. Hər gün o

kiçik məkanda iki-üç saat oturur, böyük zövq aldığın işlə məşğul olurdun. Mən də qonaq gəlirdim o dar məkana, termosda dəmlədiyim çayla birgə. İlahi, biz necə də xoşbəxt idik...

*– Köçdüyümüz təzə evdə, çulan üçün nəzərdə tutulan yerdə də fotolaboratoriya düzəltdim. Rəqəmsal fototexnika, printer çıxdıqdan sonra fotolaboratoriyadan istifadəm azalmağa başladı...*

Bilirsən, Vaqif, Sənin fotolarından ibarət sərgi təşkil etmək arzun həyata keçdi. Yəqin, sevinərdin. Fotosərgi keçirmək ideyası gözlənilməz oldu. Sankt-Peterburqda Rəssamlıq Akademiyasında təhsil alan gənc rəssam Elşad Əhmədov zəng etdi, Sənin yaradıcılığının pərəstişkarı olduğunu bildirdi. Özü də həvəskar fotoqraf olan Elşad Sankt-Peterburqda Sənin çəkdiyin fotolardan ibarət sərgi keçirməyi təklif etdi. Yerinə düşdü bu təklif. Qarşıda 80 illiyin gəlirdi. Və mən böyük həvəslə bu işə girişdim. Evdə, bağda olan neqativləri bir yerə topladım. İşin sonrakı mərhələlərində tanınmış fotoqraf, Sənin də yaxşı tanıdığın, sənətinə qiymət verdiyin Rafiq Qəmbərovun məsləhətləri yardımçı oldu mənə.

Əvvəl Bakıda "Qalereya-69"da (25 dekabr 2019), sonra Sankt-Peterburqda, Dostoyevskinin gediş-gəlişli ev-muzeyində (10 mart 2020) Sənin fotosərgini təşkil etdik. İlk dəfə Dostoyevskinin muzeyində Azərbaycan dilində şeirlər səsləndi. Sənin şeirlərin. Sənin adını daşıyan Poeziya Teatrının aktyorlarının ifasında. Qürurlu səslə bu haqda mənə gənc, istedadlı sənətşünas xanım Yekaterina Sapoqova dedi.

Azərbaycan mədəniyyətinə, Sənin yaradıcılığına rəğbətlə yanaşan bu mehriban, işıqlı xanımın səyləri nəticəsində Dostoyevskinin ev-muzeyində fotosərgin baş tutdu.

Sən özünü bir çox sahələrdə uğurla ifadə edə bilirdin. Sənin çox maraqlı, səmimi həmsöhbət olmaq istedadını da əlavə etsək, Sənin obrazın tam olar. Müxtəlif əhvalatların, hadisələrin, lətifələrin xəzinəsi yatırdı içində. Dostlarla, tanışlarla, özünlə baş vermiş hansısa əhvalatı elə canlı, obrazlı danışırdın ki, məftun olmamaq mümkün deyildi Sənə. Azərbaycan dilinin bütün ləhcələrində gözəl danışır, kimlərisə çox dəqiq yamsılayırdın. Əsl aktyorluq istedadın üzə çıxırdı. Bəzən mən eşitdiklərimə təkrar-təkrar qulaq asanda belə bu darıxdırıcı olmurdu, çünki o hadisəyə yeni çalar, rəng qatırdın.

Bir yerdə yaşadıqca mən Səni, Sən də məni yenidən tanıyır, tanıdıqca da daha çox bağlanırdıq birbirimizə. Mən özümlə də yenidən tanış olurdum: Şairin xanımı, sevgilisi ilə... Deyirdin "həyat yoldaşı" sözündən xoşum gəlmir. Böyük şair İosif Brodskinin "Sevimli qadın olmaq lazımdır, həyat yoldaşı yox" fikrini Sən də təsdiqlədin öz etiraflarınla, mənə həsr etdiyin şeirlərlə...

– Sən məhəbbət şeirləri yazanda onlarda bir obraz olub?

*– Nuşa, dünyanın ən yaxşı məhəbbət şeirlərində şair qadını yox, özünü yazır. Burada hiss şairin özü olur. Ancaq konkret məhəbbət şeirləri də olur. Mən konkret sənə şeirlər yazmışam. Nuşa, sən həyatımda*

*yeganə qadınsan ki, ona ünvanlı şeirlər yazmışam...*

*Bu dünya, bir də sən olmasaydınız,*
*Harada, kiminlə mən tək qalardım,*
*Başqa bir yalqızın sığınmağıyçün,*
*Yəqin ki, həm dünya, həm sən olardım...*

Bilirsən, Vaqif, hər dəfə mənə həsr etdiyin şeiri oxuyanda içimdə anlaşılmaz hisslər oyanır. Qürurlanıram. Amma büruzə vermirəm, üzdən sakit qəbul edirəm bu qiymətsiz hədiyyəni... Mən xoşbəxt qadınam...

İlk şeirini mənə təzə evlənəndə yazmışdın: *"Bağışla..."* Qardaşım Mobil Babayevə verdin ki, musiqi yazsın ona. Mahnını Flora Kərimova, Mirzə Babayev oxudular.

Vaqif, bu yaxınlarda Rusiya yazıçısı Yuri Naqibinin bir xatirəsini oxudum: "Heminqueyin "Əlvida, silah!" əsərində leytenant Henri "Xoşbəxtlik nədir?" sualına belə cavab verir: "Xoşbəxtlik sevimli qadındadır". Bunu oxuyanda cavan idim, fikirləşdim ki, İlahi, necə də bəsit fikirdir... Daha böyük xoşbəxtlik yaradıcılıqdadır, səyahətlərdədir, sərgüzəştlərdədir... Sevimli qadını isə həmişə tapmaq olar... 75 yaşımın tamam olmağına az qalıb və mən indi leytenant Henrinin və Heminqueyin bu son dərəcə müdrik fikrinə gəlib çatdım: "Xoşbəxtlik sevimli qadındadır".

Qəribə bir oxşarlıq, deyilmi? Naqibinin bu xatirəsi Milli Dram Teatrında Sənin 75 illiyinə həsr edilmiş gecədə mənə etdiyin sevgi etirafını xatırlatdı... Hamını kövrəldən sevgi etirafın...

*Sevil, qadın, yenə sevil,*
*sevil, dönə-dönə sevil,*
*sevil əsrə, sevil günə,*
*sevil şeirə, sevil dinə,*
*sevil hər an,*
*sevil, qadın...*

Anamın qırxını verdikdən sonra biz mənim ata evimə köçdük. Maksim Qorki, 27 ünvanına. Orada qızım qalırdı. Xaqani küçəsindəki ev 500 dollara bir xarici xanıma kirayə verildi. Xavər xanım pulun 300 dollarını bizə verir, 200 dolları özü götürürdü. Bu pul bizim maddi durumumuzu xeyli düzəltdi. Xaqanidəki ev mənə doğma olmuşdu. Ürəkaçan işıqlı otaqlar. Orada başlamışdı bizim münasibətimiz, sevgimiz... Sən bu evdə ananla 16 il yaşamısan. Bacınla, qardaşınla bir həyətdə. Sənin 7 il yaşadığın, sonra qızlarına verdiyin üzbəüz binadakı üçotaqlı ev də həmin həyətdə idi. Doğrusu, bizim bu evdən köçməyimizi Sənin belə asanlıqla qarşılamağın məni təəccübləndirdi. Amma sonradan başa düşdüm ki, qurduğun yeni ailənlə (biz iki il bu evdə yaşadıq) yeni evdə, yeni məkanda yaşamaq Sənin üçün vacib imiş. Hətta sonralar bu evə qayıtmaq imkanımız olanda belə mənim istəyimə baxmayaraq, Sən o evi satmağa qərar verdin...

Atam evinə köçəndə Sənin qətiliyin məni ruhlandırırdı. Əsl nizam-intizamlı adam kimi Sənin tez səfərbər olmağın bizim qısa bir zamanda yığışmağımıza kömək etdi. Əşyalarımızın bu evdən o evə daşınmasında Yusifin verdiyi maşın kara gəldi.

Mənim hərdən andığın bir sən var, o da yaddaşımda qoruduğum mən özüməm...

Mənim ömrümdən keçən və həyatımın müəyyən mərhələlərində öz möhrünü qoymuş böyük şəxsiyyətlər: Lev Tolstoy, Maksim Qorki, Xaqani, Mirzə Fətəli Axundov və Sən – Vaqif Səmədoğlu. Sizləri birləşdirən Qələm, Söz, bir də Mənəm...

Lev Tolstoy küçəsində dünyaya gəldim, Maksim Qorki küçəsində uşaqlığımı, gəncliyimi yaşadım, Xaqani küçəsində püxtələşdim, Mirzə Fətəli küçəsində yaşa doldum... Sən – Vaqif Səmədoğluda taleyimi tapdım.

Lev Tolstoy küçəsində həyatımın ilk dörd ilini yaşadım. Çox nadinc, nənəm demişkən, nodərəməd uşaq olmuşam. Hoppanıb-düşməkdən tez-tez qolum sınar (anam deyərdi ki, sınıqçılarda qalmışdıq), dizlərim yaralanardı. Hətta 2-ci mərtəbədən qonşunun islağa qoyduğu paltar dolu vannasına yıxılıb, sag da qala bilmişəm.

Maksim Qorki küçəsi, 27 nömrəli evə köçəndə beş yaşında idim. Ömrümün böyük hissəsini yaşadım bu evdə. Səninçün Fioletovdakı 6 nömrəli ev (indiki akademik Əlizadə küçəsi) nə qədər əziz idisə, mənə də Qorkidəki ev o qədər əziz və doğmadır. Bizim ev Bakının mərkəzində, "Beşmərtəbə"yə yaxın, qədim "Fantaziya" hamamının yanında yerləşirdi. İkimərtəbəli olan bu binanı keçən əsrin əvvəllərində sonradan Amerikaya mühacirət edən bir mühəndis öz layihəsi əsasında tikdirmişdi. Bütün qədim Bakı

evlərində olduğu kimi evin iki girişi vardı: əsas qapıdan və həyətdən. Çox da böyük olmayan həyətdə qollu-budaqlı əncir ağacı ucalırdı. Hər evin öz siması olduğu kimi, əncir ağacı da bu evin siması idi. Evi kiməsə tanıtmaq istəyəndə həyətində böyük əncir ağacının olduğunu deyirdim. Ona bu evin ağsaqqalı da demək olardı. Qonşular dəyişir, ağac qalırdı. Ağac cox bərəkətli idi. Hər il bol, dadlı bar verirdi. O dadı sonralar hər yediyim əncirdə axtarsam da, tapa bilmədim. Əncir yetişəndə ağac öz bəhrəsini səxavətlə qonşularla bölüşürdü. Hətta başqa qonşu evlərdən də əncir sorağına gələnlər olurdu. Bütün həyəti mürəbbə, doşab ətri bürüyəndə həyat daha da şirinləşirdi...

Bu evdə dünyaya gəlir, dünyadan köçürdülər. Qız köçürüb, gəlin gətirirdilər. Neçə-neçə sakinin ömrünü üstələmişdi bu ev. Burada bəxti gətirənlər də oldu, bəxti gətirməyənlər də. Əclaflar, içkiyə qurşananlar, dedi-qodu düşkünləri bu evin, bizim küçənin "bəzəkləri" idi. Bizim küçəni "italyansayağı məhəllə" də adlandırırdılar. Ara-sıra dava-şava da olurdu, uzunmüddətli sülh şəraiti də hökm sürürdü bu evdə. Hamı doğmalaşır, mehribanlaşırdı şadlıqlarda, hüzndə. İmkansız qonşuların xeyrinə-şərinə pul da yığılırdı. Üzbəüz binanın qonşuları bu evin, bu binanın qonşuları o evin həyatında fəal iştirak edirdilər. Yazılmamış qayda-qanunla, öz qanunuyla dolanırdı bu qədim Bakı evlərindən biri...

Həyətə həyat verən həm də uşaq səsləri idi. Xüsusən həyət futbol meydançasına çevriləndə. O za-

manlar Bakının yeri də, göyü də futbolla nəfəs alırdı. Küçələrdən, həyətlərdən, dalanlardan gələn "pas", "mazila", "qol" qışqırıqları şəhər həyatına rəng qatırdı. Hər oğlan uşağının bənzəmək istədiyi sevimli futbolçusu vardı. Bizim də həyətdə öz Banişevskimiz, Tuayevimiz, Markarovumuz oynayırdı. Uzun Tolik başla yaxşı oynayırdı, Nazim gözəl fəndlər edirdi. Kotik də pis oynamırdı müdafiədə. Həyət qışqırıqlara tab gətirməyəndə, ya top kiminsə pəncərəsinin şüşəsini sındıranda oyun küçədə davam etdirilirdi. Qonşu həyətdən də oyuna qoşulanlar olurdu. Onların içində Eysebio da var idi. Bu ləqəbi ona Portuqaliya komandasının məşhur hücumçusu Eysebioya oxşarlığına görə vermişdilər, oyununa görə yox. O görünən kimi "Eysebio, inca biyo" (Eysebio, bura gəl) qışqırıqları eşidilirdi. Oyunun azarkeşləri də olurdu böyüklü-kiçikli. Mən də tutulmuşdum futbol azarına. Atam məni bir neçə dəfə stadiona futbola baxmağa da aparmışdı. Televizorda heç bir futbol oyununu buraxmırdım. Başım da pis çıxmırdı oyundan. Hərdən həyətdə oynayan uşaqlara qoşulurdum. Qapıda dururdum adətən. Fədakar oyunuma görə məşhur sovet qapıçısı Yaşinin "davamçısı" kimi "Yaşin" ləqəbinə layiq görülmüşdüm. Hətta bir dəfə ağır zədə də aldım. Topa vurulan zərbə ayağıma dəyəndə. Dözülməz ağrıdan gözümdən qığılcım çıxsa da, ağlamadım. Bir ayağı üstə hoppana-hoppana evə gəldiyimi görən anam hirslə dedi: "Belə getsə, bir gün şikəst olacaqsan". Ondan sonra daha oynamadım. Ancaq eyvandan azarkeşlik etdim. Xoş-

bəxtlikdən, Sən də futbolu sevirdin. Bir yerdə oyuna baxır, təhlil edirdik. Mənə deyirdin: "Səndən yaxşı futbol şərhçisi çıxardı..."

Mən bu evdən dəfələrlə köçmüşəm başqa evə, ölkəyə, ancaq yenə də ora dönmüşəm. Getdiyim bütün yollar məni o evə qaytarıb. İndi isə Səninlə dönürdüm ora. Dönürdüm ki, Sən, mən və Mirvari bir ailə olaq, bir evdə yaşayaq. Bu evə Səninlə qayıdanda mən özüm də qəribə hisslər keçirirdim. Uşaqlığımdan bu yana bu evdə gördüklərimi, hiss etdiklərimi Sənə danışdıqca məni o zamanla bağlayan insanlar qəfildən gözümün önündə peyda olur, yaddaşım hörümçək toru örtmüş xatirələri silkələyib, yenidən yaşadırdı olanları-keçənləri. Bu evin "komendantı" tyotya Şura, onun oğlu, gözəl, məxməri baritona malik eston müğənnisi Qeorq Ots kimi oxumağa çalışan Anatoli Brodski (o müğənni olmaq arzusuna çatdı, Rusiyanın Sverdlovsk şəhərinin Musiqili Teatrının solisti oldu), rus romanslarını pianoda çalıb, özünəməxsus tərzdə ifa edən dyadya Borya (bizə telefonla danışmağa gələndə mən onu pianoda çalıb-oxumamış getməyə qoymazdım) və onun dedi-qodu gəzdirən arvadı tyotya Zoya, qucağındakı "Reks" adlı bolonka, tyotya İda və onun ömrünü dəlixanada başa vuran pianoçu qızı Sara, tutqun, qaşqabaqlı, dodaqaltı deyinən Çərkəz xala. Bu ev Səni, Sən də bu evi bəyəndin. Çox tez isinişdiniz bir-birinizə. Qonşular da Səninlə qonşu olmalarından qürur duyurdular. Məsləhətə, xahişə gəlirdilər yanına. Mirvari Səni bu məhəllənin Don Karleonisi adlandırırdı. Deyəsən, bu

müqayisə Sənin də ürəyindən idi. Hətta Göyçaydan bir zənbil pay da gəlmişdi rüşvət kimi. Qonşunun oğlunu institutdan qovulmağa qoymadığına görə. Bir gün evə gələndə dedin:

*– Nuşa, aşağıda Əşrəf kişini gördüm. Mənə deyir ki, SSRİ-də iki adam Stalinin qapısını təpiklə açıb. Onlardan biri Səməd Vurğun olub.*

– Sən nə dedin?

*– Heç nə. Mənası yoxdur... Nə qədər mif yaranıb sənin haqqında, ay papa, Allah sənə rəhmət eləsin...*

Əşrəf kişi üçün isə dedin: *"Maraqlı tipdir..."*

Arıq, cılız, armud saplağına bənzər quru bədəni olan Əşrəf bu evdə qalan köhnə qonşulardan idi. Yaşı 80-i keçmişdi. Ancaq uşaqlıqdan tanıdığım Əşrəfin vərdişləri, xasiyyəti dəyişməmişdi, yalnız yaşının üstə yaş gəlmişdi. Əşrəf kişi çox az yeyir, çayını xoruzquyruğu içir, damağını siqaretsiz qoymurdu. Başqalarının hesabına vurur, tez-tez içkili olurdu. Kefinin kök vaxtında radioya səs verir, xallar vura-vura müğənni Bülbül kimi oxuyurdu. Üstəlik çırtma vurub, rəqs edirdi süzə-süzə.

Adətən, sir-sifətindən zəhrimar yağar, dodaqaltı deyinər, daima kimisə söyərdi. Kitab alıb, kitab satardı. Çox mütaliə edərdi. Oxuduqlarını, eşitdiklərini maraqla, özünəməxsus tərzdə ya rusca, ya da azərbaycanca danışardı. Səlis danışardı siqaretini sümürə-sümürə. Stalinə, Atatürkə, Səməd Vurğuna pərəstiş edərdi. Atam ona Türkiyədən gətirdiyi Atatürkün şəkillərindən ibarət təqvim bağışlayanda kişi sevincindən hoppanaraq antraşasayaq ayaqlarını bir-biri-

nə vurmuşdu da. Yaxşı dəridən olan tünd-qəhvəyi rəngli ayaqqabılarını hər gün sürtüb parıldadır, onları 20 il geyinməsi ilə öyünürdü. Ancaq ayaqqabılarına göstərdiyi qulluğu ailəsinə göstərə bilmirdi. Deyəsən, Əşrəfin dünyada heç istədiyi adam olmayıb. Arvadlarının, uşaqlarının sayı bilinməsə də.

Sonuncu arvadı Törədən əkiz uşaqları: oğlan və qız olmuşdu. Boylu-buxunlu, səliqəli üz cizgiləri olan Törə saçlarına, üzünə boya vurmaz, gümüşü rəngdə, çox da qalın olmayan saçlarını arxadan yığardı. Əyninə-başına fikir verməzdi. Deyərdi ki, bugünkü günümə baxıb, mənə qiymət verməyin. Cavanlığımda görərdiz məni. Törənin içində sağalmaz yara – birinci əriylə, o dövrün məşhur aktyoruyla xoşbəxt olduğu günlərin ağrısı kök salmışdı, için-için həsrətini çəkdiyi günlərin. İnsan bu günündə rahatlıq tapmayanda xatirələrin qucağına atılır. Yaşca Törədən xeyli böyük olan aktyor gənc qızı görən kimi vurulmuş, ailəsinin razılığını alandan sonra tezliklə toy edib, evinə gəlin gətirmişdi. Bu toyun sorağı çox illər sonra Xavər xanımdan gəldi. Onun uşaqlıq xatirəsində Törənin toyundan bir gənc gəlinin gözəlliyi, bir də başına qoyulmuş brilyant tac qalmışdı. Keçən əsrin 30-cu illərində Törənin aktyor əri “xalq düşməni” damğasıyla tutulub, sürgün edildikdən sonra Törənin və onun üç övladının firavan həyatına son qoyulmuşdu. Əşrəfə ərə gedən Törə çətinliklə dolanar, yolunu tez-tez lombarddan salardı. Kiminsə yaxşı yaşaması ər-arvadı əməlli-başlı əsəbiləşdirir, Əşrəfi gözəl xəttiylə qohum-qonşudan anonim məktublar yazmağa sövq

edirdi. Bu hirs-qəzəb ər-arvad arasında dava-dalaşa, söyüşə də çevrilirdi vaxtaşırı. Yaşlı vaxtında iflic olan Törə deyirdi: "Əşrəf kimi əyyaşdan vaxtında canımı qurtarsaydım, bu günə düşməzdim". Birinci ərini gözləməyib, Əşrəfin yaraşığına, cavanlığına uyduğu üçün xəcalət çəkdiyini deyir, bədbəxtliyinin səbəbkarı kimi Stalini lənətləyirdi.

Törənin qızı özünün və qardaşlarının ağır, ehtiyac içində keçən uşaqlıq, gənclik illərinə, dəlixanada ölən kiçik qardaşına görə, atalarını gözləməyib ərə getdiyi üçün ömrünün sonuna kimi Törəni bağışlamadı. Vaxtaşırı anasıyla o illərin haqq-hesabını çəkərdi. Törənin böyük oğlunun aqibəti daha yaxşı olmuşdu. O, sovet döneminin pul qazanmağı bacaran imkanlı iş adamlarından biri oldu və ömrünün sonuna kimi anasına, onun ailəsinə kömək etdi. Əkizlər böyük qardaşa arxalanır, Əşrəf isə ondan çəkinirdi. Böyük oğluyla qürur duyan Törə hər yerdə onu rüsvay edən qızından gileylənərdi. Əşrəf Törədən sonra öldü. Yarıac, yarıtox, siqaret sümürə-sümürə, deyinə-deyinə, söyə-söyə, zümzümə edə-edə...

Bizim üçotaqlı mənzil ikinci mərtəbədə yerləşirdi. Uzun, geniş dəhlizdə bizdən əlavə, iki ailə də yaşayırdı. Onlardan biri, bizim qapı qonşumuz Məmməd əmi idi. Məmməd əminin faciəli ölümüylə bağlı danışdıqlarım Səni də təsirləndirdi.

Enlikürək, bir az da dolubədənli Məmməd əminin 50-55 yaşı olardı. Zəhmli, qaradinməz idi. (Uşaqlıq xatirəmdə o belə qalıb). Deyəsən, mühəndis işləyirdi. Böyük Vətən müharibəsində iştirak etmişdi.

Deyirdilər ki, Məmməd əminin ağır xasiyyəti arvad-uşağı qaçırıb ondan. Qonşular da çəkinirdilər Məmməd əmidən. Hətta o, evdə olanda həyətdə oynayan uşaqları səs salmağa qoymurdular. Qonşular bizə – təzə sakinlərə Məmməd kişiylə ehtiyatlı davranmağı məsləhət görmüşdülər. Mən, ailəmizin sonbeşiyi, ən ərköyünü, ən şıltağı, hər dəfə növbəti nadinclik edəndə "Məmməd kişi gəlir ha" hədəsini eşidirdim. Lakin, görünür, bu hədə-qorxu mənə heç kar etmirmiş. Çünki tez bir zamanda o mənimçün ən mehriban, ən əziz adama – Məmməd əmiyə çevrildi. Mən onun evə gəlməsini səbirsizliklə gözləyir, səsi gələndə, ya da otağının işığı yananda yanına getməyə tələsirdim. Məmməd əmi balaca bir otaqda yaşayırdı. İkinci böyük otaq həmişə bağlı idi. Oraya arvad-uşağının əşyaları yığılmışdı. Məmməd əminin otağı həmişə səliqəli və təmiz olurdu. Otağında paltar şkafı, dəmir çarpayı, kitab şkafı və yazı masası var idi. Böyük olmayan kitab şkafı kitab-jurnalla dolu olardı. Yazı masasının üstündə lampa, saat, təqvim qoyulmuşdu. Məmməd əmi, adətən, yazı masasının arxasında oturar, nəsə yazıb-oxuyardı. Mən də sakitcə bir tərəfdə oturub onu izləyər, sonra sual dalınca sual verərdim. Məmməd əminin söhbətlərinə qulaq asmağı çox xoşlayardım. Mənim çoxsaylı uşaq suallarıma cavab verməkdən yorulmayan Məmməd əminin hər sözü qulağımda hökm kimi səslənərdi. Evdəkilər ona deyəndə ki, ay Məmməd qardaş, bizim qız, deyəsən, sizi yaman incidir, o cavabında: "Sizin qız çox mehriban və istiqanlıdır. Öyrənmək həvəsi də

çoxdur. Onunla söhbət edəndə dincəlirəm", – deyərdi. Məmməd əmi bizə də gəlməyə başlamışdı bazar günləri. Atam ondan iyirmi-iyirmi beş yaş cavan olsa da, söhbətləri tutur, şahmat, nərd oynayırdılar. "Başı adam götürməyən" Məmməd əmiylə təzə qonşular arasında yaranan ünsiyyət, onun ailənin kiçik qızına göstərdiyi mehriban münasibət, təmkin köhnə qonşularda təəccüb dolu qısqanclıq yaradırdı.

Yay fəslinin bazar günlərindən biri idi. Ustalar həyətə çıxan eyvanı və taxta pilləkəni yenisiylə əvəz edirdilər. Böyük, hazır pilləkəni yerinə qoymaqçün ustaların köməyinə qonşular da gəldilər. Hamamdan təzə çıxmış Məmməd əmi də onlara qoşuldu. O, məhəccəri hələ qoyulmamış eyvana çıxdı. Pilləkənə bağlanmış yoğun kəndiri özünə tərəf çəkmək istədi. Ayağı sürüşdü. Müvazinətini saxlaya bilməyib həyətə yıxıldı. Mən otaqda idim. Bayırdan qışqırıq səsləri gəldi. Tez dəhlizə yüyürdüm. Məmməd əminin otağının qapısı açıq idi. Yazı masasının üstündə içilməmiş limonlu çay dururdu. Pəncərədən həyətə boylandım. Məmməd əmi yerdə uzanmışdı. Bir əli qarnının üstündə, o biri yanına düşmüşdü. Ətrafında adamlar dolaşırdılar. Təcili yardım maşını gəldi. Onu xəstəxanaya apardılar. Xilas etmək mümkün olmadı. "Yerə dəyəndə zərbənin gücündən içalatı partlayıb", – dedilər. Yıxılan zaman Məmməd əmi əncir ağacının budaqlarından yapışmaq istəyib. Qolları sıyrıq-sıyrıq olmuşdu, ovcunda bərk-bərk sıxdığı əncir yarpaqlarını həkimlər güclə dartıb çıxartmışdılar. Məmməd əminin dəfn günü ev, həyət, küçə adam-

larla dolmuşdu. Bağlı böyük otaq açılmış, arvadı, qızı qayıtmış, oğlu əsgərlikdən çağırılmışdı. O, bərk ağlayırdı. Məni də sakitləşdirə bilmirdilər Məmməd əmi yıxılan gündən. Onu basdırmağa aparanda mən küçəyə baxan eyvanımıza tərəf qaçdım. Eyvanımız qara paltarlı, tanıdığım-tanımadığım arvadlarla dolu idi. Məni eyvana çıxmağa qoymurdular. Arıq canımı güclə də olsa, onların arasından keçirib eyvana çıxa bildim. Ayaq barmaqlarımın ucunda qalxıb küçəyə baxdım. Üstünə yaşıl ipəkdən örpək salınmış cənazə həyətdən çıxarılırdı. Məmməd əmini aparırdılar. Eyvandakı arvadlar dil deyib ağlaşdılar. Mən huşumu itirdim. Gözlərimi açanda özümü eynəkli bir arvadın qucağında gördüm. Bu, Məmməd əminin qohumu tyotya Asya idi. Ona "urus" Asya da deyirdilər. Çünki həmişə rusca danışırdı. Tyotya Asya məni bağrına basıb, ağlaya-ağlaya nəsə deyirdi. Bu hadisədən sonra elə bil məni daha çox əzizlədilər. Tyotya Asya hər yasa gələndə mənə də baş çəkir, nağıl kitabları, rəngli karandaşlar hədiyyə edirdi. Aldığı kitabları oxumağa macal da tapırdı. Tyotya Asyanın sonrakı taleyi çox faciəli oldu. Hərbi qulluqda çalışan yeganə oğlunu itirdi. Bu dərdə dözməyib özünə qəsd etdi. Məmməd əminin ölümündən sonra arvadı Fəramuş xala və qızı evlərinə qayıtdılar. Bizimlə mehriban qonşu oldular. Bu evdən Məmməd əminin qızı gəlin köçdü, oğlu bu evə gəlin gətirdi. Mən tez-tez Məmməd əminin bağışladığı II Dünya müharibəsində qəhrəmanlıq göstərmiş azərbaycanlı əsgərlərin şəkillərinə baxırdım. Uzun müddət onları qoruyub sax-

laya bilmişdim Məmməd əminin işıqlı xatirəsi kimi. Bir də təsəllimi onda tapırdım ki, o beşyaşlı qızcığaz öz təmiz, ilıq nəfəsiylə oğlundan-qızından ayrı düşmüş Məmməd əminin təklikdən, biganəlikdən sərtləşmiş ürəyinə cüzi də olsa, yumşaqlıq gətirə bilmişdi. Məmməd əminin ölümü həyatımda yaşadığım ilk itki oldu. Sən ilk dəfə ölüyə 9 yaşında nənən öləndə ağladın, mən 5 yaşımda... Özümü tanıyandan ölümün nə olduğunu gördüm. Ölümlə ilk tanışlığım bir daha heç vaxt o adamı görə bilməyəcək anlamı, onun yoxluğu anlamı oldu. Məmməd əminin yoxluğu mənə qorxa-qorxa "Mama, sən də öləcəksən? Papa da? Nənə də? Mən də?" suallarını verdirdi. Vaxtaşırı küçəmizdən Şopenin "Ölüm marşı"nın və ya klarnetin qəmli sədaları altında kimisə basdırmağa aparardılar. Musiqini eşidən kimi mən tez eyvana çıxıb, bu mərasimə tamaşa edərdim. Sonra da xeyli müddət gördüklərimin təsiri altında qalırdım. Göyümtul rəngli üzlərdə qalan ifadəni (əgər üzü açıq idisə), tabutun dalınca ağlaya-ağlaya, başdan-ayağa qara geyinmiş, aramla addımlayan adamları, lap öndə aparılan böyüdülmüş şəkil yiyəsini unuda bilmirdim. Xüsusən əgər o şəkildən mənə gənc oğlan və ya qız baxırdısa...

Yavaş-yavaş dərk edəcəyəm ki, Ölüm təkcə bir insanı, onun ədalarını, səsini, gülüşünü, yerişini aparmır. Onunla bağlı bir dünyanı aparır, dövrü aparır. Və yaşadığımız hər gün saatbasaat, dəqiqəbədəqiqə bizim ölüm vaxtımızı yaxınlaşdırır. Sənin şeirini pıçıldayıram: *"Anam məni çağa ikən kəfənə bələyibmiş..."*

Biz o evdən köçəndən sonra birinci mərtəbədə yaşayan yeni qonşu evinə düşən işığın qabağını alır deyə əncir ağacını kəsdi. Halbuki biz hələ köçməmişdən öncə o mənə ağacı kəsmək istədiyini deyəndə qoymamışdım: "Əncir ağacı ocaqdır dedim, günahdır onu kəsmək". Bilmirəm ağacın kəsilməsiylə bağlıdır, ya yox, bir müddət sonra bizim o ev söküldü. Bakının daha bir qədim evi ömrünü başa vurdu. Yadımdadır, qış vaxtı idi. Sənə həyətimizdəki əncir ağacının bir-birinə sarılmış çılpaq budaqlarını göstərdim. Ayrılığın yaxınlaşdığını hiss edirmişlər kimi sevişirdi ağacın budaqları sanki. Bu mənzərəyə "Həyat" adı verdim. Fotosunu çəkdin. Qarşıda Mirvarinin xeyir işi dururdu. Ürəyimcə olmasa da, satmalı oldum evi. Ürəyimdə ağır yüklə köçdüm oradan. Həmin gün hisslərimi birnəfəsə vərəqə köçürdüm:

*Sən allah,*
*qoy dönüm, qayıdım ora.*
*Orda uşaqlığımın, gəncliyimin*
*məndə gözü qalıbdır,*
*deməyə macal tapmadığı neçə sözü qalıbdır.*
*Doğmalarımın gözlərinin, əllərinin izi qalıbdır.*
*İlk eşqimin sızı, nazı qalıbdır.*
*Burda qəhqəhəmin işığı sönübdür,*
*göz yaşımın damcısı daşa dönübdür...*
*Sən allah, qoy dönüm ora.*
*Orda həyatın bir üzü vardı,*
*Nağıl idi, ya gerçək, bilmirəm.*

*Sən allah,*
*qoy dönüm, qayıdım ora,*
*mənim Ata evimə...*

O evin yerində indi səkkizmərtəbəli bina ucalır. XIX əsrin yadigarı olan “Fantaziya” hamamı hələ ki yerindədir. Vaxtilə içində qızılbalıqlar üzən mozaika ilə bəzədilmiş fəvvarəli hovuzu, cəh-cəh vuran bülbülləri, 2-3 otaqlı nömrələri, göstərilən qulluğu ilə məşhur olan bu qədim hamam ölüm ayağındadır indi...

Mən ilk gündən çalışdım ki, Sən özünü qonaq kimi hiss etməyəsən bu evdə. İstəyirdim Sənə də doğma olsun bu ev. Qızım Mirvari bu işdə məndən geri qalmırdı. Bir otağı Sənə kabinet düzəltdik. Çox düşərli oldu bu ev Sənə. Yeni teletamaşalar, teatr üçün pyeslər, şeirlər yazdın. Sən bu evə tez alışdın. Mirvariyə isinişmişdin. Xüsusi həssaslıqla yanaşırdın ona. O da Sənə bağlanmışdı. Mirvarinin nəzakətli davranışı, ciddiliyi, məsuliyyətliliyi Sənin ürəyincə idi. *“Nuşa, belindən gəlməyəni belə istəməkmi olar?”* “Vaqif, o, Sənin ürəyindən gəlib...” Sənin yaman xoşuna gəldi mənim cavabım. *“Nə qəşəng dedin, lap Balzak stilində...”*

*“Bilməzdim susuz dünyada səsinin bulağı varmış, Mirvarinin doğmalığı...”*

Evlənəndən bir müddət sonra dedin: *“Nuşa, mən istəyirəm Mirvari mənim adımı, soyadımı daşısın. Biz bir ailəyiksə, ailədə bir soyad olmalıdır. Əgər razı olmazsa, mənim ona münasibətim dəyişməyəcək...”* Mən başa düşürdüm ki, Sənə bir ata kimi də özünü təsdiq etmək vacibdir. Mirvari Sənin adını,

soyadını götürən gün gündəliyində oxuyuram: *"Üstümdən elə bil bir yük götürüldü".*

Gündəlikdən: *"Qardaşlar bir atadan, anadan olanlar deyil, bir Allahdan olanlardır".*

Bizim münasibətlərin yeni bir mərhələsi başladı. Sənə dedim: "Vaqif, elə bil anam öz ölümünü tələsdirdi ki, Sən, Mirvari və mən bir yerdə, bir ailədə yaşayaq..." Bu fikrim Səni çox duyğulandırdı: *"Bu haqda gərək mütləq yazam..."*

– Vaqif, ailə nədir?

*– Etibar, Qayğı, Arxa...*

Bu evdə əlçatmaz bir sakitlik, rahatlıq vardı. Burada piano vardı. Musiqi vardı. Uşaqlıqdan xəmirim musiqiylə yoğurulub mənim. Violanın səsi pianoya qarışırdı qardaşım, bacım sayəsində. Sonradan mən də pianonun dillərini dindirməyə başladım. Xoşbəxtlikdən, Sən də musiqiçi idin. Musiqinin bütün sahələrini gözəl bilirdin. Muğamatdan tutmuş caza kimi. Bir dəfə Sənə dedim: "Əgər Sən yalnız şair olsaydın, mənə o qədər də maraqlı olmazdın. Nə yaxşı ki, Sən professional musiqiçisən, həm də Şair..."

Bizim musiqi zövqlərimiz də uyğun gəlirdi. Uşaqlıqdan evdə klassik, caz musiqisini eşidə-eşidə böyümüşəm. Çoxlu notlar, metronom aldın. Hər gün 2-3 saat çalırdın. Əllərin unutmamışdı, xatırlayırdı pianoçu olduğunu. Raxmaninovu, Şopeni, Skryabini... *"Nuşa, hər gün saatlarla məşğul oluram, elə bil konsertə hazırlaşıram".* "Konsert" sözünü göydə tutdum: "Qaquş, bəlkə, papanın muzeyində yarım saatlıq konsert təşkil edək?" Bir dəqiqəlik sükutdan

sonra *"yox"* cavabını eşitdim. "Vallah, Vaqif, başqaları Sən çaldığının yarısı qədər çala bilsəydilər, çoxdan filarmoniyada konsert vermişdilər".

Başa düşürəm, Sənin özünə qarşı tələbkarlığından, çalmağına professional pianoçu kimi yanaşmağından gəlirdi "yox" cavabın. Səni nə qədər inandırmağa çalışsam da ki, bu konsertdə Sən pianoda şair qismində ifa edəcəksən, peşəkar pianoçu kimi yox, faydası olmadı. Ancaq təsəvvür edirəm, necə böyük əks-səda doğurardı Sənin konsertin. Heç olmasa əlimizdə lent yazısı qalardı o günün.

Gündəlikdən: *"...Məni, hər şeydən, əvvəl Musiqinin möcüzəsi heyran edir. Məncə, Allah insanı yox, Musiqini öz oxşarı kimi yaradıb. Bütün dinlərdə dualar musiqiyə boyanıb. Əminəm ki, Allah çox sözləri rədd edir, ancaq duaların musiqisini qəbul edir. Məhz bu səbəbdən də hələ dünyanın sonu yetişməyib..."*

Tələsmədən, həzin-həzin, pianonun dillərinə sığal çəkə-çəkə çalırdın. Gözəl caz ifaçısı, ustalığına pərəstiş etdiyin Bill Evans kimi yumşaq...

"Qoy incəsənətə xidmət sizdə həmişə təmizlikdən başlasın. Çalmazdan qabaq royalın dillərini spirtlə silin". Amerika musiqiçisi İosif Qofman bu sözləri, deyəsən, Səninçün deyibmiş. Pianonun dillərini silməmiş oturmurdun onun arxasına. Sənə mane olmayım deyə barmaqlarımın ucunda otağa keçib bir tərəfdə oturur, çalmağına qulaq asırdım. İçimə qəribə bir rahatlıq çökürdü. Sən var idin, musiqi var idi, həyat vardı... Keçirdiyim hisslər haqqında Sənə

danışanda həmişə tərifə ehtiyac duyan bir uşaq kimi soruşurdun: *"Doğrudan deyirsən?"* (İlahi, biz onda necə də xoşbəxt idik!) Sənin mənimçün nə qədər dəyərli olduğunu bildirməyimi, hiss etdirməyimi həmişə lazım bilmişəm. Özün haqda tərifləri tez-tez eşitməli idin məndən...

Bu gün Raxmaninova, Şopenə, ya da caz musiqisinə qulaq asanda xəyalımda royal arxasında ancaq Səni görürəm...

*Ağ qapıya kölgə düşüb –*
*insan kölgəsi.*
*Royal səsi gəlir*
*ağ qapının dalından.*
*Kimsə həzin-həzin*
*Şopenin valsını çalır*
*ağ qapıya düşmüş insan kölgəsinə...*
*Yağış kölgəsi çiləyir*
*payız kölgəsində duran*
*başıaçıq musiqiçinin üstünə...*
*Çiyni titrəyir*
*ağ qapıya düşmüş insan kölgəsinin.*
*Ağlayır insan kölgəsi.*
*Bir polyak oğlunun,*
*dirilmək istəyən bir insanın*
*səsinə ağlayır insan kölgəsi.*
*Damır, damır*
*valsın açıq yaxasına*
*damla-damla*
*göz yaşının kölgəsi...*

Bir gün qapı qonşumuz Əşrəf kişinin qızı mənə dedi ki, işdə hamıya demişəm ki, Vaqif Səmədoğlu gecələr pianoda mənə layla çalır. “Olmaya, yatmağa mane olur çalmağı?” “Yox, əksinə, musiqi altında yaxşı yatıram”. Xoş olsun deyə evə gələn kimi qonşunun sözlərini Sənə çatdırdım. Ancaq Sənin belə narahat olacağını gözləmirdim. *“Pedalla çalıram, yenə səs gedir. Daha gecələr çalmaram”.* “Vaqif, o şikayət etmirdi, çalmağını tərifləyirdi...”

Sonradan qulaqlıq aldın. Gecələr televizora baxanda, pianoda çalanda səs gəlməsin, narahatlıq olmasın deyə ondan istifadə edirdin.

Bir gün Sən evdən çıxanda mərc gəldim ki, qayıdana kimi Sənin bir şeirinə musiqi yazacam. Mərci uddum. Sən gələn kimi çalıb-oxudum “Laylay, sevgilim, laylay” şeirinə yazdığım nəğməni. Xoşun gəldi melodiyadan. Məni qaldırıb özün oturdun piano arxasına. Sənin aranjimanında lap yaxşı səsləndi. İfa üçün kiməsə verməyi təklif etdim. Bu fikrimi dəstəkləmədin. Ertəsi gün evə əlində sintezator gəldin. *“Səninçün aldım, indi nə qədər istəyirsən yaz, çal, oxu...”*

Anamın xatirəsinə bir melodiya yazmışdım. Dedin ki, ona mütləq söz yazacam. Melodiya sözsüz qaldı...

Biz öz həyatımızı yaşayırdıq. Ancaq bundan qıcıqlananlar az deyildi. Sən bir gün evə gələndə dedin: *“Nuşa, başa düşə bilmirəm, niyə mənim evə tələsməyim, içki məclislərinə getməməyim, sənə şeir yazmağım, ailəmi sevməyim adamları təəccübləndirir, əsəbiləşdirir? Bizim axı heç kimlə işimiz yox-*

*dur..."* Hətta Yazıçılar İttifaqında bir neçə şair, yazıçı Sənə demişdi ki, Vaqif, bizi yaman işə salmısan, evə gedə bilmirik, arvadlar Səni misal gətirib, bizim də onlara şeir yazmağımızı istəyirlər... Sənin qədər daxilən azad, cəsarətli, öz məhəbbətini milyonların qarşısında bəyan etməkdən çəkinməyən, öz qadınına yazdığı şeirləriylə qürur duyan ikinci bir adam tanımıram mən Azərbaycanda. Sevgində də fərqlənirdin. Gənc jurnalist qızın "*"Qoy tarixdə adım qalsın Nüşabənin qulu kimi"* misrası nəyə işarədi?" sualına cavabın konkret oldu: *"Bu, etirafdı".*

Nərgiz Cəlilovanın verilişində "Sizinçün həyatda azadlıq nədir?" sualına özünəməxsus tərzdə cavab verdin: *"Həyatda azadlıq, təəssüf ki, mən bunu çox gec anladım – 50 yaşından sonra, intizamda, ailədə, ailə mehribançılığında, ev-eşikdədir. Bundan böyük azadlıq yox imiş insan üçün, əsl İstiqlaliyyət bu imiş Yer üzündə. Bununçün Nazim Hikmətin o şeirini mən həmişə sevirdim, amma 50 yaşından sonra tamamilə dərk elədim ki, səadət nədir. "Səhər sevinərək evdən işə getmək, axşam sevinərək işdən evə gəlmək". Bu azadlığı dərk etdim. Bax bu azadlığı indi mən yaşayıram ailəmlə, quşlarımla. Mehribançılıq azadlıqdır. Etibar azadlıqdır..."*

Ailədə əsas meyar qadınla kişinin bir-birinə olan qarşılıqlı münasibətidir. Uşağın doğulması, ana, ata olmaq sevincini yaşamaq ali hissdir. Mən həmişə düşünmüşəm ki, uşaq kimisə özünə bağlamaq üçün doğulmamalıdır. Uşaq ailənin girovuna çevrilməməlidir. Həyat göstərir ki, dağılmaqda olan münasibət-

ləri heç bir uşaqla saxlamaq mümkün deyil.

Biz Səninlə uşaq dünyaya gətirə bilərdik. Ancaq etmədik... İlk vaxtlar mövcud şərait, mənə elə gəldi, buna imkan vermədi. Qorxdum... Yeni doğulan körpəyə xüsusi diqqət, qayğı lazım olacaqdı gecə- ligündüzlü. Sənə az qalacaqdı istilik, nəvaziş. İki hissəyə bölməli olacaqdıq hisslərimizi. Bunu etmək isə çətin olur çox vaxt. Mən düşünürdüm həyatımızda illərlə yaranmış boşluqları bir-birimizə olan məhəbbətlə, qayğıyla doldurmalıyıq, bir-birimiz üçün yaşamalıyıq...

Biz kimisə bu dünyaya gəlmək haqqından məhrum etdik, günaha batdıq. Peşmanlıq hissi də oldu sonralar. Doğulmayan körpəyə şeir yazmaq istədin. Dedin: *"Deyəsən, ən qəmli şeirimi yazacağam".* Kədəri Səndən uzaqlaşdırmaq üçün: "Vaqif, niyə təəssüflənirsən, əvəzində Səni doğmuşam. Sən milyon uşağa dəyərsən..." – dedim. İlahi, bu sözüm necə də yerinə düşdü. Təbəssümündən üzün işıqlandı. Məni qucaqladın: *"Nuşa, nə gözəl dedin..."*

İllər sonra dəftərində bu şeiri oxuyanda nədənsə təsirləndim:

*O gün dəniz vardı,*
*sahil varıydı.*
*Bir gün bir yay ayı,*
*bir iz varıydı.*
*Nəm sahil qumunda*
*uşaq izləri,*
*hansısa körpənin*
*yalın izləri...*

*İlk dəfə eşitdim*
*mən iz səsini,*
*üzümə toxunan*
*iz nəfəsini.*
*O gün azadlığa*
*açıb buraxdım*
*qəfəsdə saxlanan*
*dəniz səsini...*

Sənin necə narahat və mehriban baba olduğunu Mirvarinin qızı dünyaya gələndə gördüm. Doğum evindən zəng edib, qızın doğulduğu xəbərini Sənə verəndə səsindəki həyəcan məni də kövrəltdi. Adını Ayla qoydun. Doğum evindən onlar birbaş bizə gəldilər. Həmin gecə Sən canlı efirdə Nərgiz Cəlilovanın verilişində idin. Onun "Sizinçün həqiqət nədir?" sualına son günlər keçirdiyin duyğuların təsiri altda cavab verdin: *"Bu gün mənimçün əsl həqiqət odur ki, nəvəm dünyaya gəlib və bu gün o mənim evimdədir..."*

Aylanın qırx günündə dedin: "*Gecələr bələmək qurtardı. Qoy azad böyüsün".* Ayla azad ruhlu böyüdü. Tez dil açdı. Onun ilk sözü "baba" oldu. Sonradan mənim kimi "Qaquş" dedi, mənə də "Nuşa". Çəkdiyi uşaq rəsmlərinin qəhrəmanı Sən oldun. Eynəkli və bığlı adam. Aylanın hər yeni sözü, fikri, cümləsi Səni sevindirir, heyrətləndirirdi. Bir gün Sən üzünü qırxıb, odekolonlanıb, saçını darayıb hamamdan çıxanda qızcığaz üstünə yüyürüb səni qucaqlayaraq: "Qaqu, bax oldun Səməd Vurğun", – dedi. Ayla onda iki yaş yarımında olardı. O Sənin fotomodelin oldu.

Qürur duyurdu Səninlə. Şeir də həsr etmişdi Sənə 5 yaşında. Deyirdin postmodernist şeir yazıb nəvəm.

*Qaquş, mən Səni sevirəm, çox-çox-çox...*
*Qaquş, Sənə baxanda mən,*
*Sən yatanda görürəm Səni...*
*Qaquş, telefonu Sənə verəndə*
*Səni çox-çox sevirəm...*
*Qaquş, mən saata baxıram, vaxtı bilirəm,*
*Səni çox-çox sevirəm,*
*Ulduzlara kimi sevirəm...*

Aylanın həyatında ən vacib insan oldun Sən. Onun sözlərindən şeir yazmaq istəyirdin. Mən isə "Aylanın sözləri" adında balaca bir kitab hazırlamaq arzusundaydım. Bu fikrim xoşuna gəldi. Təəssüf, istəklərimiz elə istək kimi də qaldı. Ancaq, nə yaxşı ki, Aylanın dil açandan altı yaşına kimi hər gün dediklərini yazıb saxlamışam. Bəlkə, nə vaxtsa...

Deyirdin, *Nuşa, çox yaşamaq istəyirəm, istəyirəm ki, Aylanın yadında qalım.* Sənin kimi babanı unutmaq mümkündürmü? Özün də çox gözəl bilirsən ki, uşaq hafizəsi güclü olur. 11 il... gözünü açandan Sənin məhəbbətin, nəvazişin içində, qolların üstə böyüdü Ayla. Sən doğmadan da doğma oldun ona. Doğmalıq sevgiylə, ruh yaxınlığıyla gəlir... təkcə qanla yox.

Bu şeirini Ayla tez-tez oxuyur...

*Heç olmasa hər yüz gündən bir,*
*bir gündə bircə saat*
*yadınıza salın on bir yaşınızı,*

*yadınıza salın o günləri,*
*görün o günlərdə nə qədər yaxın, əziz,*
*doğma adamlarınız var idi...*

İndi Ayla tələbədir. Azərbaycan Dillər Universitetində alman dilini öyrənir...

Gündəliyində bu yazı diqqətimi çəkir: *"Vurğunun oğlu olmasaydım, mütləq sirk məktəbinə gedib kloun olardım. Usta sənətkar çıxardı məndən".*

Kabinetini səfərlərdən gətirdiyin klounlar bəzəyirdi. Rəngarəng geyimli klounlar. *"Köhnə yəhudi mahnısı"* kinopovestindəki kloun Əsədə vurulmamaq mümkün deyil. Çox təəssüf ki, 1971-ci ildə yazdığın bu bənzərsiz kinopovest Moskvada məzmunsuz Dövlət Kinematoqrafiya Komitəsinin yaramaz məmurunun yeşiyində ilişib qaldı.

*Ala-bəzək, qurama,*
*zınqırovlu papağı başında*
*dar ağacından asılmış təlxək kimi*
*görünür mənə*
*bu günlərin hər gülüşü, hər sevinci...*

Uşaqlıqda kim əlvan geyimli klounları sevməyib ki. Mən də uşaqlıqda sirkə getməyi çox xoşlayırdım. Bakıya qastrola gələn bütün sirk tamaşalarına mütləq getməliydim. Atam sirkə bilet alan gün mənim üçün bayrama çevrilirdi. Yenidən sirkə məxsus o spesifik qoxunu duymaq, dövrün məşhur illüzionisti – Kionu, jonqlyor Xosrov Abdullayevi, məşhur kloun-

lar "Karandaş"ı, Oleq Popovu, Nikulini sirk arenasında görmək... Güldürən və düşündürən klounların çıxışı həmişə səbirsizliklə gözlənilib. Kloun sənəti ən demokratik, eyni zamanda mürəkkəb sənətlərdən biridir. Onların ifasında improvizə çox güclüdür. Güldürən insanın çox vaxt gülüşünün arxasında yalqız insan, onun qəmli gözləri gizlənir. Sənin də daxilində o tənha insan oturur...

*İyirmi üçüncü il olaydı.*
*Olaydım Çikaqoda.*
*Bir kafedə*
*qəlyan çəkə-çəkə oturaydım.*
*Və mütləq*
*bir svinq çalınaydı orda.*
*Çalınaydı*
*kökdən düşmüş qəhvəyi royalda.*
*Çalanı özüm,*
*həm də zənci olaydım mütləq...*

Afrika ritmlərinin, Avropa musiqisinin əsasında, afroamerika folklor elementlərinin təsiri altında yaranan cazı *"dünyanın xalq musiqisi"* adlandırmısan. Cazda azadlıq, sərbəstlik var. Caz improvizədir. Həm də özünüifadədir. Buna görə də totalitar rejimlər həmişə cazdan qorxub. Ona yad münasibət həmişə hiss olunub...

– *Caz mənimçün nədir? 40-50-60-cı illərin özünəməxsus, təkrarsız mədəni həyatı. Xüsusi musiqi davranışı olan Bakı. Və nəhayət, Azadlıq həsrəti. Gizli, özümün də, əlbəttə ki, o vaxt dərk etmədiyim*

*bir həyat tərzi. Bakının diktaturaya qarşı yönəlmiş musiqi etirazı.*

Babək Qurbanov Sənin gənclik çağlarında caza olan marağın haqda danışırdı ki, Vaqifin caz sənətinin ölkəmizdə düşkün sənət nümunəsi kimi qəbul edildiyi, yasaqlandığı bir zamanda bu sənətə olan marağı və onun bir çox örnəklərini məharətlə ifa edə bilməsi bu baxımdan olduqca səciyyəvi görünməkdədir. Onun bu sahədə bir çoxlarına olan təsirindən, o cümlədən tanınmış caz ustası və bəstəkar Vaqif Mustafazadəyə olan təsirindən danışmaq mümkündür. Belə ki, mən Vaqifin Mustafazadə Vaqiflə (o zamanlar o, musiqi texnikumunda məşhur pedaqoq Şaroyevin tələbəsi idi) olan yaradıcılıq söhbətlərinin şahidi olmuşam. Onun göstərişlərinin və məsləhətlərinin (müxtəlif müasir caz akkordları, ifa üsulları, forma xüsusiyyətləri və s.) Vaqif Mustafazadə tərəfindən məmnuniyyətlə qarşılandığını görmüşəm. O dönəmdə Vaqif Səmədoğlu caz ustalarına və onların əsərlərinə yaxşı bələd idi.

Gündəliyində oxuyuram: *"İndi Amerika radiosundan Uillis Konoverin apardığı "Caz vaxtı" verilişinə qulaq asıram. Rəhmətlik Vaqif Mustafazadə düşdü yadıma. Fağırın qulağı onun-bunun maqnitofonunda qalmışdı. Gözünə öz evində içindən caz çıxara biləcək bir şey dəymirdi. Əlbəttə ki, öz barmaqlarından, öz royalından savayı... Sten Hats indi elə bil saksofonda caz yox, mərsiyə çalır yazıq Vaqifə..."*

*– 50-ci ilin ortalarında Bakının klublarında, mə-*

*dəniyyət saraylarında caz musiqisi sel kimi axmağa başlamışdı. Dəmiryolçular klubunda ən yaxşı caz orkestrimiz özünə yuva qurdu. Mən özüm də yığma musiqiçilər dəstəsiylə belə rəqs axşamlarında caz çalmışam. Pianoçu kimi.*

– Evdə bilirdilər?

– *Məktəbin son sinfində oxuyarkən Rauf Hacıyevin rəhbərlik etdiyi "Vətən" kinoteatrının caz orkestrində işləyəcəkdim. Bir yandan atam, o biri yandan musiqi müəllimim qoymadılar.*

– Axı o zaman cazın nə maqnitofon yazısı, nə də not yazısı var idi.

– *Caz üstündən qadağan götürüləndən sonra Bakıya qastrola caz kollektivləri də gəlməyə başladı. On konsert verirdilərsə, hamısına gedərdik. Bundan əlavə, müharibədən sonra "trofeyni" adlanan xeyli amerikan filmləri göstərilirdi. Hansında ki caz musiqisi oldu, o musiqini ertəsi gün musiqi məktəbində hər kəs öz bacarığına görə qulağında qaldığı kimi çalmağa çalışırdı. Hər təzə eşitdiyimiz musiqini bir-birimizi əvəz eləyə-eləyə pianoda çalardıq. Məşq etmədən, bəzən heç bir-biriləri ilə tanış olmayan musiqiçilər... Poeziyada da improvizə prinsipindən qorxmaq lazım deyil. Musiqidəki kimi.*

İstedadlı aktyor, teatr rejissoru Cahangir Zeynalov danışırdı ki, biz Vaqiflə görüşəndə onun söylədiyi şeirlərin heç birini şeir kitablarında görmədim. O şeirləri Vaqif ekspromt, bədahətən söyləyirdi.

– Yeniyetmə vaxtı Sən yaxşı meyxana deyirmişsən. Özün də meyxana yazmısan. Meyxana da im-

provizədir. Sovetlər dönəmində siyasi mövzulu, duzlu-məzəli, xalqın ovqatını əks etdirən meyxanalar çox populyar idi. Onunçün də o zaman bu janr arzuolunmaz sayılırdı.

*– Sabir bağında İçərişəhərin ceyilləri yığışıb, mənə, Vaqif Mustafazadəyə, Rəfiq Zəkaya pul verib, meyxana dedizdirirdilər. Hamımızdan yaxşı Vaqif Mustafazadə deyərdi.*

Bu üç sənəti: cazı, meyxananı və kloun sənətini daxili azadlıq və improvizə, spontanlıq birləşdirir. (Sənin bu üç sənətə marağın çox təbiidir). Və bu üç sənəti Sən özündə birləşdirirsən.

Sənə improvizədə yaşayan insan da demək olar – improvizə insan.

Gündəliklərini oxuyuram. 80-ci illərin yazıları. Səliqəylə günbəgün, aybaay, ilbəil yazdığın yazıları. Ömrünün səhifələridir. Yaşadığın real həyat. Gündəliklərini çap etmək qismət olsa, adı belə olacaq, yəqin: *"Kağız üzərində yaşanılan ömür".* Əslində, Sən bütün ömrünü kağız üzərində yaşamısan. Şeirlərində, pyeslərində. Sənin yanında həmişə bloknot və karandaş olub. Yanında da pozan. Pozanı vaxtaşırı təmizləyərdin.

Gündəlikdən: *"Pozanı spirt yaxşı təmizləyir. Amma qorxuram öz əlimlə öz pozanımı alkoqolik eləyim".*

Sənin monoloqundur gündəliklər. Özünlə söhbətin, dərdləşməyindir. Gün ərzində etdiklərin, gördük-

lərin, düşündüklərin haqdadır. Həyat tərzin haqdadır. Əslində, bizim ömrümüz elə içimizlə söhbətdə, dərdləşməkdə keçir. Yəni ömrümüz monoloqlardan ibarətdir. Bir dəfə Səndən soruşdum: "Öz içiylə söhbət edən adama boşboğaz demək olarmı?" Gülümsündün...

Gündəlikdə yazmaq istədiyin şeirlərin misralarını, pyeslərdən dialoqları, pritçalardan hissələri oxuyuram. Burada xatirələrə dalırsan, arzularını dilə gətirirsən. Bəzən dostların biganəliyindən sarsıldığını da yazırsan...

*Yenə həyata qaytarmaq istəyirəm*
*köhnə dostları.*
*Xatirəmdə külə dönmüş ötən günləri*
*dirildib,*
*keçirtmək istəyirəm yenə*
*"Metropol" restoranının qapısından...*
*Aman Allah,*
*necə tanışdır mənə*
*bu sözləri yazan əl...*
*Bir-iki həftə yaşayıb o günlərdə,*
*yenə bu evə qayıtmaq istəyirəm.*
*Kömək umuram oköməksiz zamandan...*
*Ancaq bir-bir getdi o dostlar...*
*Kimi qapıdan, kimi özündən,*
*kimi yadımdan çıxıb...*

Deyirdin: *"Vaxt baxımından seytnotdayam... Vaxt, Zaman çatışmazlığı".* Əslində, insan daim seytnot vəziyyətindədir. Bir də görürsən həyat əldən gedir,

etmək istədiklərin isə qalır, nə çata bilirsən, nə də ayaqlaşa bilirsən Vaxtla, Zamanla...

Bəlkə, biz Vaxt, Zaman xaricində yaşayırıq?

Gündəlikdən: *"Nə qədər yazırsan yaz, nə qədər yaşayırsan yaşa, ömrün də, yaradıcılığın da yarımçıq qalacaq..."*

Neçə-neçə yazılmamış romanların, povestlərin, pyeslərin qaldı. Onların siyahısını gündəliyində oxuyuram...

Gündəlikdən: *"Bədii əsər də mənim üçün canlı məfhumdur. Onlar da bəzən körpə çağında, südəmər vaxtında ölürlər. Doğulmamış ölən yazılar da var bu dünyada..."*

Sənin beynin ideyalar xəzinəsi idi. Düşündüklərini yazsaydın...

*"Beynimdəki fikirləri kaş bir kəs tapılıb, yaxşı qiymətə özəlləşdirəydi. İşlədib mənə də pul-para verəydi..."*

*"Mənim işim yazmaqdır",* – deyirdin. Bəs sonra? Yox, sonrasını fikirləşmirdin.

1999-cu ildə mən *"Uzaq yaşıl ada"* kitabını nəşrə hazırlayanda evə əlində qovluq gəldin. İçində saralmış vərəqlərdə yazı makinasında çap edilmiş şeirlərin. Dedin: *"Nuşa, mən bu şeirlərimi ölmüş hesab edirdim. Elə bilirdim ki, onlar da 70-ci illər yaradıcılığımın aqibətinə uğrayıb. Anar öz arxivində saxlayırmış, mənə qaytardı..."*

Gənclik illərində Anar Sənin bəzi şeirlərini, poemalarını makinada çap edib, özündə saxlamasaydı, onlar da itib-batacaqdı...

Kitaba girişdə yazdın: *"...Xoşbəxtlikdən, Yer üzündə Dostluq, Qayğıkeşlik, Məhəbbət və Etibar varmış. Anar varmış Yer üzündə. Dost şeirlərini öz arxivində saxlayan, özünün yaradıcılıq, ictimai fəaliyyət, ailə qayğıları vaxtından kəsib, bu yazıları makinada köçürən, sahmana salan Anarım varmış...*

*Kitabın tərtibatçısı və redaktoru ömür-gün yoldaşım Nüşabə xanımdır. Bu işi gördüyü üçün, əziz oxucum, sənin gözlərinin qabağında diz çöküb, sevgilimin əllərini öpürəm..."*

Yaxşı ki, yazdıqlarını bir yerə yığıb çap edə bildim. Axı mən gəlməyə də bilərdim Sənin həyatına. (İndi bunu təsəvvür etmək belə mümkün deyil). Axı bu nə biganəlikdir yazdıqlarına? Ağayana arxayınçılıqdırmı bu?

Bununla bağlı yadıma 1994-cü ildə alman dilinə tərcümə edilmiş şeirlərini Berlində Ədəbiyyat Evində qoymağın, onların aqibətiylə maraqlanmamağın düşdü: *"Mənim 43 şeirimi alman dilinə tərcümə etdilər. Dinləyiciləri, əsasən, ortayaşlı almanlardan ibarət 150-200 adamlıq bir zalda keçirilən gecədə auditoriyanı şeirin orijinalda səslənməsiylə tanış etmək üçün Azərbaycan dilində bir şeirimi oxudum və düşündüm ki, bu kifayət edər. Tərcüməçiyə də dedim ki, şeirlərimi almanca oxumağa davam etsin. Gecənin aparıcısı Tomas təəccüblə mənə baxaraq: "Nayn, nayn", – dedi. Yəni bütün şeirləri orijinalda oxumaq lazımdır. Mən elə də etdim. Məni heyrətləndirən auditoriya oldu. Almanların mədəniyyəti, səbri... Onlar nəinki mənə diqqətlə qulaq asırdılar, hətta ayrıca sözləri başa düşürlərmiş kimi*

*qarşılayır, dəfələrlə əl çalırdılar. Sonra isə şeirlərin almanca tərcüməsi səsləndi. Mən başa düşdüm ki, Almaniya dünyada yeganə ölkədir ki, burada dünyanın başqa ölkələrindən fərqli olaraq, Rixard Vaqnerin operaları ixtisarsız, bütöv şəkildə qoyula bilər. Gecədən sonra mənə orta yaşlarda bir alman yaxınlaşdı. Velvet gödəkçədə, sürtülmüş cins şalvarda. O, şeirlərə görə öz minnətdarlığını bildirdi və almanca kitabımın olub-olmadığını soruşdu. Mən deyəndə ki yoxdur, öz vizit kartını verdi və xahiş etdi ki, kitabım çıxanda öz imzamla ona göndərim, o da dərhal onun dəyərini mənə ödəyəcək. Sonradan məlum oldu ki, bu adam Almaniyanın varlı, nüfuzlu iş adamlarından biridir".*

Gündəliyində oxudum ki, oradakı cənubi azərbaycanlılardan kimsə Sənin almanca kitabını çıxarmağa boyun olub. Lakin nəinki alman dilində kitabın çıxdı, üstəlik tərcümələrin də orada qaldı. Təəccüblənmərəm, nə vaxtsa o şeirlər alman şairi, səyyahı Bodenştedt kimisinin imzasıyla çıxsa, Mirzə Şəfi Vazehin başına gələn Sənin də başına gəlsə...

*"Bu dünyanın nəyi var, nəyi yox? Bir yatmağı var, yatıb yuxu görməyi, yuxu qara gələrsə, diksinib oyanmağı, oyanıb dünyanı görməyi var, yəni özü ilə üz-üzə durmağı var. İnsan da eləcə. Mənimki də belə gəldi, beləcə gətirdi. Nə az, nə çox, gəlib durdum öz qabağımda, dirəndim taleyimə..."*

Bəlkə, belə başlayacaqdı yazmaq istədiyin xatirələr? Təəssüf ki, bunu heç vaxt bilməyəcəm. Ancaq onu dəqiq bilirəm ki, Sən xatirələrini bir neçə

variantda yazmışdın beyninə. Saf-çürük də etmişdin onları. Qalmışdı onları vərəqə köçürmək. Nə özün etdin, nə məni qoydun, nə də kiminsə bu işdə Sənə yardımçı olmasına razılıq verdin. Dedin: *"Nuşa, bunu ancaq özüm yazmalıyam. Diktə edib yazdırmaq mənlik deyil".*

Ad da fikirləşmişdin xatirələrinə – *"Sınıq güzgünün qırıntıları"...*

2011-ci ildə Bakıda Səni müayinə edən alman həkiminə verdiyin *"Beş il yaşayacağam?"* sualını o, cavabsız qoydu və sualına sualla cavab verdi: "Beş il Sizə nə üçün lazımdır?" *"Xatirələrimi yazmaqçün..."*

Xatirələr yazılmadı. İki ay sonra ürəyindən əməliyyat keçirdin, iki il sonra xərçəng və ...

Düşüncələrin çoxdan qaysaq bağlamış bəzi xatirələrini dirildib, onun ağrısını yaşadırdı Sənə bəzən. *"Yaman pis yerdə yaxalayır adamı ömrün pis xatirələri. Yaddaş adamı oturduğu yerdə diksindirir. Ağır-ağır gəlib-gedir".*

Yaddaşında eşələnirdin həddən ziyadə. Bəlkə də, elə bu qoymadı Səni xatirələrini yazmağa. Yazsan, düzünü düz, əyrini əyri yazacaqdın, ya hər şey olduğu kimi yazılmalıdır, ya da heç nə yazılmamalıdır. Ancaq hər şeyi anlaya-anlaya yenə deyirəm ki, min heyif, milyon heyif ki, bu xatirələr yazılmadı. Axı bu xatirələr həm də Sənin ailən, uşaqlığın, gəncliyin, yaşadığın şəhər, məhəllə, gəzdiyin küçələr, dost-tanışlar, sevib-sevmədiklərin, görüb-eşitdiklərin, başına gələnlər haqda böyuk, tarixi bir kitab olacaqdı. Sən heyifsilənirdin: *"Bizim ədəbiyyatda Bakının*

*öz romanı yoxdu. Şəhərin tarixi ilə bağlı yazı demirəm. Balzakın Parisi, Dikkensin Londonu kimi. Görünür, belə kitab bizdən sonra gələn nəsillərin qələmindən çıxacaq".*

Belə bir kitabı Sən yaza bilərdin. Bir dəfə Səndən soruşdum:

– Bilirəm, Bakını çox sevirsən. Yenə də Avropa ölkələrindən hansında yaşaya bilərdin?

*– Heç birində. Amerikada yurd salmaq olardı, Bakı orada tikilmiş olsaydı. Dilləri də bizim dil olsaydı. İngilis dili yox.*

Mən haqlıyam. *"Vaqif Səmədoğlunun Bakısı"* adlı kitab Sənin öz qələmindən çıxa bilərdi. Sənin gözlərinlə baxacaqdıq Bakıya, Bakı həyatına. Birgə gəzəcəkdik Bakı küçələrini. Birgə heyifsilənəcəkdik ağacların qırılmasına, şəhərdə yaşıllığın azalmasına, şəhərin ruhu, siması olan qədim tarixi binaların sökülməsinə, əvəzində hündür, yöndəmsiz binaların tikilməsinə, birgə sevinəcəkdik şəhərə yaraşıq verən yeni tikililərə, yollara. Sənin kitabın bir abidə olacaqdı o illərin, bu illərin Bakısına, o dövrün, bu dövrün insanlarına. Mütləq o kitabda Sənin uşaqlıq xatirələrinə xüsusi yer veriləcəkdi.

Gündəlikdən: *"Uşaqlıq hafizəsi nə qədər güclüdürsə, yazıçı da o qədər güclüdür".*

Sənin qədər uşaqlığına ciddi yanaşan insan az tapılar. Uşaqlıqda yaşanılan hisslər öz dərinliyinə görə heç də böyüklərinkilərdən seçilmir, bəlkə də, daha təsirli, daha kəskindir. O illərin də öz dramı, bəzən faciəsi olur. O dövrdə qoyulan möhür yaddaşımıza kök

salır, keçilən ömür yollarında onun izləri görünür.

Gündəlikdən: *"İnsan ayrılıq haqda ancaq cismən nədənsə, kimdənsə uzaq düşəndə başlayır fikirləşməyə. Ancaq insan daima ayrılıq içindədir. Saniyə-saniyə, anbaan keçmişdən ayrılır, uzaq düşür. Qürbətdən vətənə qayıtmaq olar, illərlə üzünə həsrət qaldığın övladlarınla görüşə bilərsən. Ancaq uşaqlığa insan ömründən nə yol var, nə körpü. Əsl ayrılıq da budur. Övlad, vətən həsrəti yox..."*

Yadıma böyük yapon rejissoru Akira Kurasavanın 77 yaşında olarkən Sənin sevimli İsveç rejissorun 70 yaşlı İnqmar Berqmana yazdığı məktub düşdü. Kurasavanın yazdıqlarıyla Sənin fikirlərin üst-üstə düşür: "İnsan uşaq doğulur, oğlan olur, gənclik dövrünü yaşayır, ömrünün çiçəklənmə dövrünə çatır və nəhayət, yenidən uşaq olur. Məncə, bu ən ideal həyat yoludur. Düşünürəm siz də mənimlə razılaşarsınız ki, insan ikinci dəfə uşaq olanda əsl şedevr yarada bilər". Mən də əminəm, əgər başının üstünü dalbadal xəstəliklər almasaydı, mütləq Sən o şedevr əsəri yaradacaqdın. Memuarmı, pyesmi, romanmı, poemamı olacaqdı o əsər, bilmirəm, ancaq bilirəm ki, Sən o əsəri yazacaqdın.

Sənin uşaqlığın Bakının Fioletov küçəsindəki (indiki Əlizadə küçəsi) evdə keçib. Bir dəfə şair Səlim Babullaoğlu bu evi görəndə dedi: "Belə evlərdə (o, indiki Səməd Vurğun Muzeyini də nəzərdə tuturdu) doğulub yaşayan Vaqif Səmədoğlu başqa cür də şeir yaza bilməzdi..."

Bizim uşaqlığımız nağıldan başlayır. Bu evdə Sən

Abdulla Şaiqin məşhur "Tıq-tıq xanım", "Tülkü həccə gedir" və sairə nağıllarını çənəni dizinin üstünə dayayıb, onun öz ağzından eşitmisən...

*"Abdulla Şaiq əsl ziyalı idi. Özü də çox qəribə, alicənab, mehriban xasiyyəti vardı. Milçəyi əli ilə tutardı, öldürməzdi, nəfəsliyi açıb, oradan bayıra buraxardı..."*

Sənin də uşaqlığının öz ətri olub – ananın, atanın, nənən Bikə xanımın ətri. Sən bu evdə 15 yaşınadək yaşamısan. Evin içində velosiped sürmüsən. Bu evdə Xavər xanım xoşbəxt olub. Ev köhnə univermağın üstündə, dördüncü mərtəbədə idi. Mənə evi, pəncərənizi göstərərdin.

*– Nuşa, gedək ora?*

– Gedək.

Bir qədər tərəddüd etdin.

*– Sonra gedərik.*

Sonra olmadı...

*Çiynim yenə də söykənir*
*Evimizin divarına,*
*Bu günüm göz yaşı tökür*
*Uşaqlığımın məzarına...*

*– Papa hər dəfə Moskvadan bizə: Yusifə, Aybənizə, mənə bloknotlar, dəftərlər gətirərdi. Ozamankı kağızlardan nə gözəl iy gəlirdi, aman İlahi. Necə qəşəng cib dəftərləri satılırdı köhnə univermağın birinci mərtəbəsində. Hər gün gedib, yekə başımı əyə-əyə onlara baxırdım. Hətta bir kərə satıcıların belə söhbəti oldu. Heç yadımdan çıxmır...*

*– Etot malçik kajdıy den prixodit, smotrit i smotrit, niçeqo ne beret. (Bu oğlan hər gün gəlir, baxır, baxır, heç nə almır).*

*– A mojet on qluxonemoy? (Bəlkə, o, lal-kardır?)*

*Piştaxtadan aralanıb getməyə başladım ya- vaş-yavaş. Arxadan söhbət eləyən satıcı qadınlardan biri dalımca bir-iki dəfə qışqırdı:*

*– Malçik, malçik, podoydi syuda, malçik. Malçik ne boysya, çto tebe nujno? (Oğlan, ay oğlan, bura gəl. Qorxma, oğlan, sənə nə lazımdır?)*

*– Ya je qovorila, on ne slışit. (Mən dedim də, o eşitmir).*

*Dayanmayıb getdim. Bir ay univermağa ayaq basmadım. Sonra gedib gördüm ki, orada daha həmin qadınlar yox, bir kişi işləyir. Dayanıb yekə başımı əydim. Dəftərlərə, bloknotlara baxmağa başladım. Elə gözəl iy gəlirdi ki. Kaş indi biləydim məni lal-kar sayan qadınlar haradadır. Vallah, gedib deyərdim: "Zdravstvuyte, ya ne qluxonemoy..." (Salam, mən lal-kar deyiləm...)*

Danışdığın hazır hekayədir.

*– Mənim kağız iyindən, karandaşla yazma və pozanla pozma prosesindən xoşum gəlir. Şagird kimi. Karandaşı cib bıçağı ilə yonuram. Bıçaqları da özüm itiləyirəm. Nuşa, evimizdə heç vaxt küt bıçaq olmayacaq.*

– Hərbi planşetinə qoyurdun bütün bunları səliqəylə...

*– Nuşa, axı mən uşaqlıqda hərbçi olmaq istəmişəm. Küçədə hərbi geyimli adam görəndə ayaq*

*saxlayıb, həsrətlə ona baxmışam. Hərbçi paltarından çox xoşum gəlir.*

– Hə, 60 illiyində jurnalist Şəmistan Nəzərli Sənə hərbi geyim hədiyyə etmişdi. Sənə çox yaraşır hərbi forma. Hərdən geyinib evdə gəzirdin. Şəklini də çəkdim bu formada, yadındadır?

– *Bağda çəkmişdin...*

Hərbi planşetin indi muzeydə qorunur... Evimizdəki bıçaqlar tez-tez kütləşir...

*Ağlayıb qucağa alınmadığım*
*uşaqlığın yaraları*
*bu gün açılır bir-bir.*
*Uşaqlığımın qanı damır*
*bu günün torpağına...*
*Bu yaraları*
*heç nəylə sarımaq olmaz daha,*
*indi öz qanına bulana-bulana*
*oturasan gərək,*
*qulaq asasan*
*uzaqda ağlaya-ağlaya ölən*
*uşaqlığına...*

– Uşaqlığının ən təsirli, acı xatirələrindən biri lombard qarşısında gördüyün müdhiş mənzərə idi. Lombard köhnə univermaqla üzbəüz yerləşirdi.

– *Müharibədən sonrakı illər lombardın qabağına, demək olar ki, hər gün onlarla insan yığılırdı. Üzlərindən dərdi-sər, çarəsizlik yağan bu insanların yanından hər gün sıxıla-sıxıla keçirdim. Onlar ailələrinə bir tikə çörək aparmaq xətrinə hansısa*

*əşyalarını lombarda qoymaq üçün matəm sükutunda, səbirsizliklə onun açılmağını gözləyirdilər. Yaxınlıqda isə içi dolu ərzaq mağazası... İlk dəfə həyatın sərt həqiqəti ilə üz-üzə gəlmişdim..."*

*Allah, bu yollamı gedəcək dünya,*
*Beləmi başlanıb, bitəcək dünya?*

Sizin binada müxtəlif millətlərin nümayəndələri yaşayırdılar. Həyət uşaqları: süpürgəçi Qavatulinin oğlu Zika, Slavik Qorelko və Zaxarla dostluq etmisən. İlk uşaqlıq sevginin həm sevincini, həm də faciəsini yaşamısan bu evdə – 8 yaşlı balaca balerina Lyalyanın. Onunla xəyallara dalır, gələcək haqda istəklərinizi bölüşürdüz...

*"1948-ci ilin yayında mən valideynlərimlə Kislovodskə, o da anasıyla Aşqabada, qohumlarıgilə qonaq getdi. Böyük səbirsizliklə onunla görüşəcəyim günü gözləyirdim. Onunçün farfordan balaca balerina heykəli də almışdım. Nəhayət, Bakıya qayıtdıq. Əlimdə balaca balerina heykəli həyətə, onun yanına qaçdım. Həyətdə qoca arvadlar məni əhatəyə aldılar. "Vaqifçık, ne xodi tuda... Net bolşe Lyaleçki... Ona poqibla... V Aşxabade bılo zemletryaseniye". (Getmə ora, Vaqifçik... Lyaleçka daha yoxdur... O, Aşqabadda zəlzələdə həlak olub).*

(1948-ci il oktyabrın 5-dən 6-na keçən gecə Aşqabadda baş verən zəlzələdə yüz mindən çox adam ölmüşdü...)

*O an içimdə baş verənləri sözlə ifadə etmək, yəqin ki, mümkün deyil. Mənə elə gəldi ki, ətrafda hər*

*şey dayandı... Səslər, qoxu, hətta rənglər yox olub, şiddətlə fırlanan burulğana qoşuldu. Mən farfor balerinanı bağrıma basıb, "Lyalya yoxdur, bir də heç vaxt onu görməyəcəyəm" sözlərinin çarəsizliyini başa düşə bilmirdim... 9 yaşımda həyatıma dəhşətli "heç vaxt" sözü daxil oldu..."*

Şeirlərində balaca balerina Lyalya yadına düşəcək:

*Sənin bir ahından yüz min yeldəyirmanı fırlanır...*
*Sənin barmaqların varyete səhnəsinə*
*lüt-çılpaq çıxmış çöp kimi arıq qız uşaqlarıdır.*
*Yetişməmiş qız uşaqları...*
*Sənin ahın, barmaqların dağda təkənin ayağı altdan*
*qaçmış bir daş kimi gəlir üstümə.*
*Bilirəm, o daş gicgahıma dəyəcək əvvəl-axır.*
*Və mən öldüyüm anda alışıb,*
*iki nəhəng məşələ dönəcək təkənin buynuzları.*
*İşığa qərq olacaq dünya başdan-başa.*
*Və o işıqda görəcəksən getdiyimi.*
*Gedərkən çiynimlə şkafın üstündən*
*yerə saldığım farfor balerinanın qırıntılarını...*
*Bir ah çəkəcəksən dərindən.*
*O an fırlanmağa başlayacaq Yer üzünün yeldəyirmanları.*
*Varyete səhnəsinə çıxacaq barmaqların yenə.*
*Dirilib onlara qoşulacaq farfor balerina.*
*Oynaya-oynaya yüz min dəfə adımı pıçıldayacaq sana...*

Bir-birindən əlvan, rəngarəng, sirli, nağıllara bənzər uşaq xəyalları. Hansı arzuların çin oldu, görən? Bəlkə də, bu xəyalların əlçatmazlığındadır onların gözəlliyi. Həm də əgər həyatda hər şey biz istədiyimiz kimi alınsaydı, sonradan heyifsilənməyə səbəb tapmazdıq axı...

*Mən sağ ikən*
*yox olsa Xəzər,*
*kəsilsə qağayıların səsi,*
*silinsə qağayıların kölgəsi...*
*Mən sağ ikən*
*barmağımdan üzük kimi*
*ömrümdən Xəzər çıxsa, Xəzər itsə...*
*Neylərəm, neylərəm*
*dəniz də getsə...*

...Xəzər sahili boyu bir oğlan uşağı qaçır. Bu Sənsən. Ayaqyalın, yarıçılpaq, dərisi gündən daha da qaralmış, arıq, yekəbaş oğlan. Əlində çərpələng küləyə sarı qaçırsan. Yanınca özündən də böyük Reks adlı it, arxanca Sənə bənzər bir dəstə qarayanız, yarıçılpaq, ayaqyalın uşaq qaçır. Sizin qışqırığınız qağayıların çığırtısında itir. Sən xoşbəxtsən... Sən azadsan... Qulağında dalğalarıyla sahilə çıxmaq istəyən Xəzərin uğultusu, üzünü, saçlarını oxşayan mehli axşamlar, göz vuran səma altında xəyallara dalmağın öz ləzzəti olurdu...

Gündəlikdən: *"Kaş ki indi Reks olaydı yanımda. Bağ, 49-50-ci illərin yayı, isti. Zənbil içində quyuya sallanmış qarpız..."*

Mən o oğlanla Ləhişdəki bağımızda tanış oldum. Sənin içində yaşayan o dəcəl oğlanla. Velosiped sürəndə, çərpələng uçuranda, dənizdə, hovuzda üzəndə, masaüstü futbol, xokkey oynayan oğlanı mən lap çox istədim. Uduzanda cığallıq edən, küsərək *"Mən bir də səninlə oynamayacam"* deyən "oğlan"ı... Sənin oyuncaqlara olan həvəsin... Bu, uşaqlıqda oynaya bilmədiyin, doya bilmədiyin oyuncaqlara dönməkdir, o hissləri yenidən yaşamaqdır. Bir gün mənə dedin: *"Dəmir yolu istəyirəm quraşdırım evdə. Üstündə qatarlar getsin. Al da mənimçün".* Aldım. Bağda quraşdırdıq. Xoşuna gəlmədi. Balaca idi. Sən istədiyin böyük idi, evin yarısını tutardı. Almadıq...

Qatarla yola çıxmağı sevərdin. Qatarın yeknəsəq taqqıltısı altında pəncərədən sürətlə bir-birini əvəz edən mənzərələri seyr etmək təkrarolunmaz hisslər oyadırdı səndə. Deyirdin: *"Nuşa, qatarda səninlə uzun yola çıxmaq istəyirəm... Avropaya..."* Maraqlandım, cəlbedici olsa da, baha başa gəlirdi bu səfər...

Qatarın qoxusu, soyutma toyuq, yumurta... Bunlar da uşaqlığından qalan daddır, qoxudur...

Gündəliyindən: *"Yaponiya milli kimono stilində qadın xalatı. Köhnə "mejdunarodnıy" vaqon, vaqon-restorana calanmış. "Krasnaya Moskva" duxusunun ətri, moruq sabununun iyi, Çin termosunda çay. Stansiyalarda soyutma toyuq, budaqları ilə hörülmüş gilas, gilənar, duzlu xiyar satan rus qarıları. Vedrə qarışıq alma da götürmək olurdu.*

*Rostov oğruları. Guya eşikdən vaqon pəncərələrinə qarmaq atıb, şey-mey dartırdılar. Ancaq 40-cı*

*illərin axırlarında Rostova yaxınlaşan vaqonların pəncərələrini qatarda gedənlər kip bağlayırdılar, pərdəni də çəkirdilər. Qadınlar hay-küylə təkid eləyəndən sonra. Ancaq kişilər daxildə qadın isterikasına, yəqin ki, minnətdar olurdular o vaxt. Özləri də qorxurdular çünki... Kislovodskə gedən yolda".*

Kislovodsk özünün "Narzan" sularıyla sovet dövründə ən məşhur, ən sevilən istirahət ocaqlarından idi. Oraya ailəliklə bir neçə aylıq dincəlməyə gedirdilər. Oradan da Yessentukiyə, Pyatiqorskə. Kislovodsk Sənin uşaqlıq şəhərindir. Mənim də uşaqlıq yaddaşımda bu şəhərin öz yeri var. Sən ora getməyə çox can atırdın. Kislovodskə qatarla yox, təyyarəylə getdik. Qış vaxtı, yanvarda gəldik uşaqlığımızla görüşə. Qar yağmışdı, xəfif şaxta vardı. Sanki heç nə dəyişməmişdi burada. Parkda tək-tük adamlar gözə dəyirdi. Narzan qalereyası da öz yerində dururdu. Bağlı idi. Biz parkda, tanış küçələrdə gəzdikcə ayaqlarımızın altında qar kimi xırçıldayan donmuş uşaqlıq xatirələrimiz ləpir-ləpir əriyirdi...

*– Nuşa, danışmışdım sənə, bir dəfə Kislovodskdə az qala ölmüşdüm, 13 yaşım olardı onda.*

– Bu necə olmuşdu?

*– Futbol oynayanda yerə bərk dəydim, üst dodağım partladı. İndiyə kimi çapıq yeri durur, üstünü bığ örtüb. Yeri çirk eləməyə başladı. Çirk də beyinə yerisə, bu, ölüm deməkdir. Qızdırmam yüksək idi. Həkimlər heç nə edə bilmirdilər. Qonum-qonşu, hərə bir çarə deyirdi. Ağlaşma düşmüşdü. Yəqin, mən*

*ölürdüm. Qızdırma içində atamın anama dediyi sözləri eşitdim: "Atam, anam Allaha inanan olublar, mən də inanıram, əlimizdən tutacaq..." Mən sağ qaldım. Mehdi Hüseynin arvadı Fatma xala xilas etdi məni. Onlar da Kislovodskdə istirahət edirdilər. Xəbəri eşidən kimi özünü bizə çatdıran Fatma xala anamdan soruşdu:*

*– Uşağa sulfadin vermisiz?*

*– Yox.*

*Kimsə aptekə dərmançün qaçdı. Mən bir tabletka sulfadin içdim, səhər ayağa qalxdım. Qızdırmam düşdü, çirk çəkildi. Bəlkə də, böhranlı vaxtı keçdi. Ancaq onda atam da, anam da, mən də əmin idik ki, məni sulfadin xilas etdi...*

Bakıya Yessentukidə aldığın tünd-boz rəngli yarım metrlik, üzünü yuxarı tutub ulayan canavar heykəliylə qayıtdıq.

*– Nuşa, boz qurd türk xalqlarının müqəddəs heyvanıdır deyə aldım.*

Nə vaxtsa Səndən soruşmuşdum: "Hansı heyvana çevrilmək istərdin?"

*– Canavara...*

*Mənə şeir yazmaq öyrət,*
*öyrət, canavar izi.*
*Bilinsin ki, hardan gəlib,*
*hara gedir sözlərim.*
*Yaşamağa,*
*torpaqda sənin kimi qalmağa*
*haqqı olsun şeirlərimin,*
*olsun canavar izi...*

Ən çox sevdiyin TV verilişləri "Heyvanlar aləmində", "Ovçuluq və balıqçılıq" idi. Gecələr baş-başa qalırdın təbiətlə. Deyirdin ki, ruhum dincəlir bu verilişlərə baxanda...

Gündəlikdən: *"Yer üzündə bircə adama paxıllıq edirəm, o da fransız Jak Kusto zalımdır. Alim, səyyah, qətiyyətli və mədəni, işgüzar və dincəlməyi sevən bir insan. Necə həsəd aparmayasan ona?"*

Heyvanları çox sevirdin. Fərqi yox idi ördək, it, pişik olsun, ya canavar, ilan. Bu sevgi uşaqlıqdan gəlirdi, atandan gəlirdi. Şüvəlandakı bağınızda ev quşları, itlər, pişiklər olub. Poynter cinsindən olan Reks atanın sevimli iti idi. Olduqca ağıllı heyvandı. Onunla ova gedərdi Səməd Vurğun.

*– Bir dəfə bağda nahar zamanı papa boşqabından ən yaxşı sümüklü ət parçasını götürüb itə vermək istəyəndə Aybəniz ət parçasını ona verməsini istədi: "Onu mənə ver də". O isə: "Yox, bu, Reksin payıdır", – dedi. Aybəniz pərt halda "Sən bu iti bizdən çox istəyirsən" deyəndə papa ciddi bir görkəmlə: "Yox, hamınızı bir istəyirəm", – deyə cavab verdi. Hamımız gülüşdük.*

– Vaqif, Xavər xanım atanın Məstan pişik zarafatı haqqında danışmışdı.

*– Atam Varşavadan Vroslava, Sülh Tərəfdarları Konqresinə getmişdi. (Konqresdə Pol Robsonun çıxışının təsiri altda "Zəncinin arzuları" poemasını yazmışdı). Bakıya nə vaxt qayıdacağıyla bağlı vurduğu teleqramı nə mamanın, nə bizim, birbaş Məstan pişiyimizin adına göndərmişdi: Bakı, Fioletov*

*küçəsi, 6, Vəkilov Məstan Səmədoviçə.*

Sən də bağımızda iki it saxladın. Biri ağırtəbiətli Alabay cinsindən olan Topaş, o biri cılız, qatışıq cinsli, tülküyəbənzər Rembo. *"Qazaxdan gələndə yolüstü Ağdaş pavilyonunda çörək yeyəndə qapının ağzında balaca tüklü it gördüm. Bir lüləkabab verdim, yedi. İçəri girdi. Xidmət göstərən oğlana 10 şirvan verib, dedim bunu qutuya qoy. Yoldan bağa gətirdim. Adını Rembo qoydum".*

Topaşla tez dil tapdılar. Ayrılmaz dost oldular. Rembo çox acgöz idi. Görünür, yetimlikdə çox aclıq çəkmişdi, gözü doymurdu. Topaş sahib kimi Səni qəbul edirdi. Sənin gəlməyini qabaqcadan hiss edir, darvazanın ağzında yolunu gözləyirdi. Etibarlı Topaş Sən xəstələnəndən yarım il qabaq xəstələndi və öldü. Rembo tək qalmasın deyə ona dişi Bolonka aldın. Onların balaları oldu, ancaq Sən görmədin...

Sən torpağa, təbiətə sıx bağlısan. *"Adamın ayağı yuxudan duranda torpağa dəyməlidir... Yaşıllıq istəyir ürəyim. Ağaclarla bir yerdə nəfəs almaq istəyirəm. Yarpaq havası həsrətindədir ciyərlərim. Təbiət qoynunda, bir bağ yerində yaşamaq istəyirəm..."* – deyirdin.

*– Nuşa, dünyada ən çox sevdiyim rəngdir yaşıl... yaşıl təbiətin rəngidir.*

*Kaş bir bağım olaydı,*
*Hovuzu da dəyirmi,*
*Çox yox, ağac əkərdim,*
*5-10-15-20...*

Şükür, oldu bağımız. Xudmani. Ləhiş bağlarında. Hovuzu dördbucaq. 15-20 yox, çoxlu ağac əkdin. Meyvə ağacları, ikimizin də sevdiyi şam ağacları. Çox sevirdin o bağı. Çin olan arzunu. Böyük zəhmətin hesabına başa gəlmişdi o bağ Sənə. Bağ sahəsi veriləndə ora düzənliyin düzü idi, hər yan qumluq. Saxara səhrası kimi. Ətrafda nə ins vardı, nə cins. Sakinləri tülkü, ilan, əqrəb. Sözün əsl mənasında, ürəyini qoydun o bağa. Hər gəlişimizdə məndən "Bura nə yaxşıdır!" tərifini eşitmək istəyirdin ki, cavabında: *"Yaratdım!"* – deyəsən. Həqiqətən, Sən bu bağı yaratdın. Onunçün də Sənə əziz idi o bağ.

Hər bağ mövsümü qurtaranda ürəyim sıxılır, qəmlənirdim. Bağ da bizimçün darıxırdı. Gülüş, qışqırıq səslərini elə bil quyumuz udur, uşaq, böyük izlərini narın qum içində gizlədib itirirdi, küləklər boş qalmış yelləncəkləri qışqırdır, hovuzun suyu bizsizlik xiffətindən bulanır, itlərin ulaşması lap zilə qalxırdı. Yağan yağışlar gedən yay üçün payızın axıtdığı göz yaşlarıydı sanki. Balaca Ayla "Ağlama, dəniz, ağlama, Topaş, yayda yenə gələcəm" deyəndə inanmaq istəyirdim ki, mütləq belə də olacaq, gələn yay ailəlikcə ora qayıdacağıq...

*Gələn yayı oturub*
*Gözləyək düz doqquz ay,*
*O doğulan günəcən,*
*Əlvida, qurtaran yay...*

1995-ci ildə yazdığın şeirdəndir bu bənd. Onda nə bağımız vardı, nə Ayla, nə Topaş. Bacımgilin

Pirşağıdakı bağında on günlük istirahətdən sonra yazmışdın bu şeiri. Bacımın əri Arif Fərəczadəyə minnətdarlığını özünəməxsus tərzdə bildirdin: *"...bilməzdim susuz dünyada... bacanağın bağı varmış..."* Uzun illər AzTV-də və Lider TV-də musiqi şöbəsinin baş rejissoru olmuş nurlu, saf insan Arif Fərəczadə bu ilin may ayında 81 yaşında dünyasını dəyişdi.

O zaman Sən gedən yaya *"əlvida"* desən də, inanırdıq ki, qarşımızda neçə-neçə sabahlı, ümidli illər durur. 2014-cü il Səninlə birgə keçirdiyimiz S O Nuncu yay oldu... Sənsizləşmiş bağa gedə bilmirəm, Vaqif... Bağın hər daşı, qumu, torpağı... hər ağacı, yarpağı, gülü-çiçəyi... Sənin adınla bağlıdır...

Evlənəndən sonra bizim quşlu günlərimiz başladı. *"Aşkar gözəllik quşlarda və balıqlardadır. Açıq rəngarənglik, əlvanlıq".* Sən əvvəllər balıq saxlamısan. Bir neçə akvariumun da olub. Deyirdin onlar evdə xüsusi mikroiqlim yaradır. Ancaq *...bir qış gecəsi dondu balıqlar...* Dedin: *"Qorxuram birdən yenə də düşməz mənə balıq saxlamaq".* Ancaq tez də əlavə etdin: *"Yox, Səninlə nəsə saxlamaqdan qorxmuram..."* Ancaq taleni sınamamaqçün quş saxlamaq qərarına gəldik. Halbuki onun da düşər-düşməzliyi olur. Yəqin, mənim "quş saxlamaq sahəsində təcrübəm"i də nəzərə aldıq...

8 yaşım olanda atam mənimçün Professor ləqəbli bülbül almışdı. O, çox gözəl cəh-cəh vurduğuna görə bu ada layiq görülmüşdü. Onun zildə məharətlə ifa etdiyi zəngulələri ən zilxan xanəndə belə edə

bilməzdi. Evdə tozsoran işləyəndə, radio, televizorda musiqi səslənəndə, xüsusən də böyük bacım violada çalanda quş elə bil onlarla yarışa girir, dil boğaza qoymurdu. Quşla yarışda bacımın bəzən əsəbləri tab gətirmir, "O mənə mane olur", – deyərək çalmağı dayandırırdı. Bülbül isə səsinin bütün imkanlarından istifadə edərək bu yarışdan qalib çıxırdı. Havalar isinəndə biz onu küçə eyvanına qoyurduq. Səhərlər günəşin şüaları eyvana düşəndə bu şüaların istiliyi ilə cuşa gələn bülbül təbiətə öz minnətdarlığını gözəl oxumasıyla bildirirdi. Bu zaman onun vurduğu zəngulələr hər dəfə yeni çalar qazanırdı. Bu cəh-cəh qarşısında küçədən keçənlər də biganə qala bilmir, ayaq saxlayıb onun oxumasını dinləyirdilər. Öz oxumağından həzz alan bülbülün duruşunda bir möhtəşəmlik, həm də ona yaraşan təkəbbür vardı. Tünd-boz rəngli bülbülə atamın aldığı gümüşü qəfəs çox yaraşırdı. Quşa atam qulluq edirdi. Sonradan bu öhdəliyi mənim boynuma qoydu. Atam dəqiq adam olduğundan quşun yeməyinin eyni vaxtda verilməsini tələb edirdi. Hətta ezamiyyətdə olanda belə atam ilk növbədə quşu soruşur, yeyib-yemədiyi ilə maraqlanırdı (eyni xüsusiyyəti Səndə də gördüm). Bülbül bütöv bir quş ömrünü bizimlə yaşadı, qocaldı və öldü. Atam onu həyətimizdəki əncir ağacının dibində basdırdı.

İlk dəfə tutuquşu almağa Yusiflə getdin. O da evində Kakadu cinsindən olan tutuquşu saxlayırdı. Kitab da vermişdi tutuquşular haqda. Maarifləndirmək üçün bizi. Quşlarla evimizə yeni nəfəs gəldi. Ən

əsası, onlar Sənə sevinc gətirirdilər. Onlara qulluq etmək, nazlarını çəkmək xoşuna gəlirdi. Quş bazarına tez-tez gedirdin. *"Orada gözlərim dincəlir, ruhum təzələnir... Nuşa, adam bəzən heç ölmək istəmir",* – deyirdin. Mənə də Sənin sevincindən pay düşürdü, çünki çalışırdım ki, hər şey Sənin ürəyincə olsun...

Sənin kimi azad ruhlu bir insanın qəfəsdə quş saxlamasına təəccüblənənlər də tapılırdı. Sənin məntiqli cavabın aydınlıq gətirirdi bu suallara: *"Əgər o quşları buraxsam, heç bircə saat da yaşaya bilməzlər. Çünki onlar neçə nəsil qəfəsdə yetişmiş quşlardı. Onlar özləri özlərinə su, yem tapmaq, özlərini təhlükələrdən qorumaq instinktini artıq çoxdan unudublar. Adi sərçənin bildiyini bunlar bilmir. Sərçədən dərrakəli, ağıllı olsalar da. Sərçəyə nə var, o, azaddır, təbiətin balasıdır. Uzun illər köləlikdə, əsirlikdə yaşayan millətlərdə də bu "qəfəs" instinkti yaranır".*

Evimizdə üç qəfəs, üç müxtəlif növ tutuquşu saxladıq: rozella, korella, dalğavari. Səndən xahiş etdim ki, qəfəslərin sayı artmasın. Üç müxtəlif cinsli, müxtəlif təbiətli quş. Onların içində ən mehribanı ilk gündən ələ öyrətdiyimiz balaca, yaşıl rəngli, dalğavari cinsindən tutuquşu idi. Diribaş olduğundan Sən ona Cinbala deyirdin, mən Çika. Ona bir neçə söz və bir neçə söyüş də öyrətmişdik. Onun bu sözləri təkrarlamasının başqa ləzzəti vardı. Rozella nəinki öz rəngarəngliyi ilə fərqlənirdi, həm də çox qaraqabaq idi. Bizdə olduğu 3-4 ay ərzində nə bizə, nə də o biri quşlara alışdı. Sən onun "adamayovuşmazlığı" ilə barışa bilmədin, zoomağazaya təhvil verdin. Ancaq

arada zoomağazaya gedib, quşa baş çəkirdin. Bir neçə vaxtdan sonra rozellanı bir amerikalının alıb, özüylə Amerikaya apardığını öyrəndin.

İlk aldığın tünd-boz rəngli korellaya Moşu adını qoydun. Onu Yusifin verdiyi böyük gümüşü rəngli qəfəsə saldın. Quş çox aktiv idi. Əmin Mehdixanın nəvəsi bioloq Sevinc xanım bizə dedi ki, ələ öyrəşdirmək üçün hər gün qəfəsdən çıxardın, əlinizdə saxlayın. Sən dedin: *"Yox, tələsməyək, əvvəl bizə alışsın, sonra ələ".* Səni eşitmədim. İstədim "quş təlimatçısı" kimi Səni təəccübləndirim, tərifləyəsən məni. Hər gün Sən evdən çıxan kimi Sevinc xanımın məsləhətiylə əlimə əlcək geyinib, Moşunu "ələ öyrətmə planım"ı həyata keçirməyə çalışırdım. Biçarə quş əlimdə çırpınır, qışqırır, mən isə o ümidlə ki onu ram edirəm, 5-6 gün öz təlimimi davam etdirdim. İnadkarlığımın uğurla nəticələnəcəyinə inanırdım. Yazıq Moşu o dərəcədə aqressivləşmişdi ki, qəfəsin yanından keçə bilmirdik, bizə qışqırır, səs-küy salırdı. Onun bu hərəkəti Səni təəccübləndirdi:

– *Düz-əməlli quş idi, bunun niyə bizdən zəhləsi getsin axı?*

Dinmədim. Susmağım Səndə şübhə oyatdı. Birdən soruşdun:

– *Nuşa, onu qorxutmamısan ki?*

– Yox...

Növbəti dəfə Sən yenə evdən çıxan kimi əlimə əlcək geyib, qəfəsə yaxınlaşdım. Qəfəsin qapısında böyük qıfıl gördüm... Sən evə qayıdanda qapını açmışdım ki, gülməyimi saxlaya bilmədim.

*– Nədi, elə bildin hiss etməyəcəm quşun günü-gündən sərtləşdiyini, bu işdə sənin əlinin olduğunu?*

Beləliklə, mənim "quş təlimçisi" olmaq arzum puça çıxdı. Sənin dediyin kimi, səbir, vaxt lazım imiş... Biçarə quşu zoomağazaya qaytarmaq məcburiyyətində qaldın. Əvəzində aldığın korella dinməz-söylənməz çıxdı. Durduğu yerdən tərpənmirdi. Xavər xanım ona Abidə adı qoydu. Al-qırmızı yanaqlı bu korellanın məxmər kimi sarı, qara rəngli tükləri var idi. Ona Sədəfrəngli korella da deyirlər. Sən ona Çil-çil adı qoydun. Bir-birinizə tez alışdız.

*"Bayaq Çil-çilin başını qaşıdım. Xoşhallanıb iki dəfə dərindən əsnədi, birdən yuxuya gedib az qaldı tirdən yıxılsın. Canını yeyim onun. Bu tutubala daha mənsiz qala bilməz. Yaman öyrəndi əlimə, iyimə, səsimə. Quşlar da ünsiyyətsiz yaşaya bilmirlər. Mənim ağlıma gəlməzdi quş bu dərəcədə insana həyan ola bilər".*

*Bu quşcuğaz mənimdir,*
*Tək inamım, dinimdir,*
*İki gözüm solubdur,*
*Quş səsiylə dolubdur...*

Quşlar ailəmizin üzvlərinə çevrilmişdilər. Sən onlara vitaminlər, oyuncaqlar alırdın. Hətta xarici səfərdə də onları unutmurdun. Bir gün Çikaya dişi tayı almaq qərarına gəldin. *"Günahdı,* – dedin, – *tək qalmasın".* Bu məqsədlə zoomağazaya getdin. Gələndə: *"Nuşa, zoomağazada kimi görsəm yaxşıdı?"* – dedin.

– Kimi?

*– Alim Qasımovu. Biləndə ki sarı quşu evdəki Çika üçün gəlin alıram, dedi onu öz maşınımda əsl gəlin kimi aparacam. Bizi evə "Sarı gəlin" havasını oxuya-oxuya gətirdi.*

Çikanı evləndirdik. Yuva aldın. Səbirsizliklə yumurtadan çıxacaq balanı gözlədik ailəlikcə. Yumurtadan çıxan balanın sevincini yaşadıq. Hamımızdan çox Sən sevinirdin...

Nigar bizə dalğavari cinsindən mavi rəngli tutuquşu bağışladı. Onu da o birilər olan qəfəsə qoyduq. (Bu bizim səhvimiz oldu). Sən demə, quşlar da eynən biz insanlar kimi imiş. Xoşxasiyyət, rəhmdil, qəzəbli, hirsli... Yeni quş çox aqressiv və qısqanc çıxdı. Bizim Çikanı dişiyə qısqandı, gözümçıxdıya saldı. Dimdik müharibəsinə qalxdı. Dimdiyi ilə Çikanın başından vurduğu zərbə onu öldürdü. Yersiz gəldi, yerli oldu buna deyirlər. Sən dedin: *"Buna dözə bilmərəm".* Onu pəncərədən buraxmaq istədin, mən qoymadım. Səhəri zoomağazaya qaytardın. Bir müddət sonra Sənin sevimli Çil-çilin və onun erkək tayı da quş ömürlərini başa vurdular. Qəfəs boş qalmasın deyə 2014-cü ildə sarı, yaşıl tüklü, dalğavari tutuquşu aldın. Bu, son aldığın quş oldu... Çox mehriban çıxdı. Bir-iki söz öyrəndi. Amma Səndən sonra əvvəlki həvəs qalmadı, Vaqif... Yemini-suyunu mən, hərdən də Ayla verir. Əlbəttə, Sənin kimi baxılmır...

*Pozulmaz sonsuz tarazlıq,*
*Düz gələr Allahın sözü,*

*Bir bu dünya, bir o dünya,*
*Tərəzinin iki gözü.*
*Biri ömür, biri ölüm...*

*Mən bilmirəm həyat bir ağrıdır, yoxsa həvəs. Bəlkə, hər ikisinin birliyidir. Tərəzinin iki gözü...*

Sən ayaqlarından şikayət edirdin. Ayaqların ağırlaşır, yerimək çətin olurdu Sənə. Bizə dedilər ki, Bakıya alman cərrahı gəlib, Leyla Şıxlinskaya Klinikasında qəbul edir. Qəbuluna gəldik. Ayaqlarını müayinə etdikdən sonra alman həkim dedi ki, ayaq damarların təcili əməliyyat olunmalıdır. Əməliyyatı ya Almaniyada, ya da Türkiyədə etməyi məsləhət gördü. Gündə nə qədər siqaret çəkməyinlə maraqlandı. Biləndə ki gündə iki qutu yarım siqaret çəkirsən, dedi bir qutu azaldın heç olmasa. Dedin ki, çalışacam, bunun mümkün olmadığını bilirdim. "Siqareti tərgitmək asandır, özüm 100 dəfə atmışam". Mark Tvenin bu fikriylə, yəqin, siqareti tərgitmək istəyən hər bir kəs razılaşar. Deyirdin ki, *özüm də ata bilmədiyimçün əziyyət çəkirəm.* Bunu mən də görürdüm, ona görə susurdum.

Ev aldığın müxtəlif markalı siqaret, tütün, siqarlarla dolu idi. Ürək əməliyyatından sonra da ata bilmədin. Keçdin elektron siqaretə. (Əslində, onun zərəri daha çoxdur). O da müvəqqəti. Yadındadır Təl-Əvivə uçanda elektron siqaretə asma aparatı deməyin? Həm gülməli, həm də çox kədərli bir vəziyyət... Təyyarə havaya təzə qalxmışdı, Sən elektron siqareti çıxardıb, bir-iki qullab vurdun, tüstü qalxdı, yanımızdan keçən gənc stüardessaya elektron siqareti göstərib:

*“Qızım, mən asma xəstəsiyəm, nəfəs ala bilmirəm, bu, nəfəs aparatımdır”,* – dedin. Biçarə qız özünü itirmiş halda: “Əlbəttə, Vaqif müəllim, istifadə edin”, – dedi. Yaxşı ki, nə o stüardessa qız, nə də ki salondakılar elektron siqaretin spesifik iyini duydular. Bəlkə də, duyub üzünə vurmadılar. Xəstəliyin bilinəndən sonra isə siqaretin birini söndürməmiş o birini yandırırdın, siqareti siqaretə calayıb çəkirdin. Əmziksiz dura bilməyən körpə kimi Sən də siqaretsiz dura bilmirdin. Buna baxmaq lap üzücü olurdu. Son günə kimi “oynadın” siqaretlərlə, markalarını dəyişdin, başını qatdın. Bu siqaret yanğısı xəstəliyinin acısını unutdurmaq üçün idi, bilirəm. Son günlər mən yandırırdım siqaretini.

– *Nuşa, birdən öyrəşdirərəm səni...*

– Öyrəşmərəm.

– *Amma yaraşır sənə,* – deyib üzümə gülümsündün.

Bir məqam axtarırdın elə bil mənə bir xoş söz deməyə. Demədiklərini bəzən həsrətli baxışların deyirdi...

Ayaq damarlarının əməliyyat olunmasıyla bağlı Azərbaycan Səhiyyə Nazirliyinə müraciət etdikdən sonra Səni Ankaradakı Türkiyə Yüksək İxtisas və Araşdırma Sağlıq Xəstəxanasına göndərdilər. Və 2011-ci ilin iyun ayından 2014-cü ilin sonuna kimi bizim Bakı, Ankara, Təl-Əviv xəstəxanalarından imdad dilədiyimiz dövr başladı...

2011-ci il iyun ayının 18-də biz Ankaraya gəldik. Türkiyədə bizi Azərbaycan səfirliyinin nümayəndəsi

Dursun Həsənov qarşıladı. Xəstəxanada bizi Türkiyə Səhiyyə Nazirliyinin nümayəndəsi gözləyirdi. Böyük, işıqlı bir otaqda yerləşdirdilər bizi. Çarpayıdan əlavə, böyük dəri bir divan da vardı otaqda. Sən bir sanitar oğlan tapıb, ona pul verdin. Yaxınlıqdakı bazardan elektrik çaydanı, iki fincan, çay, qəhvə, qənd aldırdın. Çay, qəhvə çox içdiyindən, həm də rahatlıq sevdiyindən lazım olan əşyalar əlinin altında olmalı idi.

Həmin gündən Sənin müayinən başlandı. Dopler, qan analizi...

Səhəri gün bazar idi. Xəstəxanaya mənim Türkiyədəki qohumum, atamın xalası oğlu Altay gəldi. Bizim Ankarada olduğumuzu Altaya Ankarada yaşayan bacım Esmiranın kiçik qızı Əzizə xəbər vermişdi. Bakıda Dillər Universitetinin İngilis dili fakültəsini bitirmiş İbrahim Tarpıcı ilə ailə qurduqdan sonra ərinin təyinatıyla Türkiyənin bir neçə əyalətini gəzib-dolaşdıqdan sonra Ankarada məskunlaşmışdılar. Səni Altayla tanış etdim. Uzun illər hüquqşünas kimi çalışmış 77 yaşlı Altay artıq təqaüddə idi. İki il idi arvadını itirmişdi. Sən Altayçün dedin: *"Qluboko odinokiy çelovek..." (Çox yalqız adamdır...)* O bizi maşınında Əzizəgilə apardı. Gəlişimizə çox sevinirdi Əzizə, İbrahim, onların iki oğlu. İbrahim Sənin şeirlərini sevir, gözəl təhlil edir.

Altayın maşını ilə xəstəxanaya döndük. Xəstəxananın həyətində bizi mənim vəfalı, mehriban dostum, Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsində birgə çalışdığımız dövrdən tanıdığım, xeyli müddətdir Türkiyədə işləyib ailə quran Səriyyə Gən-

cəliyeva və onun alicənab həyat yoldaşı Adil Tamer gözləyirdi.

Səhəri ağır gün oldu. Ayağında anju etdilər. 3-4 saat bir yerdə uzanmaq çətindir. Ürəyində problem var dedilər. Şəkərin yüksəkdir. Sabah ürəyini də anju etməlidirlər.

Ürəyini anju etdilər. Əziyyət çəkirsən səssiz-səmirsiz.

Səriyyəylə Adil gəldilər. Səriyyə dedi ki, Gülhanə Klinikasında Anar Əmrahov adında həmyerlimiz işləyir. Gənc, istedadlı kardioloqdur. Axşam onunla gələcəyini bildirdi. Anar həkim və türk həkimi anjunun nəticəsiylə gəldilər. Anar həkim dedi ki, açıq ürək əməliyyatı olunmalıdır. Şuntlama... Ayağın üçün gəldik, ürək problemin tapıldı. Anar həkim əməliyyatın təxirə salınmadan yerinə yetirilməli olduğunu dedi. Klinikanın türk həkimləri də gəlib çıxdılar. Onlar da əməliyyatın vacibliyini vurğuladılar. Sən boyun qaçırdın bu xəstəxanada əməliyyat edilməkdən. Anar həkim Səni Gülhanəyə keçirib, əməliyyatın orada keçirilməsini təklif etdi. Bütün edilən təkidlərə baxmayaraq, Səni fikrindən döndərmək mümkün olmadı. *"Bakıya qayıdıram,* – dedin, – *müayinəyə qürbət ölkə, əməliyyata vətən yaxşıdır..."*

Sonradan mənə orada əməliyyata razılıq verməməyinin səbəbini dedin: *"Nuşa, sənə yazığım gəldi. Təsəvvür et ki, əməliyyat vaxtı mən ölürəm və məni qoyurlar morqa. Sən morqun qabağında ağlayıb özünü öldürürsən, ancaq buna türk həkimləri məhəl qoymurlar. Dərdinlə baş-başa qalırsan başqa ölkədə..."*

Türk həkimlərinin peşəkarlığına söz ola bilməz, ancaq bizim həkimlərdən fərqli olaraq, onlar soyuqqanlıdırlar. Sən də bunu hiss edib o nəticəyə gəlmişdin. Xəstəxanada olduğun müddətdə bir gün siyasətçi Hikmət Çətin, səhəri gün Türkiyənin ozamankı Baş nazirinin müavini Cəmil Çiçək Sənə baş çəkdilər. Onların Sənin xəstəxanada olduğundan haradan xəbər tutduqları bizə məlum olmadı. Xəstəxana ab-havasından çıxmaq üçün 2-3 gün Ankarada qalmaq istədin. Xahiş etdin, Dursun şəhərin mərkəzində, xudmani “Tunalı” hotelində bizə yer bron etdi. Uzun illərdir Ankarada çalışan mənim məktəb və tələbəlik illərimin can dostu Rəhilə Şükürova (Süleymanova) bizim Ankarada olduğumuzdan xəbər tutan kimi özünü hotelə çatdırdı. Ona xəstəxanada olduğumuzu demədiyim üçün umu-küsü etdi. Bir yerdə nahar edib, şəkillərimizi çəkdikdən sonra Sən bizi tək buraxıb, hotelə dincəlməyə getdin. 2013-cü ilin yayında Rəhilə kiçik oğluna Bakıda toy etdi. Bizi də çağırdı. O bilirdi Sənin xəstə olduğunu. Dedi: “Nuşa, sən mənim atalı-analı günlərimin, gənclik illərimin yadigarısan, heç olmasa özün gəl”. Sən də dedin: *“Get, eynin açılsın”.* Dedim: “Baxarıq”. Ancaq bilirdim ki, getməyəcəm. Toya bir həftə qalmış Rəhiləyə toya gələ bilməyəcəyimi dedim. O, incik halda: “Heç olmasa bir saatlıq gəl...” – dedi. Gedə bilmədim. Sənə toya getməyəcəyimi deyəndə sevindin: *“Hə, getmə, yanımda ol...”*

Bir müddət sonra Rəhilə ilə Bakıda görüşdük. O, toyun necə gözəl keçməsindən danışdı və mənim

orada iştirak etmədiyim üçün təəssüfləndiyini dedi. Səni xəstə vəziyyətdə qoyub, toy məclisində rahat otura bilməyəcəyimi anlatmağa çalışdım. Amma Rəhilə məni başa düşmək istəmədi. "Heç olmasa bir saatlıq gələ bilərdin", – dedi.

Sənin çox qabaqlar yazdığın şeirdəki bu bənd mənim haqlı olduğumu göstərmirmi?

*...Kaman süzüb, tar oynayıb,*
*Mən xəstəykən yar oynayıb.*
*Aramızda qar oynayıb,*
*Qaralanıb, de neyləyim?*

2018-ci ilin aprelində Ankaradan Rəhilənin ölüm xəbərini almaq həm gözlənilməz, həm də çox üzücü oldu. O, Bakıda atasının, qardaşının yanında torpağa tapşırıldı. Rəhiləylə yaddaşımın bir küncünə sığınmış məktəb, tələbəlik çağlarının dadı, duzu da getdi. Onunla birgə dəfn etdim o gözəl, qayğısız illərin xatirələrini...

İyunun 25-də biz Ankaradan vətənə döndük.

2011-ci il 30 iyun. Neftçilər Xəstəxanasındayıq. Sənə Rəşad Mahmudovun əməliyyat etməsini məsləhət görüblər. İkiotaqlı palatadayıq. Hər rahatlığı var. Müayinələr başlandı. Pankreatitdən bir həftə müalicə olunmalısan. Əməliyyatqabağı əhvali-ruhiyyən yaxşıdır. Bu məni sevindirir. Sənin məsuliyyətli anlarda özünü tez bir zamanda toplamağın, qətiyyətli olmağın mənə də güc verir. 12 iyul səhər saat 10:00-da əməliyyatdır. Bir gün qabaq əməliyyata hazırlıq oldu. Sanitar hamamda döş qəfəsindəki tük-

ləri qırxdı. Zarafat etmək üçün fürsəti qaçırmadın, o saat dedin: *"Oldum lap broyler toyuğu..."*

Əməliyyatın haqda ancaq yaxın qohumlar bilirdilər. Palatada oturub, nəticəni gözləyirdik. Əməliyyatı Rəşad Mahmudov və Seymur Musayev etdilər. Uğurlu keçdi əməliyyat. Rəşad doktor palataya gəlib, bizə gözaydınlığı verdi. Təl-Əvivdə müayinə olunduqda dünyaca məşhur kardioloq (adını unutmuşam) ürək əməliyyatının harada olunmasıyla maraqlandı. "Bakıda", – dedik. Kardioloq: "Çox uğurlu olunub", – dedi.

Sən reanimasiya otağındasan. Mən palatada Sənin narkozdan ayılmağını gözləyirəm. Sanitar gəlib, Sənin özünə gəldiyini, məni görmək istədiyini dedi. Məni görən kimi su istədin. Çox su içməyə qoymurdular, ağciyərlərinə su yığılmasın deyə. Əziyyət çəkirdin. Səhər eyni mənzərə. Daima su içmək istəyin. Rəşad doktor müayinədən sonra Sənə su içməyə icazə verib, deyib ki, dəyməyin onun xətrinə. İki gün sonra Səni palataya keçirtdilər. Əməliyyatdan sonrakı mərhələ çox ağır, əzablı keçdi. Narkozun təsiri davamlı oldu. Ancaq şükür edirdik, çəkdiyin fiziki, mənəvi əziyyətlər arxada qalır. Yavaş-yavaş özünə gəlirdin, həyata qayıdırdın. Sən demə, bu, çəkəcəyimiz iztirabın, əziyyətin hələ əvvəli imiş... sonu görünməyən əzabın əvvəli...

2012-ci il həyatımızın xoş məqamı kimi Sənin haqda (həyatın, yaradıcılığın, taleyin haqda) *"Posle menya ostanetsya more" ("Məndən sonra dəniz qalacaq")* adlı kitabın işıq üzü görməsi oldu. Kitabın

müəllifi filoloq Şövkət Keramovadır. Kitabın redaktoru şair-tərcüməçi Siyavuş Məmmədzadənin etdiyi əlavələr bu əsəri daha da zənginləşdirmişdi.

Kitabın təqdimatı Nizami küçəsindəki "Əli və Nino" kafesində keçirildi. Yer balaca, adam çox, səmimi, isti ab-hava. Kimsə dedi: "60-cı illərin ruhundadır bu təqdimat..." Anar kitabı belə səciyyələndirdi: "*"Posle menya ostanetsya more"* kitabı çox dəyərli kitabdır. Çünki bizim ədəbiyyatda yazıçının sağlığında yazılan ilk sənədli-bədii əsərdir..." Kitabın redaktoru şair-tərcüməçi Siyavuş Məmmədzadə dedi ki, Vaqif Səmədoğlu polifonik şəxsiyyətdir. Mən hətta deyərdim o, orkestr adamdır... Mehriban Zəkinin qopuzla Sənin "Heç kəsə demə..." şeirini fərqli, düşüncəli, duyğulu səsləndirməsi gecəyə xüsusi ab-hava qatdı. Rüstəm İbrahimbəyov Moskvadan olan rusiyalı telereportyor Mixail Deqtyarla gəldi. O, Bakı haqda çəkdiyi sənədli filmə bu təqdimatdan da süjet daxil edəcəyini bildirdi.

Həmin ilin yaddaqalan günlərindən biri Norveç səfirliyinin təşkil etdiyi gecə oldu. Norveç səfirliyi ilk dəfə azərbaycanlı şairlə – Səninlə görüş keçirmək istədiyini bildirdi. İngiliscə şeirlərinlə internetdən tanış olublar. Sentyabra planlaşdırılan görüşü Sən çox nəm-nüm edəndən sonra noyabra təyin etdilər. Əvvəl səfirin gənc, məlahətli xanımı Astrid və tərcüməçi ilə bir kafedə görüşdük. Gecənin təfərrüatlarını dəqiqləşdirdik. Görüş noyabrın 30-da onların oturduqları evdə təşkil olundu. "Azərbaycan" kinoteatrının yanında yerləşən bu evdə vaxtilə Azərbayca-

nın birinci katibi İmam Mustafayev yaşayıbmış. Səni uşaqlıq, gənclik xatirələrinin qoynuna atdı bu ev... Gecədə Avstriya, Yaponiya, Rumıniya, Mərakeş, Gürcüstan səfirləri, başqa səfirlik nümayəndələri iştirak edirdilər. Həmin gecədə xanımıyla iştirak edən Səlim Babullaoğlu xatırlayır: "...Vaqif müəllim giriş çıxışı elədi. Bu çıxış təkcə Vaqif Səmədoğlunun şair kimliyinin təqdimatı deyildi, həm də çağdaş Azərbaycan poeziyasının təqdimatı idi... Bu qısa çıxış ədəbiyyat tarixindəki onlarla şairin Nobel nitqindən daha maraqlı idi. Müasir Azərbaycan insanının nitqini poetik həddə qaldırmışdı, yaxud şeiri gündəlik və daha səmimi nitq qədər alçaqkönüllü eləmişdi Vaqif Səmədoğlu. Şair üçün isə bundan böyük nailiyyət yoxdur".

21 dekabr 2012-ci il – dünyanın sonu deyilən gün. Bəşəriyyətin qorxuyla, həyəcanla gözlədiyi gün. Yemək-içmək tədarükü görənlər çox idi. Bakıda da alhaal idi, ət, toyuq, balıq konservi, şam, suxarı, su tədarükü görülürdü. Son gələndə bir göz qırpımında, ani bir vaxtda hər şey bitir. İnsanlar bunu bilsələr də, yenə də ümidlərini xilas ola biləcəklərindən üzmək istəmirlər... Səhəri gün Olqa Moskvadan zəng etdi. Dünyanın dağılmaması münasibətilə bir-birimizi təbrik etdik. Olqa dedi ki, biçarə, yaşlı anası axşam düşdükdə göy üzünün qızarmasını dünyanın axırı zənn edib, qorxmuş halda qızına zəng edərək: "Olqa, naçinaetsya. Nebo krasnoe, çto delat?" – deyib. (Olqa, başlayır. Göy üzü qırmızı rəngdədir, neyləyim?)

Bəlkə də, Yaradan o ümidlə biz insanlara yaşamaq haqqı verdi ki, dəyişək, mənən yüksələk...

2013-cü il – Qara ilan ili...

İlin əvvəlində beş günlük Qəbələyə getdik. “Qafqaz Resort Hotel”də qaldıq. Ağırlaşmısan... Qayıdandan sonra USM, qan analizi etdik. Hər şey normal çıxdı.

2013-cü ilin aprel ayında Sənin ad günün üçün bir albom çıxartmaq istəyirdim çəkdiyin fotolardan. Bu istəyimi Sənə bildirəndə dedin: *“Bəlkə, deyimlərimdən ibarət bir kitab çıxardasan?”* Yadımdadır Sənin “Azadlıq” qəzetində (1989-1991-ci illərdə qəzetin baş redaktor müavini idin), “Oğuz eli”ndə (1992-1994-cü illərdə qəzetin baş redaktoru idin) Təmkin Səbirli adıyla dərc etdirdiyin ictimai-siyasi məzmunlu satirik, yumoristik zərbi-məsəllərin, maraqlı deyimlərin. Tez bir zamanda deyimlərini, hikmətli ifadələrini yığıb, ön söz də yazdım. Aydın Abdullazadəyə çap üçün verdim. Adını *“Müdriklərlə üz-üzə”* qoydum. Aydından xahiş etdim ki, kitabın nəşrini Sənin ad gününə kimi çatdırsın. Aydın söz verdi və sözünə əməl etdi. 5 iyuna, ad gününə bir neçə gün qalmış kitab artıq evdə idi. Ancaq onun sevincini yaşaya bilmədik. Qapımızı dərd döydü...

## *Ölüm gəlir, ömür, sonun mübarək...*

Qarnının altında sancılar var. Gedirik USM-ə. Həkim deyir ki, tez-tez USM etdirmək düzgün deyil, 4 ay qabaq etmisiniz. Müayinədən sonra üzünün ifadəsi dəyişir həkimin. Su yığılıb, ağırlıq verən odur. Sənə

heç nə demirəm. Tam müayinə üçün Milli Onkologiya Mərkəzinin baş direktoru Cəmil Əliyevin qəbuluna gəlirik. Sənə deyirəm ki, orada ən sonuncu model tibbi aparatlar var və müayinən daha dəqiq olar. Tam müayinə olunursan. Dördüncü dərəcəli mədə xərçəngi, əməliyyat olmaz...

Diaqnozdan doğan ilk sarsıntı. Çaşqınlıq. Qorxu. Səni itirmək qorxusu. Baş əymək, ya əyməmək xəstəliyə. Səndən gizlətmək istədim xəstəliyini. Mümkün olmadı. Gecə axtarıb tapdın xəstəliyin haqda yazılmış həkim rəyini. Səhəri dedin: *"Niyə məndən gizlədirsən?"* Dinmədim. Özümü toplayaraq: "Xəstəlikdir, gəlib, deməli, mübarizə aparmalıyıq, əsas odur ümidimizi itirməyək", – dedim. Sən də mənə bir həkim kimi bu xəstəliyin necə keçəcəyi, hətta sonluğunun belə necə olacağı haqda danışıb, atanın, qardaşının, bacının da bu xəstəlikdən getdiklərini xatırlatdın...

Sizin ailədə ən qorxulu yaş həddi 50 idi. Atanız Səməd Vurğunun dünyasını dəyişdiyi yaş. Bir də xərçəngin irsən keçmə ehtimalının qorxusu. Gündəliyindən: *"Mehdixan əmimin dediyinə görə, babam Yusif ağa rakdan gedib. Atamı da o xəstəlik apardı. Növbədə, görən, kimdir? Yusif? Aybəniz? Mən?"* (1975)

Yusif, Aybəniz, Sən – üçünüz də 50 yaş həddini keçdiz, ancaq o xəstəlikdən yaxa qurtara bilmədiz. Yazdığın kimi oldu. 1998-ci ildə xərçəng Yusifi apardı, 2009-cu ildə Aybənizi, 2015-ci ildə isə... Səndən sonra Aygün... Xəstəlik sizin ailənin dözümünü sı-

nağa çəkdi. Sonadək bu dözümü qoruyub saxladınız hər biriniz. Qulluq edənə yüz dəfə "sağ ol" dediniz... Əziyyət verdiyinizə görə min dəfə üzr istədiniz...

Bütün yaradıcılığın boyu Sən ölümdən yazmısan. *Bir gün də qəribsəmədim bu dünyada ölüm sarıdan...*

Gündəlikdən: *"Ölümün gözlərinə baxa-baxa gərək yazasan həyatdan".*

Ölümü əbədi həqiqət bilib, insanı Ölümə hazırlayırsan. Ölümə gedən yolların məşəqqətlərini yaradıcılığına gətirirsən. *"Generalın son əmri"* misteriya tamaşasında əzab-əziyyətli həyat yollarından keçən generalın arzusu təntənə ilə sevgili kimi Ölümünü gözləmək, ona qovuşmaqdır...

Sən insanı ölümdən qorxmamağa alışdırırsan. Ölümə gedən yolda ömrə dözməyə çağırırsan...

*Minorda ömür sürüb, majorda ölmək. Baxın əsəri kimi...*

Asan ölüm arzusu çox misralarından sezilir. Genetik davamdan qaçmaqçünmü Sən rahat ölüm arzulayırdın? Nazim Hikmət xərçəngdən ölmək istəyirmiş. Hər şeyi dərk edərək, yavaş-yavaş ölmək və öldüyünü bilmək istəyirmiş... Çünki onda hər şey dəyişir... Adam da, dünya da başqa cür görünür... Tale o vaxtı Nazim Hikmətə vermədi. "Qorxunc satqınlıq" adlandırdığı qəfil ölüm düşdü qismətinə. O vaxt Sənə verildi... İl yarım vaxt...

"Mən ölürəm"in dərk edilməsi bizim həyata necə baxmağımızla müəyyən edilir. Nazim Hikmət həm

sürdüyü ömürlə, həm də yaradıcılığıyla ölümə meydan oxudu. "Ölümün üstünə yüyürdüm", – deyərək yaşadı. Sənin bütün yaradıcılığın dünyaya, həyata, ölümə, insana, qadına olan baxışlarının təzahürüdür...

*Ölüm bir gün də*
*tək qoymur məni.*
*Qoymur onsuz sevib-sevilməyə,*
*qəmlənməyə, sevinməyə,*
*istədiyim kimi şeir yazmağa.*
*Bir nəğməyə də qoymur*
*rahat qulaq asım,*
*xəyallarda özümü özümə basdırır...*

Sən bu xəstəliyin sağalmazlığı haqda danışdıqca mənə elə gəldi ki, bu söhbətinlə xəstəliyin qarşısında ağ dəsmal qaldırırsan. Ancaq yanılırdım. Mən bunu sonradan anladım. Sən ilk gündən sanki xəstəliyini idarə etməyə başladın. Bu gücün qarşısında baş əyirəm! Üzümdəki çaşqınlığı görüb: *"Rodnaya, elə bilirsən mən ölmək istəyirəm? Ancaq səndən fərqli olaraq, mən daha realistəm. Bilirəm ki, istoriya moey bolezni takaya je yasnaya, kak istoriya Vtoroy Mirovoy voynı, qde izvesten pobeditel",* – dedin. *(Mənim xəstəliyimin sonu da İkinci Dünya müharibəsinin sonu kimi aydındır, qalibin kimliyi məlumdur).* Sonra məni sakitləşdirmək üçün: *"Əlbəttə, nə lazımdırsa, edərik",* – dedin. Ancaq ikimiz də bilirdik ki, qarşımızda həyatımızın ən ciddi bir mərhələsi – Olum-Ölüm mübarizəsi durur...

*Fələyə qurban olum,*
*Bizi neçin ayırdı?*
*Oxuma o nəğməni,*
*Mənim havam ayrıdı...*

Bu misraları Sən bloknot vərəqinə yazdın. (Xəstəliyini 2-3 həftə sonra biləcəkdik). Jurnal masasının üstünə qoydun. Oxudum. "Bu nədi? Niyə belə yazmısan?" – dedim. Dinmədin...

*Hər görüşün axırı ayrılıqdır...*

Biz evləndiyimiz gündən Sən məni itirmək qorxusuyla yaşamısan. Özünü pis hiss edən kimi: *"Səndən nigaran gedəcəm",* – deyirdin. Bu misraları da həmin fikirlərin təsiri altında yazmısan:

*Ömrün qürubçağı tikdiyim evi,*
*Deyəsən, fələk yıxır yavaş-yavaş...*

Xəstəliyini bilməmişdən əvvəl, 2012-ci ildə isə mən bu şeiri yazmışdım:

*Kimsə kimləsə tanış olacaq,*
*Bu nə Sən olacaqsan, nə də ki mən.*
*Kimsə kimləsə sevişəcəkdir,*
*Bu nə Sən olacaqsan, nə də ki mən.*
*Kimsə kimləsə sevinəcəkdir,*
*Körpə gəlişinə, körpə səsinə,*
*Bu nə Sən olacaqsan, nə də ki mən.*
*Kimsə kimləsə...*
*Kimsə kimləsə...*
*Artıq nə Sən varsan, nə də ki mən...*

Sənə oxudum. Dedin: *"Yaxşıdı".* Ürəkdənmi dedin, ya xətrimə dəyməməkçün, bilmirəm. Niyə yaz-

dığımı da bilmirəm. Bəlkə, sonun yaxınlaşdığını hiss etdiyim üçün? Axı mənim də içimdə həmişə Səni itirmək qorxusu olub. Bilmişəm ki, bir gün hər şey bitəcək. Nəyəsə göz yummaq, nəyisə şişirtməmək, nədəsə güzəştə getmək. Bir cümlə də həmişə içimdə səslənirdi: “Mən də Səni başa düşməsəm, anlamasam, duymasam, kim başa düşəcək, anlayacaq, kim duyacaq Səni?” Bunları başa düşmək illərləmi gəldi, ya Sənə olan məhəbbətimlə?

Xəstəliyin haqda ancaq yaxınlarımız bildilər. Və ölkə başçısı İlham Əliyev. Sənin həyatın uğrunda dövlət başçısının qoşulduğu mübarizə Sənə olan hörmətin, sayğının təzahürü idi. İlham Əliyev Səni AŞPA-dakı fəaliyyətin dövründə yaxından tanımışdı. Şəxsiyyətinə böyük hörmətlə yanaşırdı.

Xəstəliyin haqda xəbərin yayılmasını istəmirdik. İstəmirdik mətbuat bilsin. Ardı-arası kəsilməyən yorucu, etikadan uzaq sualları cavablandırmaq, xəstəliyin müzakirəsini oxuyub, bunlara dözmək işgəncəyə çevrilir. İlk dəfə xəstəliyin haqda məlumat ANS-də getdi. 2013-cü il noyabrın 29-da Mirşahin zəng edib, çəkilişə gəlməkçün icazə istədi. Biz yol üstündəydik. Növbəti kimyaterapiya üçün Təl-Əvivə gedirdik. Bu müsahibənin təxirə salınmasını istəsək də, Mirşahinin inadkarlığı üstün gəldi. Həmin gün nəvəmiz Aylanın ad günü idi. Mirşahinin gətirdiyi bir dəstə gül yerinə düşdü. Sənin arıqlamış, solğun bənizini görən Mirşahin həyəcanını gizlədə bilmədi, qəhər onu boğurdu. Müsahibəni alar-almaz getməyə tələsdi. Bir dilim tort, içilməmiş çay qabağında qaldı. Ge-

dərkən yavaşca: “Boğazımdan keçmədi, son dərəcə sevdiyim insanı bu halda görmək mənə çox ağırdı”, – dedi.

Həmin müsahibədən Sənin ürəküzücü etirafın: *“Mənim beynim də, ürəyim də şeir qəbiristanlığıdır...”*

Bizim həyatımızın İsrail dövrü 9 iyun 2013-cü ildə başladı. Bizi Təl-Əvivə yola salmağa Anar gəldi. Ona mən dedim Sənin xəstəliyini. Səndən xəbərsiz. Anar özünü toplasa da, səsi titrəyirdi. Ürək-dirək verməyə çalışırdı Sənə, “Biz hələ Sənin 75 illiyini keçirməkçün Moskvaya da gedəcəyik”, – deyib Səni qucaqladı. (Anar sözünün üstə durdu. 80 illiyini Moskvada keçirtdi, artıq Sənsiz...) Bilmirəm Anar özünümü inandırmaq istəyirdi hər şeyin yaxşı olacağına, ya Sənə ürək-dirək vermək istəyirdi. Sonralar Anarın təsirli yazısında oxuyacağam: “60-cılar nəslinin yarpaq tökümü... Heç kəslə əvəz edə bilməyəcəyimiz şəxsiyyətlər: Yusif Səmədoğlu, Emin Sabitoğlu, Toğrul Nərimanbəyov, Vaqif Səmədoğlu, Maqsud İbrahimbəyov... Bu nəslin budağında, bəlkə də, son yarpaqlar qalır...”

Zalım xəstəlik. Yalançılığa öyrədir bizi. Əvvəl mən anamı aldadırdım sağalacağına, indi də Səni. Səni aldada-aldada özüm də aldanırdım, öz yalanıma inanmaq istəyirdim. Bilmirəm, buna yalan demək olarmı? Mən yalan demişəm, ancaq heç kəsi aldatmamışam... Sənin bu sözlərin gör bir hansı gündə mənə yar oldu...

İl yarımlıq bir dövr yaşadıq İsraildə. Sənin sevdiyin, sənin sevildiyin İsraildə. Mən onda bilmirdim ki,

ömrümün Sənsizlik dövründə Təl-Əvivçün, qədim məkan olan Yaffo üçün, Dezinqof, Hayrikon küçələri üçün, Dezinqofdakı saysız-hesabsız kafelər üçün, imdad dilədiyim Yerusəlimçün darıxacam... Sənin həyatının uzadılması üçün əllərindən gələni edən "Assuta"nın həkimləri, ilk gündən Səni tək qoymayıb, tez-tez yanına gələn, bizə ürək-dirək verən İsraildəki Azərbaycan diasporunun üzvləri Mixail Aqarunov, onun həyat yoldaşı Turan xanım, Arye Qut (bizimçün Rəşid), Cəmil Məmmədov, Səadət Şükürova tez-tez yada düşəcəklər...

Biz İsrailə getməmişdən Sən Arye Qutla feysbukdan tanış idin, onunla yazışırdınız. İlk gündən o Səninlə doğması, əzizi kimi görüşdü. Və sona kimi o bu hissləri qorudu. Rəşid Bakıda olanda da zəng edir, hal-əhval tutur, Sənə baş çəkirdi. Yanvarın 27-də də axşamüstü zəng etdi.

– Vaqif müəllimi görmək istəyirəm.

Səndən soruşdum:

– Rəşid gəlsin?

– *Gəlsin.*

– İndi Qubadayam, Nüşabə xanım, bu gün qayıda bilsəm, gələcəm. Olmasa, sabah mütləq gələcəm.

Səhəri gün, yanvarın 28-də Rəşid dəhlizdə dayanıb xısın-xısın ağlayırdı, dünən gəlib çata bilmədiyi üçün özünü danlayırdı...

Sən deyirdin: *"Rəşid mərd, etibarlı oğlandı, Azərbaycan üçün çox işlər görür..."* Rəşid beynəlxalq münasibətlər üzrə tanınmış ekspertdi. İsraildə yaşasa da, heç vaxt doğulub boya-başa çatdığı Azərbayca-

nı unutmur. “Mən Azərbaycan xalqının dostu deyil, oğluyam” deyən Rəşid bizim həqiqətlərin dünyada eşidilməsi üçün dəyərli işlər görür. Azərbaycana olan məhəbbətini qoruyaraq, bunu ətrafdakılara da aşılayır, Azərbaycanı onlara sevdirir.

Rəşid atası ilə birgə yazdığı, Xocalı soyqırımından bəhs edən bədii-sənədli “Ağrı” romanında Azərbaycan xalqının faciəsini ürək ağrısı ilə təsvir etmişdi. Rəşidin Azərbaycanın 44 günlük müharibədəki qələbəsində mənəvi dəstəyi çox böyükdü.

İsrail bizim birgə olduğumuz son məkan oldu. Məhəbbətimizin son sınaq nöqtəsi... Bəlkə, buna görə İsrail mənimçün doğmalaşdı... İki insanın birgə yaşadığı müddətdə vaxtaşırı məhəbbət öz təsdiqini tapmalıdır. Yaxşı günlərdə, çətin günlərdə, xəstəlikdə, əlacsızlıqla mübarizədə, ümidsizlik içində boğulanda. Bəlkə də, məhz o çıxılmazlıqda məhəbbət özünün ən yüksək nöqtəsini yaşayır (bəzən əksinə də olur). Bir-birinə qarşı daha ehtiyatlı, diqqətli olmağı, xətrə dəyməməyi, tez-tez könül almağı, xoş günlərin sayını artırmağı, gözlərində yuva salan dərdi, kədəri yerli-yersiz gülüşünlə, təbəssümünlə ört-basdır eləməyi öyrədir bizə.

İsraildə bizim ağrılı ayrılığımız başladı.

Təl-Əvivə biz üçümüz gəldik: Sən, mən və Sənin qəddar xəstəliyin. İçimizdəki ümidlərlə, möcüzəyə inamımızla...

Bizi Təl-Əvivdə Aralıq dənizinin sahilində yerləşən “Renessans” hotelində yerləşdirdilər. Niyə hotel? Müayinəyə, müalicəyə gələnlər özlərini xəstə kimi

hiss etməsin, normal həyat tərzlərini yaşaya-yaşaya müalicələrini ala bilsinlər deyə. O hotelin işçiləri ilə doğmalaşmışdıq biz. Hər gəlişimizdə onlar Sənin əhvalınla maraqlanır, ürək-dirək verirdilər bizə. Nömrələrdə siqaret çəkmək qadağan idi. Xüsusi ötürücü siqnal qoyulmuşdu otaqlara. Sən, əsasən, eyvanda çəkirdin. Bəzən otağımızdan siqnal getsə də, buna göz yumurdular. İlk vaxtlar özünlə binokl da götürürdün çimərlikdəkilərə baxmaqçün... Sonralar “Hilton” hotelində qaldıq.

Biz gələn günün səhəri hotelə “Assuta” klinikasının həkimləri gəldilər. Tatyana Strelser məni kənara çəkib, Bakı Milli Onkologiya Mərkəzinin göndərdiyi analizlərə istinadən heç bir ümidverici söz demədi. Əməliyyat edilə bilməz. Artıq gecdir. Ancaq vəziyyəti bir qədər düzəltmək olar, o da müalicə prosesində bilinəcək, Sənin kimyaterapiyanı necə qəbul edəcəyindən asılı olacaq. Sənə dedilər: “Mı sdelaem vse, çto ot nas zavisit. Nam skazano, çto Vı dostoyaniye respubliki. Ponimayem otvetstvennost”. (Əlimizdən gələni edəcəyik. Bizə deyilib ki, Siz ölkənin sərvətisiniz. Məsuliyyətimizi başa düşürük).

Əsaslı müayinələrdən sonra ilk kimyaterapiya. Məni xəbərdar etdilər ki, bu prosedurdan sonra insan çox əsəbi, hirsli olur. Klinikadan çıxıb, bizi gözləyən taksiyə minəndə Sən hotelə getmək istəmədiyini, bir qədər gəzmək istədiyini dedin. Axşam düşürdü. Hava qaralırdı. Bir qədər gəzdikdən sonra bir kafedə oturduq. Sən yemək istədin. Mən istəmədim. Fikrim ancaq Səndə idi, artıq hərəkət etmək-

dən, artıq söz deməkdən çəkinirdim. Çəkinirdim ki, birdən nəsə xoşuna gəlməz və əbəs yerə əsəbiləşərsən. İkimiz də susurduq. İçin qaynayanda, göz yaşlarını içinə tökəndə susmaq... Sənin nələr keçirdiyini hiss edib, deməyə söz tapmayıb susmaq... Verdiyin sifarişi gözləyirdik. Birdən Sən yerindən qalxıb, velosipedin arxasında böyük bir səbətdə gül aparan oğlana yaxınlaşdın. Ondan bir dəstə ağ qızılgül alıb qabağıma, masanın üstünə qoydun. İlahi, Sən necə də həssas insansan, qəhər məni boğa-boğa güclə: "Çox sağ ol", – deyə bildim...

Biz İsrailə gedən gündən Səndən nigaran qalan Cavanşir günaşırı zəng edib, səhhətinlə maraqlanırdı. Həmin gün də zəng etmişdi Cavanşir, avqustun 24-də dənizdə boğulduğu gün... Sənə bağlı olan, taleyinə biganə olmayan Cavanşir... Bu dəhşətli xəbəri gecə internetdə oxudun, Bakıya, onun xanımına – Elmiraya zəng vurdun... Bizi inadkarlıq göstərib tanış edən, bir yerdə olmağımıza ürəkdən sevinən Cavanşirin dünyadan köçməsini "bizi qoruyan bir mələy"in gedişi kimi qiymətləndirdim...

Şair, tərcüməçi, əslən bakılı olan Aleksandr Qriçlə Yerusəlimdə gözlənilməz görüşü xatırlayırsan? 2013-cü il oktyabrın 31-i, isti payız axşamı. Sənin sağalacağına ümidli günlərimiz idi. Aleksandr Qriç on iki il İntiqam Qasımzadə ilə AzTV-də "Bayatı" ədəbi verilişinin aparıcısı olmuşdu. Azərbaycanın şair və yazıçılarının əsərlərini rus dilinə tərcümə edib. 1992-ci ildən Los-Ancelesdə yaşayır. Yerusəlimə qohumlarıyla görüşməyə gələn Aleksandr rus kitabxanasında

"Osennyaya ostanovka" ("Payız dayanacağı") kitabının təqdimatını keçirirdi. Kitab Bakı və bakılılar haqda idi: Mirzə İbrahimov, Rəsul Rza, Yusif Səmədoğlu, Mənsur Vəkilov, Fikrət Qoca, İntiqam Qasımzadə... Bu təqdimat haqda Sənə Mixail Aqarunov dedi. Sən də görüşə getmək istədiyini bildirdin. Dost-tanışlarla ünsiyyətə xəstələnəndən sonra daha böyük ehtiyacın var idi. Sizin görüşünüz çox təsirli oldu... Zal durmadan əl çaldı... Sən dedin: *"Vaxtıyla Bakıdakı yəhudi dostlarım mənə bir cümlə öyrətmişdilər: "Le şana abaa be Yeruşalayim". Onun dəqiq tərcüməsinin "Gələn il Yerusəlimdə" olduğunu indi bildim. Onda isə "Necə olursa olsun, biz səninlə mütləq Yerusəlimdə görüşəcəyik" kimi başa düşmüşdüm. Nədənsə bu cümlə yaddaşımda həkk oldu və 30 il qabaq Saşa Amerikaya köçəndə birdən yadıma düşdü və ona dedim... Budur, həmin görüş baş tutdu. Bu nə mənim, nə də Saşanın ağlına gələrdi. İnsan talеləri belədir..."*

Sonradan Aleksandr Qriç bu görüşün təsiri altında yazacaq: "Böyük şairlə o gözlənilməz sevincli görüşdən içində "Əziz dostlarım Lyuda və Saşaya sevgiylə. 31.X.2013. Yerusəlim" yazılmış kitab ("Posle menya ostanetsa more...") qaldı. Fotolar qaldı. Ağır xəstəliklə mübarizə aparan, optimizmini, yumor hissini saxlayan mərd insan Vaqif Səmədoğlunun gözəl çıxışından xatirə qaldı..."

Biz hər ay, bəzən də ayda iki dəfə Təl-Əvivə gəlir, Sən kimyaterapiyanı qəbul edir, sonra vətənə dönürdük. 75 illiyinə bir aydan da az vaxt qalırdı. Sən necə

də bu günü gözləyirdin. Yadıma gəlmir nə vaxtsa belə səbirsizliklə ad gününü gözləməyin. Bəlkə, bilirdin bu Sənin sonuncu... Ad gününlə bağlı yadıma 1995-ci il dekabrın 25-də "Gülüstan" sarayında "Parni iz Baku"nun Yusifin 60 illiyindəki çıxışı düşdü. Onlar Yusifi təbrik edib, Sənin 60 illiyinin isə Kələkidə qeyd ediləcəyini vurğuladılar. (O zaman eks-prezident Əbülfəz Elçibəy Kələkidə idi). Onların bu atmacaları böyük gülüşə səbəb oldu. Dörd il sonra, 1999-cu ildə Sənin 60 illiyin əksər pyeslərinin qoyulduğu dəbdəbəsiz Aktyor Evində keçirildi. Sənin teatr tamaşalarının əvəzsiz rejissoru, vaxtsız dünyasını dəyişmiş Hüseynağa Atakişiyevin şeirlərin əsasında qoyduğu tamaşa Sənin ürəyincə oldu. Dedin: *"Əsl şair yubileyi belə olar".*

May, 2014-cü il. Biz növbəti dəfə Təl-Əvivdəyik. Həkimlərdən dönə-dönə soruşursan: *"Yubileyimə qədər qalmaq şansım varmı?"* Yubiley, bəlkə də, bəhanə idi Səninçün. Səni daha nə qədər yaşayacağın sualı düşündürürdü. Onlar da Səni sakitləşdirirdilər ki, əlbəttə, qalacaqsınız. Bu zaman gözlərimin içinə zillənirdi Sənin gözlərin. Onların dediklərinin təsdiqini axtarırdın gözlərimdə. Mən də gülümsəyir, Səni inandırmağa çalışır, sonra baxışlarımı yayındırırdım. Həkimlər əllərini Səndən üzdülər, öz gücsüzlüklərini etiraf etdilər: "Vətənə qayıtmağınız məsləhətdir..."

Ümid üzümüzə bağladı qapılarını... Səni itirirəm... Qaçılmaz bir reallıqla qaldım təkbətək... Həkimləri qoymadım sənə bir söz desinlər. Onlar bütün lazım olan dərmanları verib, müalicəni evdə davam etdir-

məyi məsləhət gördülər. Axı həm də qarşıda yubileyin idi, Bakıda olmağımız məsləhət idi. Deyəsən, inandıra bildik Səni. Özümü xəyanətkar kimi hiss edirdim. Nə yaxşı, qara eynək var imiş. O günlər gözlərimə çökən hüznü, qüssəni gizlətməkdə tez-tez mənə dəstək olan qara eynək. Hotelə gəldik. Sən dincəlmək istədin. Mən də dolan ürəyimi boşaltmaq üçün o günlərimin ən yaxın sirdaşı, həmdəmi olan gözyaşlarıma qoşulub, kədərə, dərdə sarınıb, eyvana çıxdım. *Sevinc insana xəyanət edir, kədər heç bir vaxt...*

Dənizin sahilində üç-dörd it balası oynaşırdı. Gözümü onlardan çəkə bilmirdim. İlahi, bu küçüklər necə də xoşbəxt idilər. Onlar hoppanıb-düşür, quyruqlarını bulaya-bulaya özlərinə Allah saydıqları sahiblərinə sarı qaçırdılar. İlk dəfə idi aşıb-daşan heyvan sevinci görürdüm. Deyəsən, bu zavallı küçüklərin it xoşbəxtliyinə həsəd apardım, onların sevincindən pay umdum. Dəlicəsinə onlardan biri olmağı arzuladım... və hönkürdüm... əlimlə üzümü tutdum. Otağa keçdim. Sən şirin-şirin yatırdın. Xeyli müddət Sənə baxdım...

Bakıya israilli həkimlərin verdikləri dərmanlarla qayıdırdıq. Ağrıkəsici, sakitləşdirici, yuxu dərmanı, ağrıkəsici yapışqanlar, kimyaterapiya üçün preparatlar...

Gündəlikdən: *"Hər azarın öz iradəsi, öz xasiyyəti var, sevinclər isə bir-birinin eynidir..."*

Milli Onkologiya Mərkəzinə gedirik. Sən həmişəki kimi maşının qabaq oturacağında oturmusan. Züm-

zümə edirsən hansısa mahnını. Çox yanıqlı bir səslə. O səsdə çəkdiyin xiffətin, əzabın sızıltısını eşidirəm... Maşının aynasında sürücümüz Fərmanın dolmuş gözlərini görürəm. Ancaq deyə bildim: "Qaquş, nə şirin zümzümə edirsən..."

Sən danışardın ki, atan da maşının qabaq oturacağında oturar, bəzən "Turacı" havasını, *"Dad məni tutdular..."* misrasını zümzümə edərdi. Bəlkə, elə Sən də o havanı zümzümə edirdin? Bilmirəm...

*Möhkəm ol, Nuşa...* Son zamanlar tez-tez deyirsən bu sözləri. Sən məni sona hazırlayırsan, mən isə inanmaq istəmirəm Sona...

5.6.2014. Sənin ad günün. 75 illiyin.

Səhərdən ardı-arası kəsilməyən zənglər, təbriklər... Hansısa saytda oxuyuram: "Ölüm ayağında olan Xalq şairinin 75 illiyidir". Hiddətdən boğuluram. Nə insani, nə mənəvi çərçivəyə sığan düşkünlük. İnsani nə varsa, hər şey reytinqə qurban edilir. Yaxşı ki, Sən yatırsan, görmürsən. Zəng edirəm o sayta. Düzəldirlər. Axşam Azdramada dövlət səviyyəsində ilk və son yubiley tədbirindir. Neçə gündür vəziyyətin ağırlaşıb. Ayaqların şişib. Yubileydə iştirakın sual altındadır. Atan öz yubileyini radioyla dinləmişdi. Ölüm ayağında. 1956-cı il mayın 12-də. On beş gün sonra, mayın 27-də dünyasını dəyişdi. Sən belə paralellər aparmağı sevirsən. O gün də düşünmüsən bunu, bilirəm. Var gücünlə özünü toplayaraq: *"Gedəcəm",* – deyirsən. Heyrətamiz mərdliklə gedirsən yubileyinə...

Azdrama. Anşlaq. Səninlə sağollaşmağa gəlib camaat... Çıxışlar... "İstiqlal" ordeninin təqdimatı... Kon-

sert... Sonda lojadan Sənin çıxışın... Həyatında rol oynayan insanlara minnətdarlığın... və hamını kövrəldən sevgi etirafın: *"...Mənə 74 il yaşamaq lazım oldu ki, "sevgili" sözünün mənasını başa düşüm. Sən mənim həyat yoldaşım yox, sevgilimsən, Nüşabə..."*

Çiçək yağışı yağdı o gecə...

Gecədən xeyli keçmişdi, biz yatmırdıq. Səninlə qürur duyan Ayla mətbəxdə saysız-hesabsız gülləri ayırd edir, güldanlara qoyurdu. Biz çay içə-içə təəssüratlarımızı bölüşürdük – həmişəki kimi, xəstəliyi unudub... Bu yubiley gecəsi Sənə yeni güc verdi... yaşamaq gücü...

Gündəlikdən: *"Həyat dediyimiz ömür bölümünün son nöqtəsidir. Min dəfə desək ki, hamımız üçün bu nöqtə var, heç kim buna inanmır. Amma ölümə də inanmaq lazımdır. Ölüm də buna layiqdir..."*

– Vaqif, uşaqlıqda atam məni "Qadı", bəzən "Qadılar qadısı" çağırardı, yəni çoxbilmiş. Bəs Səni uşaqlıqda necə çağırırdılar?

*– Atam mənə Qabqı deyərdi.*

– Nəyə görəsə təəssüf hissi keçirirsən?

*– Əlbəttə...*

– Hansı dövrdə yaşamaq istərdin?

*– XX əsrin 20-ci illərində. O dövrün geyimləri zövqümə uyğundur. Ancaq sovet dövlətində yox.*

– Sənin həyat fəlsəfən?

*– Heç kəsə irad tutmamaq, insanlarla məsafə saxlamaq və ürəyini açmamaq.*

– Nəyə vaxtın çatmır?

*– Yaşamağa...*

– Nəyin qarşısında qırmızı işıq yandırardın?

*– Müharibələrə, epidemiyalara, kataklizmlərə qırmızı işıq yandırardım. Bir də ölümə qırmızı işıq yandırardım. Çünki çox yaşamaq istəyirəm... Yaşamaq mənimçün çox maraqlıdır...*

Təl-Əvivdə Səndən soruşdum: "İndi neçə yaşında olmaq istərdin?"

*"92 yaşında!"* – dedin.

Sağalmaz xəstəliklə mübarizə aparan insanın ürəkdağlayan cavabı. Daha çox yaşamaq arzusu... Öldürüb-diriltdi bu cavabın məni.

Gündəlikdən: *"Xəstələnəndən sonra başa düşdüm ki, mən həyatı çox sevirəm..."*

Həyat eşqiylə bağlı yadıma Sən yataqda olarkən çox kədərli bir məqam düşdü. Evi yığışdırmağa bizə Yevgeniya (Jenya) adında bir gənc xanım gəlirdi. Həyat yoldaşının biznesi dağılandan sonra ailəsinə kömək etmək üçün evlərdə yır-yığış işləri görürdü. Öz xarici görünüşünə görə Jenya dünyanın hər hansı podiumunu bəzəyə bilərdi. Xurmayısaçlı, mavigözlü, boylu-buxunlu bu xanım həm də kövrək, isti ürək yiyəsi idi. Sən olduğun otağın yığışdırılmasına heç cürə razılıq vermirdin. Səni dilə tutmaq üçün dedim ki, ancaq otağın tozu alınacaq və Sənə heç bir narahatlıq verməyəcək. Bir də əgər Sən o xanımı görsən, vallah, ürəyin açılacaq. Razılıq verdin. Jenya otağına girəndə dedim: *"Qaquş, bax gör nə gözəl xanımdır".* Bu zaman Sən güclə də olsa, başını bir

qədər yastıqdan qaldırdın, Jenyaya baxdın. Soruşdum: "Düzdür, qəşəngdir?" Gözlərinlə təsdiqlədin. Jenya qızardı.

2014-ci ilin yanvar ayında "Torqovı"da kinorejissor Eldar Quliyevi görmüsən. Eldar Səndən soruşub:

– Vaqif, çem ya smoqu tebe pomoç? (Vaqif, necə kömək edə bilərəm Sənə?)

*– Eldar, etot film snimaet Azrail, a tı pomojeş emu v montaje... (Eldar, bu filmi Əzrayıl çəkir, sən isə ona montaj işində kömək edərsən...)*

Xəstəliyini gülüş hədəfinə də çevirirdin...

Feysbukda yazışmalarında xəstəliyinlə bağlı suallara qara yumor dilində cavab verirdin. Sanki əylənirdin xəstəliyinlə... Cavanlığımda sevdiyim yeməklərdən biri xərçəng və pivə idi. İndi pivəsiz xərçəng yeyir məni... Ünsiyyətə daha çox ehtiyac duyurdun. Dostlarla, həmkarlarınla görüşürdün, bu Sənə müsbət enerji verirdi. Belə görüşlərin birindən qayıdanda dedin: *"Nuşa, Ramiz Rövşən məni qucaqlayanda gözləri doldu, kənara çəkildi".*

Gündəlikdən: *"Çox gözəl şair, son dərəcə mehriban insandı Ramiz. Nə yaxşı ki, bizdə belə adamlar var".*

Xəstəliyini aldatmaq istəyirdin. Lazımlı, lazımsız şeylər alıb: *"Özümü sevindirirəm",* – deyirdin. Təl-Əvivdə gümüş, yaqutqaş üzük alanda dedin: *"Nuşa, anamın səsi gəldi qulağıma: "Oğul, al bu üzüyü, sənə düşəcək...""* Dükanda sarı rəngdə jilet görəndə dedin: "*Yusifin səsi gəldi qulağıma: "Vaqulya, mütləq al bu jileti, sənə düşəcək...""*

– Qaquş, bəs papanın səsi qulağına gələndə nə almaq istəyəcəksən?

– *Yox, ona gücüm çatmaz!*

İkimiz də ürəkdən güldük...

*"Bir ayağım gordadır, bir ayağımla şıllaq atıram..." Ən çətin, ağır anlarda belə Sənin zarafat etmək bacarığın... Bu böyüklüyünün qarşısında baş əyirəm... Sən bütün varlığınla bildirmək istəyirdin ki, mən yaşayıram, xəstəlik mənimçün həyatın sonu deyil...* Çəkini itirmisən, yeni çəkinə uyğun əyin-baş alır, zövqlə geyinirsən həmişəki kimi. Kimyaterapiyadan saçların tökülüb. Gur saçlarını dibindən qırxdıranda mən içimi yedim, Sən: *"Yüngülləşdim",* – dedin. Zahirən dəyişmisən. Quruya oxşayırsan. Bütün daxilin üzündədir. Yüksək düşüncə qabiliyyətinə malik insan...

Şlyapa, araqçın qoydun, müvazinətini saxlamaqçün əlinə əsa aldın. Yeni obrazda: *"İndi İsfəndiyar dayıma oxşayıram",* – deyirsən. Əynində jiletli kostyum, jiletinin cibində zəncirli cib saatı, başında şlyapa, əlində əsa. Aram, inamlı yeriş. Əsl bəy... Küçədə gəzəndə zəncirli saatı cibindən çıxardıb baxmaq üçün mənə deyirsən: *"Nuşa, tez-tez məndən saatı soruş..."* Mən də yol boyu gülə-gülə bir neçə dəfə Səndən saatı soruşuram.

İlahi, o dəqiqələrdə də biz xoşbəxt idik...

Təl-Əvivdə tez-tez getdiyimiz aptekdə rusdilli qızlar işləyirdilər. Bizi köhnə tanışları kimi qarşılayır, Səni dövrəyə alır, əhvalını soruşurlar. Sən də öz zarafatlarından qalmır, onlara xoş sözlər deyirsən. Mən

aptekə tək gələndə qızların sualı Səninlə bağlı olurdu ancaq. Mənə deyirdilər: “Vı sçastlivaya jenşina, çto u vas takoy muj...” (Siz xoşbəxt qadınsız ki, belə əriniz var...)

Mən aptekdəyəm. Sən yaxınlıqdakı kafedə oturub qəhvə içir, qəlyan çəkə-çəkə gəlib-gedənləri seyr edirsən. Əl telefonuma zəng edirsən, *“Sənə sürprizim var, tez gəl”,* – deyirsən. Gəlirəm. Üzündə sevinc dolu təbəssüm: *“Nuşa, gitara almışam. Qabaqlar gitarada çalmağı bacarırdım axı, gərək məşğul olum ki, yadıma düşsün. Hirslənmirsən?”*

Mən çexoldakı gitaraya baxıb, hər şeydən öncə, onu necə aparacağımı düşünürəm. (Sənə ağır şeylər qaldırmaq olmazdı). “Yox, niyə hirslənim ki?” – deyib üzündən öpürəm.

Yadındadır, bir dəfə Səndən soruşmuşdum:

– Hansı musiqi aləti olmaq istərdin?

*– Altısimli gitara. Onun ilahi səsi var.*

*Bir təmiz gitar akkordu...*
*Bir təmiz musiqi nəfəsi dəyə üzünə*
*şam ağaclarının arasında*
*yarpaq mehiylə əlbir olub.*
*Musiqiylə təbiətin müttəfiqliyi...*

Hotelə gələn kimi gitaranı çexoldan çıxartdın, kökləməyə başladın. *“Yox, əllərim heç zad hiss eləmir. Kimyaterapiyanın təsiridir”,* – dedin. Sonradan dəfələrlə gitarada çalmağa cəhd etsən də, nəticə həmin oldu... Yaxşı ki, tütəkdə, dodaq qarmonunda çalmağına mane olmadı...

Kimyaterapiya xəttini də dəyişdi. Bloknotunda yazılar azaldı. Bloknotundakı son yazılarından biri:

*"7.1.2014. Daha Bakıda və Təl-Əvivdə dükan qalmadı. Abırlı kəfənlik satan tapa bilmədim. Yudaşkinlə (tanınmış rus modelyeri) Moskvada Səlim Vəkilov danışıb. O tikəcək..."*

2014-cü ilin fevral ayında Betti Bleyer və Jalə Qəribova bizə gəldilər. Sarışın, hündürboy, mavigözlü bu mehriban xanım "Azerbaijan International" jurnalının yaradıcısı və baş redaktoru idi. Jurnalın hər səhifəsi bu xanımın Azərbaycana, onun mədəniyyətinə, sadə adamlarına sevgi etirafı ilə nəfəs alırdı...

Betti sadə, sakittəbiətli insan təəssüratı yaratsa da, görünüşünün arxasında mübariz bir xanım dururdu. Betti bizə Jalə Qəribovayla gəlmişdi. İngilis dilini gözəl bilən ağıllı, təmkinli Jalə xanımın professional səviyyədə etdiyi tərcümələr Bettiyə yardımçı olub həmişə. Betti bu dəfə Səndən müsahibə almaq üçün deyil, kompüterdə ingiliscə şeirlər kitabının hazır variantını göstərmək üçün gəlmişdi. Həm də xəstəliyindən xəbər tutmuşdu. Əsl loğman kimi özüylə Amerikadan bir torba vitamin, qidaya bioloji əlavələr, bir də böyük bir məlumat kitabçası gətirmişdi. Kitabçadan gətirdiyi hər bir vitamin haqda məlumatı oxuyur, Jalə tərcümə edir, mən də deyilənləri yazırdım. Dönə-dönə onları içməyini xahiş edirdi. *"Mənim kimyaterapiyama "Betti terapiya" da əlavə olundu"* deməyin əhvalımızı açdı.

Betti bu xəstəlikdən atasını itirmiş, indi də anası yataqda idi. Bizim ağır günlərimizdə Bettinin biganə

qalmaması, Sənin xəstəliyini öz yaxınının dərdi kimi qəbul etməsi, ürək yanğısıyla yanaşması onun Sənə olan münasibətinin ən təsiredici məqamıdır, məncə. Betti kitabın nəşrinə Sənin razılığını alıb, Amerikaya qayıtmalı idi. Kitabın üz qabığı Sənin ürəyincə olmasa da, nəşrinin vaxtının uzanmaması üçün razılaşdın. Çünki kitabının Amerikada nəşri söhbətindən nə az, nə çox, düz 19 il keçirdi. Sən nəşrin xərcini öz üzərinə götürmək istədin. Jalə xanım dedi: "İnciyər, deməyin".

Yadıma Bettinin bizə ilk gəlişi düşdü. Betti Jalə xanım və Məzahir Pənahovla gəlmişdi onda. Biz o zaman Xaqani küçəsində yaşayırdıq. Səndən "Azerbaijan International" jurnalına Səməd Vurğun haqda müsahibə almaq üçün. Sonralar hər Bakıya gəlişində bizə də gəlirdi. Hər sahədə – istər tarix olsun, siyasət olsun, istərsə də ədəbiyyat, ya musiqi olsun – Səninlə söhbət etmək, fikrini bilmək Bettiyə maraqlı idi. Gecədən xeyli keçmişə kimi söhbətlər, sual-cavab davam edirdi. Bu söhbətlər yorucu olmurdu. Çünki Sən vardın, Sənin arada danışdığın məzəli əhvalatlar, etdiyin zarafatlar vardı. Betti deyirdi: "Sizə gələndə istirahət edirəm". Betti evimizin yaxınına çevrilmişdi. Səni bir istedad, bir insan kimi çox istəyirdi. Sən də ona ərkyana *"əmiqızı"* deyirdin. Poeziya sevməyən Bettini Sənin şeirlərin məftun etmişdi.

*Meşədə də*
*adam öldürürlər,*
*Allah,*
*o qədər ağacın*
*gözü qabağında!*

Meşə saflıqdır, gözəllikdir. Ağaclar canlıdır, bu məkanda cinayət törətmək günahdır, buranı ləkələmək olmaz... Bettinin özünün dediyi kimi, diksindirmişdi bu şeirin onu. Sənin poeziyandan təsirlənən Betti özü şeir yazmağa başlamışdı. *"Mən Amerika ədəbiyyatına Betti Bleyer adında şair bağışladım".* Bu sözləri Sən Rafael Hüseynovun direktoru olduğu Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində 75 illiyinə həsr edilmiş tədbir çərçivəsində ingilis dilində nəşr edilmiş *"Zülmətdən Günəşə şərqi..."* kitabının təqdimat mərasimində dedin (2014-cü ilin sentyabrında). Bu kitaba görə Bettiyə öz minnətdarlığını bildirdin. Çıxışın çox kədərli, təsirli oldu... *"Son vaxtlar əlim nə fortepianonu tutur, nə də qələmi... Deməyə söz çoxdur, ancaq o sözlərin qarşısını "xərçəng" adlanan bir açar bağlayıb. Yaxşı ki, düşünməyə mane ola bilmir, arzulara mane ola bilmir... Ölümdən qətiyyən qorxmuram, səmimiyyətimə inanın, zərrə qədər də ölümdən qorxmuram, çünki mən onu tanımıram..."* Və hamını yasına dəvət etdin...

Gözlənilmədən royal arxasına keçdin... Son dəfə...

İnternet səhifələrində ingiliscəyə çevrilmiş şeirlərin yayılırdı. Çoxlu rəylər yazılırdı. Belə rəylərdən birini Abdul Əziz adlı Banqladeşdən olan bir iş adamı yazmışdı. O, Bakıya işiylə bağlı tez-tez gəldiyini, Səninlə tanış olmaq arzusunu bildirirdi. Sən heç bir vəchlə bu görüşə razılıq vermək istəmirdin. Xəstəliyinlə bağlı halsızlığını səbəb gətirərək görüşü iki dəfə təxirə saldın. Biznesmen Bakıya növbəti gəlişində Səninlə görüşmək üçün yenidən izin istədi.

Dedi ki, mən onun vaxtını çox almayacağam. Yalnız o böyük şairin əlini sıxmaq istəyirəm. Sən yenidən görüşü təxirə salmaq istəyəndə dedim: "Vaqif, heç olmasa bir nəfər azərbaycanlı iş adamının adını çək ki, getdiyi xarici ölkədə onların şairi, yazıçısıyla görüşmək istəsin..."

2014-cü ilin oktyabrında biz bağdan döndükdə Abdul Əziz tərcüməçiylə bizə gəldi. Ortaboy, Şərq görünüşlü, orta yaşlarında olan Abdul Əziz ona vaxt ayırıb qəbul etdiyin üçün Sənə böyük ehtiramını, minnətdarlığını bildirdi. Çəkinə-çəkinə bir stəkan çay içdi. Bizə iki qutu çay, bir də mirvari boyunbağı gətirmişdi. Səndən ingilis dilində iki kitab istədi. Birini özünə, o birini ölkəsinin Milli Kitabxanası üçün. Bir də Səninlə şəkil çəkdirməyi xahiş etdi. Özünün dediyi kimi, həm bu gözəl gündən bir xatirə olaraq, həm də övladlarına, nəvələrinə böyük şairi tanıtmaq üçün...

– Vaqif, 1995-ci ildə mənə yazdığın bu şeir yadındadır?

*Bəlkə də, bu sağlamlıq*
*Bir gün gözə gələcək,*
*Canım taqətdən düşüb,*
*Ölgün sizə gələcəm...*

*Hər quş səsi, hər çiçək*
*Çiynimə yük olacaq,*
*Ən nazik ipək köynək*
*Əynimə yük olacaq...*

*Yuxudan yorğun durub,*
*Güzgüyə baxacağam,*
Özümü görə-görə
*Özgəyə baxacağam...*

*Ən pis qara yuxular*
*Çin olur qocalıqda,*
*Bir azarı vur üçə,*
*Min olur qocalıqda...*

*Bəlkə də, ruha dönüb,*
*Gözə gələ bilmədim.*
*Bağışla, bəlkə, ölüb,*
*Sizə gələ bilmədim...*

Sən gedəndən sonra bu şeiri təkrar-təkrar oxuyur, oxuduqca da dəhşət bürüyürdü məni. 20 il sonra bu şeirdə dediklərin misra-misra, kəlmə-kəlmə çin oldu. Belə sevgi etirafı olarmı yenicə birgə həyata başladığın qadına? Yəqin, olur, əgər bu etirafı Vaqif Səmədoğlu edirsə. Sən özün də bilmədən, şüuraltı olaraq ilk gündən məni Sona hazırladın... və taleyinin S O N unu yazdın bu şeirdə...

Yenicə evlənmişdik, məni *"mama"* deyə çağırdın. Bu mənim xoşuma gəlmədi: "Sevdiyin qadına "mama" demək nə dərəcədə doğrudur?" Və bununla bağlı öz fikrimi izah etməyə başladım. İlahi, necə hirsləndin. Mənim dediklərimi alt-üst etdin. Yavaş-yavaş alışdırdın məni "mama"ya. Hər zaman öz balasının arxasında duran, başını tumarlayan, onun hər şıltaqlığını, kürlüyünü bağışlayan, nazını çəkən,

dərdinə qalan, onun üçün canından keçməyə hazır olan “mama”ya. Bilirsən bunu nə vaxt dərk etdim?

Təzə evlənən vaxtlarımız idi. Kefin bir az kök idi. Eynəyini çıxartmışdın. Nəsə dodaqaltı şirin-şirin deyinirdin. İki əlimlə başını tutub, dinməz-söyləməz gözlərinin içinə baxdım. Gözlərini iri açıb, üzümə baxırdın. Çaşdım. İlahi, o iki cüt saf, təmiz gözlərdən mənə bir uşaq baxırdı. Oğlan uşağı. Başını qucaqlayıb, bağrıma basdım. O gün qəti anladım ki, o gözlərin yiyəsini heç vaxt tərk edə bilmərəm...

Bir dəfə Xavər xanım bizdə olanda “mama”yla bağlı məzəli bir vəziyyət də yaranmışdı. O, qonaq otağında, mən isə mətbəxdə idim. Sən təzə gəlmişdin. Kabinetində ucadan “mama” dedin. Xavər xanım və mən ağız-ağıza verib: “Ay can”, – dedik. Ağzımı tutdum, mamanın bizdə olduğunu unutdum bir anlıq. Sən gülə-gülə kabinetdən çıxdın. Amma, xoşbəxtlikdən, Xavər xanım mənim səsimi eşitməmişdi. Yoxsa deyərdi ki, gəlin analıq haqqımı əlimdən alıb...

Son illər uşaq anasız dura bilmədiyi kimi, Sən də “mama”sız dayana bilmirdin. Tez-tez deyirdin: *“Nuşa, otur sənə baxım, səsini eşidim...”* Qolumdan bərk-bərk tutanda, Sənə qulluq göstərəndə, üzümə məhəbbət dolu gözlərlə baxanda anlaşılmaz hisslər bürüyür məni. Ürəyimi yarıb, içinə qoyub, qorumaq, qorumaq istəyirəm Səni... Bu gününçünmü mənə “mama” deyirdin? Bu gününümü fikirləşib yazmışdın: *“Yaşlı kişinin yanında yaşsız qadın olmalıdır...”*

Yox, qoruya bilmədi “mama” öz “balası”nı... Bağışla...

2014-cü ilin yayında özünü daha yaxşı hiss etməyə başladın. Heç kimə demir, içimdə sevinirdim. Düşünmək istəyirdim ki, xəstəlik əl çəkmək istəyir Səndən. Əhvalın da düzəlirdi. Ancaq, sən demə, bu, amansız xəstəliyin fitnəsi imiş... Payızdan zəifləməyə başladın...

Ağrıyan insana ağrısız yaşamaqçün çox yox, yarımca saat da böyük səadət imiş, ay Allah...

Gündəlikdən: *"Görən, hansı şeirin əlindən sağ çıxmayacam..."*

Ağrıdan yaranan şeir... Son şeirin... 2014-cü ilin oktyabrı...

*İlahi,*
*yatağın nə sağında,*
*nə solunda,*
*nə bir gözəlin qolunda*
*yatmaq istəyirəm.*

*İlahi,*
*nə söyüd kölgəsində,*
*nə dünyanın*
*ən azad ölkəsində*
*yatmaq istəyirəm.*

*İlahi,*
dar quyu dibində,
*qaranlıq nəm içində,*
*işıqlı qəm içində,*
*ağrısız*
*yatmaq istəyirəm...*

Yenidən İsrailə getmək təklifi. Əsas Sənin istəyin idi. Çünki həkimlərin nə fikirdə olduğunu artıq bilirdim. Sən getmək istədin. Bu dəfə xüsusi təyyarədə, həkim nəzarətində getdik. Bizi təcili yardım maşınında "Assuta" xəstəxanasına gətirdilər. Klinikada yoxladıqdan və hər hansı tibbi əlacın mümkünsüzlüyünə tam əmin olandan sonra bizi Təl-Əvivin mərkəzində yerləşən reabilitasiya mərkəzinə köçürdülər. Çox işıqlı, ürəkaçan, girəcəyindən yuxarı mərtəbələrə kimi ağ mərmər döşənmiş 4-5 mərtəbəli, bayırdan beşulduzlu hotelə bənzəyən bina. Ancaq bura çox cansıxıcıdır. Hər mərtəbədə xəstələr vəziyyətlərinin ağırlığından, yüngüllüyündən asılı olaraq yerləşdirilirlər. Bizim mərtəbədə sərbəst hərəkət edə bilməyənlər, əsasən, yaşlılardır. Yanlarında baxıcı qız. Kişi baxıcı da görmək olur. Hamı həkim nəzarətindədir. Gündə bir neçə dəfə təzyiq, şəkər yoxlanılır. Müvafiq dərmanlar verilir. Hər mərtəbənin öz yemək salonu. İstirahət günləri xəstələrin yaxın qohumları uşaqlı-böyüklü o salona yığışır, musiqi sədaları altında yeyib-içir, deyib-gülür, xəstəyə xoş əhval yaşadırlar. Sonra qohumlar dağılışır və bir həftə keçəndən sonra yenidən xəstənin ziyarətinə gəlirdilər.

Bura Səni darıxdırır. Yeriməyin lap çətinləşib. Əlil arabasındasan. Siqaret çəkməkçün Səni bir mərtəbə aşağıdakı oranjereyaya aparıram. Bir-iki saat orada olursan. Cavanlarla söhbət edirsən...

Əzab çəkirsən... Məni incitdiyinə görə tez-tez üzr istəməyin məni kövrəldir... Oradakı həkim mənə dedi:

– Sledite i vı za svoim zdorovyem. (Siz də öz səhhətinizə fikir verin).

– Vsyo normalno. Dlya menya qlavnoye eqo sostoyaniye. A on perejivaet za menya, dumaet, cto muçaet menya, izvinyaetsya. (Hər şey qaydasındadır. Mənimçün əsas onun vəziyyətidir. O isə mənə görə narahatdır, düşünür ki, mənə əziyyət verir, üzr istəyir).

– A skolko let vı jenatı? (Neçə ildir evlisiz?)

– 20 let, no znakomı 27 let. (20 ildir, amma 27 ildir tanışıq).

– Stolko let vı vmeste i on izvinyaetsya... Nastoyaşiy mujçina. Duşa xoroşaya. (Neçə ildir bir yerdəsiz, yenə də üzr istəyir. Əsl kişidir. Ruhu gözəldir).

Aqarunov, Turan xanım, Arye Qut və başqa tanışlar vaxtaşırı Sənə baş çəkirlər. Bir gəlişlərində də İsrail Yazıçılar İttifaqının nümayəndəsi ilə Sənə İsrail Yazıçılar İttifaqının üzvlük kartını təqdim etdilər. Xəstə ikən sevinc duymaq çətindir...

Yanına bir qrup həkim gəldi. Sənə bioloji üsulla müalicə təklif etdilər. "Sağalmaq şansı çox cüzi olsa da, təcrübədən keçirmək olar", – dedilər. *"Ya ne podopıtnıy krolik" (Mən təcrübə dovşanı deyiləm),* – deyib rədd etdin bu təklifi. Onlar gedəndən sonra mən "Qaqu, bəlkə, razılıq verəsən" dedikdə: *"Qurtardı söhbət, Nuşa, evə qayıdaq",* – dedin.

9 dekabrda Bakıya dönürük. Səninlə sağollaşmağa gələnlər kövrəliblər, Sən də pərişansan. *"Nuşa, Bakıya ölməyə gedirəm..."* – dedin.

*Yağış yerə yetə bilmir,*
*Ömür zalım bitə bilmir,*
*Ölüm, yaman yordum səni,*
*Qaça-qaça, addım-addım,*
*Ölüm, səni çox yaşadım...*

Klinikadan dərmanları gətirdilər. Bəd fikirləri Səndən uzaq etməkçün dedim: "Vaqif, Tatyana dedi ki, dərmanları yarımillik veririk". Yenə yalan danışdım...

Təl-Əvivdən gələn gündən günbəgün, saatbasaat zəifləyirsən. Çarəsizlik lap öldürür məni. İsraildə son olaraq dedilər: "Əlimizdən nə gəlirdi, etdik. Onun indiyə kimi yaşamağı möcüzədir..."

Yuxuda tez-tez Yusifi görürsən...

Bakıda Milli Onkologiya Mərkəzinin həkimlərinin nəzarətindəsən. Evdə sistem qoyulur Təl-Əvivdən gətirdiyimiz dərmanlardan. Xeyri yoxdur, bilirəm. Bu ancaq Səni inandırmaqçündür. Yorulmusan, bilirəm. Son ümid də puça çıxdı...

İki dünya arasında çarpışan Vaqifim...

*Nuşa, belə yaşamaq olmaz...*

Reallıq ağır gəlir Sənə. Xilasını yuxuda tapırsan. Hər şeydən əli üzülən, qalan ömrünü yuxuda keçirmək istəyən Vaqifim...

*Bu dünya yuxu bazarıdır,*
*onun səs-küyündən tutulub*
*Allahın qulaqları.*
*Ömür bu bazarda satılan mal imiş,*
*satılır yuxulara bükülüb...*

Xəstəlik uzananda ətrafdakılar üçün də adiləşir xəstənin vəziyyəti. Zənglər azalır...

Bu gün Yeni ildir. 2014-cü il dekabrın 31-i. Bilirəm, bu bizim sonuncu Yeni ilimizdir. Mirvari Sənin sevdiyin yeməkləri hazırlayır. Səni heç nə sevindirmir. Axşam Nigarla qızı Məryəm gəldilər. Sən 21:30-a kimi bizimlə oturdun. Yarım dilim çörəklə qırmızı kürü, bir tikə paştet yedin. Dedin bəsimdir. Yerinə uzandırdım. Qızlar Nigargilə getdilər. Saat 23:50-də Anar zəng etdi. "Vaqif yatır", – dedim. Təəccübləndi, deyəsən. Düz saat 24:00-da otağına gəldim. Əlimdə bir bakal şampan şərabı. Sən yatırsan. Yavaşca qulağına pıçıldadım: "Yeni ilin mübarək, sevgilim..." Başından, üzündən öpürəm. Göz yaşı dadır şampan...

Bu gün dedin: *"Nuşa, otpusti menya..." (Nuşa, məni burax...)*

Bərk-bərk qucaqladım Səni... Gözlərini var gücünlə açdın, dinməzcə üzümə baxdın...

Ağrı çəkə-çəkə dedin: *"Nuşa, saçına boya qoy..."*

Təcili yardım maşını qapımızdan əskik olmur...

Yazıçının müqəddəs saydığın yazı masası döndü tibb masasına...

Acınacaqlı mənzərələrlə doldu ömrümüzün sonu...

*– Nuşa, bağışla, ya protivno kapriznıy (mən çox şıltaqlıq edirəm), nə olar, öldür də məni. Vallah, heç kəsə deməərəm...*

Mən gülümsədim, öpdüm üzündən. Sənin də solmuş bənizinə təbəssüm çökdü...

Gündəlikdən: *"Ölümüm də çap olunmamış şeirə bənzəyəcək. İlk oxunuşdan yadda əzbər qala-*

*caq bu şeirin bütün misraları. Əcəl vəznində yazılmış ilk və son şeirim..."*

İki günün içində halın tam dəyişdi. Gündə bir neçə dəfə təcili yardım maşını gəlir.

– *Nuşa, qara plaşlı adamı gördün? O tərəfə keçdi...*

Bu odur – Əzrayıl...

Bədənimdən elektrik keçir. Deməyə söz tapmıram. Bağırmaq istəyirəm, səsim çıxmır...

*Əzrayıl əsir götürmür...*

Gecəni yatmırsan. Çətin nəfəs alırsan. Otağa qəribə səs yayılır hər aldığın nəfəslə.

– *Eşidirsən, içimdə elə bil kran açılıb...*

Eşidirəm... Dinmirəm... Ürəyim elə bil çıxacaq yerindən. Hönkürməməkçün özümü sıxıram var gücümlə... Bilirəm, bu artıq sondur...

*Ölüm yetim kimi durub qapı dalında...*

Əllərini, ağzını silirəm. Əlimi dodaqlarına sarı gətirirsən. Dodaqların əlimə dəyir, taqətsiz əlimi buraxırsan, yanına düşür əllərin...

Səhər tezdən Mirvari Mehribana, Nigara zəng edir ki, gəlsinlər. Mehriban həyat yoldaşı Akşin Ziyadovla gəlir, sonra Nigar. Onları görən kimi gülümsəyirsən. Eynəyini çıxardıb, mənə verirsən. Onu pianinonun üstünə qoyuram. Soruşursan: "*Hara qoydun eynəyimi?"* Yerini göstərirəm. Ancaq Sən haldan-hala düşürsən. Mehriban deyir: "Nuşa, deyəsən, yatmaq istəyir, yəqin, iynənin təsirindəndir. Onlar gələndə təcili yardım hələ evdə idi. Soruşuram: "Qaquş, yatmaq istəyirsən?" *"Hə",* – deyirsən. Mehriban deyir: "Gəl

otaqdan çıxaq, yatmaq istəyir". O, otaqdan çıxır. "Yatmaq nədir..." – düşünürəm.

– Qaquş, özünü pis hiss edirsən?

– *Hə, pis... Nuşa, mən ölürəm...*

Yox... Üzümə gülümsəyirsən, göz vurursan... İlahi, Sən bu gücü haradan tapırsan...

– *Məni rahla, Nuşa...*

Rahlayıram. Özün də mənə kömək edirsən...

*Ölümümə bir az qalmış*
*Darayacağam saçlarımı...*

Sakitcə gedirsən... Şüurlu... Göz qapaqların yarı örtülür...

Gözlərini bağlayıram... Alnından öpürəm...

S o n... *Ömür həddən çox vaxt aparır...*

28 yanvar, saat 11:10...

*Bilmirəm ölüm yaxındır, ya uzaq,*
*Bilmirəm ölüm istidir, ya sazaq,*
*Ancaq onu bilirəm, mən ölsəm,*
*Nüşabə yazıqdır...*

Mən Səni itirdim... Bu, həqiqətdir. Bu dəhşətli həqiqətlə qaldım üz-üzə...

Robota dönürəm... Telefon zənglərinə cavab, bütün etdiyim hərəkətlər biixtiyardır... Ev telefonunun dəstəyini itirirəm... (3 ay sonra tapılacaq)... Özümü ələ almalıyam... çətindir... yoxluğunla barışa bilmirəm... tək qalmaq istəyirəm... var gücümlə qışqırmaq, bağırmaq, haray çəkmək istəyirəm... ancaq tək deyiləm... *"Nuşa, möhkəm ol".* Sözlərin qulağımda

səslənir... bacardığım qədər çalışıram, Vaqif... Niyə alışa bilmir insan oğlu əzizinin yoxluğuna xəstəliyini bilə-bilə... Hamıya cavab verməliyəm... Tükənirəm... Fərman təzə çapdan çıxmış ikicildlik "Dramaturgiya" kitablarını gətirir... gecdir...

*Bu kədərin ləkəsini qan da yumaz, göz yaşı da...*

Təbiət də Səni yola salır... Narın yağış yağır. Deyirlər, yağışın yağması həyatdan köçən yaxşı insan üçün təbiətin axıtdığı göz yaşıdır... Gün çıxır... Yanvar ayının sonu olur xoş bir yaz ayı...

*Ölümümə bir az qalmış*
*Göy üzü mavi olacaq,*
*Buludlar köpük-köpük...*

Səni yumağa aparırlar...

Bacımın kürəkəni Mətin dedi ki, məscidin həyətində qış vaxtı oxuyan quşlar haradan gəldi, bilmirəm. Elə bil quşlar yarışa girmişdilər bir-biriləriylə. Bir dənə də qarğa yox idi...

Xəbər yayılıb. Zənglər çoxalır. İsraildən, Türkiyədən... Evə gəlib-gedənlər də artır...

Sonuncu gün evimizdəsən... Nigar, Dilarə (qardaşım qızı), Mirvari mənə hayan oldular səhərə kimi...

29.1.2015. Səni Azdramaya aparırlar. Cənazən Azdramanın səhnəsinə qoyulur. Səninlə vidalaşma saatları... Kamil Cəlilovun qaboyu səslənir. 20 Yanvar günlərini yada salır... Şairi şeirləri... şeirlərinə yazılan musiqi yola salmalıdır...

1995-ci il. Xaqanidəki evdə üz-üzə oturub, Bill Evansın "All Mine" kompozisiyasına qulaq asırdıq.

Siqaret çəkə-çəkə dedin: *“Nuşa, məni bu musiqi ilə dəfn edərsiz...”*

Bağışla, sevgilim, bu mümkün olmadı. O günün ssenarisi Sən istədiyin kimi yazılmadı... Çıxışlar başlayır... üzüntü, qüssə-kədər əl çalır onlara...

*Niyə, görəsən, adam bilmək istəyir*
*kim nə deyəcək o öləndə?*
*Kim necə ağlayacaq onun meyiti üstə?*
*Neçin insan oğlu*
*gizli bir həsrətlə*
*öz dəfnini görmək istəyir?*

Fəxri Xiyabana gətirirlər Səni. Atan Səməd Vurğun qoynunu açıb Səni gözləyir. Yusif sağ qolunda, Səni də sol qoluna alacaq indi uşaqlıqda olduğu kimi...

Ömrünün son çiçək yağışı yağdı... torpağına sarıldı, torpağınla öpüşdü çiçəklər... çiçəklərin arxasından dünyaya, həyata gülümsəyən şəklin ucalır...

Gündəlikdən: *“Mən o dünyada bu dünyadan şikayət etməyəcəyəm. Yalnız yaxşılıqlardan danışacağam”.*

Həmin gün bir bayraq endi Sənin adınla...

*Ağlıma bir fikir gəlir*
*Yalqız şərab içəndə,*
*Bir bayraq da enməyəcək*
*Mən dünyadan köçəndə...*

Gənc ədib Sərxan Carçı bu şeirini oxuyaraq, evində olan Azərbaycan bayrağını endirdi...

Vaqifsizliyə boyanmış evimizə qayıdıram... Şeirinlə Səni çağırıram...

*Sinəm bəd harayla dolub,*
*Qovruluram yana-yana.*
*Bir əlac tap, qurban olum,*
*Səsin hardadır, Vaqif?*
*Bel bağlaya bilməyirəm*
*Nə doğruya, nə yalana.*
*Yerini itirmişəm,*
*Səsin hardadır, Vaqif?*
*...Milyon insan səhrasında*
*Yalqızlıqdan dona-dona*
*Günəşlə aram soyuyur,*
*Səsin hardadır, Vaqif?*

(Son misralarda "səsim"i "səsin"lə, "ay ana"nı "Vaqif"lə əvəz etdim).

2005-ci ildə Sən Strasburqda olanda yazmışdım:

*Sən Strasburqdasan...*
*Darıxıram desəm, yalan olar.*
*Sənsiz mənsizləşmişəm...*
*Elə bil məni bölüblər yarı,*
*Yarım gedib yarıma sarı,*
*Rəngim olub sarıdan sarı,*
*Ey Ayrılıq, gəl yaramı sarı...*

Səhər zəng etdin. Soruşdun: *"Necəsən?"* Yazdığım şeiri oxudum. Dedin: *"Bəh, bəh, lap Tufarqanlı sayaqdır ki..."* Bir neçə gün sonra Sən qayıtdın. Gəlişin yaramı sarıdı...

Mən o şeiri yazanda nə bilərdim ki, 10 il keçəcək və onun ağrılı davamını yazacam...

Arada qısa ayrılıqlar olurdu. Ancaq nə Sən özünə,
nə mən özümə qıyırdım uzunmüddətli həsrəti...
Dünya fırlanırdı Sənin ətrafında...
Fələk hökmünü verdi...
İnamı ümidə, ümidi duaya bağladıq. O da qırıldı...
Fələk bizdən güclü çıxdı. Bizi ayırdı...
Dayandı vaxt, dayandı baxt...
Dünya kiçildi, yadlaşdı ətraf...
İndi gəl yaşa, ümidsiz, inamsız, bu sıxılmış məkanda,
Üzünü arxaya, dünənə çevirmiş məhəbbətinlə.
İki zaman ayrıcında vurnuxa-vurnuxa: keçmiş və indiki...
Dünəni bu gün yaşamaq... Yaşamaq və yaşatmaq...
Sənin yoxluğundan bir Sən toxumaq,
Sənin xatirələrindən, yazılarından, əşyalarından...
Bu günümün ən sadiq, ən etibarlı həmdəmlərindən.
İlahi, xatirə də insana arxa olarmış...
Hər səhər otağınla salamlaşır, gecələr sağollaşıram,
Sənə boyanmış, Səndən nurlanmış otağınla.
Necə də yüngül nəfəs alınır orda,
Hər əşyada Sənin nəfəsin, əl izlərin...
Əşyalar da yetim qalarmış, ay Allah...
Ən böyük yetimliyi onlar duyur, bəlkə də,
Nə dil deyə bilirlər, nə ağı Sənin üçün...
Toxunuram onlara...

İçimdəki həyəcana necə tab gətirirəm, özüm də bilmirəm.
Araqçınını sıxıram sinəmə bərk-bərk...
Öpüşürəm içində qalan ətrinlə...
İlahi, necə də doğma öpüşdür bu,
Həyatımın ən ehtiraslı, ən dadlı, ən şirin öpüşü...
Dodağımda təkliyimin dadını hiss edirəm,
Heç kimə arzulamadığım bir öpüş, bir dad, Sevgilim...

Gündəlikdən: *"Yazıçının, yaradıcı insanın iki ömrü var: biri yaşadığı dövr, digəri isə ölümündən sonrakı dövr. Və həyatda insan ömür parasını yaşayanda bu ömür parasına ilk addımdan başladığı kimi, öləndən sonra da ölüm həyatına ilk addımdan başlayır".*

Vaqif, başladı dediyin o ikinci ömür dövrün...

Yazı masan, başqa əşyaların gəldi muzeyə. Yer az olduğundan əşyalarının çoxu evimizdəki kabinetində qaldı. Qəribədir, bu əşyaları elə bil indi başqa cür görürəm. Yox, onlar dəyişməyib. Onlara baxışım dəyişib. Sənsizlikdən baxan gözlərim...

Əşyaların muzeydə olan başqa əşyalara qovuşdu. Atanın, ananın, qardaşının, bacının əşyalarına. Təsəvvür edirəm, onlar yiyəsi haqda necə maraqlı hekayələr danışa bilərdilər. Böyük həvəslə, məhəbbətlə alınan bu əşyalar indi bu səssiz-səmirsiz məkanda hayan olar bir-birinə...

Sənin adına mərkəz, Poeziya Teatrı yaratdıq, adına medal təsis etdik. Bu işdə ailənizə, xüsusən də Sənə

böyük sevgi bəsləyən Səməd Vəkilov yardımçı oldu. Hüquqşünas kimi onun məsləhətləri yerinə düşür.

Görən, mənə nə deyərdin Sənsiz gördüyüm işlərə? Nə replika, atmaca atardın? Axı həmişə Səninlə məsləhətləşmişəm, razılaşdırmışam görəcəyim işləri. Sənin fikrin mənimçün önəmli olub axı həmişə.

Mən ilk dəfə bu muzeyə Səninlə gəldim. Gəncliyin keçən məkana. Sən burada şair kimi, pianoçu kimi yetişmisən. Otaqları mənə göstərdin. Royalda çaldın. Unutdum ki, muzeydəyəm. Sən də özünü evdəki kimi hiss edirdin. Yəqin, xeyli müddət yaşadığın, xatirələrlə dolu evi sonradan muzey kimi qəbul etmək çətin olur. Eyni hissi Xavər xanımda, Aybəniz xanımda, Aygündə görürdüm... Xavər xanım desə də ki, bu evdə xoşbəxt olmadım, düşmədi bu ev mənə, ancaq burada rahatlıq tapırdı o. Xavər xanım uzaqgörənliklə Səməd Vurğunun əlyazmalarını, ona mənsub olan əşyaları göz bəbəyi kimi qoruyub saxlayıb. Xavər xanım deyirdi: "Səmədin əzib zibilliyə atdığı əlyazmalarını götürüb, sığallayıb bir qovluğa yığırdım. Onun böyük şair olduğunu hiss edirdim və nə vaxtsa ona muzey açılacağına ümid edirdim". 20 ilə yaxın bu əşyalar öz növbəsini gözlədi. Xavər xanımın böyüklüyü həm də ondadır ki, atanın arxasında onun istedadına qiymət verməyi bacaran qadın oldu. Qızı Aybəniz ömrünü atasının yaradıcılığının təbliğinə həsr etdi. Cismani yoxluqla sevgi yox ola bilməz. Görülən bütün işlər bu sevgidən güc alır.

Mənim heç ağlıma da gəlməzdi ki, zaman ötəcək, ardıcıl itkilər olacaq və tale məni bu muzeylə bağla-

yacaq. Bu gün mən Yusif Səmədoğlunun ömür-gün yoldaşı Nəmidə xanıma minnətdaram. Onun inadkarlıqla "Yusifin əşyalarını mən ancaq sənə etibar edə bilərəm" deməsi məni muzeyə rəhbər gəlməyə inandırdı. Sən bu dünyadan köçəndə dedim: "Vaqif, mənə Sənsizlik reseptini qoymadın..." Sən demə, bu resept muzey olacaqmış... Sənin adınla görəcəyim işlər olacaqmış... Muzeydə Yusifə, Sənə həsr olunan ekspozisiyalar, Xavər xanımın, Aybəniz xanımın guşələri yaradıldı. Bu işləri istedadlı xalçaçı-rəssam, nurlu xanım Afaq Kərimovanın dəstəyi ilə gördüm.

– Vaqif, bütün etdiklərimin adı həm də təskinlikdir. Qalan ömrümü təskinlikdə tapıram, təskinliklərlə doldururam günlərimi...

Evdəki kabinetinə Ayla bir il girə bilmədi. Mən hər dəfə kabinetinin yanından keçəndə yumruğumu sıxırdım özüm də hiss etmədən. Sonradan bu misralar yarandı:

*Sənsiz qalan günlərimi*
*yığdım ovcuma...*
*Beləcə,*
*bir ovuc ömürlə*
*Sənsiz həyatımı*
*vururam başa...*

2017-ci il iyun ayının 6-da Parisdə Azərbaycanın Fransada tanıdılması, mədəniyyətinin, tarixinin təbliğinə xidmət edən Azərbaycan Evində fransız dilində Sənin *"Mən bir gün təbəssüm olmuşdum..."* kitabının təqdimatını keçirtdim. Tədbirin təşkilində

Azərbaycan Evinin sədri, vətənpərvər xanım Mirvari Fətəliyeva öz köməyini əsirgəmədi. Şeirlərini fransızcaya bu dilin bütün incəliklərini bilən Aliyə xanım Səmədova tərcümə etdi. "Vaqif müəllimin şeirləri mənim ruhumu tutdu, bütün hisslərimi alt-üst etdi" deyən zəngin dünyası olan bu xanım Sənin poeziyanı dərindən duyub, içindən keçirərək fransız dilinə çevirmişdi. Həmin gecədə fransalı şair və ədiblər, jurnalistlər, Azərbaycanın Fransadakı səfiri iştirak etdilər. "Vaqif Səmədoğlu dünya ədəbiyyatında xüsusi çəkisi olan şairdir. O, dərin mənalı şeirlərini dünyanın ən mütəfəkkir söz adamları kimi sadə, həzin dildə yazıb..." Fransız mütəxəssislərinin Sənin şeirlərin haqda söylədikləri bu kimi fikirlər o deməkdir ki, Aliyə xanım orijinala xas olan əhvali-ruhiyyəni ustalıqla yarada bilib. Aliyə xanım Sənin şeirlərini fransızcaya tərcümə edə-edə özü də fransızca şeir yazmağa başlayıb. Betti Bleyer kimi.

Bu dəfə sevgililər şəhərinə Sənsiz getdim. Yaddaşımda isə ilk dəfə Səninlə Parisə getməyim, mənə bağışladığın sevinc... O zaman biz Parisdə altı gün qaldıq. Tanımaqdan ötrü çox az vaxt olsa da, vurulmaqçün kifayət idi. Ora çatdığımız gün qəribə hal yaşadım, heç bir başqa şəhərdə keçirmədiyim hisslər. Yadındadır, elə hey Sənə deyirdim: "Hər kəs burada tanış gəlir mənə, hər yer yaxın, doğma. Mən bunları görmüşəm axı..."

Sanki Hüqonun, Merimenin, Mopassanın qəhrəmanlarıyla birgə gəzirik ətrafı həmişə qaynayan Eyfel qülləsini, möhtəşəm Notrdamı, Parisin ən romantik

və gözəl bağlarından olan Lüksemburq bağını, gözəl, əyri-üyrü küçələri olan Monmartrı... Qarşımızda yerli bohem həyatının mərkəzi olan Monparnas, məşhur “Klozeri de Lila” kafesi... Heminqueyin ən sevdiyi kafe. Kimlər olmayıb burada: Emil Zolya, Pol Verlen, Oskar Uayld, Jan Pol Sartr... XX əsrin əvvəllərində burada keçirilən ədəbi gecələrə gələn yaradıcı adamlar kafenin ab-havasından və tünd qəhvəsindən ilham alırmışlar. Heminquey “Fiesta” romanını burada yazıb. Sənin də üzündən təbəssüm əskik olmurdu Parisdə olduğumuz günlərdə... Qaldığımız “Kastilyon” hotelinin yaxınlığında sevilən aktyor, rejissor Rober Osseynin adıyla tanınan, bədii rəhbəri olduğu “Teatr-Marinyi-Rober Osseyn”... Tikildiyi vaxtdan bu teatr binasının arxitekturasında dəfələrlə dəyişiklik edilib. Dairəvi formada tikilən teatrda XX əsrin əvvəllərinə kimi müzikl, balet tamaşaları böyük uğurla oynanılıb. Biz fəvvarəli bağçada yerləşən bu teatr binasını görəndə o, yenə də təmirə bağlı idi. Onun yanından keçəndə xəyalımda teatrın bağlı qapıları arxasında səhnə, Rober Osseynin özünəməxsus oyunu, “bravo” sədaları altında səhnəyə atılan güllər canlandı. Sənə bu xəyalımdan bəhs edəndə gülümsəyərək: *“Çox romantiksən...”* – dedin...

Qayıtdıqdan sonra yorulmadan Sənin çəkdiyin fotolara, filmə, bir də divardan asdığım portretimə baxır, ötəri də olsa, təsəlli tapırdım onlarla. Şəkildə anı saxlamaq olar. Şəkildə xatirələr donur. Portretimlə bağlı o donmuş xatirəni yaddaşım əridir, xəyalım məni Parisin ən cəlbedici yerlərindən biri olan Mon-

martra, portretim çəkilən o may gününə aparır...

Bazar günü idi. Parisin üzünü buludlar örtmüş, narın yağış yağırdı. Əsl gəzməli yaz havası idi. Sənin və mənim xoşladığım hava. Vaxtilə azad düşünən və azad yaşayan şair və rəssamların sevdikləri Monmartr indi də öz cazibəsini itirməyib. Rəssamlıq edənlər, rəsm əsəri satanlar, turistlər, yerlilər – bir sözlə, canlı bir guşə dururdu qarşımızda. Buradan rəsmsiz getmək günah olardı. Hər halda, mən belə düşünürdüm. Düşündüyüm kimi də etdim. Bir rəssamın qarşısında oturdum. Rəsmim çəkilən vaxt özümü sərbəst hiss etməkçün, eyni zamanda Səni və Əsgəri ayaq üstə dayanmaqdan xilas etmək üçün yaxınlıqdakı kafedə gözləməyinizi məsləhət gördüm. Təklifim ürəyinizcə oldu. Portretimin çəkilməsi çox yorucu oldu, bir saata yaxın vaxt apardı. Hövsələmi güclə toplamışdım, rəssam da bunu hiss etdiyindən səs-səmirsiz əsəbiləşirdi. Bizim onunla dialoqumuz pantomimanı xatırladırdı. Rəsmim hazır olandan sonra məlum oldu ki, rəssam, sən demə, dillərinə bələd olduğum fars imiş. (Bəlkə də, İran azərbaycanlısı idi...)

Rəsmim çəkilən zaman ətrafıma xeyli adam yığıldı. Onlar üzlərində xoş bir ifadə portretin çəkilmə prosesinə tamaşa edib, başlarıyla razılıq əlaməti bildirərək yollarına davam edirdilər. Boy-buxunlu, yaşlı, kübar görünüşlü qadınla kişi isə getməyə tələsmirdilər. Onlar məni və çəkilməkdə olan rəsmimi diqqətlə izləyir, öz aralarında nəsə müzakirə edir, arada "Marqarita" deyirdilər. Bu səhnə beş dəqiqə, bəlkə də, bir az çox davam etdi. Sonra qadın baş barma-

ğıyla mənə əla işarəsini göstərib, ucadan "Marqarita" dedi. Yanındakı kişi də başıyla qadının dediyini təsdiqlədi. Beləcə, onlar "Marqarita" deyə-deyə mehribancasına mənə əl edib getdilər. Səninlə Əsgər kafedən qayıdanda portretim, demək olar ki, tamamlanmışdı. Sən şəklə baxıb, canlı portretimi daha çox bəyəndiyini söylədin. Sənə bir qadınla kişinin məni hansısa Marqaritaya oxşatdıqlarını dedim. *"Yəqin, onlar səni Bulqakovun Marqaritasına oxşadıblar",* – deyib çox diqqətlə mənə baxdın. Deyəsən, Sən də mənimlə Bulqakovun Marqaritası arasında bir oxşarlıq axtardın. Yanılmamışdım. Birdən özünəməxsus bığaltı gülümsəyib dedin: *"Qəribədir, görən, onlar haradan biliblər ki, sən mən – Master Vaqif Səmədoğlunun Marqaritasısan..."*

Parisdən qayıtdıqdan sonra sakit olmayan duyğularım mənə bu misraları yazdırdı:

*Anam fransız olmasa da,*
*Parisdə doğulmuşam,*
*Uşaqlığım keçib orda,*
*Sorbonda oxumasam da,*
*tələbəliyim keçib orda.*
*Fransıza vurulmasam da,*
*sevgimi tapdım orda,*
*fransız balaları doğmasam da,*
*ana oldum orda,*
*nənə də olacam, qocalacam orda...*
*Orda ölməsəm də, ruhum qalacaq orda –*
*Parisdə, Parisdə, yenə Parisdə…*

Bu gəlişimdə isə... Yox, Paris dəyişməyib. Paris həmin Parisdir. Dəyişən mənəm Sən gedəli... Bilirsən, ilk dəfə duyduğum doğmalığı da hiss etmədim. Səninlə Parisdə yaşadığım doğmalığı. O doğmalığı mənə Sən yaşatmışdın, Sənin varlığın...

Cümə axşamlarının birində Natəvan Faiqqızı rəssam Mir Teymurla gəldi. Natəvan Faiqqızı Sənin haqda rus dilində *"V pulse mejmirya" ("İki dünya arası vuran nəbzdə")* kitabını yazıb. Görmədin nəfis tərtibatda çıxan bu kitabı. Bircə müsahibəndən doğuldu bu kitab. Natəvan dedi ki, Sənsiz ev elə bil kiçilib. Bir də Natəvan dedi ki, Sən ona ölümdən qorxmamağı öyrətdin. Mir Teymur həm də məzarüstü abidənlə bağlı söhbət üçün gəlmişdi. Ona abidəni necə görmək istədiyimi dedim. Məzar üstündə *"Mən burdayam, İlahi..."* cümləsinin olması mütləq idi. Sən deyirdin harada oluramsa olum, ora darıxmağın ünvanıdır... Beynimdə iki qəbirüstü ideya fırlanırdı. İkinci gün Fəxri Xiyabana gələndə torpağının üstə bir ağ kağıza əllə yazılmış

*Məzarıma*
*nə başdaşı qoyun, nə heykəl.*
*Bir cüt ayaqqabı qoyun,*
*ayağıyalın geyinib getsin...*

şeirini və kağızın üstünə qoyulmuş bir cüt idman ayaqqabısı gördüm. Təsirləndim... Gördüyüm mənzərə beynimdə fırlanan ideyalardan birini təsdiqlədi. Ayaqqabını, şeiri kimin gətirdiyini soruşanda dedilər ki, bir gənc qız. Məzar nəzarətçisi Müzəffərdən xa-

hiş etdim, üstün götürülənə kimi nə yazıya, nə də ayaqqabıya toxunulsun. Azərbaycan mədəniyyətinin böyük təəssübkeşi olan Müzəffər əsl bələdçi kimi Fəxri Xiyabana gələn qonaqlara burada son, daimi ünvanlarını tapmış ictimai-siyasi, elm, mədəniyyət xadimləri haqda bildiklərini böyük həvəslə danışır. Müzəffər bunu öz istəyi ilə edir, kiminsə tapşırığı ilə yox. Bu arada gənc yazar Lamiyə Mərdanın müsahibəsini oxudum. Sənin məzarın üstə ayaqqabıları, şeiri qoyan o gənc qızın Lamiyə olduğunu bildim. "... Yanvarın 28-i ölüm xəbərini oxuyanda anladım ki, çox böyük bir tarixin bitiş nöqtəsinə çatmağımıza lap az qalır və bütün bunları canlı görürük. Şair ağrılardan azad olmuşdu, ancaq məni gün boyu narahat edən bir nüans vardı. Şairin 1963-cü ildə ölümünə bu qədər uzaq, bəlkə də, bir o qədər də yaxınkən yazdığı bu misralar:

*Məzarıma nə başdaşı qoyun...*

Ən sevdiyim ayaqqabılarımı çıxartdım qutusundan... Vaqif Səmədoğlunun misraları kağızda qalmamalıydı... Bəzi insanlar doğrudan da ölmür, sözlərdə, alqışlarda, iki sevgilinin ən xoş anında, bir xəstənin ümid dolu baxışında yaşayır... Ayaqqabılar, sadəcə, simvol idi... Mənimçün şeirin hərfi mənasından çox həyatıma qatdıqları önəmlidir..."

Kim 52 il qabaq deyə bilərdi ki, 24 yaşında yazdığın şeir məzarüstü abidən olacaq...

Mir Teymur iki eskiz çəkdi. Birini o dəqiqə bəyəndim. Gözümün önündə Sənin təbəssümlü, nurlu üzün canlandı. Nə deyir mənə? Bəyəndinmi ideyanı?

Mən istədim həyatda qeyri-adi olduğun kimi, S o n M ə n z i lin də fərqli, qeyri-adi olsun. Mir Teymur işin icrasını istedadına bələd olduğu gənc heykəltəraş Fəqan Qasımova verməyi məsləhət gördü. Fəqanla görüşdük, ayaqqabıları və şeiri ona verdim. Fəqan iri hərflərlə yazdığı bu şeiri evdə masanın üstünə qoyub, yerə də ayaqqabıları. Fəqanın anası, sevimli bəstəkarımız Elnarə Dadaşova şeiri və ayaqqabıları görcək çox təəccüblənib. Xəyalən 40 il əvvələ, Bakı Konservatoriyasında təhsil aldığı illərə qayıdıb. O vaxtlar müəllimi Qara Qarayev Elnarə xanıma xor əsəri yazmağı tapşırıb. Elnarə xanım xatırlayır ki, bizim dərslərdə Həsən Adıgözəlzadə (sonradan tanınan bəstəkar oldu) də iştirak edirdi. Səhəri gün o mənə nazik bir kitab verdi: "Götür, buna bax. Yəqin, xoşuna gələr". Kitabın üstündə Vaqif Vəkilov, *"Yoldan teleqram"* yazılmışdı. Mən rusdilli idim. Azərbaycan poeziyasını yaxşı bilmirdim. Kitabdan üç şeir (*"Dünən adını yazdım", "Təklik" və "Məzarıma..."*) seçdim, arfa, marimbafon və litavrların müşayiətiylə qarışıq xor üçün üç miniatür, triptix yazdım. Neçə il sonra evdə bu şeiri və ayaqqabıları görəndə içimdə qəribə duyğular baş qaldırdı. Elə bil Vaqif müəllimin öz seçimi olub oğluma onun məzar üstünün tapşırılması. Çünki, adətən, Fəxri Xiyabanda eyni adamlar heykəllər yapır. Bu bir tərəfdən təəccüblü gəlsə də, bir tərəfdən də təbii göründü mənə...

*Sən söyləyirsən ki, bizim bayraqda bir qəm, kədər var. Məndə bu bayraq həm qürur hissi doğurur, həm də kədər. Bunu heç nə ilə izah edə bilmirəm.*

*Dəqiq başa sala bilmirəm, niyə? Necə ki niyə bu ağac xoşuma gəlir, o ağac yox, bunu anlada bilmirəm. Bayraq məsələsində də bu kədərin haradan gəldiyini başa sala bilmirəm... Dəqiqlik çətin məsələdir. Bu yerdə mən Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsini xatırlayıram. Deyirlər ki, fəlsəfəm Lütfi Zadənin fəlsəfəsinə bənzəyir...*

İndi təkcə fəlsəfəniz, ruhlarınız yox, məzarlarınız da bir-birinə yaxındır. Çox yaxın. Bu da bir Təsadüf... Sanki Sənin Taleyin Təsadüflərdən yoğurulub. Bəlkə də, bu Təsadüflərdə Yaradanın barmağı var... İndi Fəxri Xiyabana gələndə mütləq onun da məzarı üstə gül qoyuram.

Hüznlü günlərdə adama ürək-dirək verən çox olur. Mən isə öz-özümlə, öz dərdimlə baş-başa qalanda az da olsa, sakitlik tapa bilirəm. “Dərdimə dərman aradım, dərdim mənə dərman imiş”. Yunis Əmrə deyib bunu da...

Ancaq bir nəfərin zəngi – tanımadığım xanımın səsi mənə nağıllardakı qəhrəmanın çətin vəziyyətində dadına çatan xeyirxah pərini xatırlatdı. Onun ürək yanğısıyla dedikləri məni silkələdi sanki... “Ağlama, qızım, başını uca tut. Əyilmə, sınma, sənin ixtiyarın yoxdur. Sən elə bir kişinin arvadı olmusan. Sənin qarşıda hələ çox işin var...” Çoxlu dualar etdi. Həyəcanlı, bir qədər xırıltılı səsli bu xanımın adı Nuriyyə idi. Ürəkdən gələn sözlərində bir doğmalıq var idi. “91 yaşım var, qızım, – dedi, – onkoloqam, Səməd Vurğun xəstə olanda gənc həkim idim, evlərində olmuşam”. Nuriyyə xanım çox sərrast, aydın danışırdı.

Sonralar bildim ki, Nuriyyə xanım əslən Şuşadandır, Abbasqulu bəy Zöhrabbəyovun qızı olub. Nuriyyə xanım vaxtaşırı bizə zəng edir, hal-əhval tutur, dualar edib sağollaşırdı. Birdən onun zəngləri kəsildi, nigaran qaldım, ona zəng etdim. Telefon zənginə özü cavab verdi. Dedi:

– Qızım, yaşım 94-ə çatır. Qulağım da pis eşidir. Pəncərənin qabağında durub Allaha yalvarıram ki, vaxtdır, aparsın məni...

Nuriyyə xanım artıq iki ildir yoxdur həyatda. Onun ölümü mənə bir yaxın adamımın itkisi qədər təsir etdi.

Bu gün təmasda olduğum insanlarla məni Sənin yaradıcılığın tanış edib. Onların Sənin şəxsiyyətinə, yaradıcılığına olan sevgiləri, ehtiramları... Yadındadır, təzə evlənəndə demişdim: "Sənin dünyanı sevən adam mənim də əzizimdir". Heç nə dəyişməyib...

Vaqif, darıxıram desəm, yalan olar... bəzən *zilə qalxır sənsizliyimin yalquzaq səsi...*

Fərid Hüseyn mənimlə müsahibəsində soruşdu ki, sənsizliyi mən necə ifadə edə bilərəm?

Cavabım özümçün də gözlənilməz oldu. Fikirləşmədən verdiyim cavab, gəldiyim qənaət:

Uşaqlığımın,
gəncliyimin,
bütün ömrümün üstünə

VAQİF SƏMƏDOŬLU

adı yazıldı...

Deyirlər, ömrü təkrar yaşamaq olmaz. Olurmuş ancaq... uşaqlığımı, gəncliyimi... ilk görüşdən son görüşə kimi Sənli ömrü yaddaşın içində əridərək, sözbəsöz, cümləbəcümlə təbəssümlə, göz yaşıyla, ölüb-dirilərək kağız üzərinə köçürmək ömrü təkrar yaşamaq deyilmi?

2014-cü ilin sentyabrında Nizami Muzeyindəki Son çıxışında məni 50 il gözləyəcəyini söylədin... Öz aramızdı, həddən artıq çox vaxt qoydun axı görüşümüzə...

İndi Sən Orada, mən yolda...

*Adam kaş ölüb yerə basdırılmaya. Yağışa dönüb, yavaş-yavaş hopa torpağın canına. Gün çıxandan sonra körpə ahı kimi buxarlanıb üzə çıxa. Kaş...*

# Şəkillər



Vaqif bəy 80-ci illərin sonlarında



Mən 80-ci illərin sonlarında



Səməd Vurğun, Aybəniz, Yusif və Vaqif



Mənim ailəm: atam Rəşid, qardaşım Mobil,
bacım Esmira, balaca mən və anam Şəfiqə xanım



Sinif yodaşları, soldan sağa: Məmməd Məmmədov, Vaqif, Babək Qurbanov, 1953-cü il



Anar, Emin Sabitoğlu və Vaqif



Konservatoriyada oxuduğu zaman



İş zamanı



Prezident İlham Əliyev və Vaqif Səmədoğlu




Ankarada, Vaqif bəyin 80 illiyi tədbirində. 2020-ci il.
Səriyyə xanım, mən, Nuri bəy Saryal, qızı Nilgün Saryal



Milli Məclisdə



Mən və Olqa Qoroxova Kabil şəhərində, 1986-cı il.



Səməd Vurğun və Vaqif Qobustanda, 1954-cü il



Xavər xanım, Vaqif və mən, 1999-cu il



Anam Şəfiqə xanım və atam Rəşid Qaraoğlu



Mir Davud Saryal, Mir İsmayıl Saryal,
solda Ülkər xanım və nənəm Püstəbəyim xanım, 1966-cı il



Vaqif bacısı Aybəniz xanımla, 1996-cı il



Vaqif qardaşı Yusiflə



Vaqif və mən qardaşım Mobil ilə



Vaqif əmisi oğlu Cavanşir Vəkilov ilə


Vaqif bacım Esmira xanım ilə


Təbiət qoynunda ikimiz



Vaqif qızları Nigar və Mirvari ilə



Nəvələri Məryəm və Ayla ilə



Ərəb libasında



Hərbi paltarda



Sevimli tutuquşusu Çil-çil ilə



Bağda sevimli iti Topaş ilə



Vaqif bəy 2008-ci ildə



Dədə Qorqud obrazında



Azdramada son şəkillərindən biri, 2014-cü il




Vaqif bəy Təl-Əvivdə, 2013-cü il

**"NÖVBƏTİ KİTAB" MƏLUMAT XİDMƏTİ**

Hər növbəti kitabımız nəşr olunduqda xəbərdar olmaq istəyirsinizsə, **növbəti kitab** sözünü **sms, votsap** və ya **imeyl** vasitəsilə bizə göndərin. Bu zaman siz qeydə alınacaqsınız və növbəti nəşrlərimiz işıq üzü görərkən sizə məlumat göndəriləcək.

**Hörmətli oxucular!**

Kitabda diqqətimizdən yayınmış nöqsanları, həmçinin öz irad və təkliflərinizi bizimlə bölüşməyinizi xahiş edirik. Siz bununla növbəti kitablarımızın daha nöqsansız olmasında bizə köməklik etmiş olacaqsınız.

Bizi oxuduğunuz üçün təşəkkür edirik!

**KİTABLARA ZƏMANƏT**

Nəşr etdiyimiz hər hansı kitabı oxuyub bəyənməsəniz, bizimlə əlaqə saxlayaraq kitabı aldığınız qiymətə geri qaytara bilərsiniz!

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
facebook.com/parlaqimzalar
instagram.com/parlaqimzalar
055 9697259 / 055 9897259